
ISSN 2410-4108

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR



ELMİ-PRAKTİKİ JURNAL

№ 2 (16) 2021

ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR

Elmi-praktik jurnal

№ 2 (16)

BAKI – 2021

BAŞ REDAKTOR:

Hüseyn Qaraşov, *sosiologiya elmləri doktoru, professor*

BAŞ REDAKTORUN MÜAVİNİ:

Fəhrad Möhbalıyev, *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

MƏSUL KATİBLƏR:

Vilayət İsmayılov, *iqtisad elmləri doktoru*
Zeynəddin Şabanov, *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

REDAKSİYA HEYƏTİ:

i.e.d., professor Səttar Möhbalıyev – Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.e.d., professor Hüseyn Qaraşov – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.e.d., professor Ramiz İsgəndərov – Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri

i.e.d., professor Tərbiz Əliyev – AMEA İqtisadiyyat İnstitutunun "Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri" şöbəsinin müdiri

fəl.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru

tarix e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin "Ümumi humanitar fənlər" kafedrasının müdiri

sos.e.d., professor Rəfail Həsənov – Bakı Dövlət Universitetinin "Sosiologiya" kafedrasının müdiri

i.ü.f.d., dosent Fəhrad Möhbalıyev – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris və elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.ü.f.d., dosent Hicran Mirzəyeva – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə-iqtisad" fakültəsinin dekanı

i.e.d. Vilayət İsmayılov – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri, məsul katib

fəl.ü.f.d., dosent Zeynəddin Şabanov – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqı hərəkatı və sosial fənlər" kafedrasının müdiri, məsul katib

i.ü.f.d., dosent Raziyyə Maniyeva – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması" şöbəsinin müdiri

i.ü.f.d., dosent Əsgər Əliyev – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müəllimi

Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr. 181
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
Tel.: (050) 631-57-90; e-mail: jurnal@aesma.edu.az
Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının
Elmi Şurasının qərarı ilə çap olunur. (protokol №8, 30.04.2021)
Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014
Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının ***fəlsəfə, sosiologiya və iqtisadiyyat*** *elmləri üzrə tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.*

MÜNDƏRİCAT

HUMANİTAR VƏ SOSİAL ELMLƏR

Rəfail Həsənov
Dövlət mədəniyyət siyasəti milli təhlükəsizlik strategiyasının tərkib hissəsi kimi.... 5
Hörmət Cavadova
M.F.Axundzadənin cəmiyyətin tərəqqisində elmin və maarifin rolu haqqında..... 13
Faiq Ələkbərli
Cəlil Məmmədquluzadənin dünyagörüşündə millət, din və müasirləşmə məsələləri..... 21
Məhsəti Cəfərova
Elitar və kütləvi mədəniyyətlər haqqında fəlsəfi baxışlardakı fərqlər..... 35
Fəxrəddin Quliyev
Sinenergetik paradiqma elmi tədqiqatın metodoloji prinsipi kimi..... 47

İQTİSADİYYAT VƏ İDARƏETMƏ

Vilayət İsmayılov, Mənsim Məmmədov
İqtisadi-riyazi metodların tətbiqilə epidemik proseslərin çoxalmasına qarşı fərqli yanaşma..... 58
Nurəngiz Mikayılova
Vergi güzəştləri və müvəqqəti vergi rejimi..... 65
İsrafil İsmayılov, Səlimə İsmayılova
Texnikadan istifadəyə görə illik lizinq ödənişinin müəyyən edilməsi metodikası..... 78
Pərvin Məmmədova
Çay klasterlərinin inkişafında dünya təcrübəsi..... 86
Təranə Vəliyeva
Müəssisənin informasiya təhlükəsizliyi qarşısının alınması yolları..... 93
Ülkər Məmmədova
Kənd təsərrüfatı istehsalçılarının kreditə çıxışının asanlaşdırılmasının xarici təcrübəsi..... 103
Səbinə İsmayılova
Elmi tədqiqatların maliyyələşdirilməsi sahəsində beynəlxalq təcrübə..... 111
Novruzə Adilova, Hafizə Əliyeva
Пути государственного регулирования повышения уровня жизни населения в Азербайджанской Республике..... 119
Ayşən Vəlibəyli
Qeyri-neft sektorunda İKT-dən istifadənin əsas istiqamətlərinin qiymətləndirilməsi..... 128

Pərvanə Məmmədova
Azərbaycanda sənaye müəssisələrinin innovasiya fəaliyyətinin qiymətləndirilməsi 135
Nailə Sarıyeva
Yoxsulluğun mahiyyəti, obyektiv səbəbləri və azaldılmasının əsas istiqamətləri 143
Yasəmən Quluzadə
İqtisadi səmərəliyin mahiyyəti və məzmunu 150
Abbas Səfərov
Azərbaycanda kənd təsərrüfatının transformasiyası strategiyasının konseptual aspektləri 158
Nicat Musayev
Turizm sənayesinin inkişafının proqnozlaşdırılması modeli 170

HUMANİTAR VƏ SOSİAL ELMLƏR

UOT-316

Rəfail Həsənov
Bakı Dövlət Universiteti,
s.ü.e.d., professor
hasrm62@yahoo.com

DÖVLƏT MƏDƏNİYYƏT SİYASƏTİ MİLLİ TƏHLÜKƏSİZLİK STRATEGİYASININ TƏRKİB HİSSƏSİ KİMİ

Məqalədə dövlət mədəniyyət siyasəti və onun milli təhlükəsizlik sistemində yeri və rolundan bəhs olunur və göstərilir ki, Azərbaycan Respublikasında mədəniyyətin özü milli prioritetlər sırasındadır və dövlət mədəniyyət siyasəti milli təhlükəsizlik strategiyasının tərkib hissəsi kimi tanınır. Mədəniyyət insan potensialının keyfiyyətcə yüksəldilməsi üçün cavabdeh olan sosial əhəmiyyətli sənaye sahələrinə aiddir. Müasir cəmiyyətdə mədəni fəaliyyəti tənzimləyən əsas institut dövlətdir, baxmayaraq ki, burada QHT-lər, xeyriyyəçilik fəaliyyəti və iş adamları da müəyyən yer tutur. Mədəniyyət – hər bir xalqın milli təhlükəsizliyinin qarantı, onun müstəqilliyi və gələcəyidir. Respublikamızda bir çox başqa dövlətlərdə olduğu kimi mədəni təhlükəsizlik sahəsində konsepsiyanın qəbul edilməsinə ehtiyac duyulur.

Məqsəd: Dövlət mədəniyyət siyasətinin milli təhlükəsizlik strategiyasında tutduğu yeri araşdırmaqdan ibarətdir.

Metodologiya: Sistemli və funksionalist yanaşma mövqelərindən öyrənilən obyektin başa düşülməsinə cəhd göstərilir, onun mədəni varisliyin qorunub saxlanılması və inkişaf etdirilməsi ilə bağlı yeni biliklər əldə etmək üçün imkanları təhlil olunur.

Elmi yenilik: Azərbaycan Respublikasında mədəniyyətin özü milli prioritetlər sırasındadır və dövlət mədəniyyət siyasəti milli təhlükəsizlik strategiyasının tərkib hissəsi kimi tanınır.

Açar sözlər*: dövlət mədəniyyət siyasəti, milli təhlükəsizlik, mədəniyyətin iqtisadiyyatı, mədəni irs, mədəni soyqırım*

Giriş

Mədəniyyət bütün müxtəlifliyi ilə dövlət, vətəndaş cəmiyyəti və sənət adamları arasında yaradıcı əməkdaşlıq məkanıdır. Bu simbiozda dövlətin əsas vəzifəsi Azərbaycan xalqının mənəvi dəyərlərinin qorunmasını, mədəni inkişafın davamlılığını və yüksəldilməsini təmin etməkdir. Belə ki, AR Prezidentinin 15 fevral 2013-cü il tarixli fərmanı ilə qüvvəyə minmiş "Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu"nun "Ümumi müddəalar" adlanan birinci fəslində (1.0.3. bəndi) mədəniyyət sahəsində dövlət siyasəti "mədəni irsin və mədəni sərvətlərin yaradılması, müəyyən edilməsi, qorunması, inkişafı və təbliği sahəsində həyata keçirilən tədbirlərdə dövlətin rəhbər tutduğu məqsədlər, prinsiplər, normalar, konsepsiya, strategiya və dövlət proqramlarının məcmusu" kimi müəyyən olunur, ikinci fəsildə (3-cü və 5-ci maddələrdə) isə mədəniyyət sahəsində dövlət siyasətinin əsas istiqamətləri və vəzifələri müəyyənləşdirilir (8). Buradan belə nəticə çıxarmaq olar ki, Azərbaycan Respublikasında mədəniyyətin özü milli prioritetlər sırasındadır və dövlət mədəniyyət siyasəti milli təhlükəsizlik strategiyasının tərkib hissəsi kimi tanınır.

Mədəniyyət siyasətinin prioritetləri sırasında iqtisadiyyat, azadlıq, xidmətlərin göstərilməsi və istehlak məsələləri ilə yanaşı bir sıra başqa məsələlər də dayanır ki, zənnimizcə, onları aşağıdakı şəkildə müəyyənləşdirmək olardı: birincisi, dövlət "yüksək" sənəti fəal şəkildə dəstəkləməyə, maarifçi təbəqələr isə bu işdə irəliləməyə çalışmalıdırlar; ikincisi, sənət adamları təkcə özlərini ifadə etməməli, xalq arasında "zövqləri tərbiyə etməlidirlər" və üçüncüsü, sənətkar da, dövlət də, cəmiyyət də ortaq dəyərləri rəhbər tutaraq eyni vaxtda fəaliyyət göstərməyə çalışmalıdırlar.

Sosial-mədəni sferanın idarə olunması

Məsələ ilə bağlı bir sıra tədqiqatçıların adını çəkmək yerinə düşərdi. Belə ki, E.Babosov, S.İkonnikova, Y.Ryumarenko, D.Spivak, M.Stepkon, İ.Oqorodnik, M.Strikha, Q.Tulçinski, A.Flierin əsərləri mədəniyyətin inkişafında dövlətin fəaliyyətinin müxtəlif aspektlərinin işıqlandırılmasına diqqət yetirirlər. Rusiyada və Ukraynada dövlət mədəniyyət siyasətinin prinsiplərinin inkişafına N.Genova, V.Şeyko, Y.Boqutskiy, Y.Bezgin, A.Semaşko və b. mühüm töhfələr vermişlər. A.Qrişşenkonun, V.Solodovnikin əsərləri kütləvi mədəniyyət sahəsində, mədəniyyətin kommersiya sektorunda dövlət tənzimlənməsi prinsiplərinin işlənib hazırlanmasına həsr edilmişdir. Bununla bağlı bir sıra yerli tədqiqatçıların da adlarını çəkmək mümkündür: M.Süleymanov, N.Məmmədov, S.Qasımova, M.Bayramov və b.

Dövlət mədəniyyət siyasətinin fəaliyyətinin bir çox xüsusiyyətlərinin kifayət qədər öyrənilməsinə baxmayaraq, onun əsas prioritetlərinə nail olunmasında dövlət mədəniyyət siyasətinin vektorunun formalaşması ilə bağlı müzakirələr hazırda da davam edir. Buna səbəb mənəvi dəyərlərə və mədəniyyət müəssisələrinin xidmətlərinə artan tələbatdır. Bazar şəraitində mədəniyyətə dövlət dəstəyinin zəruriliyi, mədəni yaradıcılığın humanist aspektlərinin müəyyən edilməsi məsələsi də müzakirə olunur.

Mədəniyyət insan potensialının keyfiyyətcə yüksəldilməsi üçün cavabdeh olan sosial əhəmiyyətli sənaye sahələrinə aiddir. Buna görə də, dövlət dəstəyinə ehtiyacın nəzəri əsaslandırılmasından söz açarkən, mədəni fəaliyyətin yüksək sosial əhəmiyyətindən danışmamaq mümkün deyil.

Əvvəlcə dövlətin mədəniyyətin inkişafında rolunu qəbul etməyən bir sıra arqumentləri nəzərdən keçirək: mədəniyyətə dövlət dəstəyi zənginlərin estetik zövqünün maliyyələşdirilməsinə yönəldilir; dövlət vəsaitinin ayrılması barədə qərar vəzifəli şəxslər tərəfindən öz üstünlükləri əsasında qəbul edilir; dövlət dəstəyi mədəniyyətə xeyirdən çox ziyan vurur, çünki yaradıcılığı kökündən məhv edir. Bu arqumentlərdə müəyyən dərəcədə həqiqət olsa da, onlarla tam razılaşmaq olmur. Çünki mədəniyyət bir xalqın maddi və mənəvi aləmini, onun tarix boyu yaratdığı nümunələrin, onun inkişafının, mövcudluğunun əsasıdır və bu səbəbdən onun inkişaf etdirilməsinə dövlətin milli təhlükəsizliyinin strategiyası kimi yanaşılmalıdır.

Daha sonra, cəmiyyətin əsas sistemlərinin fəaliyyətini tənzimləyən dövlət əsas "sifarişçi" və "sponsor" kimi çıxış edir, mədəni fəaliyyətə maddi dəstək verir və ya müəyyən imtiyaz və güzəştlər həyata keçirir. Lakin dövlət bu işi təkbaşına görmək iqtidarında deyildir, onun vətəndaş cəmiyyətinin dəstəyinə də ehtiyacı vardır. Məhz bu səbəbdən qeyri-hökumət təşkilatlarının, xeyriyyəçilərin, iş adamlarının mədəni prosesdə iştirakına dövlət şərait yaradır, onlara müəyyən güzəştlər edir və bununla da öz mövqeyini qorumuş olur. Lakin mədəni prosesin inkişafında qeyri-hökumət təşkilatlarının tələb etdiyi mədəni fəaliyyətin mərkəzləşdirilməsi ilə onun demokratikləşməsi meylləri arasında tez-tez konfliktlər yaranır. Dövlət orqanlarının mədəniyyət müəssisələrinin işinə müdaxiləsi bəzən zəruri olur, çünki dövlət dəstəyi olmadan onlar hər cür çətinliklərin (maliyyə, hüquqi, siyasi) öhdəsindən gələ bilmir və mövcudluğunu dayandırırlar.

Dövlətlə yanaşı, mədəniyyətin inkişafını tənzimləmə funksiyalarına biznes tərəfindən də getdikcə daha çox müdaxilə edilir. Bu gün mədəni həyat və fəaliyyətin tənzimlənməsinin

xeyriyyə fondları, sponsorluq, himayədarlıq, mükafatlar, fəxri adlar və s. kimi təsisat və formaları hüquq normalarına əlavə kimi çıxış edir.

Sosial-mədəni sferanın idarə olunmasında dövlətin rolu bir sıra rıçaqlardan istifadəni nəzərdə tutur: birincisi, mədəniyyət müəssisələri şəbəkəsinin yaradılması; ikincisi, dövlət orqanlarının fəaliyyəti; üçüncüsü, müxtəlif mülkiyyət formalı mədəniyyət müəssisələrinin fəaliyyəti üçün hüquqi şəraitin, normaların, təminatların yaradılması, mövcud qanunların icrasına nəzarət və nəhayət, dördüncüsü, mədəniyyət və incəsənətin dəstəklənməsi və inkişafını təşviq edən vergitutma və digər tədbirlər, o cümlədən qərarların qəbulu, fəaliyyəti və nəticələrinin təhlili üçün informasiya təminatı (3, s.53-54).

Müxtəlif tarixi dövrlərdə cəmiyyətin sabitliyini təmin etmək üçün yaradıcılıq azadlığını təşviq etmək, məhdudlaşdırmaq və çox vaxt boğmaq üsullarından (məsələn, senzuradan) istifadə edərək mədəni həyatı istiqamətləndirən sosial institutlar mövcud olub və indi də mövcuddur. Buradan da dövlət institutlarının tam fəaliyyət göstərməsi sosial-mədəni inkişafın mühüm şərtidir, çünki o, funksional sistem kimi mədəniyyətin canlılıq səviyyəsinin yüksəlməsinə və ya azalmasına təsir vasitələrinə malikdir (3, s.218).

Kanadalı professor L.Pal dövlət siyasətinin mahiyyətini əsaslandıraraq sübut edir ki, istənilən dövlət siyasəti onu həyata keçirənlər və ona əməl edənlər üçün bir növ göstəricidir. "Dövlət qulluqçuları konkret halda hökumətin onlardan hansı hərəkətləri tələb edəcəyini necə bilə bilər? Onlar dövlət siyasətinə bələdçi kimi müraciət edirlər. Vətəndaşlar hökumətin konkret halda nə etdiyini və ya etmədiyini haradan biləcəklər? Onlar dövlətin siyasətinə üz tuturlar" – deyə alim vurğulayır (2, s. 21). L.Pal daha sonra qeyd edir ki, dövlət siyasəti hadisələrin gedişatını yaxşılığa doğru dəyişmək üçün əsasən məqsədyönlü müdaxilədən istifadə edir. Ona görə də müasir hökumətlərdən qətiyyətli addımlar atması və onların fəaliyyətsizliyini tənqid etməsi gözlənilir, deyə o vurğulayıb. Eyni zamanda, alim siyasətin təhlilinə əsaslanaraq belə qənaətə gəlir ki, dövlət siyasəti təkcə müəyyən hərəkətlərin ardıcıllığını deyil, həm də bu və ya digər problemlə bağlı hakimiyyətin düşünülmüş hərəkətsizliyini ifadə edə bilər. "Hərəkətdən çəkinmək, gözləmək, hər şeyi dəyişməz qoymaq – bütün bunlar siyasi seçim ola bilər" (2, s. 22).

Tədqiqatımızın kontekstində L.Palın mədəniyyət siyasətinin məzmunu ilə bağlı fikirləri mühüm əhəmiyyət kəsb edir. O qeyd edir ki, istənilən dövlət siyasətinin empirik məzmununu üç elementə, daha doğrusu: siyasətin əsasını təşkil edən problemin müəyyən edilməsinə, onun məzmununu və məntiqini deşifrə etməyin açarını, məqsədlərini, yəni bu siyasətin nəyə nail olmaq istədiyini, onun niyyətlərini, istiqamətlərini müəyyən etməyə və bunun üçün hansı vasitələrin seçildiyini öyrənməyə əsaslanır.

Cəmiyyətin transformasiyası dövlətdə bir çox proseslərin liberallaşdırılmasını nəzərdə tutur. Məşhur ingilis filosofu və sosioloqu K.Popperin qeyd etdiyi kimi, azadlıq dövlət tərəfindən təmin edilmədikdə, açıq şəkildə qeyri-mümkündür. Bu, azadlığın paradoksu deyilən şeydir, yəni azadlığı məhdudlaşdıran hər hansı nəzarətin olmaması onun əhəmiyyətli dərəcədə məhdudlaşdırılmasına səbəb olmalıdır. K.Popper həmçinin hesab edir ki, dövlət tərəfindən təhsil sisteminə müəyyən nəzarət lazımdır, əks halda uşaqlara qayğının olmaması onların azadlıqlarını qorumağa imkan vermir. Dövlət təhsilin hamı üçün əlçatan olmasını təmin etməlidir. Bununla belə, bu nəzarət həddindən artıq olmamalıdır, çünki bu, indoktrinasiya ilə nəticələnə bilər.

Alimin bu fikirlərini tam olaraq dövlət üçün "ögey uşaq" olmuş və həmişə qalıq maliyyə prinsipinin tətbiq olunduğu mədəniyyətə aid etmək olar. XX əsrin əvvəllərində mənəviyyat çatışmazlığını aradan qaldırmağın yollarını axtaran məşhur humanist A.Şveytser aradan qaldırılmalı olan bir neçə çətinliyi - nəyin olduğunu və nəyin olması lazım olduğunu dərk etməyin zəruriliyini qeyd edirdi. Mədəniyyətin yenilənməsi həm də ona görə çətinləşirdi ki,

hərəkatın daşıyıcısı yalnız fərdiliyə malik olan fərdlər ola bilər. Alimin gəldiyi nəticə belədir: "...cəmiyyət fərdə fərdin ona təsirindən daha çox təsir etdikdə mədəniyyətin deqradasiyası başlayır, çünki bu halda həlledici dəyər – insanın mənəvi-əxlaqi qabiliyyətləri mütləq azalır. Cəmiyyətin mənəviyyatsızlaşması baş verir və o, dərk etməkdə, qərar verməkdə aciz olur" (5, s. 187).

Dövlət tənzimlənməsinin spesifik konfiqurasiyası müəyyən rıçaqların vurğulanmasından asılıdır. Sosial-mədəni sferanın inkişafının dövlət tənzimlənməsinin müvafiq hədlərini və formalarını müəyyən edərkən, ideoloji stereotiplərdən qaçaraq, toplanmış daxili və xarici təcrübəyə əsaslanmaq vacibdir.

Mədəniyyətin inkişafında dövlətin rolu

Mədəniyyət və incəsənətlə bağlı dövlətin aşağıdakı rolları mümkündür:

1. "köməkçi" - dövlət bütün diqqətini həm qeyri-kommersiya peşəkar, həm də həvəskar yaradıcılıqda müxtəlifliyin saxlanmasına və inkişafına cəmlədikdə, buna bəzi xüsusi üslub və cərəyanları deyil, ümumilikdə mədəni fəaliyyətləri dəstəkləməklə nail olur. Bu vəziyyətdə maliyyə mənbələri müxtəlifdir və hökumətin rolu yalnız bu müxtəlifliyi hər vasitə ilə təşviq etməkdir (hər şeydən əvvəl - qanunvericilik və vergi siyasəti). "Köməkçi"nin klassik nümunəsi ABŞ-da mədəniyyətə dövlət dəstəyidir.

2. "Patron" – dövlət peşəkar yaradıcılıq və fəaliyyət standartlarının təmin edilməsinə daha çox diqqət yetirdikdə. Məsələn, o, təqaüdlər vasitəsilə bədii mükəmməlliyi təşviq edir və "köməkçi"dən daha çox mədəni həyatda iştirak edir. Böyük Britaniya bunun tipik nümunəsidir.

3. "Memar" - mədəniyyət və incəsənətə dövlət tərəfindən yardım onun cəmiyyətin rifahının yüksəldilməsi proqramına daxil olduqda. Onun siyasəti mədəniyyət işçilərinin peşəkar standartlarından daha çox cəmiyyətin standartlarına əsaslanır. Eyni dəstək uzunmüddətli dövlət maliyyələşdirməsində də ifadə edilir. Bir "memar" nümunəsi Fransadır.

4. "Mühəndis" - mədəni fəaliyyətin və bədii yaradıcılığın həyata keçirilməsi vasitələri dövlət mülkiyyətində və sərəncamında olduqda. Məsələn, dövlət siyasi məqsədlərinə uyğun olan mədəniyyəti təbliğ edir. Keçmiş SSRİ və ya Çin Xalq Respublikası belə dövlət siyasətinin nümunəsidir (4, s.41-43).

Hər bir dövlətdə mədəniyyət sahəsində bu və digər dərəcədə diqqət mərkəzində olan məsələlər iqtisadi və siyasi (xarici və daxili) vəziyyətdən asılı olaraq dəyişə bilər. Bununla belə, Q.Tulçinskinin qeyd etdiyi kimi, hər bir ölkədə mədəni-siyasi həyat ənənələri ilə əlaqədar olaraq, müəyyən cəmiyyətə xas olan mədəniyyət sferasında dövlət tənzimlənməsinin müəyyən xarakteri və üslubu formalaşır (4, s.44).

Dövlət vətəndaşların mədəni inkişafı üçün imkan və şərait bərabərliyini təmin edir, milli ənənələri, cəmiyyətin siyasi və iqtisadi inkişaf səviyyəsini nəzərə almaqla mədəniyyətə dövlət dəstəyinin istiqamətlərini, məzmununu və formalarını müəyyən edir.

Mədəni irsin qorunması və inkişafının təminatçısı kimi dövlət borcludur:

- xalqın mədəni irsinin qorunub saxlanmasını prioritet hesab etmək və onun gələcək nəsillərə çatdırılmasını təmin etmək;
- mühafizə, bərpa və muzeyləşdirməyə ehtiyacı olan mədəniyyət obyekt və abidələrini mühafizə altına almaq,
- mədəni həyatın dəstəklənməsi və inkişafı üçün qanunvericilik bazasını təmin etmək və mədəniyyət sahəsində beynəlxalq və dövlət normalarına ciddi əməl olunması üçün inzibati tədbirlər görmək;
- mədəniyyət sahəsində azad yaradıcılıq və peşəkar fəaliyyət üçün sosial, iqtisadi və hüquqi təminatlar sistemini yaratmaq;
- mədəni həyatın inkişafına töhfə verən, hüquqi təminat verən və mədəniyyət sahəsində

xeyriyyəçiliyin inkişafı üçün real şərait (o cümlədən vergi siyasəti) yaradan qeyri-hökumət təşkilatlarını dəstəkləmək;

• mədəni dəyərlərin yaradılması, qorunması, yayılması və istehlakında əhalinin müxtəlif qruplarının təşəbbüsünü və iştirakını stimullaşdırmaq; beynəlxalq mədəni əlaqələrin, əlaqələrin və əməkdaşlığın qurulmasına kömək etmək (4, s.47).

Deməli, müasir cəmiyyətdə mədəni fəaliyyəti tənzimləyən əsas institut dövlətdir. Sivil ölkələrdə dövlətin həyata keçirdiyi mədəniyyət siyasətinin həcmi inkişaf edən ölkələrlə müqayisədə xeyli azdır. O, yaradıcılığa dəstək, onun həyata keçirilməsinə şərait yaratmaq kimi sahələri əhatə edir; qloballaşan dünyada milli mədəniyyətin qorunması; mədəniyyət sahəsində kommersiyalaşdırmanın mənfi təsirini azaltmaq üçün tədbirlərin işlənib hazırlanması; mədəni fəaliyyətlərin inzibati mərkəzləşdirilməsinin təşviq edilməsi; keçmişin mədəni irsinin qorunmasının təmin edilməsi; innovasiyaları və mədəni yeniləşməni təşviq etmək, eləcə də ölkə daxilində müxtəlif mədəni qruplar arasında qarşılıqlı əlaqə və anlaşmanı təşviq etməni əhatə edir.

İndiki vaxtda mədəniyyət siyasəti bir sıra məsələlərin hərtərəfli təhlilini tələb edir, bunlar arasında: əhalinin müxtəlif qruplarında mədəni vəziyyət; mədəniyyət işçilərinin, incəsənət xadimlərinin vəzifəsi; bütün səviyyələrdə mədəniyyətə dəstək üçün səylərin əlaqələndirilməsi; mədəni inkişaf hüququnun təmin edilməsi; mədəniyyət sahəsində regional siyasət və s. göstərmək olar. Sonuncuya gəlincə, mərkəzsizləşdirmə siyasətinin uğuru daha çox hökumətlə yerli hakimiyyət orqanları arasında əməkdaşlıq səviyyəsindən, milli və regional mədəniyyət siyasətinin çevikliyindən asılıdır. Mədəniyyət siyasətinin əsas məqsədi – ortaya çıxan problemlər qarşısında cəmiyyətin bütövlüyünü qorumaqla yanaşı, siyasətin həlli üçün nəzərdə tutulmuş başqa vəzifələr də var. Bu, ilk növbədə, böhran dövründə mədəniyyətin maliyyələşdirilməsidir. Bundan əlavə, kommersiya strukturları və KİV-lər tərəfindən mədəniyyət və incəsənət əleyhinə təbliğat aparması ilə bağlı dövlətin mədəniyyət siyasətinin kursunun müəyyənləşdirilməsi vacibdir.

Mədəniyyət iqtisadiyyatı

Nəhayət, mədəni təhlükəsizliklə bağlı toxunmaq istədiyimiz sonuncu məsələ mədəniyyətin maliyyələşdirilməsi problemidir. Burada sual oluna bilər: dövlət mədəniyyətə pul xərcləməlidirmi? Cavab birmənalıdır: bəli, xərcləməlidir. Çünki bu, xeyriyyəçilik deyil, ölkənin əsas dəyərinin – vətəndaşın "istehsal edildiyi" ən mühüm sənayeyə sərmayədir.

Xarici təcrübəyə yaxından nəzər salsaq, biz bu gün ümumilikdə mədəniyyət iqtisadiyyatının üç modelini fərqləndirə bilərik: Çin, Avropa və Amerika. Hər üç model aralarındakı müəyyən fərqlərə baxmayaraq, mədəniyyətin subsidiyalaşdırılmasını nəzərdə tutur.

Çində bu, sovet mədəniyyətinin maliyyələşdirilməsi modelidir və xarakterik bir tezliklə mütləq şəkildə həyata keçirilir. Bu modelin nəticəsi özünü onda göstərir ki, Çin hazırda başqa şeylərlə yanaşı, mədəni məhsulun satışından əldə olunan gəlirlərə görə də dünya liderləri sırasındadırlar.

Avropada (ən diqqətçəkicisi – Fransada) bu, dövlət tərəfindən əsasən "kvotalar, stimullar və subsidiyalar" mexanizmləri vasitəsilə milli mədəniyyətin dəstəklənməsi siyasətidir.

Nəhayət, Birləşmiş Ştatlara gəldikdə burada mədəniyyət sahəsinə ciddi şəkildə biznes kimi baxılır: həm öz-özlüyündə gəlirli biznes kimi, həm də ABŞ üçün də biznes olan qlobal "dəyər" hökmranlığının aləti kimi. Formal olaraq, sponsorluğun əsas yükünü fiziki şəxslər və yaxud korporasiyalar daşıyır. Lakin unutmaq lazım deyil ki, biznes Amerika xalqının onurğa sütunu, həm Amerika dövlətinin, həm də Amerika maliyyə sisteminin "təsisçisi"dir.

Mədəniyyətin maliyyələşdirilməsində başqa bir yanaşmada iki əsas model qeyd edilir: anglo-sakson və kontinental Avropa.

Mədəniyyətin maliyyələşdirilməsinin Anqlo-Sakson modeli fərdi və korporativ

himayəyə diqqət yetirməklə mədəniyyətə dəstək üçün xeyriyyə fondlarının üstünlük təşkil etdiyini nümayiş etdirir. Tipik misal ABŞ-ı göstərmək olar, burada mədəniyyətə dövlət dəstəyi mədəniyyət təşkilatlarının ümumi maliyyə resurslarının təxminən 10%-ni təşkil edir (6, s.1). Böyük Britaniyanın təcrübəsi göstərir ki, dövlət ABŞ-a nisbətən daha çox iştirak edir, lakin mədəniyyətin dəstəklənməsində xeyriyyə ianələrinə də xüsusi diqqət yetirilir.

Anqlo-sakson modelinin tam əksi kontinental Avropa modelidir, onun ölkələrində mədəniyyət və incəsənətin dövlət büdcəsindən maliyyələşdirilməsi ənənəsi tarixə söykənir. Məsələn, Fransada mədəniyyətdə sponsorluq və himayədarlığı stimullaşdırmaq üçün geniş-miqyaslı tədbirlər 90-cı illərin ortalarından tətbiqinə baxmayaraq, mədəniyyətin maliyyələş-dirilməsində ən böyük pay dövlət fondlarından gəlir (1, s.174 –177).

Almaniyada, Skandinaviya ölkələrində mədəniyyətin dəstəklənməsində dövlətin rolu ənənəvi olaraq çox böyükdür. Rusiyada mədəniyyət və incəsənətə maliyyə dəstəyi təcrübəsi də dövlət vəsaitlərinin üstünlük təşkil etdiyinə dəlalət edir. Qlobal maliyyə böhranının nəticələri mədəniyyət və incəsənətə dövlət xərclərinin həssaslığını və etibarsızlığını nümayiş etdirdi. Bir çox ölkələrdə dövlət büdcəsinin kəsirinə qarşı mübarizə və büdcə xərclərinin azaldılması çərçivəsində mədəniyyət və incəsənətə dövlət dəstəyinin həcminin azaldılması kursu elan edilib. Eyni zamanda, həm fiziki şəxslər, həm də korporativ himayədarlar tərəfindən mədəniyyətə edilən xeyriyyə ianələrinin azalması tendensiyası da var. Üstəlik, ikincisi mədəniyyətdə sponsorluq və himayəçilik ənənələrinin güclü olduğu ölkələr üçün də keçərlidir (6). How the United States Funds the Arts. (2007). National Endowment for the Arts. Second Edition. Washington (6). Nəticə etibarı ilə müxtəlif mədəni layihələrin və təşəbbüslərin həyata keçirilməsi təhlükə altında olmaq riski ilə üzləşir.

İşğaldan azad olunmuş ərazilər və Azərbaycanın dövlət mədəniyyət siyasətinin bəzi aspektləri

Torpaqlarını tarix boyu hissə-hissə itirən, son 100 ildə isə ciddi mədəni (7) və ekoloji soyqırıma məruz qalan Azərbaycan xalqı nəhayət ki, ilk dəfə olaraq ərazisinin müəyyən bir hissəsini – Qarabağı işğaldan azad edərək dövlət suverenliyini bu torpaqlar üzərində bərpa edə bildi. Azərbaycanın yüzlərlə tarixi-dini abidələri erməni vandalizmi nəticəsində məhv edilmişdir ki, bu da "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" Haaqa Konvensiyasına tamamilə ziddir (9). Bir çox Qərb dövlətlərindən və güclü diaspora dayaqlarından istifadə edən erməni barbarları Azərbaycan xalqının mədəni irsini, onun tarixini məhv etmək, hər vəchlə bu məkanın ermənilərə məxsus olduğunu sübuta yetirmək fikrindən hələ də daşınmamışlar. Təəssüf doğuran fakt odur ki, əsil həqiqətdən xəbardar olan qərb "alimləri" saxtakarlığa göz yumur, azı 1500 il bu ərazilərdə izi-tozu olmayan gəlmə bir xalqı Qarabağdakı maddi və mənəvi abidələrə sahib çıxarmaq üçün dəridən-qabıqdan çıxırlar.

Bütün dediklərimiz onu göstərir ki, mədəniyyət – hər bir xalqın milli təhlükəsizliyinin qarantı, onun müstəqilliyi və gələcəyidir. Məhz bu səbəbdən mədəni təhlükəsizliyə dövlətimizin milli strategiyasında daha çox yer ayrılır, bunun üçün iqtisadi, maliyyə, inzibati, siyasi, diplomatik və d. vasitələrdən geniş istifadə olunmasına çalışılır.Təbii ki, erməni saxtakarlığı ilə mübarizə onların Cənubi Qafqazda Azərbaycanla qonşu olduğu zaman ərzində həmişə aktual olaraq qalacaqdır. Deməli, dövlət mədəniyyətə daha çox diqqət ayırmalı, ona göstərilən dəstəyi heç vəchlə azaltmamalıdır.

Nəticə

Azərbaycan Respublikasında mədəniyyətin özü milli prioritetlər sırasındadır və dövlət mədəniyyət siyasəti milli təhlükəsizlik strategiyasının tərkib hissəsi kimi tanınır.

Mədəniyyət insan potensialının keyfiyyətcə yüksəldilməsi üçün cavabdeh olan sosial əhəmiyyətli sənaye sahələrinə aiddir. Buradan da dövlət institutlarının tam fəaliyyət göstərməsi sosial-mədəni inkişafın mühüm şərtidir, çünki o, funksional sistem kimi mədəniyyətin canlılıq

səviyyəsinin yüksəlməsinə və ya azalmasına təsir vasitələrinə malikdir. Müasir cəmiyyətdə mədəni fəaliyyəti tənzimləyən əsas institut dövlətdir. Sivil ölkələrdə dövlətin həyata keçirdiyi mədəniyyət siyasətinin həcmi inkişaf edən ölkələrlə müqayisədə xeyli azdır.

Respublikada mədəni təhlükəsizliyə dair konsepsiyanın qəbul edilməsinə ehtiyac duyulur.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Косенко С.И. (2008). Политика культуры или культура политики. Опыт Франции. М.: Восток-Запад.
2. Пал Л.А. Анализ государственной политики: Пер. с англ. И. Дзюбы. – К.,: Основы, 1999.
3. Саракун Л.П. Государство и культура: проблемы взаимодействия. Всероссийский журнал научных публикаций № 4(19) 2013.
4. Тульчинский Г.Л. Менеджмент в сфере культуры. – СПб.: Из-во «Лань», 2001.
5. Швейцер А. Благоговение перед жизнью. – М., 1993.
6. How the United States Funds the Arts. (2007). National Endowment for the Arts. Second Edition. Washington.
7. John Cooper, *Raphael Lemkin and the Struggle for the Genocide Convention* (New York: Palgrave Macmillan, 2008)
8. http://www.e-qanun.az/framework/25303
9. http://www.anl.az/down/meqale/ses/2011/may/zh204.htm

Рафаил Гасанов

ГОСУДАРСТВЕННАЯ КУЛЬТУРНАЯ ПОЛИТИКА КАК СОСТАВНАЯ ЧАСТЬ СТРАТЕГИИ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

Резюме

В статье обсуждается государственная культурная политика, ее место и роль в системе национальной безопасности, а также показано, что культура в Азербайджанской Республике является одним из национальных приоритетов, а государственная культурная политика признана неотъемлемой частью стратегии национальной безопасности. Культура – одна из социально значимых отраслей, отвечающая за качественное развитие человеческого потенциала. Основным институтом, регулирующим культурную деятельность в современном обществе, является государство, хотя общественным организациям, благотворительной деятельности и бизнесменам здесь тоже есть место. Культура – гарант национальной безопасности каждого народа, его независимости и будущего. В нашей стране, как и во многих других странах, есть необходимость принять концепцию в области культурной безопасности.

Цель: изучить роль государственной культурной политики в стратегии национальной безопасности.

Методология: делается попытка понять изучаемый объект с позиций системного и функционалистского подхода, анализируются его возможности для получения новых знаний, связанных с сохранением и развитием культурного наследия.

Научная новизна: Культура сама по себе является одним из национальных приоритетов Азербайджанской Республики, а государственная культурная политика признана неотъемлемой частью стратегии национальной безопасности.

Ключевые слова: *государственная культурная политика, национальная безопасность, экономика культуры, культурное наследие, культурный геноцид*

Rafail Hasanov

STATE CULTURAL POLICY AS AN INTEGRAL PART OF THE NATIONAL SECURITY STRATEGY

Summary

The article discusses the state cultural policy, its place and role in the national security system, and also shows that culture in the Republic of Azerbaijan is one of the national priorities, and the state cultural policy is recognized as an integral part of the national security strategy. Culture is one of the socially significant sectors responsible for the quality development of human potential. The main institution that regulates cultural activities in modern society is the state, although public organizations, charitable activities and businessmen also have a place here. Culture is the guarantor of the national security of every nation, its independence and future. In our country, as in many other countries, there is a need to adopt a concept in the field of cultural security.

Purpose: to study the role of state cultural policy in national security strategy.

Methodology: an attempt is made to understand the object under study from the standpoint of a systemic and functionalist approach, its possibilities for obtaining new knowledge related to the preservation and development of cultural heritage are analyzed.

Scientific novelty: culture itself is one of the national priorities of the Republic of Azerbaijan, and the state cultural policy is recognized as an integral part of the national security strategy.

Keywords: *state cultural policy, national security, cultural economics, cultural heritage, cultural genocide*

Hörmət Cavadova
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,
fəl.ü.f.d., dosent
cavadova22@mail.ru

M.F.AXUNDZADƏ CƏMİYYƏTİN TƏRƏQQİSİNDƏ ELMİN VƏ MAARİFİN ROLU HAQQINDA

Məqalədə Azərbaycan dramaturgiyasının banisi, filosof, ictimai xadim Mirzə Fətəli Axundzadənin milli ədəbiyyatın və ictimai-siyasi fikrin inkişafında mühüm rolundan bəhs olunmuşdur. Görkəmli ictimai xadim, ədib və filosof kimi M.F.Axundzadənin ədəbiyyatın, sosial-siyasi fikrin və fəlsəfənin inkişafında böyük xidmətləri olmuşdur. O, öz xalqının və Şərq xalqlarının tərəqqidən geri qaldığını görmüş, vətənini qabaqcıl Avropa ölkələrinin sosial-siyasi, iqtisadi mədəni inkişaf səviyyəsinə çatdırmaq üçün yollar axtarmışdır.

1863-1865-ci illərdə yazdığı "Kəmalüddövlə məktubları" maarifçilik ədəbiyyatının bir nümunəsi kimi orta əsrlər sxolostikasına qarşı çevrilmişdir. Müəllif ömrünün sonunadək bu əsərin üzərində işləmiş, onu genişləndirmiş, tarixi-elmi faktlarla zənginləşdirmiş, fars və rus dillərinə tərcümə etmişdir.

Məqalədə Axundzadənin fəlsəfi və dini baxışları da təhlil edilmişdir. Dinin və idealizmin əksinə olaraq Axundzadə fəlsəfənin əsas məsələsini-təfəkkürün varlığa, ruhun təbiətə münasibətini materialist mövqedən izah etmiş, hər şeyin əsasında materiyanın durduğunu göstərmişdir. Təfəkkür haqqında materialist nəzəriyyəyə istinadən o, fövqəltəbii qüvvənin mövcudluğunu inkar etmişdir. O, dünyanın ilahi bir qüvvə tərəfindən yaradılması barədə dini baxışları inkar etmiş, hər şeyin əsasında materiyanın durduğunu bildirmişdir.

Məqsəd – M.F.Axundzadənin ədəbii, ictimai-siyasi, maarifçilik və fəlsəfi-dini ideyalarını təhlil etmək.

Metodologiya – müqayisəli təhlil, varislik, analiz.

Tədiqatın nəticələri – Mirzə Fətəli Axundzadənin ideyaları ilə çağdaş dövrün ictimai-siyasi və ideoloji tələbləri arasında uzlaşdırmaların axtarılması

Açar sözlər: *Azərbaycançılıq, maarifçilik, İslam dini, yeniləşmə, Qərbçilik, sosial-demokrat*

Giriş

Mirzə Fətəli Axundzadə 1812-ci ildə Şəki şəhərində anadan olmuşdur. İki yaşı olarkan Fətəli ailəsi ilə birlikdə atasının vətəninə - Cənubi Azərbaycana köçür. 1821-ci ildə Fətəlinin anası Nanə xanım ərindən boşanaraq oğlu ilə birlikdə Ərdəbilə gəlir və əmisi Axund Hacı Ələskərin yanında yaşamağa başlayır. Anasının əmisi Fətəlini himayəsinə götürür və onun tərbiyəsi və təhsili ilə şəxsən özü məşğul olmağa başlayır. Ərəb və fars dillərini mükəmməl bilən Axund Hacı Ələsgər qısa bir müddət ərzində bu dilləri Fətəliyə də öyrədir.

1925-ci ildə Axund Hacı Ələsgər Fətəli ilə birlikdə əvvəlcə Gəncəyə, sonra isə Şəkiyə gəlir. Şəkidə gənc Fətəli dini təhsilini bir qədər də mükəmməlləşdirir. O, dini kitabları oxumaq əsasında müsəlman dinin əsaslarını öyrənir.

1932-ci ildə Axund Hacı Ələsgər Məkkə ziyarətinə gedərkən Fətəlini Gəncədə o dövrün görkəmli din xadimi Hüseyn Pişnamazzadənin yanına hüququ və məntiqi öyrənmək üçün qoyur. Fətəli həmçinin görkəmli şair və mütəfəkkir Mirzə Çəfi Vazehin yanında xəttatlıq dərsi alır. Mirzə Şəfi Vazehlə görüş onun həyatında dönüş yaradır. Belə ki, Mirzə Şəfi Vazehin

təsiri ilə Fətəli dini təhsildən imtina edir. Bu barədə M.F.Axundzadə yazır: "Atalığım Məkkədən qayıdana qədər Mirzə Şəfi mənə maarifçiliyin əsaslarını öyrətdi və dünyanı görüb, hiss etməyə mane olan pərdəni gözümün qarşısından qaldırdı. Bundan sonra mən ruhanilikdən imtina etdim və öz fikrimi dəyişdim" (10, s.37).

Mirzə Fətəli tezliklə o dövrdə Zaqafqaziyanın iqtisadi-mədəni mərkəzi olan Tiflisə getmək barədə qəti qərar qəbul edir və öz qərarını əmisinə bildirir. Din xadimi olmaqla bərabər, həm də yüksək elmi dünyagörüşə malik olan Axund Hacı Ələsgər onun bu qərarına hörmətlə yanaşır və onu Tiflisə özü aparır və Qafqaz canişininin baş dəftərxanasında mülki işlər sahəsində Şərq dilləri mütərcimi təyin olunmasına köməklik edir. Mirzə Fətəli ömrünün sonuna qədər bu vəzifədə çalışmış və 1873-cü ildə ona polkovnik hərbi rütbəsi verilmişdir. O, 1878-ci il fevralın 26-da Tiflisdə vəfat etmişdir.

1850-1856-cı illər ərzində yazdığı altı komediyası ilə Azərbaycanda və Yaxın Şərq ədəbiyyatında realist dramaturgiyanın, o cümldən komediya şanrının əsasını qoymuşdur. Onun "Hekayəti-Molla İbrahimxəlil kimyəgar", "Hekayəti-Müsyo Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur", "Sərgüzəşti-vəziri-xani-Lənkəran", "Hekayəti-xırsi-quldurbasan", "Sərgüzəşti-mərdi-xəsis" və "Hacı-Qara", "Mürafiə vəkillərinin hekayəti" komediyaları özündə türk təfəkküründün sənət ekvivalenti sayılan xalq-meydan oyunlarını, islami dəyərləri önə çəkən şəbeh-misteriya tamaşalarını, həmçinin klassik yunan və intibah dövrünün ənənələrini özündə əks etdirirdi. 1857-ci ildən ərəb əlifbasında əvvəl islahat aparılması, sonra dəyişməsi istiqamətində qızğın fəaliyyətə başlamış, altımışıncı illərdən ömrünün sonuna qədər bir mütəfəkkir kimi tənqid, fəlsəfə və sosiologiya sahəsində çalışmış, özünün "Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəlalüddövləyə fars dilində yazdığı üç məktubun və Cəlalüddövlənin ona göndərdiyi cavabın türk dilində tərcüməsidir"(1864-1865) ədəbi-fəlsəfi traktatını, həmçinin "Kəmalüddövlə məktubları"nın mülhədatı" "Həkimi-ingilis Yuma cavab", "Yek kəlmə haqqında", "Məsəli-həkim Sismondi, "Con Stüart milli azadlıq haqqında", "Nəzm və nəsr haqqında", "Mirzə Ağanın pyesləri haqqında kritika", "Mollayi Rumi və onun təsnifinin babında", "Kritika" və s. məqalələrini yazmışdır.

Ədəbi, ictimai-siyasi və maarifçilik ideyaları

Hər bir xalqın ədəbiyyatı onun güzgüsü hesab olunur. Müxtəlif tarixi dövrlərdə cəmiyyətdə baş verən sosial və mədəni dəyişikliklər ədəbiyyatda da öz əksini tapmışdır. Hər hansı bir xalqın mədəni səviyyəsini məhz onun milli ədəbiyyatını oxumaqla öyrənmək olar. Tarixən yaradılan ədəbi əsərlərdə bir tərəfdən xalqın ağrı-acıları, problemləri təsvir edilmiş, digər tərəfdən həmin əsərlərdə yaradılan obrazlar vasitəsilə mövcud cəmiyyətdə insanların maarifləndirilməsi, tərbiyə edilməsi həyata keçirilmişdir.

XIX yüzillikdə Azərbaycan ədəbiyyatı və incəsənəti öz inkişafında yeni mərhələyə qədəm qoyur. Bu dövrün görkəmli ictimai xadimi, ədibi və filosofu M.F.Axundzadənin ədəbiyyatın, sosial-siyasi fikrin və fəlsəfənin inkişafında böyük xidmətləri olmuşdur. O, öz xalqının və Şərq xalqlarının tərəqqidən geri qaldığını görür, vətənini qabaqcıl Avropa ölkələrinin sosial-siyasi, iqtisadi mədəni inkişaf səviyyəsinə çatdırmaq üçün yollar axtarırdı.

XIX əsrin ortalarında Azərbaycanda hələ inkişaf etmiş milli mətbuat yox idi. Axundzadə dövrünün "Molla Nəsrəddini", "Kəmalüddövlə məktubları" olur. Sonralar Zərdabi və Mirzə Cəlil bu məktublardan bəhrələnir, məhz "Əkinçi", "Poçt qutusu" bu məktubları evbəev, mənzilbəmənzil - "müsəlman qardaşlara" – novruzəlilərə çatdırır (4, s. 4).

M.F.Axundzadə XIX əsrin durğunluqlarına, nadanlığa və cəhalətə qarşı mübarizə aparan *"Əkinçi" qəzetinin* nəşrinə böyük əhəmiyyət vermiş və onun nəşrinə hazırlıq işində, qəzetin elanlarının yazılmasında Həsən bəy Zərdabiyə kömək etmişdir. Həsən bəy Zərdabi Axundzadənin maarifçilik ideyalarının ən istedadlı davamçılarından biridir. M.F.Axundza-

dənin maarifçilik ideyaları Həsən bəy Zərdabinin maarifçilik fəaliyyəti nümunəsində öz əksini tapmışdır. Əkinçi qəzetinin səhifələrində M.F.Axundzadə "Vəkili Milləti-Naməlum" imzası ilə məqalələr dərc etdirmişdir (6,s.136).

M.F.Axundzadə öz ədəbi və ictimai-siyasi fəaliyyətində Şərq xalqlarının, o cümlədən, Azərbaycan xalqının zəngin ədəbi, ictimai fikirindən və fəlsəfi irsindən bəhrələnmişdi. O, bir neçə şərq dillərində sərbəst danışmış, hind ədəbiyyatını və fəlsəfəsini dərindən bilmişdir. M.F.Axundzadə klassik dünya ədəbiyyatının nümayəndəsi Əbdülqasım Firdovsunun yaradıcılığına bələd olmuş və onun dünyanın dörd ünsürdən – oddan, havadan, sudan və torpaqdan ibarət olması fikrini yüksək qiymətləndirmişdir.

Qeyd etdiyimiz kimi, M.F.Axundzadə qədim hind fəlsəfəsi və mədəniyyətinə dərindən bələd olmuşdur. O, Hindistan xalqının tarixini, adət-ənənələrini yaxşı bilmişdir. Məşhur "Kəmalüddövlə məktublarından" aydın olur ki, o, qədim hindlilərin dini-fəlsəfi təliminə - buddizmə, brahmanizmə yaxşı bələd olmuş və çarvakların materialist fəlsəfəsini təhlil etmişdir.

M.F.Axundzadənin dünyagörüşünün formalaşmasına Azərbaycan şair və mütəfəkkirlərindən Əfzələddin Xaqaninin, Nizami Gəncəvinin, İmamәddin Nəsiminin, Məhəmməd Füzulinin də təsiri olmuşdur. O, Nizami Gəncəvinin yaradıcılığını yüksək qiymətləndirmiş və qeyd etmişdir ki, tarixdə belə şairə çox az rast gəlinir. Məlumdur ki, Nizami bütün əsərlərində dövləti idarə edən şahları humanizmə və ədalətli olmağa çağırmışdır.

M.F.Axundzadə gənc yaşlarından rus dilini öyrənmiş, Lomonosovun, Karamzinin, Derjavinin, Puşkinin yaradıcılığına bələd olmuşdur. Onun ilk bədii əsəri də Puşkinin ölümünə həsr etdiyi "Şərq poeması" olmuşdur. Onun şəxsi kitabxanasında Qoqolun, Dobrolyubovun, Kolsovun əsərləri olmuşdur (9, s. 263-264).

Mirzə Fətəli həmçinin, təbiətşünas alimlərdən Qalileyin, N.Kopernikin, Ç.Darvinin, H.Hekslinin, İ.Nyutonun əsərlərini dərindən bilmişdir. Axundzadəni həmçinin fəlsəfi problemlər də maraqlandırmışdır. Onun əsərlərini araşdırarkən məlum olur ki, şərq və rus fəlsəfəsini bilməklə yanaşı, qərbi avropa mütəfəkkirlərindən Spinozanın, Yumun, Volterin, Monteskyenin yaradıcılığına bələd olmuş, öz əsərlrində tez-tez onlara istinad etmişdir. Axundzadənin materiya, məkan və zaman haqqında fikirlərinə, şərq despotizminin tənqidinə, fransız materialistlərinin, o cümlədən Holbaxın təsiri görünür. Axundzadə dinlərin o cümlədən, İslam dininin də tarixini yaxşı bilmiş, kitabxanasında dinin tarixinə dair çoxlu kitablar olmuşdur.

M.F.Axundzadə yaradıcılığına şerlə başlamış, Səbuhi təxəllüsü ilə şerlər yazmış, 1857-ci ildə yazdığı "Aldanmış kəvakib" adlı povestində şah despotizmini tənqid etmiş, cəmiyyətdə sosial islahatların aparılmasının zəruriliyini irəli sürmüşdür.

Axundzadənin dramaturgiyaya müraciət etməsi onun maarifçilik görüşləri ilə bağlı olmuşdur. Xalqı maarifləndirmək üçün dramaturgiyanın komediya janrından istifadə etmişdir. Satiranın, bədii gülüşün insan həyatında rolunu və əhəmiyyətini dönə-dönə vurğulayan Axundzadə satiranın tərbiyəvi rolunu önə çəkərək yazmışdır: "Xalqı tərbiyələndirmək, həmməzhəblərimizin əxlaqını saflaşdırıb islah etmək, dövləti nizam-intizama salıb, onun əmrlərinin və qadağan etdiyi işlər haqqındakı hökmlərinin təsirini artırmaq üşün tənqiddən faydalı heç bir faydalı vasitə ola bilməz (2, s.247).

Dram janrı içərisində onun komediya janrına müraciət etməsi həm də XIX yüzilliyin ortalarında Azərbaycan cəmiyyətinin iqtisadi-mədəni tərəqqisi qaşısında bir maneəyə çevrilmiş feodal hakimlərinin özbaşnalığı, onların mənəviyyatsızlığı, geriliyini ifşa etmək zərurəti yaratmışdı. Axundzadənin komediyaları da bilavasitə Azərbaycan gerçəkliyində yaranmış bu yeni məzmundan doğmuşdu. O, tənqidi gülüşə ədəbi ehtiyacı vaxtında görmüş, öz yaradıcılığında sosial-mənəvi həyatın bu ədəbi tələbini layiqincə yerinə yetirmiş, müasirlərinin

də həmin ədəbi reallıqlara inandırmağa çalışmışdır. Onun komediyaları gülmək xətrinə gülməkdən doğmurdu, bu gülüş vacib əxlaqi və sosial problemlərin həllinə kömək edən bir gülüş idi. M.F.Axundzadə feodal-istibdad qaydalarına qarşı, "millətin təhsilliyini və onun mövhumatdan azad olmasını" nəzədə tutan cəmiyyətin yeni demokratik əsaslar üzərində dəyişdirilməsi uğrunda çıxış etmişdir. O, əqli qabiliyyətlərin inkişafını, elmin öyrənilməsi, yayılması və praktik tədqiqini öz yurdunun sosial-mədəni tərəqqisinin mühüm şərti kimi nəzərdən keçirərək, Azərbaycan xalqının elmə, maarifə cəlb etməyə səy göstərirdi. Axundzadənin başlıca idealı köhnə feodal-patriarxal quruluşun yeni demokratik, ədalətli quruluşla əvəz olunması, xalqın azadlığı, xoşbəxtliyə çatması və inkişafı olmuşdur ki, bütün bunlar öz əksini onun ədəbi-tənqidi və fəlsəfi yaradıcılığında tapmışdır. Bununla bərabər o, dövlət idarəçiliyi mədəniyyətinə böyük siyasi əhəmiyyət verərək qeyd edirdi ki, idarəetməni "qorxu deyil, məhbbət" eqoist məqsədlərlə deyil, xalqın rifahı naminə quran "müdrik xalq hakimləri" olmadan, xalqın maariflənməsi və cəmiyyətdə proqressiv islahatlar mümkün deyil. M.F.Axundzadə zülmkarlıqdan fanatizmdən, köləlikdən, yaltaqlıq, özbaşnalıqdan imtina etməyə, vətənpərvərlik göstərməyə, "ədalətə, xalqa və vətənə məhəbbətə əsaslanan idarəçilik üsulunun" qurulmasına, dövlətin rifahının və təhlükəsizliyinin yüksəldilməsinə çağırırdı.

Azadlıq və demokratiya uğrunda mübarizəni o, istibdaddan azad olmaq, insan münasibətlərinin və ətraf aləmin dərk edilməsi vasitəsi kimi nəzərdən keçirirdi. Qərbin liberal dəyərləri kontekstində o, azadlığı – mülkiyyət, şəxsiyyətin inkişafı və vicdan azadlığı hüququ, demokratik təşkilatların və cəmiyyətlərin təsis edilməsi hüququ kimi başa düşürdü.

Azərbaycan demokratik, intellektual və etik mədəniyyətin inkişafı məsələlərinə geniş diqqət ayırırdı. "Adəmiyyət" kitabında tərəqqipərvər Azərbaycan mütəfəkkiri və vətənpərvəri, təbiətin yeganə nümayəndəsi olan, (heyvanlardan fərqli olaraq) daimi əqli, mənəvi və estetik inkişafa məruz qalan insanın xüsusi missiyası haqqında danışır. Bununla yanaşı Axundzadə insanın yeddi sosial vəzifəsini tərtib etmişdir. Bu: pis əməllərdən qaçmaq, xeyirxahlıq etmək, zülmkarlıqla mübarizə, başqa insanlarla birlikdə və vəhdətdə yaşamaq, elmin arxasınca getmək və onu yaymaq, qanunların və insan hüquqlarının müdafiəsi uğrunda mübarizə aparmaq tələbləridir (7, s.224). M.F.Axundzadə dərindən inanırdı ki, xalqın azadlığına və xoşbəxtliyinə yol, onun zülmdən, cahillikdən və mövhumatdan qurtuluşu – mədəniyyətdən, elmin, tərəqqinin və sivilizasiyanın inkişafından və yayılmasından keçir (7, s.224).

XIX yüzilliyin 50-ci illərinin ortalarından başlayaraq Axundzadə 20 ildən çox müddət ərzində Azərbaycanda mövcud ərəb əlifbasında islahatlar aparılması uğrunda mübarizə aparmışdır. Axundzadə ərəb əlifbasında islahatın Qafqazda həyata keçirilməsi üçün Rusiya Elmlər Akademiyasına müraciət etmişdir. Akademik Boris Dorna məktubunda, «Sivilizasiyanın indiki sürətli nailiyyətləri dövründə yazının belə qeyri-təbiiliyi mədəni dünyanın Şərq ədəbiyyatına sarı gedən yolunu həmişəlik bağlaya bilməzdi, onun əlifbasında mütləq dəyişiklik əmələ gəlməli idi» – deyən, Axundzadə ümid edirdi ki, Akademiya bu məsələyə diqqət yetirəcək və layihə barədə öz müsbət qərarını bildirəcəkdir. Dorn cavab olaraq yazır ki, yəni əlifba ideyasını bəyənir, ancaq bu ideyanı müsəlmanlar arasında yaymaq, öhdəsindən gəlinməz çətinliklərlə bağlıdır. «Digər tərəfdən hazırda işlənən müsəlman əlifbasının yararsız olduğunu etiraf edən və bunu aradan qaldırmaq üçün müxtəlif cəhdlər göstərən Avropa oriyentalistləri , öz əsərləri müsəlmanların istifadəsindən çıxmasın deyə, sizin əlifbanızı qəbul etməyə çətin razı olarlar» (8, s.321).

1863-1865-ci illərdə yazdığı "Kəmalüddövlə məktubları" maarifçilik ədəbiyyatının bir nümunəsi kimi orta əsrlər sxolostikasına qarşı çevrilmişdir. Arxiv sənədlərindən məlum olur ki, müəllif ömrünün sonunadək bu əsəri üzərində işləmiş, onu genişləndirmiş, tarixi-elmi faktlarla zənginləşdirmiş, fars və rus dillərinə tərcümə etmişdir. Əsərin çap olunması üçün çox çalışmış, müxtəlif vasitələrə əl atsa da buna nail ola bilməmişdir. Hətta öz dostları vasitəsilə

Peterburq, Paris, London, Tehran, İstanbul və Bombey naşirlərinə müracit edib, əsərin müqabilində heç bir müəllif haqqı almadan çap edilməsini xahiş etmişsə də də ancaq yenə də öz məqsədinə nail ola bilməmişdir. Bunun başlıca səbəbi əsərdə bir sıra həqiqətlərin pərdəsiz söylənilməsi idi (1, s.4).

Həqiqəti açıq söyləməkdə müstəsna bir qorxmazlıq və cəsarətə malik olan M.F.Axundzadə təhlükələri nəzərə alaraq, həmin əsərin müəllifi olduğunu gizlətmiş, onun heç bir nüsxəsində öz adını müəllif kimi qeyd etməmişdir. O, bu sirri yalnız öz yaxın dostu Mirzə Yusif xana açmış, sonralar isə Mirzə Melkum xana, "Təmsilatın" fars dilinə mütərcimi olan Məhəmməd Cəfər Qərəcədağiyə və bir neçə başqa dostuna söyləmişdir (1, s.4).

Axundzadə oğlu Rəşidə məktubunda yazır: ""Kəmalüddövlə"nin nəşr edilməsi ümüdi ilə vaxt keçiririk, bilmirəm mənim bu ümüdüm ölümümə qədər gerçəkləşəcəkmi, yoxsa arzu olaraq qalacaq" (9, s.20).

Axundzadənin arzusu yalnız 1938-ci ildə reallaşır, "Kəmalüddövlə məktubları" azərbaycan dilində nəşr olunur.

Fəlsəfi və dini görüşləri

M.F.Axundzadə müsəlman mütəfəkkirləri arasında ilk dəfə olaraq siyasi, sosial, dini problemlərə daha cəsarətlə, tənqidlə yanaşmışdır ki, bu da onun eyni dövrdə yaşadığı başqa mütəfəkkirlərdən başlıca üstünlüyü, fərqi idi. Tədqiqatçılar hesab edirlər ki, dövründəki dini xürafatı, mövhumatı, bir çox ruhanilərin, mollaların riyakarlığını daha cəsarətlə tənqid edən Axundzadə mövcud reallıqları dərindən dərk etmiş, Qərbi Avropa dəyərlərini mənimsəməyə çalışmış və bir sıra islahatçı təkliflərlə çıxış etmişdir (8, s.312).

M.F.Axundzadə Şərq ədəbiyyatında ilk ateist-fəlsəfi əsər olan "Kəmalüddövlə məktubları"nın yazılma səbəbini belə izah edirdi: "Kəmalüddövlənin müəllifi öz xalqının qəlbində vətəninə sevgi, vicdan, şərəf, ədalət və bərabərlik cücərtilərini yaratmaq istəyirdi. O, istəyir ki, çəkişmələr birliklə əvəz olunsun, yoxsulluq aradan qalxsın, xalq xöşbəxt olsun" (11, s.6).

Axundzadə dini kəskin tənqid edirdi və onu tərəqqi yolunda ən böyük maneə hesab edirdi. O yazırdı: "...İslam dini meydana çıxan gündən hazırkı əsrə qədər, Şərqdə elmlərin durğunluğunun, dəhşətli despotizmin əmələ gəlməsinin səbəblərini və ümumiyyətlə, asiyalıların mədəniyyət və tərəqqi işlərinə qarşı laqeydlik və etinasızlığının səbəblərini heç kəs başa düşməmişdir. Bu cəhətdən təkcə Firdovsi müstəsnalıq təşkil edir və öz dühası ilə, həqiqətən kəşf edə bilmişdir ki, Şərq xalqlarının bu qədər böyük bədbəxtliyinin səbəbi ərəblər və onların insan həyatına uyğunlaşmayan dinidir" (3, s. 310).

Axundzadə inanırdı ki, əgər onun "Kəmalüddövlə məktubları" çap olunaraq əhali arasında geniş yayılsa, sadə insanlar dini fanatizmdən uzaqlaşacaq, onlarda "savadlanmaq həvəsi, elmləri öyrənmək cəhdləri əmələ gələcək, onların əxlaq və tərbiyəsi yaxşılaşacaq, onların arasında oğurluq və müxtəlif cihayətlər, xüsuslə, çox zaman ehtiyac üzündən deyil, savadsızlıq və mədəniyyətsizlik üzündən "igidlik əlaməti" sayılan soyğunçuluq hadisələri azalacaqdır" (3, s. 310).

Görünür ki, Axundzadə maarifçilik prinsiplərinə sadiq qalaraq dini sosial tərəqqi yolunda əngəl hesab edirdi. Lakin o, dinin cəmiyyətdə, insan həyatında oynadığı rolu və yerinə yetirdiyi pozitiv funksiyaları görmək istəmirdi, nisbətən asan yolla sosial tərəqqinin əsas problemlərini həll etmək istəyirdi. Eyni zamanda O, İsam dininin insan həyatından tamamilə çıxmasının da tərəfdarı deyildi. O yazırdı: "İslam dini ancaq o zaman yaşayıb davam edə edə bilər ki, insanlar dinin mahiyyətini şüur və mərifət əsasında anlamış olsunlar. Sonra isə başqa xalqlardan fərqlənmək üçün formal olaraq müsəlmanlıqda qalmaq olar. Ancaq onun ehkamını dəyişdirməli, artıq şeyləri atmalı, allah hüququ sayılan bütün məşəqqətli təklifləri tamamilə rədd edərək, onlardan azad olmaq lazımdır (4, s.76).

Axundzaənin ateist irsinin əsasını materialist fəlsəfə təşkil edirdi. Dinin və idealizmin əksinə olaraq Axundzadə fəlsəfənin əsas məsələsini-təfəkkürün varlığa, ruhun təbiətə münasibətini materialist mövqedən izah etmiş, hər şeyin əsasında materiyanın durduğunu göstərmişdir. Təfəkkür haqqında materialist nəzəriyyəyə istinadən o, fövqəltəbii qüvvənin mövcudluğunu inkar etmişdir. O, dünyanın ilahi bir qüvvə tərəfindən yaradılması barədə dini baxışları inkar etmiş, hər şeyin əsasında materiyanın durduğunu bildirmişdir.

Axundzadə yazır: "Hər şeydən əvvəl biz bu dünyanın mövcud olduğunu gözümüzlə görürük. Elə isə, bu varlıq ya özü-özünə, öz qanunları ilə, başqa bir xarici varlığa ehtiyac hiss etmədən mövcuddur ki, belə bir halda biz vəhdət-vücud tərəfdarı olan Budda, Əbdürrəhman Cami, Şeyx Mahmud Şəbüstəri, yunanlı Ksenofan, Petrark, fransız Volter kimi bir qrup alimlərlə həmfikir olaraq deyirik ki, bütün kainat bir vahid, qadir, kamil və geniş varlıqdan ibarətdir ki, saysız-hesabsız varlıqlar müxtəlif şəkillər və şərtləri əsasında vücuda gəlmişdir. Bu kainat bir vahid, qadir və kamil vücuddur. Əvvəli də budur, axırı da budur. Nə ondan qabaq başlanğıc olmuşdur, nə də ondan sonra nəhayət olacaqdır. Zaman onun tələblərindən, məkan isə keyfiyyətlərindən sayılır" (4, s.64).

M.F.Axundzadənin təbii-elmi və fəlsəfi baxışlarını dərindən təhlil edən İ.Rüstəmov belə qənaətə gəlir ki, o, materiyanın saxlanması və çevrilməsi qanununu bilirdi. Materiyanın saxlanması və çevrilməsi qanunu qəbul etməklə o, Azərbaycan materialist fəlsəfəsinə öz töhvəsini vermiş oldu (5, s.28).

Axundzadə eyni zamanda kainatın obyektiv qanunlarını da qəbul edirdi. Onun fikrincə təbiətin və kainatın hər bir hissəsi öz qanunları ilə fəaliyyət göstərir.Bu qanunları inkar etmək təbii inkişaf qanunlarına qarşı çıxmaq deməkdir.Bu isə mümkün deyil, çünki bu qanunlar heç kəsin istəyindən və arzusundan asılı olmayaraq mövcuddur və fəaliyyət göstərirlər. "Zərrələr qəbilindən olan günəşin və ayın da qanunu budur ki, hər biri müəyyən qanuna tabe olaraq çıxıb işıq saçsınlar. Hansı bir zərrə başqa zərrəyə müraciət etməlidir ki, günəşi məhv et və ya ayı parçala? Hansı bir zərrə qadirdir ki, qanuna zidd olan bu tapşırığı həyata keçirsin? (4, s.65).

Beləliklə Axundzadə kainatın müəyyən qanunlarla idarə olunduğunu irəli sürür və göstərir ki, bitkilər, heyvanlar, və ya insanlar təbiiətin inkişafı qanunauyğunluğundan çıxa bilməzlər. Onlardan hər biri dünyaya gəlir, inkişaf edir, nəhayət qocalıb ölürlər.

Axundzadə fəlsəfə tarixində mübahisəli məsələ olan bədən və ruh məsələsinin elmi-materialist mövqedən izah edir. O hesab edir ki, ruh bədənin funksiyasıdır, onun mövcudluğu bədənə bağlıdır, bədən ölərsə ruh da ölür.Ruhun insan öləndən sonra da mövcudluğunu irəli sürən idealistlərə və din xadimlərini tənqid edərək yazırdı:" ...ruh hər nə olsa öz-özünə qaim ola bilməz. Necə ki, əql və xəyal öz-özünə qaim deyildir. Və heç olmasa qab və qalıbları olmalıdır. Buna görə də ruhların bədənlərdən ayrıldıqdan sonra xüsusi yerlərdə təkrar qabsız, qalıbsız müəyyən vücud olması xüsusunda bizim alimlərin etiqadının təsəvvür və təəqqülü kritika qarşısında dura bilməz. Və necə ki, ruhlar üçün bədəndən ayrıldıqdan sonra misali və lətif qalıb xəyal etmək. (4,s.94)

Beləliklə, Axundzadənin gətirdiyi misaldan aydın olur ki, o, bədən ilə ruh məsləsini də materialist mövqedən izah edir və belə nəticəyə gəlir ki, ağıl şüurdan kənarda mövcud ola bilmədiyi kimi, ruh da bədəndən ayrılıqda mövcud ola bilməz. Ruhun ölməzliyi barədə söylənən fikirlər bir rəvayətdir.

Axundzadə dini ehkamlarla elmi bilikləri qarşı-qarşıya qoyaraq belə nəticəyə gəlir ki, bütün həyatın Allaha qovuşmaq məqsədi ilə müxtəlif dini ayinlərin yerinə yetirilməsinə həsr olunması həyatı mənasız və bədbəxt edir. Bu məsələdə o, çarvakların təliminə tərəfdar çıxır. Çarvaklar hesab edirdilər ki, yaradan yoxdur, sağlam düşüncə insanı əxlaqa zidd hərəkətlərdən çəkindirər. İnsan cənnət xülyası ilə yaşamaqdansa, bu dünyanın gözəlliklərindən zövq almalıdır.

Nəticə

M.F.Axundzadə Azərbaycan xalqını elmə, maarifə cəlb etməyə səy göstərmişdir. Başlıca idealı, köhnə feodal-patriarxal quruluşun yeni demokratik, ədalətli quruluşla əvəz olunması, xalqın azadlığı, xoşbəxtliyə çatması və inkişafı olmuşdur ki, bütün bunlar da öz əksini onun ədəbi-tənqidi və fəlsəfi yaradıcılığında tapmışdır

M.F.Axundzadə müsəlman mütəfəkkirləri arasında ilk dəfə olaraq siyasi, sosial, dini problemlərə daha cəsarətlə, tənqidlə yanaşmışdır ki, bu da onun eyni dövrdə yaşadığı başqa mütəfəkkirlərdən başlıca üstünlüyü fərqi idi. Tədqiqatçılar hesab edirlər ki, dövründəki dini xürafatı, mövhumatı, bir çox ruhanilərin, mollaların riyakarlığını daha cəsarətlə tənqid edən Axundzadə mövcud reallıqları dərindən dərk etmiş, Qərbi Avropa dəyərlərini mənimsəməyə çalışmış və bir sıra islahatçı təkliflərlə çıxış etmişdir.(8, s.312)

O, maarifçilik prinsiplərinə sadiq qalaraq dini, sosial-tərəqqi yolunda əngəl hesab etmişdir. Lakin o, dinin cəmiyyətdə, insan həyatındakı yerini və rolunu yerinə yetirdiyi pozitiv funksiyaları görmək istəməmiş, nisbətən asan yolla sosial tərəqqinin əsas problemlərini həll etmək istəmişdir. O, eyni zamanda İslam dininin insan həyatından tamamilə çıxmasının da tərəfdarı deyildi. Axundzadə yazırdı: "İslam dini ancaq o zaman yaşayıb davam edə edə bilər ki, insanlar dinin mahiyyətini şüur və mərifət əsasinda anlamış olsunlar. Sonra isə başqa xalqlardan fərqlənmək üçün formal olaraq müsəlmanlıqda qalmaq olar. Ancaq onun ehkamını dəyişdirməli,artıq şeyləri atmalı, allah hüququ sayılan bütün məşəqqətli təklifləri tamamilə rədd edərək, onlardan azad olmaq lazımdır (4, s.76).

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Axundov M.F. Kəmalüddövlə məktubları, Bakı,1959, səh. 4
2. Axundov M.F. Əsərləri, 3 cilddə, III cild, Bakı,1962, səh. 247
3. Axundov M.F. Əsərləri, II cild, Bakı,1988, s. 310
4. Axundzadə Mirzə Fətəli. Əsərləri, üç cilddə, II cild, "Şərq-Qərb", Bakı-2005
5. Rüstəmov İ. Mirzə Fətəli Axundov. Bakı,1986, səh. 28
6. Rüstəmov İzzət. Seçilmiş əsərləri, Bakı, 212, səh. 136
7. Məmmədov Fuad. İdarəetmə mədəniyyəti. Bakı-2013
8. Ələkbərli Faiq. Azərbaycan türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). "Elm və təhsil", Bakı, 2018.
9. Tağıyev H. M.F.Axundovun tərcümeyi-halı, Bakı, 1948, səh. 20
10. Ибрагимов А.А.Описание архива М.Ф.Ахундова. Баку,1962, səh. 263-264
11. Mamedov Ш. Мировоззрения М.Ф.Ахундова. М.,1962.

Хормат Джавадова

РОЛЬ НАУКИ И ПРОСВЕЩЕНИЯ В ПРОГРЕССЕ ОБЩЕСТВА

Резюме

В статье рассказывается о важной роли основоположника азербайджанской драматургии, философа и общественного деятеля Мирзы Фатали Ахундзаде в развитии национальной литературы и общественно-политической мысли. Будучи видным общественным деятелем, писателем и философом, М.Ф.Ахундзаде внес большой вклад в развитие литературы, общественно-политической мысли и философии. Он стремился вывести свою страну на уровень социально-политического, экономического и культурного развития ведущих европейских стран.

Его «Письма к Кемал-уд-Довле», написанные в 1863-1865 годах, как образец

просветительской литературы, были обращены против средневековой схоластики. До конца своей жизни автор работал над произведением, обогащая его историческими и научными фактами, а также перевел его на персидский и русский языки.

В статье подвергаются анализу философские и религиозные взгляды Ахундзаде. Вопреки религии и идеализму Ахундзаде разъяснил основной вопрос философии - отношение мышления к бытию, души к природе с материалистической точки зрения, и показал, что материя – основа всего. Ссылаясь на материалистическую теорию мышления, он отрицал существование сверхъестественной силы. Ахундзаде отрицал религиозное мнение о том, что мир был создан божественной силой, и утверждал, что материя является основой всего сущего в мире.

Цель – проанализировать литературные, общественно-политические, просветительские и философско-религиозные идеи М.Ф.Ахундзаде.

Методология – сравнительный анализ, наследование, анализ

Результаты исследования – поиск примирения идей Мирзы Фатали Ахундзаде с социально-политическими и идеологическими требованиями современности.

Ключевые слова: *азербайджанство, просвещение, ислам, обновление, западничес-тво, социал-демократия*

Hormat Javadova

THE ROLE OF SCİENCE AND EDUCATİON İN THE PROGRESS OF SOCİETY

Summary

The article emphasizes the important role of the founder of Azerbaijani drama, philosopher, public figure Mirza Fatali Akhundzadeh in the development of national literature and socio-political thought. As a prominent public figure, writer and philosopher, M.F. Akhundzadeh made a great contribution to the development of literature, socio-political thought and philosophy. He strove to bring his country to the level of socio-political, economic and cultural development of the leading European countries.

His "Letters to Kemal-ud-Dovla", written in 1863-1865, as an example of educational literature, were directed against medieval scholasticism. Until the end of his life, the author worked on the composition, enriching it with historical and scientific facts, and also translated it into Persian and Russian.

The article analyzes the philosophical and religious views of Akhundzade. Contrary to religion and idealism, Akhundzadeh clarified the main question of philosophy about the relationship of thoughts to being, the soul to nature from a materialistic point of view, and showed that matter is the basis of everything. Referring to the materialistic theory of thought, he denied the existence of supernatural power. Akhundzadeh denied the religious opinion that the world was created by divine power, and argued that matter is the basis of everything.

Purpose – to analyze the literary, socio-political, enlightenment and philosophical-religious ideas of M.F. Akhundzadeh.

Methodology – comparative analysis, inheritance, analysis

Results of the research – search for reconciliations between the ideas of Mirza Fatali Akhundzadeh and the socio-political and ideological requirements of modern times.

Keywords: *Azerbaijanism, enlightenment, Islam, Renewal, Westernism, Social-democracy*

UOT 1.091

Faiq Ələkbərli
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,
fəl.f.d., dosent
faikalekperov@mail.ru

CƏLİL MƏMMƏDQULUZADƏNİN DÜNYAGÖRÜŞÜNDƏ MİLLƏT, DİN VƏ MÜASİRLƏŞMƏ MƏSƏLƏLƏRİ

Məqalədə Azərbaycan Türk mütəfəkkiri Cəlil Məmmədquluzadənin dünyagörüşündə millət, din və yeniləşmə məsələlərindən bəhs olunur. Müəllifə görə, C.Məmmədquluzadənin yaradıcılığında ən çox diqqət çəkən Azərbaycan Türk xalqının yenidən oyanışı, maariflənməsi və milli dirçəlişidir. "Molla Nəsrəddin" jurnalındakı məqalələrində, eləcə də digər əsərlərində Azərbaycan Türk ziyalısı göstərməyə çalışır ki, milli kimliyin əsas ifadəsi ana dili və milli adət-ənənələrdir. C.Məmmədquluzadə, xüsusilə də "Cümhuriyyət" məqaləsində və "Anamın kitabı" pyesində millilik məsələsini əsasən doğru ifadə etmişdir. "Anamın kitabı" pyesində C.Məmmədquluzadə Azərbaycan türk ailəsində böyümüş üç qardaşın Rusiya, Qacarlar və Osmanlının tərbiyəsi altında milli köklərindən, milli adət-ənənələrindən, milli dilindən uzaq düşməsinin, yəni ruspərəst, iranpərəst və osmanlıpərəst olmalarının səbəblərini göstərmişdir. Müəllifə görə, Cümhuriyyət dövründə Məmmədquluzadənin əsərlərində milli ruh nisbətən önə çıxmış, türklükdən türkçülüyə doğru müəyyən bir istək olmuşdur. Ancaq türkçülüyə meyil əsaslı şəkildə olmadığı üçün o, milli mövqeyini inkişaf etdirə bilməmiş, beynəlmiləlçiliyin təsiri altında qalmışdır. Eyni zamanda, o, bu dövrdə də İslama münasibətdə mövqeyini əsasən dəyişməmişdir.

Məqalədə böyük "molla nəsrəddinçi"nin İslam dinini baxışları da geniş şəkildə təhlil olunmuşdur. Müəllifə görə, C.Məmmədquluzadə İslam dini, islamlığa münasibətdə çar Rusiyası dövründə müəyyən qədər, Sovet Rusiyası dövründə isə böyük ölçüdə radikallığı ilə ön plana çıxmışdır. Hesab olunur ki, C.Məmmədquluzadə İslam dininə olumuş əlavələrlə bağlı tənqidi dünyagörüşündə haqlı olsa da, ancaq bəzi hallarda ifrata vararaq həmin dinə münasibətdə obyektiv mövqe tutmamışdır. Eyni zamanda, məqalədə millət və din məsələləri ilə paralel olaraq C.Məmmədquluzadənin dünyagörüşündə müasirləşmə, yeniləşmə ilə bağlı baxışları da təhlil olunmuşdur. Müəllif hesab edir ki, C.Məmmədquluzadə yeniləşmə məsələsində də həddən artıq Qərbləşmək mövqeyindən çıxış etməklə ifrata varmışdır.

Məqsəd: Cəlil Məmmədquluzadənin milli-dini maarifçilik və türkçülük ideyalarını təhlil etmək.

Metodologiya: Müqayisəli təhlil, varislik, ideyaların ötürülməsi, analiz.

Tədiqatın nəticələri - Cəlil Məmmədquluzadənin ideyaları ilə çağdaş dövrün ictimai-siyasi və ideoloji tələbləri arasında uzlaşdırmaların axtarılması

Açar sözlər: *Azərbaycan Türk kimliyi, Azərbaycançılıq, Türklük, İslam dini, İslamlıq, Yeniləşmə, Qərbçilik, Sosial-demokratizm, "Molla Nəsrəddin"*

Giriş

Azərbaycan Türk mütəfəkkiri Cəlil Məmmədquluzadə (1869-1932) Naxçıvanda anadan olmuş, 1873-1878-ci illərdə mədrəsədə oxumuş, daha sonra Naxçıvan şəhər üçsinifli məktəbdə təhsilini davam etdirmiş və Qori Müəllimlər Seminariyasının (1882-1887) məzunu olmuşdur.

1887-1897-ci illərdə İrəvan quberniyası (Uluxanlı kəndi) və Naxçıvan qəzasında (Nehrəm kəndi) müəllim kimi pedaqoji fəaliyyət göstərən Mirzə Cəlil ilk əsərlərini ("Çay dəsgahı", "Kişmiş oyunu", "Danabaş kəndinin əhvalatları" və b.) bu dövrdə qələmə almışdır.

1897-1903-cü illərdə İrəvan və Naçıvanda hüquq orqanlarında işləyən Məmmədquluzadə 1903-cü ilin sonlarından etibarən Tiflisdə M.A.Şahtaxtlının "Şərqi-Rus" qəzeti ilə əməkdaşlıq etmiş, daha sonra da ondan "Qeyrət" mətbəəsini satın alaraq çalışdırmışdır. 1906-cı ilin aprelin 7-də Tiflisdə "Molla Nəsrəddin"in çapına başlayan mütəfəkkirin baş redaktoru olduğu jurnal 1917-ci ilə qədər Tiflisdə, 1920-1921-ci illərdə Təbrizdə, 1922-1931-ci illərdə isə Bakıda nəşr olunmuşdur.

1920-1921-ci illərdə Təbrizdə yaşayan və "Mola Nəsrəddin" jurnalının 8 sayını burada nəşr etdirən Mirzə Cəlil Bakıya döndükdən sonra həm jurnalın çapına davam etmiş, həm də Azərbaycan Türk müəllimlərinin 5-ci qurultayında (1925), Türkoloji qurultayda (1926) və Yeni Türk əlifbasının tətbiqində aktiv iştirak etmişdir. 1928-ci ildən etibarən Sovet ideologiyasının mənəvi terroru ilə üz-üzə qalan Mirzə Cəlilə ən ağır zərbələrdən biri də, 1929-cu ilin aprelində AKP MK-nin qərarı ilə "Molla Nəsrəddin" jurnalının fəaliyyətinin məhdudlaşdırılaraq Mübariz Allahsızlar İttifaqının orqanına çevrilməsi olmuşdur. Üstəlik, 1931-ci ildə jurnala dövlətin maliyyə dəstəyi dayandırılmış, "Molla Nəsrəddin"in əsas simaları (C.Məmmədquluzadə, Əzim Əzimzadə və b.) siyasi cəhətdən geridə qalmış bisavadlar elan edilmişdir ki, buna dözə bilməyən Mirzə Cəlil baş redaktorluqdan getməyə məcbur olmuşdur. O, 4 yanvar 1932-ci ildə Bakı şəhərində vəfat etmişdir. Onun əsas əsərləri aşağıdakılardır: "Danabaş kəndinin əhvalatları", "Poçt qutusu", "Ölüllər", "Anamın kitabı", "Yığıncaq" və b.

İctimai-siyasi və dini görüşləri

Cəlil Məmmədquluzadənin ilk dövrlərdə Rus-Avropa-Qərb mədəniyyətinə daha çox meyil etməsində M.F.Axundzadə və M.A.Şahtaxtlı mühüm rol oynamışdır. Xüsusilə də, onun mətbuata gəlişində və qərbyönlü yol tutmasında qərbpərəst Şahtaxtlının rolu çox olmuşdur. Şahtaxtlının baş redaktoru və sahibi olduğu "Şərqi-Rus"un bağlanmasından sonra, onun maddi-texniki bazasında «Molla Nəsrəddin» jurnalını nəşr etdirməyə başlayan Məmmədquluzadənin burada bir çox həqiqətləri ifadə etməklə yanaşı, müsəlman xalqlarının geriliyi məsələsində əsas günahkar rolunda İslam dinini görmüş və türkçülüyə isə çox da rəğbət bəsləməmişdir. Bizcə, dindar mühitdə böyüməsinə baxmayaraq Məmmədquluzadənin müsəlman xalqlarının inkişafına əsas əngəl kimi bu ideyaları göstərməsi, yəni mühafizəkar və mötədil xətt tutmasından asılı olmayaraq bütövlükdə islamçılığı, müəyyən qədər də millətçiliyi-türkçülüyü tənqid atəşinə tutması təsadüfi hesab oluna bilməz. Xüsusilə, həmin dövrün tanınmış ideoloqu Əhməd bəy Ağaoğlunun "İslam millətçiliyi" nəzəriyyəsini qəbul etməyən Cəlil bəy bildirmişdir ki, bu təlim fəhlə və kəndlilərin mənafeyinə ziddir. Onun fikrincə, Əhməd bəy Ağaoğlu bəylə kəndli, varlı ilə yoxsul arasında fərq qoymur və onları eyni zümrənin nümayəndəsi kimi qəbul edir. Halbuki, hər hansı bir bəy kəndlini görəndə nəinki onu özünə tay hesab edir, hətta ona salam verməyi belə özünə təhqir sayır. O, yazırdı: "Hələ "müsavat" nədir? Yəni sənin sözündən bu çıxır ki, bir kəndli ilə bir xan qabaq-qabağa gələndə kəndli xana baş yendirsə, xan da kəndliyə yendirsin? Sənin sözündən bu çıxır ki, bir gün rəiyyət ağanın ayağına duranda, o biri gün də ağa rəiyyətin ayağına dursun? Di cavab ver? Əgər desən "hə", onda mən gərək elə başa düşüm ki, zarafat eləyirsən? əgər desən "yox", onda ta nə "müsavat"bazlıqdır?" **(1, s.76).**

Bizcə, Mirzə Cəlil 1911-ci ildə yazsa da ki, "Molla Nəsrəddin"in məqsədi nə dinə sataşmaq, nə də təzə bir məzhəb icad eləmək olmuşdur **(1, s.512),** ancaq o, Sovetlər Birliyi dövründə "Molla Nəsrəddin"in ilk gündən İslam dinin əsaslarını tənqid etdiyini, islamçılığa qarşı olduğunu etiraf etmişdir **(2, s.288).** Onun zehnini padşahlardan, sultanlardan çox ruhanilər məşğul etmişdir ki **(2, s.68),** Məmmədquluzadə Ə.Ağaoğlu və Ə.Hüseynzadə ilə də məhz islamçılığı müdafiə etmələrindən dolayı razılaşmamışdır. O, hesab etmişdir ki, müsəlman millətlərinin uzun əsrlər müddətində fəlakət və cəhalətdən qurtara bilməmələrinin

yeganə baiskarı İslamdır. Halbuki bu iki şəxs müsəlman millətlərinin fəlakət və cəhalətdən xilas olması üçün İslamı əsas götürürlər. O, yazırdı: "Burada mən qəzet sahibləri Əlibəyi və Əhmədbəyin yazıçılıqda çox məharətli olmaqlarını təsdiq edə-edə onların qəzetlərini o yerdə xoşlamadım ki, birinci nömrənin baş məqaləsində möhtərəm qələm sahibləri çox da islamdan və müsəlmançılıqdan dəm vururdular və elə bilirəm ki, səhv eləmərəm əgər desəm ki, adi bir islam mübəlliği kimi və şəriət vaizi kimi müsəlman qardaşları islam dinində dəxi də sabit-qədəm və bərqərar olmağa dəvət edirdilər" **(2, s.63).** Onun fikrincə, milli intibah dövründə onların "millət, millət" demələri bir növ doğru olsa da, "ancaq islam tayfalarının uzun əsrlər müddətində fəlakət və cəhalətdən qurtarmamaqlarına, tək bircə islam dinini bais hesab edən bir dinsiz üçün o vaxt "Həyat"ın moizələri əlbəttə, genə xoş gələ bilməzdi" **(2, s.63).** Bizcə, İslam dininə qarşı həddən artıq radikal münasibətin nəticəsi olmalı idi ki, C.Məmmədquluzadə yalnız islamçılıqdan çıxış edən Əhməd bəy Ağaoğlunu deyil, Türk-İslam məfkurəsini əsas götürən Əli bəy Hüseynzadəni də tənqid hədəfi seçmişdir. Belə ki, o, Türk birliyini müdafiə edən və bu məqsədlə ortaq türk ədəbiyyatı, ortaq türk dili uğrunda mübarizə aparan Əli bəy Hüseynzadəni yalnız islamçılıqda deyil, osmançılıqda da ittiham etmişdir **(1, s.396-397, 519).**

C.Məmmədquluzadənin istər İslamla bağlı tutduğu radikal mövqeyi, istərsə də osmanlı dili və ədəbiyyatının Azərbaycan türkləri arasında təbliğinin tənqidi Sovetlər Birliyi dövründə onun marksist-leninçilərlə yaxınlığı kimi izah olunurdu. Çünki həmin dövrdə marksist-leninçilərin çarizmlə yanaşı, əsas mübarizə apardığı qüvvələr məhz islamçılar və türkçülər olmuşdur. Bütün bunları nəzərə alaraq, sovet ədəbiyyatında C.Məmmədquluzadə "inqilabçı-demokrat" kimi qələmə verilmiş və marksizmə rəğbət göstərildiyi qeyd olunmuşdur. Məsələn, Sovet dövründə Mehbalı Qasımov yazırdı ki, "mollanəsrəddinçi"lər başda C.Məmmədquluzadə olmaqla "mülkədar istismarını ifşa edir, ruhaniləri ələ salır və burjua millətçilərinə – panislamistlərə və pantürkistlərə qarşı kəskin mübarizə aparırdı" **(3, s. 44).**

Sovet dövrünün müəlliflərinin bu cür mülahizələr səsləndirməsinə səbəb o idi ki, islamçıları və türkçüləri tənqid etməklə yanaşı, Məmmədquluzadə birmənalı şəkildə marksizm-leninizm mövqeyində dayanmasa da, bəzi məsələlərdə bolşeviklərin ideyalarını müdafiə edirdi. Xüsusilə də, o, dinə münasibətdə tamamilə materialist mövqedə dayanmasa da, bəzi məsələlərdə – dinin dövlətdən ayrı olması, milli və dini birlikdənsə əzilənlərin əzənlərə qarşı birgə mübarizəsini daha çox qəbul edirdi. Bu baxımdan onun 1905-ci ildə bolşeviklərə məxsus qəzetdə yazdığı "Binəsiblər", "Xeyir-dua" kimi məqalələri diqqəti daha çox cəlb edir. O, bu məqalələrində göstərir ki, İranda olduğu kimi, Rusiyada da fəhlələr və kəndlilər istismar olunur. Ancaq İrandan fərqli olaraq, Rusiyada fəhlələr və kəndlilər ayağa qalxaraq, birləşərək onları istimar edənlərə qarşı çıxırlar. Məmmədquluzadə İran fəhlələrinə tövsiyə edirdi ki, onlar da dini və etnik mənsubiyyyəti bir kənara qoyaraq istizmarçılara qarşı birləşsinlər. O, yazırdı ki, İran fəhlələri Rusiyadakı öz yoldaşlarının yolu ilə gedərək İran zalımları, xanları, mollaları, şahzadələri və sairləri tərəfindən boyunlarına salınmış boyunduruqdan azad olmaq istəsələr, «o zaman onların Rusiyadkı yoldaşları, yadigar olaraq onlara öz bayrağını və bu bayraqda yazılmış müqəddəs şüarını verərlər. Qoy məzlum, bədbəxt İran zəhmətkeş xalqı bu şüarı oxusun: «Bütün ölkələrin proletarları birləşin!». Qoy oxusunlar və birləşsinlər» **(2, s.128).** Bu məqalələrdəki marksist ruhlu fikirləri əldə əsas tutan akademik Firudin Köçərliyə görə, Məmmədquluzadə «Molla Nəsrəddin»i sosial-demokratiya səviyyəsinə yüksəldə bilməsə də, onun şüarlarını, ideyalarını təbliğ etmişdi **(4, s.46, 72).**

Sovetlər Birliyi dövründə C.Məmmədquluzadə özü də yazırdı ki, Çarizm dönəmində İslam dinini tənqid edib onun aradan qaldırılmasına çalışarkən sosializm iniqlabına böyük emid bəsləmişdir: "Əvvəl və axır ümidimiz genə sosializm inqilabınadır. Əvvəl və axır ümid onadır ki, həmin sosializm bayrağı altında və sosializm şüarı təhtində islama sitayiş edən millətlər (və habelə qeyri dinlərə sitayiş edən millətlər) dünya elmlərini təhsil edib və cəmi din

və dinçilərin mövhumat və xurafatından agah olub birdən-birə azandan da əl çəkələr, müəzzindən də əl çəkələr..." **(2, s.36).**

Deməli, C.Məmmədquluzadə bir tərəfdən sosial-demokrat ideyalara meyil göstərdiyi halda, digər tərəfdən isə İslam dinini dolayı da olsa, tənqid etmişdir. O yazırdı ki, məscidlərə gedənlər yalnız fəhlə, hammal, dəllək, pinəçi, dilənçi, nalbənd, eləcə də kasıb məşədilər, kərbalayılar və hacılardır: «Əgər əcnəbi millətin birinin yolu bizim məcsidlərə düşsə, elə yəqin edər ki, müsəlman içində bir dənə də rəğbətli, dövlətli, səliqəli, təmiz və nəcib adam, bir dənə də bəy, xan, qulluqçu, oxumuş və sahibimənsəb yoxdur; yəqin edər ki, bizim müsəlman camaatı ibartədir məhz cırıq-mırıq, ac və kasıb fəhlə-fühlədən, avam məşdəi və kərbəlayılardan. Niyə xan və bəylərimiz, oxumuş və sahibi-mənsəblərimiz məscidən qaçırlar?» **(1, s.103).**

Onun fikrincə, ruhanilərin, mollaların təbliğatı nəticəsində müsəlmanlar inkişaf edə bilmirlər. Buna səbəb də müsəlmanlar arasında mövcud olan şeytandır. Məmmədquluzadə hesab edir ki, şeytan yalnız müsəlman millətləri arasında modda olan bir məxluqdur. Çünki müsəlman nə pis işi varsa hamısını şeytanın adına yazır. Bunun nəticəsidir ki, 35 yaşına çatan müsəlman cavan meşədə ayıdan, canavardan qoruxmadığı halda, evdə cindən, şeytandan, divdən, quleybanıdan qorxur. O yazırdı ki, hər bir işdə, hər bir məqamda, məscid və minbərlərdən başlamış evlərimizə, küçələrimizədək öz qəlbələrimizi şeytanın adı ilə doldurmuşuq. Halbuki əsl mömin müsəlman şeytandan uzaq olmalıdır **(1, s.313).**

Tanınmış maarifçinin Quranda xəbər verilən axirət dünyasındakı cəhənnəm və cənnət məsələsinə münasibəti də maraqlıdır. Onun fikrincə, mömin müsəlmanların cənnətdə süd gölündə hurilərlə şənlənəcəyi, kafirlərin isə cəhənnəm odunda qovrulucağı ilə deyilənlər heç də həqiqətəuyğun gəlmir. Bu baxımdan Məmmədquluzadə bu dünyadan imtina edib axirət dünyasında xoşbəxt yaşamaq arzusunda olanlara istehza edir, cənnətin bu dünyanın özündə olduğuna inanırdı. "Qəbirdən məktub" felyetonunda o, yazır: "Ey mənim ruhani qardaşlarım! Yadınızdadır ki, mən naxoş olan vaxt bir gün gəlmişdiniz, deyirdiniz: ay mola Cəlilağa, sən niyə ölüdən qorxursan? Qoy qorxsunlar günahkarlar və bəd əməl sahibləri. Sən ki, Allaha şükür, behşitibərinə qalxıb cənnətməkan və Firdovsaşiyan və mələikilərlə həmsinc olacaqsan. İndi mən buraya gəlib həmin sözlərinizi yadıma salıram və ürəyim az qalır qanla dolsun... Yenə hədsiz şükürlər olsun dünyada gördüyüm günlərə! Ax o günlər, o dəmlər, o zamanlar" **(1, s.16-17).**

Mirzə Cəlil müsəlmanlar arasında sünni-şiə davasını da ikiüzlü mollaların, ruhanilərin ortaya atdığını yazırdı: "Avam nə bilir sünnü nədir, şiə nədir? Molla örgədib. Avam nə bilir ki, şiə sünnünün və sünnü şiənin düşmənidi? Molla örgədib" **(1, s.441).** Onun fikrincə, bu məsələdə din xadimlərinin məqsədi avam müsəlmanları bir-birinə qırdırıb varlanmaq və nüfuz sahibi olmaqdır.

C.Məmmədquluzadə "Ölülər" tragikomediyasında (1909) kefli İskəndərin dili ilə yalnız Azərbaycan türk cəmiyyətinin nə qədər geridə qalması, cəhalət və nadanlığın qurbanı olması, ruhanilərin ikiüzlülüyü deyil, həmçinin dinin daşıdığı məzmun və mahiyyət də müəyyən qədər tənqid hədəfi olmuşdu **(5, s.428-429).** Bunu, müəllifin "Molla Nəsirəddin" jurnalında çap olunan yüzlərlə satirik məqalələrindən və sovet dövründə yazdığı "Xatiratım" memuarından da görmək olar.

C.Məmmədquluzadə məhərrəmliklə də bağlı bir çox felyetonlar və məqalələr yazmışdır. Bizə elə gəlir ki, C.Məmmədquluzadənin məhərrəmliyə həsr etdiyi məqalələrinin («Baş yarmaq», «Düşmənlər», «Məhərrəmlik», «Təziyədarlar» və b.) ümumi ruhunu bu mərasimlə bağlı həyata keçirilən və islamın da ümumi ruhuna zidd olan əməllər («Heydər təpmək», baş yarmaq, zəncir vurmaq və s.) təşkil etmişdir. «Baş yarmaq» məqaləsində o yazırdı ki, artıq yalnız elm adamlarının deyil, hətta bəzi din xadimlərinin də məhərrəmlikdə, xüsusilə Aşura günündə baş yarmağın, zəncir vurmağın günah iş olduğunu bəyan etmələri müsbət haldır.

Ancaq bu hal müvəqqəti xarakter daşımamalı və həmin ruhanilər hər ildə bir fikrə düşməməlidirlər. O yazırdı: "Bir gün deyirik: "qatıq ağdır" - deyirsiniz: "bəli". Sabah kefimiz istəyəndə deyirik: "qatıq qaradır" - deyirsiniz: "bəli". Yazıq müsəlmanlar! Bakıda qazılar buyururlar ki, "baş yarmaq gunahdır", - deyirsiniz: "bəli"; Naxçıvanda buyururlar ki, "yarmamaq günahdır" - deyirsiniz: "bəli"" **(1, s.135).**

C.Məmmədquluzadənin fikrincə, dünyada elə bir məmləkət və millət yoxdur ki, orada bir ruhani, yaxud da alim minbərə çıxaraq bir gün öz millətinin başının yarılmasının, qanının tökülməsinin lehinə, sabahısı gün isə əleyhinə olsun: «Mənim yəqinimdir ki, əgər Bakı camaatının yerinə Pataqoniya camaatı da olsaydı, ya Sibirin meşədə yaşayan tayfalarından biri olsaydı, yenə mollaların bu sözlərinin qabağında bir cavab verərdilər; deyərdilər ki, «axır, ay ağalar, bu nə sözlərdir danışırsınız? Bu yekəlikdə zarafat olmaz. İndiyədək bizə buyururdunuz: "Müsəlmançılıq ibarətdir baş yarmaqdan və mollalara sitayiş etməkdən" Amma indi özgə cür danışırsınız. Bizi ələ dolamamısınız ki?!" **(1, s.136).**

O hesab edirdi ki, məhərrəmliyin bəzi müsəlmanlar tərəfindən ifrat şəkildə qeyd edilməsinin nəticəsi olaraq "məhərrəmlik yaxınlaşır" sözlərini eşidən həqiqi müsəlmanlar ölkədən baş götürüb qaçırlar. Onun fikrincə, buna səbəb məhərrəmliyin İmam Hüseynin (ə) şəhadətinə uyğun olaraq təziyə və ibadət şəklində həyata keçirilməməsi ilə bağlıdır. C.Məmmədquluzadə yazırdı: "Çünki küçələri bambılı kimi atılıb düşə-düşə dolanmaq, öz əli ilə öz başını-gözünü qana boyamaq, nəinki avamlıq, vəhşilik, bəlkə də dəlilikdən də dəlilikdir" **(6, s.136).** Onun fikrincə, buna son vermək üçün məhərrəmliyin və yaxud Aşura gününün əsl mahiyyəti müsəlmanlara doğru çatdırılmalıdır.

Hətta, müsəlmanlar Aşura günündə həyata keçirdikləri dini oyunları ilə avropalıların da marağına səbəb olmuşdur. Belə ki, onlar da bu məsələyə ciddi diqqət yetirir və bir neçə məsələni öyrənməyə çalışırlar: 1) əgər baş yarmaq şəriətdə varsa, nə səbəb indiyə qədər baş yaranlar arasında bir molla görsənməyib? 2) vaxtlarını qumar və içki məclislərində keçirən müsəlman «intellgentləri» nə qəsd ilə Aşura günü dəstə qabağına düşüb baş yaranların qanlarını dəsmalları ilə silirlər? 3) niyə baş yaranlar yalnız avamlar və cahillərdir, yəni onların arasında maarif əhli yoxdur? C.Məmmədquluzadə əcnəblərin bu suallarına cavab verə bilmədiklərini desə də, ancaq bütün bunlardan belə bir nəticə çıxartdıqlarını yazmışdır: "Bu gün Kərbəla meydanı – Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır! Axıtmalı qanlarımız, ehsan etməli pullarımz varsa, - gözümüzün qabağında ürəklər parçalayan Azərbaycan matəmgahı durur. Bu gün ən böyük ibadət, ən birinci din və vətənpərvərlik oraya kömək etməkdir ki, həm Allah, həm də Həzrəti Hüseyn razı qalsın. Yoxsa, Tiflisin, Bakının küçələrində qışqıra-qışqıra gəzib, yalançılıqdan başımızı cızıb bir az qan axıtmaq Hüseyn övladına və Rüstəm nəslinə yaraşan igidlik deyil. Bu gün Kərbala meydanı Azərbaycan meydanıdır!" **(1, s.356).**

Bu baxımdan C.Məmmədquluzadə hesab edirdi ki, məhərrəmliklə bağlı yığıncaqlar keçirilməli və həmin toplantılarda din xadimləri ilə yanaşı, elmli və bilikli insanlar da iştirak etməlidirlər. Onlar birlikdə məhərrəmliyin əsl mahiyyəti ilə bağlı müsəlmanları bilgiləndirməli və onları başa salmalıdırlar ki, İmam Hüseyni (ə) layiqincə və təmkinlə yad etməlidirlər. O yazırdı: "Bu yığıncaqlardan və bu danışıqlardan murad odur ki, camaat təziyənin nə olduğunu başa düşsün və məhərrəmlikdə təziyə saxlamalı olsa, məscidə və qeyri ibadətxanaya daxil olub imamı layiqincə və təmkinlə yad etsin və dəxi küçələrə düşüb nərə etməklə dünyanı öz vəhşiliyinə şahid çəkməsin. Mənim sözüm orasında deyil; sözüm orasındadır ki, indi haman yığıncaqlarda natiqin biri ki, məsələn deyir – qardaşlar! Baş yarmayın və bədəninizi zəncirlə yaralamayın, çünki başı insana Allah-təala ondan ötrü verməyib ki, baş sahibi öz əli ilə öz başını yaralasın, ondan ötrü veribdir ki, məsələn, birinin başına yara toxunanda, o biri insan başını işlətsin və bu yaraya bir dərman tapsın. Bədəni ondan ötrü Allah-təala öz mömin

bəndələrinə verməyib ki, mömin bəndə öz yumruğu ilə öz döşünü zədələsin; ondan ötrü verib ki, insan döşünü qabağa verib, bir tərəfdən əhlü əyalına çörək qazansın və lazım olan yerdə də döşünü qabağa verib vətənini mühafizə etsin" **(6, s.136).**

C.Məmmədquluzadə hesab edirdi ki, imama təziyə saxlayanlar, "Ya Əli, Ya Hüseyn!" deyə-deyə nərə çəkib Aşura günü baş yaranların xeyli hissəsi uşaqlar və yeniyetmələrdir. Onları yoldan çıxaranlar isə hacılar, mollalar, mərsiyəxanlar və başqlarıdır. Halbuki yeniyetmələri və gəncləri yoldan çıxaran din xadimlərinin özləri bu mərasimi kənardan izləyir və göstəriş verməklə kifayətlənirlər. Yəni həmin hacılar və mollalar imam yolunda nə başlarını yarır, nə də qanlarını tökürlər. Çünki Məmmədquluzadənin təbrincə desək "əgər bunların bir nəfərinin imama doğrudan ürəyi yanırsa, onların hamısının babalı mənim boynuma olsun" **(6, s.138).**

O, İslam dinində orucluq mərasiminə münasibətini də bir çox feleytonlarında ("Oruc yeyənlər", "Orucu batil eləyən şeylər" və s.) ifadə etmişdir. Məmmədquluzadəyə görə bir çox müsəlmanlar sözdə oruc tutur, əslində isə ona əməl etmirlər **(1, s.87-89).** Daha sonra da orucu batil edən şeylərin qəzet, ruznamə oxumaqmı, yoxsa axundların yalan danışması, şəriətə əməl etməməsi ilə bağlı məsələləri qoyur **(1, s.91).**

"Hansı elmlər lazım?" feleytonunda da İslam dininə qarşı olan mənfi mövqeyini gizlətməyən Məmmdəquluzadəyə görə, Ə.Axundoğlunun dini elmlərin vacibliyi, mənəviyyatın maddiyyatdan üstünlüyü ilə bağlı mülahizələri müsəlman xalqlarına yaxşı heç nə vəd etmir **(1, s.36-38).** O, "Axund ilə keşişin vəzi" məqaləsində bir daha göstərir ki, türklər (Azərbaycan) ermənilərlə müqayisədə çox geri qalıblar. Belə ki, erməni millətinin dünyada üç sevgili balasından, yəni "vətən", "millət" və "dil"dən bəhs etdiyi **(1, s.47)** halda, axund isə cinlərdən, quleybanlardan danışır. Bununla da Məmmədquluzadə rus ideoloqlarının dili ilə "müsəlmanların adam və abrazovannı olmaları üçün", "vəhşi müsəlmanların bədəvi adətlərini qaldırıb, onların yerinə bizim gözəl və mədəni rus adətləri"nin öyrənilməsindən bəhs edir **(1, s.9).**

Sovet Rusiyası işğalından öncə dinə münasibətdə müəyyən qədər ifratçılığı ilə seçilən C.Məmmədquluzadə Sovetlər Birliyi dönəmində də eyni müddəalarını bu dəfə açıq şəkildə müdafiə etmişdi. O, "Xatiratım"ında da etiraf edirdi ki, "Molla Nəsrəddin" ilk gündən qarşısına əsas məqsəd kimi yalnız dini mövhumatın, dini xurafatın deyil, bütövlükdə "din, məzhəb, şəriət, etiqad, iman, cənnət, cəhənnəm, müctəhid, molla, keşiş, xaxam, mürid, habelə bütün bu qism sözlər gərək insanlar arasından götürülüb lüğətlərdən, kitablardan, yazılardan tamamilə silinib tullansınlar! Məscidlər, kəlisalar, sinaqoqlar, təkyələr, ibadətgahlar, pirlər, ziyarətgahlar, məhfillər, əza yerləri tamamilə sökülüb, dağıdılıb maarif və mədəniyyət evlərinə döndərilsinlər" **(2, s.288).** Bu dövrdə C.Məmmədquluzadənin M.F.Axundzadəyə həsr etdiyi məqaləsi də göstərir ki, o bütövlükdə dinləri, o cümlədən İslamı və Allahı inkar etmişdi: "...Bizim məqsədimiz budur ki, biz allahın dərgahından qovulanlar, bari Mirzə Fətəlinin allahsızlığı ilə təsəlli tapaq və bəlkə də, hələ buna iftixar edək" **(2, s.281).** O, əlavə edirdi ki, qiyamət günü, cəhənnəm və cənnətlə bağlı deyilənlər inandırıcı deyil, çünki ustadı Mirzə Fətəli demişkən torpağa getdin, qayıtmaq yoxdur.

Mütəfəkkir artıq Sovetlər Birliyi dövründə kommunistlərin Allahın varlığını inkar edən ilk qüvvə kimi göstərilməsinin səhv olduğunu da yazırdı. Xüsusilə, onun bu dövrdə Darvininin təlimi barədə söylədiyi fikirləri materalizmə meyilliyinə bir sübutdur: O yazır: «Xudavəndi aləmin varlığına şəkk gətirmək barəsində biçarə kommunistlərin adı o qədər "bədnam" olubdur ki, indi bir kəsə söyləsən ki, hələ kommunistlərdən çox qabaq zamanlarda cənab Allahı dananlar var imiş; çoxları ola bilər ki, bu sözlərə inanmaya, amma əgər tarix kitablarını bir yüngülcə varaqlasaq, baxıb görəcəyik ki, Allahın varlığını inkar etmək üstə çox alimlər və filosoflar edam cəzası ilə cəzalanıblar. Doğrudur, öz fənni kəşfiyyatı ilə ilahiyyata ən güclü zərbə yetirən Darvin öz əcəli ilə bu dünyadan getdi, amma o qədər ki, onun və onun müridlərinin başına müsibətlər gəlibdir, - onu burada yazımaq ilə qurtarmaq olmaz... Biz əgər

duraq Darvin məsləkini tamamilə qəbul edək, onda da biz gərək cəmi kitabi-müqəddəsini də və o cümlədən Quranı da büküb qoyaq kənara və bunların ehkamının cümləsini bir əfsanə hesab edək» **(6, s.367).**

O, baqa bir məqaləsində də yazırdı ki, Allahın varlığını danmaq kommunistlərlə başlamır və onun tarixi qədimlərə gedib çıxır. Belə ki, bir çox peyğəmbərlər, o cümlədən Hz. Musa Allahın yeri və məkanı ilə bağlı suala cavab verərəkən Onun göydə olduğunu iddia etməsinə cavab olaraq Misirin Fironu ən uca qəsr tikdirmiş, daha sonra da xalqa demişdir ki, Musa yalançıdır çünki göydə Allah yoxdur. Məmmədquluzadə yazırdı: "Demək, Allahın varlığını inkar etmək söhbəti təzə deyil, qədim söhbətdir; bu söhbət həmən söhbətdir ki, Musanın möcüzələrinin (yəni indiki istilahda fırıldaqlarının) qabağında Firon onun bicliyini duyub, məcbur olub cavab verməyə ki, Allah yoxdur" **(6, s.335).** Onun fikrincə, hər dövrdə bir insan ortaya atılıb özünü Allah tərəfindən göndərilmiş peyğəmbər elan edərək əsilsiz, məntiqsiz dəlillərlə dünyanı yaradan bir Allah vardır dediyi halda, ancaq avam camaatın içindən hər əsrdə də gözüaçıq şəxslər meydana çıxıb həmin peyğəmbərləri də, onları göndərən Allahın varlığını da qəbul etməyiblər **(6, s.354).** Qabaqcıl Maarif xadimi, dos. Müstəqil Ağayev hesab edir ki, bununla da Mirzə Cəlil M.F.Axundzadənin Allah haqqında düşüncələrini, dilinə gətirdiklərini təsdiq edir, ruhanilərin özlərinin də bu əqidədə olduqlarını, ikiüzlülük edərək avam camaata düşündüklərinin əksini söylədiklərini göstərir: "O, insanla birlikdə, bir yerdə bütün canlıların Allah tərəfindən yaradıldığını təkid edən Quran ayələrinə inanmır, peyğəmbərlərin Allah elçiləri olmalarını qəbul etmir və deyir ki, onlar riyasət məqsədilə meydana atılmış nadürüst adamlardır" **(7, s.87).**

"Dinsizlik" adlı məqaləsində də Allahın varlığını şübhə altına alan Məmmədquluzadəyə görə, fransız filosofu Holbax haqlı olaraq Allaha istinad edilən sifətləri maddədə görmüş, yəni Allah varsa onu da, gözə görünən kainatın içində, bəlkə də kainatın özü hesab etmişdir. Bu baxımdan o, da Holbax kimi Allahın rəhimlilik, adillik, hər şey görmək və bilmək kimi sifətlərini şübhə altına almışdır **(6, s.168).** Daha doğrusu, onun bu şübhələri əslində Allahın varlığını inkar etməkdən başqa bir şey deyildi. Çünki çox keçmədən o aşkar şəkildə yazırdı ki, əgər Allah var olsa idi, baş verən haqsılıqların qarşısını alar, ən azı ona tapınan möminləri fəlakətli işlərdən qoruyardı. O, yazırdı: "Əgər bu işləri görürsən, niyə, bəs dinmirsən? Əgər bacarmırsan və acizsən, bəs, niyə sənə "qadir" deyirlər? Bunların hamısı keçəndən sonra axı bir de görüm hardasan? Yerdəmisən? Əgər yerdəsən, – yerin harasındasan? Əgər göydəsən, – göyün harasındasan? Əgər yerini məxfi saxlamaq istəyirsən – niyə? Bunun da səbəbini bilsək nə eybi var? Bir surətdə ki, nə dinirsən, nə danışırsan, nə yerini-yurdunu bildirirsən, nə varlığından bir xəbər göndərirsən, nə cismisən, nə cövhər, nə ərəz – demək, nə yerdəsən, nə göydə, nə adilsən, nə də zalım, nə böyüksən, nə kiçik, nə yaxşısan, nə pis – dəxi bir yolluq degilən: "İnsanlar məndən əl götürünüz. Mən yoxam, yoxam, yoxam!" **(6, s.249).** C.Məmmədquluzadənin bütün bu fikirlərini haqlı olaraq materializmə yozan prof. İzzət Rüstəmov yazır: "Heç şübhəsiz ki, Cəlil Məmmədquluzadənin ateist irsi Azərbaycan ictimai-fəlsəfi fikrinin inkişafında, intibahında çox mühüm rol oynamışdır" **(8, s.404).**

Əlbəttə, İ.Rüstəmovun müsbət mənada ifadə etdiyi Məmmədquluzadə irsinin müsbət tərəfləri ilə yanaşı, mənfi cəhətlərinin olmasını da unutmaq olmaz. Məsələn, «Molla Nəsrəddin» jurnalının SSRİ dövründəki saylarının (1925, 7 fevral, №6) birinin üz qabağında Marksın «Kapital» əsəri ilə abidəsini, onun yanında Molla Bağırı vermişdir. Marksın abidəsinin altında: Bütün ölkələrin yoxsulları birləşiniz! Molla Bağır Məclisinin altında: Bütün Şərqin dindarları birləşiniz! Daha sonra Məmmədquluzadə M.B.Məclisinin dilindən yazırdı: Ay axmaq Şərq camaatı! Nə tökülmüşsünüz bu kişinin dalınca. Onun yazdığı bir Kapitaldır. Amma mən M.B.Məclisi yüzlərlə kitab yazmışam **(9, s.63).** Şübhəsiz, Məmmədquluzadənin bu müqayisəsi yanlış idi. Çünki İslam dinin əsas kitabı Quran idi, M.B.Məclisinin yüzlərlə

kitabları yox.

Göründüyü kimi Cəlil Məmmədquluzadənin dinə, o cümlədən islama münasibəti daha çox tənqidi xarakter daşımış, o yalnız dini mövhumatı, xurafatı və dini fanatizmi deyil, müəyyən qədər şəriət qanunlarını da tənqid etmişdir. Doğrudur, dinə qarşı olan tənqidi fikirlərinə görə C.Məmmədquluzadəni birmənalı şəkildə ateist və yaxud da allahsız adlandırmaq da mümkün deyil. Ancaq onu da etiraf etməliyik ki, C.Məmmədquluzadənin dinə münasibəti daha çox tənqidi olmuş və o, bunu bir çox hallarda da gizlətməmişdir.

Sosial fəlsəfi görüşləri

Cəlil Məmmədquluzadənin dünyagörüşündə sosial fəlsəfəyə aid milli özünüdərk, hakimiyyət, dil, azadlıq, insan problemləri də xüsusi yer tutmuşdur. Milli özünüdərklə bağlı "Vətənə məhəbbət" məqaləsində Məmmədquluzadə göstərirdi ki, erməni və gürcülər millət və vətən məhəbbətindən bəhs etdikləri halda türklər (Azərbaycan) ancaq şəxsi maraqlarını güdürlər **(1, s.60).** Üstəlik, milli kimlik baxımından da özünü hələ də türk deyil, müsəlman hesab edən **(1, s.62-63)** Azərbaycan türkləri digər müsəlman xalqları kimi 12 ayın hamısını ağlamaqla keçirirlər **(1, s.65).** O yazırdı: "Gürcü mühərrilərindən bir rəfiqim dünən gəlmişdi bizə söhbətə. Danışıq millətlərin qabağa gəlməyindən düşdü. Rəfiqim başladı ki, hər bir millət üçün nicat yolu tapmaq balaca uşaqları məktəbə göndərib tərbiyə verməklə əmələ gəlir. Əgər belə olmasa, heç bir şey fayda bağışlamaz: nə hürriyyət, nə məşrutiyyət, nə cümhuriyyət, nə zənburiyyət, nə çənçuriyyət..." **(1, s.66).** Onun fikrincə, bütün bunlardan sonra demək ki, Rusiya, Avropada yaşayan müsəlmanların məqsədi birlikdir, bu həqiqəti özündə əks etdirmir. Çünki bir-birinə qənim kəsilən, şiə-sünni deyə ayıran müsəlmanların birliyindən danışmaq mənasızdır **(1, s.95).**

Mirzə Cəlil onu da etiraf edirdi ki, uşaqlarını rus evlərinə, rus məktəblərinə verən müsəlmanlar bununla da, onları yalnız İslam dinindən deyil, türklükdən də uzaqlaşdırmış olurdular. O, yazırdı: "Dünyada biz müsəlmanlar tək heç bir millət yoxdur ki. Rus məktəbinə uşağını qoymaq üçün əvvəl uşağı aparıb rus evinə qoysun və öz əlilə, öz xahişilə balalarını, millətini ruslaşdırmağa çalışsın" **(1, s.346).**

1917-ci il fevral burjua inqilabından sonra o, marksizm-leninizmlə milli-demokratizm arasında tərəddüd göstərmişdir. Belə ki, 1917-ci ildə yazdığı «Cümhuriyyət» məqaləsində o, xalq hakimiyyətinin, yəni demokratik respublikanın prinsiplərindən və azadlıqlarından (etiqad, yığıncaq, birləşmək, danışmaq, siyasi partiyalar yaratmaq və s.) bəhs etmişdir. Onun fikrincə, Cümhuriyyət qanun gücü ilə idarə olunur ki, o qanunları da xalq tərəfindən seçilən millət vəkilləri yazıb təsdiq edirlər. Burada prezident ya xalq, ya da parlament tərəfindən seçilir ki, Cümhuriyyət idarəsinin seçkisinin dörd: 1) ümumi seçki, 2) bərabərlik, 3) düzbədüzlük, 4) səsvermənin gizliliyi kimi şərtləri var **(2, s.191-192).**

O, bu dövrdə Azərbaycan xalqının milli birliyi və istiqlaliyyəti, o cümlədən Cümhuriyyət ideyası uğrunda mübarizə aparan Azərbaycan milli hərəkatının lideri, milli ideoloq Məhəmməd Əmin Rəsulzadəyə üzünü tutaraq yazırdı: "İndi də Bakıda seçki məcəlləsi düşüb ortalığa və Məhəmməd Əmin Rəsulzadə həmişəki kimi çalış-vuruş, çalış-vuruş nə var, nə var, mən millətin əlindən yapışacağam. Çox əcəb, yapış, vuruş qəzet yaz, nitq söylə, o şəhərə get, yenə yaz, yenə yaz, yenə danış, amma, - bu işlərin iki nəticəsi var: biri budur ki, atalar demişkən "el üçün ağlayanın gözü kor olar", nə qədər çalışrsan çalış, yenə axırda sənə qalacaq haman yazmaq, yazmaq və hələ çox danışsan və ata və analarından xəbəri olmayan müsəlman qardaşların arzusu yerinə yetsə – bəlkə dustaqxanalarda millət yolunda çəkdiyin günləri yenə ziyarət etmək" **(10, s.215).**

C.Məmmədquluzadə daha sonra sözlərinə belə davam edir: "İkinci nəticəsi budur ki, indi sən, əzizim doğrudur ki, çalışırsan və bu çalışmaqdan da söz yox millətə də az-çox mənfəət

gətirirsən və özünə də şöhrət qazanırsan, buna sözüm yox – amma burası var ki, sənin bu çalışmağın mənə xoş gəlmir, səbəb budur ki, əvvəla mənim məsləkimə ziddir (çünki həqiqi millətçilik, həqiqi vətənpərvəprlik, həqiqi islamçılıq olan yerdə yalançı islamçılığa, yalançı vətənpərvərliyə və yalançı millətçiliyə yer qalmır – F.Ə.) və ikincisi mənim fitrətim ilə düz gəlmir ki, sən millətçi olub şan və şöhrət qazanasan, mən də kənardan durub baxım" **(10, s.216).**

C.Məmmədquluzadə doğru olaraq qeyd edirdi ki, sözün həqiqi mənasında millətin arasından M.Ə.Rəsulzadə kimi bir şəxsiyyət tapılıb milli ideoloqa çevrilirsə, gözü götürməyənlər müxtəlif yollarla onu ləkələməyə çalışacaqlar. C.Məmmədquluzadənin dili ilə desək: "Yox belə ola bilməz, mən səni qoymaram məqsədinə çatasan, mən səni peşman elərəm, mən səni sındıraram, mən səni yox elərəm və bundan da asan iş mənim üçün yoxdur, bir istəkan su içməkdən asandır. Məhz lazımdır saqqalımı qaraldıb daxil olum mollalar məclisinə və bir ovqat yalandan məsciddə görsənim və sonra orada-burada səs buraxım ki, Məhəmməd Əmin Rəsulzadə istəyir yeddi cüzini çıxardıb atsın" **(10, s.216).** Deməli, C.Məmmədquluzadə bu dövrdə anlamışdır ki, millətin nicatı onun öz əlindədir və bunu həyata keçirmək üçün millətin həqiqi rəhbərə ehtiyacı var. Dövründə belə bir rəhbərin Rəsulzadənin olmasına şübhə etməyən C.Məmmədquluzadə Azərbaycan türklərini onun ətrafında birləşməyə, onu müdafiə etməyə çağırmışdı.

Azərbaycançılıq və Azərbaycan türkçülüyü

C. Məmmədquluzadə 1917-ci ildə qələmə aldığı «Azərbaycan» məqaləsində də açıq şəkildə Azərbaycan türkçülüyü ideyasını müdafiə etmişdir. O artıq yazırdı ki, vətəninin adı Azərbaycan, millətinin və dilinin adı isə türkdür **(6, s.4).** Bizə elə gəlir ki, milli-demokratik ideyaya rəğbətin davamı olaraq o, «Anamın kitabı» (1920) pyesində həmvətənlərinə milli qürur, vətənpərvərlik hissi oyatmağa çalışmışdır. Bu əsərində C.Məmmədquluzadə Azərbaycan Türk ailəsində böyümüş üç qardaşın Rusiya, Qacarlar və Osmanlı Türkiyəsi tərbiyəsi altında milli köklərindən, milli adət-ənənələrindən, milli dilindən uzaq düşməsinin, yəni ruspərəst, iranpərəst və osmanlıpərəst olmalarının səbəblərini göstərmişdir. Maraqlıdır ki, qardaşlar milli köklərindən uzaq düşsələr də, çar senzoru onları min il yuxuda olan camaatı hökumət əleyihnə birləşidirb, müstəqil Azərbaycan hökuməti əmələ gətirməkdə şübhəli bilir **(5, s.462).** Əsərin sonunda Gülbaharın qardaşlarının Rusiya, Qacarlara (iranlılaşmış Qacarlar) və Osmanlıya aid kitablarını yandıraraq, "anamın kitabı", yəni "milli kitabı" saxlamasında milli özünüdərkə, müstəqil və milli Azərbaycan dövlətinin qorunmasına bir çağırış var **(5, s.475).**

Bizcə, 1917-1920-ci illərdə Məmmədquluzadənin əsərlərində milli ruh nisbətən önə çıxmış, türklükdən türkçülüyə doğru müəyyən bir istək olmuşdur. Ancaq türkçülüyə meyil əsaslı şəkildə olmadığı üçün o, milli aydın mövqeyini inkişaf etdirə bilməmiş, beynəlmiləlçiliyin təsiri altında qalmışdır. Eyni zamanda, o, bu dövrdə də İslama münasibətdə mövqeyini əsasən dəyişməmişdir.

Mirzə Cəlilin yaradıcılığında dil məsələsi də mühüm yer tutmuş, o, bir tərəfdən Osmanlının İstanbul ədəbi türkcəsinin, o biri tərəfdən də dildə ruslaşdırılmanın əleyhdarı olmuşdur. C.Məmmədquluzadə «Molla Nəsrəddin» jurnalının ilk sayındaca (1906) bəyan etmişdir ki, o «Türk dili» dedikdə, Hüseynzadədən fərqli olaraq Osmanlının İstanbul şivəsini deyil, Azərbaycan xalqının danışdığı açıq ana dilini nəzərdə tutur: «Məni gərək bağışlayasınız, ey mənim Türk qardaşlarım ki, mən sizlə türkün açıq ana dili ilə danışıram» **(1, s.4-5).** Onun fikrincə, iki rus dilini bilən oxumuş erməni ikilikdə yenə də erməni dilində danışdığı halda, ancaq iki türkün (Azərbaycan) ikilikdə də, digər yerlərdə də rus dilində danışmaları doğru deyildir **(1, s.96).**

Sovetlər Birliyi dövründə isə dil məsələsində C.Məmmədquluzadə "Türk dili" dedikdə,

xalqın canlı danışıq dilini nəzərdə tutsa da, Azərbaycan Türk ədəbi dilinin xalqın açıq ana dili əsasında formalaşmasını məqsədə uyğun saymamışdır: "Əlbəttə, bu dil ki, biz onunla "Molla Nəsrəddin"i yazırdıq, o dili biz ümumi türklər üçün ədəbi dil hesab etmək fikrində deyilik və bu da bizə heç lazım deyil. Bizim məqsədimiz hal-hazırda öz fikrimizi asan bir dillə Azərbaycan türklərinə və bəlkə də sair türklərə yetirmək idi. Və zənn edirəm ki, yetirirdik də... Bizim də şüarımız dil yaratmaq deyil idi, ancaq dərdi-dilimizi hal-hazırda camaat başa düşən dildə ona yetirmək idi" **(2, s.74-75).** Ancaq o, bununla yanaşı ədəbi dil kimi «Molla Nəsrəddin» xəttinin tutulmasına rəğbətini də gizlətmirdi. Məmmədquluzadə «Molla Nəsrəddin» jurnalının SSRİ dövründəki saylarının birində «Təmizləmək» məqaləsində Bakıda keçiriləcək Türkoloji qurultayla bağlı dil məsələsinə toxunaraq yazırdı: «İndi türkoloji qurultayı da bir belə sil-süpürə, yır-yığışdıra başlayacaqdır. Amma bu qurultayın təmizləyəcəyi ev deyil, dildir və özü də Türk dilidir. Bəziləri dildə nə zibil ola biləcəyini soruşa bilərlər. Dərd elə burasındadır ki, heç bir evdə bizim dilimizdə olan qədər zibil yoxdur. Əlifba zibili, əruz vəzni zibili, ərəb dili zibili, fars dili zibili, din zibili və başqaları. Türk dilini bütün bu zibillərdən təmizləmək lazım gəlir» **(11, s.632).**

"Molla Nəsrəddin" jurnalının baş redaktoru mühacirətdə olan milli ruhlu azərbaycançılara söz atmaqdan da geri qalmırdı. Belə ki, "Molla Nəsrəddin" jurnalının saylarının birində müsavatçılara sataşan C.Məmmədquluzadə yazırdı: "Bu da bir cür məhərrəmi. Berlində yaşayan bəzi Müsavat qaçqınları, Şura Azərbaycanının 6-cı il dönümündə, Berlin restoranlarından birini Müsavat bayraqları ilə bəzəyib, gecə yarısınacan matəm saxlamışlardır". Jurnalın üz qabığındakı şəklində "Müsavat" qaçqınları üçboyalı bayraqla bəzədilmiş restoranda 27 aprel işğal gününə həsr olunmuş tədbir keçirirlər. Məmmədquluzadə onların dilindən yazırdı: "Necə qan ağlamasın daş bu gün, Qalmışıq xaricdə biz kibi ovbaş, bu gün" **(9, s.767).**

Qadın azadlığı problemi

C.Məmmədquluzadənin sosial fəlsəfi dünyagörüşündə insan problemi və qadın azadlığı da mühüm yer tutmuşdur. "Danabaş kəndinin əhvalatları" əsərində o, Xudayar bəyin, Məşədi İsmayılın nümunəsində insanlıqla bir araya sığmayan xüsusiyyətləri ortaya qoymaqla yanaşı, Məmmədhəsən əmi, Zeynəbin timsalında isə insanlıq keyfiyyətlərinin daşıyıcılarının avam, çarəsiz olmasının səbəblərini göstərməyə çalışmışdır. Üstəlik, müsəlman bir cəmiyyətdə qadın olmanın daha da ağır olmasını ifadə etməyə çalışan Mirzə Cəlilə görə, sağlam olmayan xəstə bir mühitdə insanlıq keyfiyyətləri öz əhəmiyyətini itirir və öz yerini zora, zülmkarlığa, özbaşnalığa tərk edir. Çünki Xudayar bəylərə, Məşədi İsmayıllara müəyyən imtiyaz verərək azğınlaşdıran, qudurdan da, eyni zamanda Məmmədhəsən əmiləri, Zeynəbiləri alçaladan, çarəsiz bir vəziyyətə salan da xəstə təfəkkürlü, xəstə ruhlu sosial-siyasi quruluşdur. Yəni onların yaşadığı dövrdə elə bir sosial-siyasi quruluş hökm sürür ki, burada insani keyfiyyətlərə malik olmaq, xüsusilə də qadın olmaq çox çətindir. Belə ki, Xudayar bəylər istəyəndə Məmmədhəsən əmiləri lüt qoyub, Zeynəbləri isə zorla özünə arvad edə bilirdi **(5, s.47-67).**

Ümumiyyətlə, Mirzə Cəlil bütün yaradıcılığı boyu insan problemi, o cümlədən qadın azadlığı məsələsinə daim diqqətlə yanaşmış, bu problemin əsas səbəbkarının əsasən islam dini ya da şəriətin və despotizmin olmasını göstərməyə çalımışdır. Məsələn, o, Qacarlardan işləmək üçün çar Rusiyasına, o cümlədən Bakıya gələn və "həmşəri" adlandırılanların insan yerinə qoyulmamasının və təhqir olunmasının səbəblərini göstərməyə çalışmışdır. O, yazırdı: "Mən indiyə kimi heç bilməzdim həmşəri nədir; mən ancaq bunu bilirdim ki, həmşəri fəhlədir, hambaldır, kankandır, biçinçidir, nökərdir, su daşıyandır, qəlyana od qoyandır, tulambarçıdır. Mən inidyə kimi elə bilirdim ki, həmşəri milçəkdir, torpaqdır, daşdır, kol-kosdur; amma heç bilməzdim ki, həmşəri də adamdır"**(1, s.128).**

Qadın azadlığı məsələsinə gəlincə, Mirzə Cəlil çoxarvadlılığa, erkən yaşda qızların

evləndirilməsinə, məişət zorakılıına qarşı çıxırdı. Ona görə, qadınlarla qeyri-insani, zorakı üsullarla rəftar etmək insanlığa tamam ziddir. O, buna örnək kimi qeyri-müsəlman xalqlarının bununla bağlı qayda-qanunlarını göstəriridi: "Bunu heç kəs dana bilməz ki, əcnəbilər və kafirlər məhz bir arvad alırlar və ölən günə kimi həmin bir arvada qane olurlar. Əgər bunlar bir-birini xoşladı, ömürlərinin axırnadək bir yerdə yaşayacaqlar, əgər xoşlamasalar, yenə bir tövr rəftar edəcəklər ki, ömürlərini başa versinlər" **(1, s.165).** Üstəlik, qeyri-müsəlman xalqlarda evli ola-ola başqa qadına meyil göstərmək doğru sayılmır. Ancaq müsəlmançılıqda isə əksinə, evli olduğu halda başqa qadınlara meyil salmaq ibadət hesab olunur ki, bunların da başında mollalar, kərbəlayılar, hacılar gəlir. Mirzə Cəlilə görə, onlara da rövnəq verən siğəbazlıqdır ki, artıq Xorasana ziyarət üçün gedənlərin "ibadət"lərindən biri də məhz budur **(1, s.166).**

Bununla da, o demək istəyirdi ki, əslində qadınların haqlarını əlindən alan və onları kölə vəziyyətinə salan şəriət özüdür. Məhz şəriətdən çıxış edərək din alimləri qadınların nəinki başını, üzünü də açıq saxlamasını qadağan buyurmuşlar. Mirzə Cəlilə görə, Quranda üz açmağı qadağan və haram edən açıq bir ayə və işarə olmadığı halda, bir para din üləmalarının ortaya atdıqları dəlillərin heç bir əsası yoxdur. O, yazırdı: "Xülasə, bizim etiqadımız bundadır ki, üç açmaq xilafi-şər deyil. Bu barədə əlimizdə şəri dəlillərimiz çoxdur... Biz deyirik hansı alim üç açmağı Quran ayəsilə haram bilirsə, buyursun; ən məhkəm dəlillərlə cavab verməyə hazırıq. Amma indidən burasını deyirik ki, "qayırma hədislər"lə bizim işimiz yoxdur" **(1, s.168).** Mütəfəkkirin fikrincə, qadınların üzü açıq olmasının başqa mənalara yozulmasının heç bir əxlaqi tərəfi ola bilməz, çünki hər şey təlim və tərbiyədən asılıdır. Təlim və tərbiyənin ilk yolu da ailə ilə yanaşı, qız uşaqlarının məktəblərdə təhsil alması ilə bağlıdır. O, yazırdı: "Bu işlərin çarəsi balaca qızları məktəbə qoyub oxutmaqdır. Elə ki, qızlarımız elmli və tərbiyəli olub, öz qədrlərini bildilər, onda özləri bilərlər ki, necə rəftar eləsinlər" **(1, s.171).**

Mirzə Cəlil doğru yazırdı ki, qadın məsələsindən bəhs edərkən dar çərçivədən yanaşıb qeyri-müsəlman qadınlarının, o cümlədən Qərb qadınlarının tamamını əxlaqsız, ismətsiz hesab etmək doğru deyildir. Çünki bu cür düşüncə burnundan uzağı görə bilməyənlərin iddialarıdır və bunun üçün Avropa filosoflarının əsərlərini oxumaq lazımdır **(12, s.707).**

Nəticə

Müstəqillik dönəmində bir çox tədqiqatçılar (İ.Həbibbəyli, Y.Qarayev, S.Vəliyeva və b.) Məmmədquluzadəni böyük azərbaycançı ideoloqlar kimi qələmə verirlər. Onlar hesab edirlər ki, Məmmədquluzadə azərbaycançılığın əsas ideoloqlarından biri, bəlkə də birincisi olmuşdur. Özəlliklə, buna ən bariz nümunə kimi Məmmədquluzadənin bir tərəfdən xurafat və mövhumat (İslam dini deyil) əleyhinə mübarizəsi, digər tərəfdən "Osmanlı dili"ni deyil Azərbaycan türkcəsini müdafiə etməsini göstərirlər. Məsələn, Y.Qarayev onu "islam və şərq siyasi mənliyinin ideoloqu" **(13, s.242)**, S.Vəliyeva isə azərbaycançılıq ideyasını bütün çılpaqlığı ilə ilk dəfə irəli sürən mütəfəkkir, onun banisi kimi qələmə verib **(14, s.31, 41).**

C.Məmmədquluzadə və onunla həmfikir olanlar Azərbaycan xalqının, Azərbaycan Türk xalqının maariflənməsi və azadlığı uğrunda müəyyən işlər görmüşdür. Ancaq ümumilikdə, C.Məmmədquluzadənin tutduğu yol türkçülük və islamçılıqdan daha çox, rus-avropa-mədəniyyəti ilə səsləşmişdir. O, hesab edirdi ki, müsəlman ölkələrindəki bütün bəlaların əsas səbəbkarı İslam dinidir, bundan çıxış yolu isə islam mədəniyyətindən imtina edib rus-avropa mədəniyyətinə üz tutmaqla bağlıdır. Onun bu mülahizələri vaxtilə eyni fikirlərdən çıxış etmiş Axundzadənin yolundan çox da fərqlənmirdi. Bu yolu tutan Axundzadə xeyli dərəcədə də islam mədəniyyətindən, qismən də türk mədəniyyətindən imtina etmişdir. Məmmədquluzadə və onunla həmfikir olanlar islama münasibətdə birmənalı şəkilddə Axundzadənin yolunu davam etdirdiyi halda, mili mədəniyyət məsələsində bir qədər ehtiyatlı mövqe tutmuşlar.

Ancaq o da maraqlıdır ki, bu mütəfəkkirlər milli mədəniyyət məsələsində ümumtürk ruhunu deyil, daha çox rus-avropa ideoloqlarına sərf edən xüsusiliyi qəbul etmişlər. Belə ki, mili mədəniyyət məsələsində ümumtürk ruhuna dayalı türk ədəbiyyatını, türk tarixini, türk dilini müdafiə etməmiş, daha çox lokanik tarix və dildən çıxış etmişlər. Hər halda, onların ortaq Türk dili əvəzinə, məhəlli türk ləhcələrini müdafiə etmələri, eyni zamanda ortaq əlifbanın ardan qaldırılması prosesində müəyyən əməkləri danılmazdır **(15, s.105).**

Beləliklə, çar Rusiyası və Avropa ideoloqları maraqlı olduğu millət və din islahtalarını SSRİ həyata keçirmiş oldu. Çox yazıqlar olsun ki, rus-mason-bolşefaşistlərinin əvvəlcədən planlaşdırılmış «islahatlar» oynunda C.Məmmədquluzadə yaxından iştirak etmişdir. Türk-müsəlman xalqlarının həyatında reallaşdırılan «islahatlar»ın nəticəsində ilk növbədə, əliaba ayrılığı baş verdi. Bununla yanaşı, çar Rusiyası dövründə təməli qoyulan ortaq türk dilinə qarşı yönəlmiş ləhcə fərqlilikləri SSRİ dövründə daha da sürətləndirildi. Əgər 20-ci əsrin əvvəllərində türksoylu xalqlar az-çox bir-birlərinin ləhcələrini başa düşür və ortaq türkcədə danışa bilirdilərsə, SSRİ dövründə aparılan ruslaşdırma-avropalaşdırma siyasəti nəticəsində biri-birlərini anlamayacaq vəziyyətdə gətirildilər. Xüsusilə, türklərin böyük əksəriyyətnin yaşadığı Rusiyada ortaq türk dilinin Leninin dili olan rus dili ilə vəzlənməsi və rus-kiril əlifbasına keçid bu məsələdə mühüm rol oynadı. Leninin dili olan rus dili bir tərəfdən ortaq türk dilinin ayrı-ayrı ləhcələr şəklində formalaşmasına, digər tərəfdən həmin ləhcələrin də ruslaşdırılmasına-avropalaşdırılmasına səbəb oldu.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Məmmədquluzadə Cəlil. Əsərləri. IV cilddə, II cild. Bakı, «Öndər», 2004
2. Məmmədquluzadə Cəlil. Əsərləri. IV cilddə. IV cild. Bakı, «Öndər», 2004
3. Qasımov Mehbalı. XIX əsrdə Rusiyanın qabaqcıl ideyalarının Azərbaycanda ictimai fikrin inkişafına təsiri. Bakı, Azərnəşr, 1953
4. Köçərli Firudin Qasım oğlu. Marksizm-leninizm və Azərbaycanda demokratik ictimai fikir. Bakı, Azərnşər, 1976
5. Məmmədquluzadə Cəlil. Əsərləri. IV cilddə, I cild. Bakı, «Öndər», 2004
6. Məmmədquluzadə Cəlil. Əsərləri. IV cilddə. III cild. Bakı, «Öndər», 2004
7. Ağayev Müstəqil. Azərbaycan demokratik fikrində insan konsepsiyası. Bakı, "Nurlan", 2009
8. Rüstəmov İzzət . Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri (XIX əsr-XX əsrin əvvəli). Bakı: Diplomat, 2001
9. «Molla Nəsrəddin» jurnalı. 6 cild. 8 cilddə. Bakı, «Çinar ÇAP» nəşriyyatı, 2010
10. Hüseynov Şirməmməd . Mətbu irsimizdən səhifələr. Bakı, «Çənlibel» NPM, 2007
11. Məmmədquluzadə Cəlil . Təmizləmək // «Molla Nəsrəddin» jurnalı 6 cild. 8 cilddə. Bakı, «Çinar ÇAP» nəşriyyatı, 2010
12. Ələkbərli Faiq. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II hissə. Bakı, "Elm və təhsil", 2020
13. Qarayev Yaşar. Tarix: yaxından və uzaqdan. Bakı, «Sabah», 1996
14. Vəliyeva Sona. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi. Bakı, «Azərbaycan Universiteti» nəş., 2002
15. Ələkbərov Faiq. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (II hissə). Bakı, «Elm və Təhsil», 2014

Фаик Алекперли

ВОПРОСЫ НАЦИИ, РЕЛИГИИ И МОДЕРНИЗАЦИИ В МИРОВОЗЗРЕНИИ ДЖ.МАМЕДКУЛИЗАДЕ

Резюме

В статье рассматриваются вопросы национальности, религии и модернизации с точки зрения азербайджанского мыслителя Джалила Мамедгулузаде. Согласно автору, в творчестве Дж.Мамедкулизаде особое внимание уделяется вопросам становления, национального возрождения и просвещения азербайджанского тюркского народа. В своих статьях, опубликованных в журнале «Молла Насреддин», а также в других работах азербайджанский тюркский интеллектуал хотел показать, что основным выражением национальной идентичности являются родной язык и национальные традиции. Мамедгулузаде, в частности в статье «Республика» и в «Книге моей матери», справедливо выразил ангела-националиста. В книге «Книга моей матери» Мамедгулузаде указывает на причины, по которым три брата, выросшие в турецкой семье в Азербайджане, были лишены своих национальных корней, национальных традиций и национального языка, воспитанных русскими, гадарцами и османами. По мнению автора, в творчестве республики национальный дух был относительно развит в творчестве Мамедгулгузаде, и было определенное стремление от тюркского к тюркскому. Однако из-за отсутствия тенденции к тюркизму он не смог выработать четкую национальную идентичность и находился под влиянием интернационализма. В то же время он не изменил свою позицию по исламу в это время.

Дж.Мамедкулизаде в целом правильно осветил национальный вопрос. В статье великого «молла насреддинца» основательно анализированы его взгляды на Ислам. Согласно автору, ДЖ.Мамедкулизаде по отношению к Исламу и мусульманскому мировоззрению в меньшей мере в царскую эпоху и в особенности в советское время выступал с радикальных позиций. Считается, что в своих критических высказываниях по отношению к Исламу он хоть и выступал в основном оправданно, но в некоторых случаях не занимал объективную позицию. В то же время, параллельно вопросам нации и религии, Дж.Мамедкулизаде в своих воззрениях анализировал вопросы, касающиеся вопросов модернизации и обновления общества. Автор считает, что в вопросах обновления общества Дж.Мамедкулизаде выступал с позиции утрирования западничества.

Цель - проанализировать идеи национально-религиозного просвещения и тюркизма Дж.Мамедкулизаде.

Методология - сравнительный анализ, наследование, передача идей, анализ.

Результаты исследования - Поиск примирения идей Дж.Мамедкулизаде с социально-политическими и идеологическими требованиями современности.

***Ключевые слова**: Азербайджанская тюркская самоидентификация, азербайджанство, тюркство, исламская религия, западничество, социал-демократия, журнал «Молла Насреддин»*

Faig Alakbarli

JALIL MAMMADGULUZADEH'S IN OUTLOOK NATION, RELIGION AND MODERNIZATION ISSUES

Summary

The article deals with the issues of nationality, religion and modernization in the view of the Azerbaijani thinker Jalil Mammadguluzadeh. According to theauthor, Azerbaijan, which has the mostattention in the work of J. Mammadguluzadeh, isthe revival, enlightenment and national revival of the Turkish people. In his articles in the journal Molla Nasreddin, as well as other works,

the Turkish intelligentsiais trying to show that the main expression of national identityisnative language and national traditions. Mammadguluzade, in particular, in the article "Republic" and in the book "My mother's book," clearlystated the nationalan them. In the book "My mother's book", Mammadguluzadeh points out the reasons why the three brothers growing up in the Turkish family of Azerbaijan were devoid of their national roots, national traditions and national language, brought up by Russians, Gadars, and Ottomans. According to the author, in the works of the Republic, the national spirit was relatively advanced in the works of Mammadgulguzade and there was a certain desire from Turkic to Turkic. However, due to the lack of a tendency towards Turkishism, he failed to develop a clear national identity and was influenced by internationalism. At the same time, he has not changed his position on Islam at this time.

The article also examines the views of the great "molla nasreddin" in the Islamic religion. According to theauthor, J. Mammadguluzade Islam has come to the for efront in the period of Tsarist Russia in relation to Islam, and largely radical in Soviet Russia. It is believed that although Mammadguluzadeh wasright in hiscritical outlook on Islam, he had, however, failed to take an objective position towards that religion. At the same time, the article analyzed the views of J. Mammadguluzade in terms of modernization and innovation in parallel with national and religiou sissues. The author believes that Mammadguluzadeh has been exaggerated in the issue of innovation by stating the West's position.

Purpose of the research - The aim is to analyze the ideas of Jalil Mammadguluzade's national-religious enlightenment and Turkism.

Methodology - comparative analysis, inheritance, transmission of ideas, analysis.

Results of the study - Search for reconciliations between the ideas of Jalil Mammadguluzade and the socio-political and ideological requirements of modern times

Keywords: *Azerbaijan's Turkish identity, Azerbaijanism, Turkic, Islamic religion, Islamism, Renewal, Westernization, Social-Democracy, "Molla Nasreddin"*

UOT-101.1:316

Məhsəti Cəfərova
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, dissertant
mehseti.ceferova@inbox.ru

ELİTAR VƏ KÜTLƏVİ MƏDƏNİYYƏTLƏR HAQQINDA FƏLSƏFİ BAXIŞLARDAKI FƏRQLƏR

Məqalədə milli mədəniyyətlərin təşəkkülü, formalaşması və inkişafında həm mühit, həm də təkamül baxımından qarşılıqlı əlaqələrin əhəmiyyəti özünü göstərir. Elitar mədəniyyətdə məkan və şəraitin yeri mühüm olduğu kimi, kütləvi mədəniyyətdə də məkan və şəraitin əhəmiyyəti böyükdür. Elitar incəsənətin formalaşmasında mühit, şərait kimi, ayrı-ayrı fərdlərin yüksək yaradıcılıq bacarıqları getdikcə millilikdən çıxaraq bəşəriliyə çevrilir.

Məqsəd - tədqiqat işinin məqsədi elitar və kütləvi mədəniyyətlərin sosial-fəlsəfi aspektdə tədqiqi, qarşılıqlı əlaqəliliyin müsbət təsirinin təyini, səciyyəvi xüsusiyyətlərin təhlili və bu mədəniyyətlərin innovasiyalılıqla bilavasitə əlaqədarlığını müqayisəli araşdırmaq və nəticələr əldə etmək.

Metodologiya - elitar və kütləvi mədəniyyətlərin sosial-fəlsəfi dərkinə fərqli yanaşmalara, millilik və bəşəriliklə bağlı müqayisəli baxışlara, elitarlıqla kütləvilik arasında müxtəlif tarixi dövrlərdə baş vermiş ziddiyyətlərə aid fəlsəfi fikir və nəzəriyyələrin tədqiq edilməsi.

Tədqiqatın nəticələri-elitar və kütləvi mədəniyyətlərin təşəkkülü, inkişafı və bəşər mədəniyyətində mühüm əhəmiyyətinin müxtəlif fəlsəfi cərəyanlar tərəfindən fərqli dəyərləndirilməsi təhlil edilmişdir.

Açar sözlər: *elitar və kütləvi mədəniyyət,idrak,zaman,kütləvi informasiya vasitələri,yenilik, nəzəriyyə, sivilizasiya*

Giriş

Mədəniyyət insanlar tərəfindən yaradılan ikinci və süni təbiətdir. Ümumiyyətlə, mədəniyyət termini fəlsəfə, kulturologiya, tarix, etnologiya, dilçilik (etnolinqvistika), psixologiya, politologiya, iqtisadiyyat, pedaqogika, sənətşünaslıq və s. kimi elmlərin əsas araşdırma obyektinə çevrilmişdir. Demək olar ki, insanların müsbət anlamda əldə etdiyi bütün vərdiş və bacarıqları mədəniyyət adı altında birləşdirilmişdir. İnsanın yaradıcı fəaliyyətini özündə təcəssüm etdirən mədəniyyət müxtəlif forma və üsulları ilə fərqlənir. Yaradıcı insanların xarakterindən, biliyindən, bacarıq və vərdişlərindən asılı olaraq mədəniyyət müxtəlif formalarda təzahür edir.

Tədqiqatçı-alimlər zaman-zaman mədəniyyətin fəlsəfi dərkinə müxtəlif mövqelərdən yanaşmış, millilik və bəşərilikdəki fərqlərə müqayisəli baxışlarını bildirmişlər. Belə ki, J.Vikonun, İ.Kantın, G.V.Hegelin və Şellinqin elmi yanaşmalarında bu baxımdan maraqlı fikirlər mövcuddur (16, s. 5).

Müasir cəmiyyətdə kütləvilik və elitarlıq anlayışları böyük əhəmiyyət kəsb edir. Elitar mədəniyyətin mahiyyətini dərk etmək üçün elitar nəzəriyyənin anlamını qavramaq lazımdır. Tarix boyu filosoflar elitar cəmiyyət haqqında müxtəlif nəzəriyyələr irəli sürülmüşdür. Bu, müxtəlif nəzəriyyələrin ortaq nöqtəsi cəmiyyətin azsaylı elit təbəqəsinin intellektual cəhətdən aktiv olması ideyasını müdafiə etmələridir.

Fəlsəfə tarixində elita haqqında irəli sürülmüş konsepsiyalar bioloji nəzəriyyələr, psixoloji nəzəriyyələr, psixoanalitik nəzəriyyələr, sosial-psixoloji nəzəriyyələr və texnokratik nəzəriyyələrdən ibarətdir. Elita haqqında irəli sürülmüş bioloji nəzəriyyələr R.Uilyamsın,

E.Boqardusun, psixoloji nəzəriyyələr Q.Cilbertin, B.Skinnerin, psixoanalitik nəzəriyyələr Z.Freydin, E.Eriksonun və ümumiyyətlə Freydizm cərəyanı tərəfdarlarının, sosial-psixoloji nəzəriyyələr Frommun, Q.Lassuelin və texnokratik nəzəriyyələr C.Bernxemin, C.Gelbreytin əsərlərində əsasən öz əksini tapmışdır.

Ümumiyyətlə, cəmiyyətin elitaya və kütləyə bölünməsi zərurətinə əsaslanan konsepsiya elitarizm adı altında məşhurdur. Elitarizm nəzəriyyəsi elitanın mövcudluğunu tanıyan, onu dəstəkləyən və həmçinin elitanın ideoloji sisteminin yaranmasına xidmət etməyə yönəlmişdir. Elitarizm nəzəriyyəsinin tərəfdarları aristokrat təbəqənin yaratdığı mədəniyyət nümunələrini böyük bir şövqlə müdafiə edirlər. İlkin elitarizm ideyalarının meydana gəlməsi tarixi olduqca qədimdir, hələ qədim dövrdə Yunanistanda Platon kalokaqatiya nəzəriyyəsini irəli sürmüşdür. Bəzi tədqiqatçılar bu nəzəriyyəni Platondan əvvəl Pifaqorun önə sürməsi qənaətindədir, lakin Platon bu nəzəriyyəyə yeni ab-hava verdi, onu daha da təkmilləşdirdi. Bu nəzəriyyəni Platondan əvvəl Pifaqor irəli sürsə də, nəzəriyyənin mükəmməl və geniş aspektdən işlədilməsi ideyası da məhz Platona məxsusdur. Platonun geniş şəkildə işlədiyi bu nəzəriyyədən Aristotel də bəhrələnmişdi. Platonun irəli sürdüyü "İdeal dövlət" nəzəriyyəsində insanlar yalnız bilik və bacarıqlarına, qabiliyyətlərinə görə bir-birindən fərqlənməlidirlər. Bu qabiliyyətlər fitri mahiyyət kəsb etdiyindən yalnız üstün qabiliyyətə malik olan insanlara incəsənətin və mədəniyyətin sirrlərini öyrətmək olar. Həmçinin də idarəetmə qabiliyyəti ilə fərqlənənləri bu sahədə ixtisaslaşdırmaq lazımdır. Beləliklə də, Platonun irəli sürdüyü "İdeal dövlət"də bilik və bacarıqları ilə fərqlənən elitar təbəqə meydana gəlir. "Platon fikirlərini yekunlaşdıraraq aşağıdakı nəticələrə gəlir: birincisi, ölkəni idarəetmək özü bir sənətdir. İkincisi, adamların anadangəlmə qabiliyyəti bir-birindən fərqlənir. Üçüncüsü, idarəetmə qabiliyyəti ilə fərqlənənlərə bu sənət öyrədilməli və onlar təlim keçdikdən sonra cəmiyyətin hakimləri olmalıdırlar. Dördüncüsü isə, bu adamlar idarəetmə sənətinə maksimum hazırlaşdıqdan sonra onlara mütləq hakimiyyət verilməlidir ki, qanunvericilik fəaliyyətləri təcrübədə reallaşdırıla bilsin" (20, səh. 109-110).

Şərq fəlsəfəsi tarixinə diqqətlə nəzər salsaq ilkin elitar nəzəriyyələrin 2500 il öncə meydana gəlməsi faktı ilə qarşılaşmış oluruq. Hələ e.ə. 551-479-cu illər arasında yaşamış məşhur Çin filosofu Konfutsinin ideologiyası da elə bu səpgidə hazırlanmışdı. Konfutsinin "alicənab ərlər" və yaxud da "idarəçilər" deyə haqqında bəhs etdiyi elit təbəqə etik və estetik cəhətdən də kamil olmasını biruzə verməliydi. Qədim dövrün ən məşhur Çin filosofu və mütəfəkkiri olan Konfutsi əxlaqi dəyərlərə, ali prinsiplərə riayət etməyəni alicənab insan hesab etmirdi, başqa sözlə, belə insanları elit təbəqəyə aid etmək məqsədyönlü olmazdı. Bu baxımdan da heç şübhəsiz ki, etik və estetik cəhətdən kamil olan insanların yaratdığı mədəniyyət nümunələri də mükəmməlliyi və kamilliyi ilə seçilməlidir. Dahi filosof fəlsəfi yaradıcılığının məhsulu olan "Lun yuy", yəni "Söhbətlər və mülahizələr" əsərində etik dəyərlərə xüsusi önəm verir, rəiyyətin "alicənab ərlər"ə sədaqətini yüksək dəyərləndirirdi. Konfutsinin yaratdığı fəlsəfi təlim olan Konfutsiçilik müasir dövrdə də Çin milli mədəniyyətində özünəməxsus bir mövqeyə malikdir.

Qərb fəlsəfəsində özünəməxsus yeri olan orta əsr filosofu və ilahiyyatçısı, tomizmin banisi Akvinalı Foma da elitar nəzəriyyənin tərəfdarlarından biri idi. Onun elit təbəqə haqqında irəli sürdüyü fikirlər "Bütpərəstlər əleyhinə külliyat" (1261-1264), "Teologiya külliyyatı" (1265-1273) adlı əsərlərində öz əksini tapmışdır. Fomanın gəldiyi qənaətə görə elitar təbəqə "Allah tərəfindən seçilmiş" insanlardan ibarət olmalıdır. Fomanın bu qənaətə gəlməsi heç də təsadüfi xarakter kəsb etmirdi. Çünki, Akvinalı Foma ortodoksal sxolastikanın əsasını qoyan xristian ilahiyyatçısı idi və xristian kilsəsinin mənafeyini müdafiə edirdi.

Elitar və kütləvi mədəniyyətlərlə bağlı fərqli baxışlar

Kulturologiyada elitar mədəniyyətə kütləvi mədəniyyətin antipodu kimi də baxılır. Kütləvi mədəniyyətdən fərqli olaraq elitar mədəniyyət cəmyyətin imtiyazlı qruplarının

mədəniyyətidir və mənəvi aristokratlıqla müşayiət olunur. Ümumiyyətlə, elitar mədəniyyət və kütləvi mədəniyyət arasında ziddiyyətlərin dərinləşməsi tendensiyası XX əsrdə son dərəcə güclәndi. Elitar mədəniyyət nəzəriyyəsinin əsas müddəaları alman filosofları Artur Şopenhauer (1788-1860) və onun davamçısı Fridrix Nitsşenin (1844-1900), həmçinin ispan filosofu Xose Orteqa-i Qassetin (1883-1955) fəlsəfi yaradıcılığında ehtiva olunmuşdur.

Şopenhauerin estetik fikirlərinə görə elitar mədəniyyətin əsas məqsədi insanları ruhən və mənəvi cəhətdən sakitləşdirmək xüsusiyyətinə malik olmaqdır. Bu, elitar mədəniyyətin yaratdığı estetik dəyərlər nəticəsində dünyəvi harmoniya özünün ən yüksək nöqtəsinə çatır. Şopenhauer 1844-cü ildə yazıb tamamladığı "Dünya iradə və təsəvvür kimi" əsərində estetik dəyərlərə toxunmuş, bu əsərdə estetik idrakın mühüm nüansları barədə tam təfərrüatı ilə məlumat vermişdir. O əsərdə göstərirdi ki, estetik mühakimə qabiliyyətinin tənqidində ən üstün şey ülvilik nəzəriyyəsidir: o, gözəllik nəzəriyyəsindən müqayisəyəgəlməz dərəcədə yaxşı alınmışdır və o biri kimi təkcə ümumi tədqiqat metodu vermir, həm də məsələnin həlli mənasında nəsə verir: onda məsələnin birinci həlli olmasa da, hər halda o, ona olduqca çox yaxınlaşır.

Müxtəlif filosofların yaradıcılığında elitar mədəniyyətin elmilik, fəlsəfilik, peşəkar təhsil, xüsusilə ali təhsil, klassik ədəbiyyat, xüsusilə poeziya, intellektual ədəbiyyat, təsviri incəsənət, klassik musiqi, teatr, etiket, elitar moda, insanın şəxsiyyət kimi təzahürü elementləri əks olunmuşdur.

Dahi alman filosofu Nitsşe qələmə aldığı "Musiqi ruhundan traqediyanın doğuşu" (1872), "İnsanı, həddən artıq insanı – azad ağıllar üçün kitab" (1878-1880), "Şən elm" (1882), "Vaqner məsələsi" (1888) kimi əsərlərində öz kulturoloji konsepsiyasını formalaşdırmışdır. Nitsşenin elitar mədəniyyət haqqında irəli sürdüyü konsepsiya "fövqəlinsan" ideyasında özünü açıq bir şəkildə biruzə verirdi. Dahi alman filosofu elitar mədəniyyət dedikdə "fövqəlinsan"ın, yəni cəmiyyətdə imtiyazlı vəziyyətə malik olan unikal insanın istedadının, qabiliyyətinin məhsulu olan mədəniyyət nümunələrini nəzərdə tuturdu. "Fövqəlinsan"ın meydana gətirdiyi mədəniyyət nümunələri estetik cəhətdən zəngin və dərin məna çalarlarını özündə ehtiva etmişdir.

Xatırladaq ki, elitanın milli, təsərrüfat idarəetmə elitası, ziyalı, maliyyə elitası kimi müxtəlif formaları mövcuddur. Elitanın müxtəlif növlərinin mövcud olmasına baxmayaraq elitar mədəniyyətin nümunələrində aristokrat təbəqənin mənafeyi müdafiə olunur. Bu barədə müasir elitar nəzəriyyələrin formalaşmasına güclü təsir göstərən nöqteyi-nəzərlərdən biri də F.Nitsşenin baxışlarıdır. F.Nitsşe dünyavi inkişaf prosesinin ilkin əsasını tarixin hakimiyyətə doğru cəhd göstərən qüvvələrində görürdü. Bu qüvvələr hakimiyyətdən "yaradıcı instinkt" kimi istifadə etmək istəyirlər. Müasir elitaristlərin konservativ qanadı F.Nitsşenin "Yer cənabları", "Aristokratiyanın ali irqliyi" haqqındakı konsepsiyalarını qəbul edərək onun fikirləri ilə bölüşürlər. Bu konsepsiyanın əsas qaydalarından biri də odur ki, xalq bütün vasitələrlə - zorakılıq, din, qul əxlaqı ilə qul şəraitində saxlanılmalıdır.

F.Nitsşenin əsas tənqid hədəfi – elitanın hökmranlığına qarşı çıxış edən inqilabi qüvvələrdir.

Ümumiyyətlə, elita mürəkkəb quruluşa malikdir, elitanın strukturu iqtisadi elita, siyasi elita, bürokratik elita və ideoloji elitadan ibarətdir. İdeoloji elita özündə din, elm, təhsil və mədəniyyət kimi mühüm nüansları ehtiva edir. Elitar mədəniyyət də məhz ideoloji elitanın həmçinin ideoloji və yaradıcı fəaliyyəti nəticəsində təzahür edir. Elitar cəmiyyət konsepsiyasının müstəqil şəkildə formalaşmasında ispan sosioloqu, iqtisadçısı, mühəndisi Vilfredo Parento (1848-1923) və italyan alimi Hayetano Moska (1858-1941) mühüm rol oynamışlar.

Vilfredo Parentonun (1848-1923) 1901-ci ildə qələmə aldığı "Elitanın yüksəlişi və süqutu" adlı məşhur əsərində elitanın xarakterik xüsusiyyətləri və tipləri haqqında müfəssəl

məlumat verilmişdir. Həmçinin müəllif "Siyasi iqtisad kursu" (1898), "Sosialist sistemlər" (1902-1903), "Siyasi iqtisadın təlimi" (1906), "Ümumi sosiologiya dərsləri" (1916) adlı əsərlərində elitar məsələyə toxunaraq, elitar konsepsiyanın müxtəlif cəhətlərini analiz etmişdir.

Ümumiyyətlə, həm Vilfredo Parento və həm də Hayetano Moska hesab edirdilər ki, zənginliyi və istedadı ilə seçilən təbəqənin elitaya daxil edilməsi üçün ilk növbədə sosial mühit vacibdir. Yüksək şəxsi məziyətləri və yaradıcılıq sahəsindəki üstünlükləri ilə seçilən elitanın dini, mənəvi və əxlaqi baxışları kimi estetik baxışları da üstün məziyətlərə malikdir.

Fəlsəfə tarixində elita haqqında müxtəlif nəzəriyyələr

Fəlsəfə tarixinə diqqətlə nəzər yetirdiyimiz zaman ayrı-ayrı fəlsəfi cərəyanlarda elita haqqında müxtəlif nəzəriyyələrin irəli sürülməsinin şahidi oluruq. Volyuntarizm cərəyanı nümayəndələri iradəni insan psixologiyasında əsas amil hesab edərək cəmiyyət və təbiətin obyektiv qanunauyğunluqlarını inkar edir, tarixi prosesləri yalnız insan iradəsinin məhsulu kimi qiymətləndirirlər. Elita kütlələri özünün istədiyi istiqamətə yönəldərək tarixi özünün istədiyi kimi yaradır – volyuntaristlərin əsas tezisi budur.

Fatalistlər isə iddia edirlər ki, dünyada elə fövqəltəbii qüvvələr vardır ki, onlar tarixi prosesin ardıcıllığını, gedişini müəyyən edir və bunu Allah elitanın vasitəsi ilə reallaşdırır.

Məşhur alman filosofu, ekzistensializmin nümayəndəsi Karl Yaspers (1883-1969) "Tarixin mənası və təyinatı" adlı əsərində, alman fəlsəfə tarixçisi Osvald Şpenqler (1880-1936) "Qərbin tənəzzülü" (I cild 1918 – II cild 1922) adlı əsərində fransız sosioloqu Jan Bordiyarın (1929-2007) "Müasir dövrün illuziyaları" əsərində, rus-amerikan sosioloqu və kulturoloqu Pitirim Aleksandroviç Sorokinin (1889-1968) "İnsan. Sivilizasiya. Cəmiyyət" əsərində elitar təbəqənin müxtəlif problemlərinə toxunmuş, bu səpgidə mühüm ideyalar irəli sürmüşlər.

Amerikalı sosioloq Çarlz Rayt Millsə görə elit sinif hakim sinifdən fərqlidir. Millsə görə elita sinfi siyasi gücə malik kiçik bir qrupdur. Bu sinfə siyasətçilər, siyasi rəhbərlər və hərbi liderlər daxildir. Lakin hakim sinif birbaşa zənginlik və ya zora əsaslanan güc tətbiqindən irəli gəlir və təhsildən hökumət siyasətlərinə qədər geniş bir spektri əhatə edir.

Beləliklə, apardığımız araşdırmalardan məlum olmuşdur:

- Elita, elitarlıq, elitar və kütləvi mədəniyyətlərlə bağlı fəlsəfi fikir tarixində fərqli və ziddiyyətli fikirlər mövcuddur;
- Elitar və kütləvi mədəniyyətlərin qarşılıqlı əlaqəliliyi öz müsbət təsirini göstərir;
- Ayrı-ayrı tarixi dövrlərdə elitar mədəniyyətin kütləvi mədəniyyətin inkişafına təkanverci təsiri özünü göstərmişdir;
- İnkişafın ayrı-ayrı sahələri üzrə elitanın əldə etdiyi yeniliklər digər sahələrlə də, eləcə də mədəniyyətdə də inkişafetdirici qüvvəsini sübut etmişdir;
- Hüquqi, siyasi, iqtisadi, dini, elmi və digər sahələr elitalarının mədəniyyətin inkişafında mühüm rolu olduğu kimi, mədəniyyət sahəsi elitasının da digər sahələrin inkişafında əhəmiyyəti bütün tarixi dövrlərdə özünü göstərmişdir.

Kütləvi mədəniyyətlə bağlı bir sıra fərqli fikirlər mövcuddur. H.Markuzeyə görə XX əsrin əvvəllərində mövcud olan mexanikləşdirilmiş istehsal bütün istiqamətlərə, eyni zamanda asudə vaxtın səmərəli təşkilinə, maddi və mənəvi mədəniyyətə öz mənfi təsirini göstərir və totalitarlığın aparıcı mövqeyini ifadə edir (18, s. 48-49).

Hazırkı dövrdə elitar və kütləvi mədəniyyətin tədqiqində mövcud olan nəzəriyyələrdən biri də kommunikativ nəzəriyyədir.

Cəmiyyətdə insanların ünsiyyəti, məlumatların kütlələrə çatdırılması kütləvi mədəniyyətin mühüm sosial funksiyası kimi özünü göstərir. Məhz kommunikasiya vasitələri ilə kütləvi mədəniyyətdən bütün insanlar yararlanmaqdadırlar.

Kanada sosioloqu M.Maklyüen (1911-1980) kütləvi mədəniyyətlə bağlı araşdırmalarında kütləvi kommunikasiyanın yeni mədəniyyət tipini yaratdığını və formalaşdırdığını qeyd

edir. "Quttenberqin qalaktikası", "Rabitə vasitələrinin dərki" (1964), "Mədəniyyət bizim irsimizdir" əsərlərində o vurğulayır ki, "Sənaye və tipoqrafik insan" dövrün çıxış nöqtəsini İ. Quttenberqin (XV əsr) kəşf etdiyi çap dəzgahı təşkil edir (5, s. 185).

Sosioloqun fikrinə görə kütləvi informasiyanın müasir vasitələrinin "yeni insan"ın formalaşmasında mühüm əhəmiyyəti vardır. Bu formalaşma elektron informasiya vasitəsi ilə həyata keçirilir (5, s. 185).

Mədəniyyətin kütləviləşməsində kütləvi ünsiyyət vasitələrinin təsiri ilə təfəkkürlərdə standartlaşma baş verir və bunun nəticəsində də bəzən insanlar öz fərdi fəaliyyətini, qabiliyyətlərini belə itirirlər. Mədəniyyətin kütləvi xarakter almasında kommunikasiya vasitələri tərəqqipərvər əhəmiyyətə malikdir. Bu vasitələrlə elm və mədəniyyətlə, həmçinin digər sahələrin inkişafı ilə bağlı kütlələr məlumatlandırılır. Lakin yadda saxlamaq lazımdır ki, bu kommunikativlikdən şəxsi mənafelər üçün istifadə etmək bir o qədər də düzgün deyil, cəmiyyət daxilində qıcıqlandırıcı məlumatlara yol verilməməlidir və milli mövqe nəzərə alınmalı, etik qaydalar gözlənilməli, amansız döyüş, qəddarlıq, terrorizm, narkomaniyaya qarşı maarifləndirici informasiyaya yer verilməlidir. Eyni zamanda kütləvi mədəniyyətin həddən artıq "şişirdilmiş qəhrəmanları" təbliğ olunmamalıdır.

Müasir dünyanın real mənzərəsində zorakılıq mövzusu əks olunur, kütləvi mədəniyyətdə bu mövzu sürətlə yayılmaqdadır. Hesablamalara görə ABŞ televiziya vaxtının 40%-i zorakılıqla bağlı verilişlər təşkil edir, bu verilişlər sırasında bədii filmlərə xüsusilə önəm verilir ki, bu da gənc nəsildə zorakılığa meylliliyin qarşısının alınması istiqamətində görüləcək işlərin artırılmasını tələb edir.

Kütləvi kommunikasiya vasitəsi ilə belə mənfi nümayişlər uşaq psixologiyasına daha tez təsir göstərir və uşaqlar reallıqla uydurma arasındakı səddi anlamaqda çətinlik çəkirlər. Belə olan halda təkcə Amerika televiziyası yox, digər ölkə televiziya və kommunikasiya vasitələri də cinayətkarlığın "özünəməxsus məktəbi"nə çevrilir.

Asiya, Afrika və Latın Amerikası tədqiqatçılarının fəlsəfi yazışmalarında kommunikativ nəzəriyyələrin əhəmiyyətindən bəhs edilir və burada qərbləşmənin, qloballaşmanın təsirindən də yan keçilmir (19, səh. 38).

Müasir ictimai-siyasi mühitdə "millət, "millətçilik" anlayışlarının işlədilməsi təbiidir. Çünki ayrı-ayrı xalqların milli mədəniyyətinin yaşanması, qorunması, təbliği, gələcək nəsillərə ötürülməsi və bundan ötrü kütləviləşmədə itirilməməsi üçün "fərqləndirilmə"nin mövcudluğu vacibdir. Təbiidir ki, hər bir dövlət daxilində bundan istifadə edilərək mentallıq formalaşdırılır (14, səh. 34).

Millətin identiklik və həmrəylik hisslərinin birliyindən bəhs edən rus filosofu Y.D.Qranin Rusiyada etnik özünüdərkin milli özünüdərkdən üstünlüyünü qeyd edir (10, səh. 16-17). Müasir dövrün tədqiqatlarında "millət" anlayışının məzmununda əsasən dövlətlərin zəruriliyi əsas götürülür (8, səh. 6-17). Çağdaş araşdırmalarda "identiklik", həmçinin sosial təsisatlara aid edilir ki, bu zaman siyasi bərabərlik, qanunun aliliyi, ideologiyanın müdafiəsi, vətəndaş həmrəyliyi və dövlətçilik ön plana çəkilir (15, səh. 77). Eyni zamanda tədqiqatçılar milli mədəniyyət anlayışını dövlət identikliyi ilə əlaqələndirirlər. Onlar həm də millətçiliyə öz münasibətlərini bildirirlər (9, səh 7-9).

Hər bir milli mədəniyyətin yaradıcısı xalq olduğundan "mədəni xalq" anlayışı da sivil xalqa məxsusdur (7). Həmçinin tədqiqatlarda dinin mədəni formalaşmada mühüm yeri, dini institutların sivilizasiyada əhəmiyyəti də dəyərləndirilmişdir (11).

A.Toynbi, O.Şpenqler və digər filosoflar inkişafın əvvəlcədən proqnozlaşdırılmasının və həmçinin tarixin obyektiv gedişatına təsir göstərməsinin qeyri-mümkünlüyünü qeyd etmişlər. Təbii ki, milli mədəniyyətlərin daxili mexanizmi olan elitar mədəniyyətin də hər hansı tarixi dövrdə, hansı xalq tərəfindən tərəqqi edəcəyini əvvəlcədən bildirmək qeyri-mümkündür (13,

s.188).

Tədqiqatçılar mənəvi mədəniyyətlə bağlı mövcud sosial dinamikadan bəhs etmiş, bu sahədəki çətinliklərin aradan qaldırılmasını və imkanların düzgün qiymətləndirilməsini vacib saymışlar (12, səh. 86) Tədqiqatlarda inkişafda üstqurumun bazisə müsbət təsiri nəticəsində milli mədəniyyətlərin də inkişaf etdiyi əks olunur (22).

Formalarından, yerinə yetirdiyi müxtəlif aspektli funksiyalarından asılı olmayaraq mədəniyyətin əsas mahiyyəti və məğzi insanların maarifləndirilməsi, savadlandırılması, insanların etik və estetik cəhətdən tərbiyələndirilməsi kimi mühüm nüanslardır. Bu baxımdan həm maddi mədəniyyət və həm də mənəvi mədəniyyət insanın hərtərəfli kamilləşməsinə xidmət edir. "Tarixi inkişaf prosesində mədəniyyətin bir sıra funksiyaları formalaşmışdır: ətraf aləmə uyğunlaşma funksiyası, dərketmə funksiyası, informativ funksiya, kommunikativ funksiya, requlyativ funksiya, insan qruplarının inteqrasiyası funksiyası, sosiallaşma funksiyası" (5, səh. 31-33).

Mədəniyyət insanı digər canlılardan ayıran ən önəmli fenomen olmaqla yanaşı, bütün canlılar içərisində yalnız insana xasdır. Ümumiyyətlə, müxtəlif yönümlü mərasimlər təşkil etmək insanların mənəvi ehtiyacından irəli gəlir. Mədəniyyət sadəcə olaraq, insanın təbiətə düşünülmüş şəkildə yaradıcı müdaxiləsi, təbiətin insan tərəfindən dəyişdirilməsi ilə kifayətlənən bir anlayış deyildir. Mədəniyyət daha geniş bir çərçivədə insanın əxlaqi, sosial yönümlü tərbiyələndirilməsini, intellektini, istedadını əhatə edir.

Elitar və kütləvi mədəniyyətlərin səciyyəvi xüsusiyyətlərinin təhlili

Elitar və kütləvi mədəniyyətin səciyyəvi xüsusiyyətlərinin təhlili olduqca qədim tarixə malikdir. Bu baxımdan hələ 2500 il bundan əvvəl Qədim Yunanıstanda hər iki mədəniyyət forması haqqında meydana gələn ilkin fikirlər ibtidai formada olsa da, sonrakı dövrdə irəli sürülən ideyaların əsasını qoymuş oldu. Sonralar, xüsusilə də, XX əsrdə Qərb filosoflarının, kulturoloqlarının elitar və kütləvi mədəniyyət haqqındakı nəzəriyyələri öz orijinallığı ilə seçilirdi. "Bir çox kulturoloq, filosoflar mədəniyyətin bu iki sosial formasının çözümü və cəmiyyətin inkişafında rolunu müəyyən etməyə çalışmışlar. Bu baxımdan Xose Orteqa-i-Qasset, M.Maklyüen, E.Moren, D.Dyüi, E.Fromm, R.Mixels, Q.Moska, B.Astafyev kimi tanınmış alimlərin tədqiqatları maraqlı və elmidir. Elitar və kütləvi mədəniyyətin izahını hələ e.ə. V əsrdə mövcud olmuş Kirenaik məktəbinin yaratdığı etik təlim-gedonizm və onun böyük nümayəndəsi Aristipdə, sonrakı dönəmdə A.Şopenhauer, F.Nitsşe, Z.Freyd kimi filosof və psixoloqların əsərlərində axtarmaq olar" (21).

Müasir dövrdə həm obyektiv, həm də subyektiv proses kimi qabarıq bir şəkildə özünü geniş sahədə biruzə verən qloballaşma hadisəsi zamanı kütləvi xarakterə malik olan milli mədəniyyət nümunələri digər mədəniyyətlər tərəfindən assimilyasiya prosesinə məruz qalır və nəticədə milli xarakterə malik olan kütləvi mədəniyyət nümunələri özünəməxsusluğunu və orijinallığını itirir. Kütləvi mədəniyyətin bir hissəsi olan adət-ənənələrin, milli mədəniyyətin qloballaşma fenomeninə məruz qalması nəticəsində milli mədəniyyətin unudulması kimi problemlər ortaya çıxır. Həmçinin, elitar və aristokrat təbəqənin də yaratdığı milli xarakterli mədəniyyət nümunələri də qloballaşma prosesinə məruz qalır.

Elitar və kütləvi mədəniyyətin bir-biri ilə qarşılıqlı əlaqəsində müasir innovasiyaların böyük rolu vardır. Qeyd edilmişdir ki, " ... müxtəlif mədəni sahələr və mədəni layların dialoqu gedişində informasiya bolluğu və ya, əksinə, informasiya qıtlığı mədəni innovasiyanın meydana gəlməsi üçün mənbə rolunu oynayır" (6, səh. 142).

Kütləvi mədəniyyətin xüsusiyyətləri XX əsrdə bir sıra fəlsəfi əsərlərdə geniş şəkildə təhlil olunmuşdur. Xüsusilə də ispan filosofu və sosioloqu Xose Orteqa-i-Qasset və Amerika sosioloqu Daniel Bell bu mövzuya geniş müstəvidə toxunmuşlar. Nəticədə də kütlənin (camaat) və bu kütlənin yaratdığı mədəniyyət nümunələrinin xarakteri təhlil edilmiş, kütləvi

mədəniyyətin subyekti məsələləri müzakirəyə çıxarılmışdır. Ümumiyyətlə, kütləvi mədəniyyətin əsas xüsusiyyəti onun idraka deyil, instinktlərə bağlı olmasıdır. Bu nöqteyi-nəzərdən də kütləvi mədəniyyət öz estetik və mənəvi səviyyəsinə görə elitar mədəniyyətdən aşağı pillədə dayanır, çünki kütləvi mədəniyyətdə barbarlıq elementləri də ehtiva oluna bilər.

Müasir dövrdə kütləvi mədəniyyət nümunələrinin geniş yayılmasının əsas səbəbi açıq bazar iqtisadiyyatının və kommersiyalaşma prosesinin mədəniyyət sahəsində də vüsət tapmasıdır. Son dövrlərdə kütləvi kommunikasiya vasitələri istehsalının və istehlakının inkişaf etməsi məsələsi də kütləvi mədəniyyət sahəsinin genişlənməsinə xidmət edir. Kütləvi kommunikasiya vasitələri kütləvi mədəniyyətin inkişafında mühüm rol oynamaqla bərabər, həmçinin böyük salonların, səhnələrin, stadionların yaranması sahəsində də əhəmiyyət kəsb edir.

Hazırda yer üzündə vahid mədəni məkanın meydana gəlməsi sayəsində televiziya kanalları vasitəsilə milyonlarla tamaşaçı kütləvi mədəniyyətin auditoriyasını təşkil edir və bununla yanaşı kino ekranları vasitəsilə kütləvi mədəniyyət öz çərçivəsini genişləndirir. Kütləvi mədəniyyətin geniş arenada fəaliyət göstərməsi isə onun ictimai şüura təsiri ilə birbaşa əlaqədardır. Bütün mədəniyyət məhsullarının kütləvi şəkildə yayılması vasitəsilə resipiyent formasında çıxış edən oxucu, tamaşaçı, dinləyici də bu və ya başqa qaydada kütləvi mədəniyyətin istehlakçısına çevrilir. Müasir dövrdə kütləvi mədəniyyət istehlakçı şüurunun əsas forması qismində çıxış edir, bu məsələ də öz növbəsində passiv xüsusiyyətə malik olan kütləvi mədəni dəyrlərin formalaşmasına gətirib çıxarır. Kütləvi mədəniyyət bəsitliyi və sadəliyi ucbatından insanların böyük əksəriyyətini manipulyasiya edərək onları çox asanlıqla öz təsir dairəsinə alır.

Kütləvi mədəniyyət anlayışının daha ətraflı dərki üçün ilk növbədə "kütləvi cəmiyyət"in mahiyyətini anlamalıyıq. Elitizm nəzəriyyəsinə görə bəşər tarixində, əzəldən iki təbəqə mövcud olmuşdur: elitar və kütləvi cəmiyyət. «Kütləvi cəmiyyət» tənqidçilərini birləşdirən ümumi cəhət ondan ibarətdir ki, cəmiyyətdə elita ilə kütlə arasındakı normal, qarşılıqlı əlaqələrin pozulması bu iki təbəqə arasındakı fərqin ən başlıcasıdır. «Kütləvi cəmiyyət» konsepsiyaları əsasında formalaşan doktrinanın yaranmasına əsas səbəb xalq kütlələrinin tarixdəki rolunun əhəmiyyətini ifadə edən ideyaların səslənməsi və sosial tendensiya xarakteri kəsb etməyə başlaması idi.

Kütləvi mədəniyyət özündə antiavanqardizm və antimodernizm kimi xarakterləri ehtiva etmişdir. Məsələyə bu prizmadan yanaşdığımız təqdirdə modernizm və avanqardizmin kütləvi mədəniyyət üçün mürəkkəb və dolaşıq olması faktı ortaya çıxır, bu səbəbdən də modernizm və avanqardizm cərəyanlarına məxsus texnikakütləvi mədəniyyətin istehsalçıları tərəfindən sadələşdirilməyə məruz qalır. Məlumdur ki, kütləvi mədəniyyət inkişaf etmiş demokratik cəmiyyətdə daha çox inkişaf edir, buna bariz nümunə kimi, Amerikada Hollivud tərəfindən yaradılan kütləvi mədəniyyəti göstərə bilərik. Amma bunun əksi olaraq totalitar cəmiyyətlərdə isə demək olar ki, kütləvi və elitar mədəniyyətin bir-birindən ayrılması halları yoxdur. Kulturoloqlara görə, elitar və kütləvi mədəniyyətlərin uyğunlaşma və ya birləşməsində qeyri-adi bir şey yoxdur. Sadəcə olaraq elitar mədəniyyət kütləvi mədəniyyətin törəməsi kimi zəruri formada meydana çıxır. Kütləvi mədəniyyətin ekspansiyası cəmiyyətdə bir submədəniyyətin digəri ilə əvəz olunmasına şərait yaradır ki, bu da elitar avanqard mədəniyyət səviyyəsində özünü təzahür etdirir. Elitar və kütləvi mədəniyyətlər ayrı-ayrı formalarda təşəkkül tapır. XX əsrin 60-cı illərinin sonunda «kütlə tərəfindən dərk edilməyən» azlığın mədəniyyəti kütləvi mədəniyyətə mane olmağa başlayır. Lakin sonralar bu mədəniyyət elitarlığın avanqard təbəqəsi kimi özünü göstərir (5, s. 172).

Bəzi alim-tədqiqatçılara görə gerçəkliyin, inkişaf meyllərinin, ictimai həyatın demək olar ki, bütün sahələrinin, tarixi dəyişikliklərin mərkəzində insan dayanır, həyat və dünya qəhrəmanları isə insanlardır (2, *səh.* 20).

"İctimai-siyasi quruluşlara uyğun olaraq hər bir cəmiyyətin mədəniyyəti onun xarakterinə uyğunlaşdırılır. Cəmiyyətin siyasi, iqtisadi məzmunu mədəniyyətin inkişaf modellərində öz əksini tapır. Bununla yanaşı mədəniyyət bütün dövrlərin insani münasibətlərini, etik və estetik baxışlarını, etnoqrafiyasını, milli-psixoloji xüsusiyyətlərini özündə qoruyub saxlayır. Eyni zamanda mövcud cəmiyyətin həyat tərzi, siyasəti, istehsal münasibətləri, dini və elmi baxışları, texnologiyası, ədəbiyyat və incəsənəti və s. xüsusiyyətləri mədəniyyətin əsas tərkib hissəsi kimi özünü biruzə verir" (3, səh. 9).

İnsanlar ayrı-ayrı dövrlərdə məkan və zaman daxilində müvafiq məişət və davranış tərzləri ilə zəngin irs yaratmışlar və bu irs sonrakı tarixi dövrlərə ötürülmüşdür. Müxtəlif tarixi dövrləri özündə əks etdirən və maddiləşən yazılı qaynaqlar şəklində mövcud olan, qorunan mədəni sərvətlər kimi bu irs zaman-zaman öyrənilmiş və qədim mədəniyyətlərin dərk mənbəyi kimi, mühüm amilə çevrilmişdir. Bu baxımdan digər sahələrdə olduğu kimi mədəniyyətdə də, həmçinin elitar və kütləvi mədəniyyətlərdə müxtəlif nəzəriyyə və baxışların yaranmasına səbəb olmuşdur.

Elitar və kütləvi mədəniyyətlərdə maarifçilik ideyalarının əhəmiyyəti

Elitar mədəniyyətdən bəhs edərkən maarifçilik ideologiyası ənənələrini də vurğulamaq lazımdır. Maarifçilik sayəsində müvafiq məlumatları əldə edən elita kütlələrə mədəniyyətin bu və ya digər sahələri haqqında ən vacib informasiyaları verməklə onları zənginləşdirir, zövqlərin inkişafına təkan verir, gələcək fəaliyyətlərində fəallığını təmin edir. Ayrı-ayrı tarixi dövrlərdə elitar mədəniyyətdə mövcud olmuş mühafizəkarlıq ideyalarında əsasən elita tərəfindən mədəniyyət və incəsənətin tamamilə kütlələrə bəxş edilməsi tövsiyə olunurdu. Əgər belə olmasaydı yüksək zövqə və bacarığa, bilik və dünyagörüşə malik elita digərlərindən fərqlənməzdi. Həmçinin məxfilik və yüksək mədəniyyət vasitəsilə elita kütlənin səviyyəsinə enməli idi. Bu cür ideyalar elitar mədəniyyətin sələflərinə xasdır (1, səh. 18).

Tanınmış ispan filosofu Orteqa-i-Qasset elitar mədəniyyət haqqındakı konsepsiyasında köhnə və yeni incəsənət məsələlərinə toxunaraq onlar arasındakı fərqi yeni mədəniyyətin elitaya ünvanlanmasında görür. Alimin bu konsepsiyasından belə nəticəyə gəlmək olar ki, yeni mədəniyyət və incəsənətin kütlələr tərəfindən bütövlükdə dərki mümkün deyil, həm də mütləq sayılmır.

Bir qisim alimlər hesab edirlər ki, mədəniyyət və incəsənət elitaya aid olmaq xalqla əlaqəli deyil. Belə ideyalar T.Eliot və E.Painnot tərəfindən göstərilir. C.Santayana hesab edir ki, mədəniyyət çətin fəaliyyətdir və bəzən nadir hesab olunmalı, bəzən isə orta səviyyəli sayılmalıdır. O, qeyd edir ki, zövqlü və bacarıqlı, xüsusi istedada malik insanların fikirlərinə qarşı çıxmaq mədəniyyəti yaradan mənbələrə qarşı çıxmaq deməkdir (17, s. 125).

Milli mədəniyyətlərin təşəkkülü, formalaşması və inkişafında həm mühit, həm də təkamül baxımından qarşılıqlı əlaqələrin əhəmiyyəti özünü göstərir. Elitar mədəniyyətdə məkan və şəraitin yeri mühüm olduğu kimi, kütləvi mədəniyyətdə də məkan və şəraitin əhəmiyyəti böyükdür. Elitar incəsənətin formalaşmasında mühit, şərait kimi, ayrı-ayrı fərdlərin yüksək yaradıcılıq bacarıqları getdikcə millilikdən çıxaraq bəşəriliyə çevrilir.

Teosentrizm mövqeyində duran Orta əsr filosofları ümumbəşəriliyi Allahın yaratdığı məkanda, yəni dövlətdə, "günaha batmış" insanın həmin günahlardan təmizlənməsində görürdülər" (4, s. 38-39).

Dini istiqamətli baxışlarda milli mədəniyyətin bəşər mədəniyyətinə çevrilməsində müxtəlif nəzəri müddəalar irəli sürülür. Ümumiyyətlə, istiqamətindən asılı olmayaraq nəzəriyyəçilərin fikrincə, öz elitar səviyyəsi ilə seçilənlərin özünü təqdim etməsi, özünütəzahürü, özünüifadəsi prosesi baş verirsə, kütləvi mədəniyyət prosesində isə kütlələrin tələbatına görə istehlak prosesi yaranır. Təbii ki, kütlənin bir hissəsi bundan bəhrələnir, tələbatlarına görə onlar öz dünyagörüşlərinə uyğun zənginləşmə prosesində olurlar. Bu

baxımdan T.Adorno öz tədqiqatlarında qeyd edir ki, elitar və kütləvi mədəniyyət ümumsosioloji yox, tarixi fenomendir.

Beləliklə, elitar və kütləvi mədəniyyətin mərkəzində yaradıcı insan durur, insan tərəfindən yaradılan mədəni sərvətlər ayrı-ayrı tarixi dövrlərdə müxtəlif məzmunda və formada olmuş, sivilizasiyanın tərkib hissəsi olmaqla, mifoloji və dini hadisələrlə yanaşı, əksər hallarda real fəaliyyəti özündə əks etdirə bilmişdir.

Apardığımız araşdırmalardan belə nəticəyə gəlmək olar:

1. Müxtəlif tarixi dövrlərdə mədəniyyətin sosial-fəlsəfi dərkinə fərqli mövqelərdən yanaşılmış, millilik və bəşərilikdə müqayisəli baxışlar mövcud olmuşdur.
2. Ayrı-ayrı tarixi mərhələlərdə baş vermiş dəyişikliklərə uyğun olaraq milli mədəniyyətin inkişafı özünü göstərmiş, bəzən isə baş vermiş ziddiyyətlər zəminində həmin xalqın mədəniyyətində, xüsusən elitar inkişafında çətinliklər baş vermişdir.
3. Elitar və kütləvi mədəniyyətlərin inkişafında irəli sürülmüş nəzəriyyələrin də mühüm əhəmiyyəti olmuşdur. Belə ki, nəzəri müqayisələr və fərqləndirmələrdən istifadə edilərək yeni elitar qüvvənin yaranması, daha sonra isə kütləviləşmə ilə nəticələnmə özünü göstərmişlər.
4. Elitar və kütləvi mədəniyyətlərin inkişafında elektron informasiya və digər kütləvi ünsiyyət vasitələrinin mühüm əhəmiyyəti olmuşdur.
5. Elitar və kütləvi mədəniyyətlərin səciyyəvi xüsusiyyətlərinin təhlili qədim tarixə malik olsa da, sonrakı dövrlərdə irəli sürülən ideyaların əsasını qoymuşdur. Xüsusilə də, XX əsrdə Qərb filosoflarının elitar və kütləvi mədəniyyət haqqındakı nəzəriyyələri öz orijinallığı ilə seçilmişdir.
6. Müasir dövrdə elitar və kütləvi mədəniyyətlərin inkişafı innovasiyalılıqla bilavasitə əlaqədardır. Yəni, mədəniyyət həmişə "yeni"ni təbliğ edir, kütləviləşmə ilə nəticələnir.
7. Mədəniyyət üçün məkan cəmiyyətdir, bu da sivilizasiyanın inkişafı ilə bağlıdır. Yaradıcı insan tərəfindən ərsəyə gətirilən mədəni sərvətlər real fəaliyyəti özündə əks etdirə bilmişdir.

Nəticə

Ayrı-ayrı tarixi dövrlərdə yaradıcı insanların xarakterindən, bilik, bacarıq və vərdişlərindən asılı olaraq mədəniyyət müxtəlif formalarda mövcud olmuşdur. Alim-filosoflar zaman-zaman mədəniyyətin sosial-fəlsəfi dərkinə fərqli yanaşmış, milli və bəşəri mədəniyyətlə əlaqədar müqayisəli baxışlarını bildirmişlər. Bu baxımdan J.Vikonun, İ.Kantın, V.Hegelin, R.Uilyamsın, E.Boqardusun, Z.Freydin elmi yanaşmalarında maraqlı fikirlər mövcuddur (16, s. 5). Elitarlıq və kütləvilik anlayışları müasir cəmiyyətdə əhəmiyyət kəsb edir. Cəmiyyətin elitaya və kütləyə bölünməsi zərurəti elitarizm konsepsiyası ilə məşhurdur. İlkin elitarizm ideyalarının yaranması ilə bağlı qeyd edək ki, hələ qədim dövrdə Platon Yunanistanda kalokadatiya nəzəriyyəsini irəli sürmüşdür. Bu nəzəriyyəni platondan əvvəl Pifaqor irəli sürsə də, Platonun bu nəzəriyyəsindən Aristotel də bəhrələnmişdir. Bu nəzəriyyədə Platonun irəli sürdüyü "İdeal dövlət"də mükəmməl bilik və bacarığa malik elitar təbəqə meydana çıxır (20, s. 109-110).

İlkin elitar nəzəriyyələr sırasında Çin filosofu Konfutsi, Qərb fəlsəfi fikrində mühüm yeri olan Akvinalı Fomanı göstərmək olar. Elitar mədəiyyətlə kütləvi mədəniyyət arasındakı ziddiyyətlərin dərinləşməsi artıqXX əsrdə son dərəcə gücləndi. Bu nəzəriyyənin əsas müddəaları alman filosofları Artur Şopenhauer və onun davamçısı Fridrix Nitsşenin, eyni zamanda ispan filosofu Xose Orteqa-i Qassetin yaradıcılığında əks edilmişdir.

Kütləvi mədəniyyətlə də bağlı fəlsəfi baxışlarda fərqlilik mövcuddur. H.Markuzeyə görə

XX əsrin əvvəllərindən etibarən mexanikləşdirilmiş istehsal digər istiqamətlərlə bərabər, maddi və mənəvi mədəniyyətə də öz mənfi təsirini göstərmişdir (18, s. 48-49). Kanada sosioloqu M.Maklyüen kütləvi mədəniyyətlə bağlı araşdırmalarında yeni mədəniyyət tipinin kütləvi kommunikasiya vasitəsilə formalaşdığını qeyd etmişdir (5, s. 185). Asiya, Afrika və Latın Amerikası alim-tədqiqatçılarının fəlsəfi fikirlərində kommunikativ nəzəriyyələrin mühüm əhəmiyyəti vurğulanır və eyni zamanda burada qloballaşmanın, qərbləşmənin də təsiri göstərilir (19, s. 38).

Ayrı-ayrı xalqların milli mədəniyyətlərinin yaşanması, qorunması və gələcək nəsillərə ötürülməsi, kütləviləşmədə itirilməməsi müasir ictimai-siyasi mühitdə "millət", "millətçilik" anlayışları ilə də əlaqələndirilir (14, s. 34). Rus filosofu Y.D.Qranin millətin identiklik və həmrəylik hisslərinin birliyindən bəhs edərək Rusiyada etnik özünüdərkin milli özünüdərkdən üstünlüyünü göstərir (10, s. 16-17). Müasir dövr tədqiqatlarında "millət"in məzmununda dövlətin vacibliyi əsas götürülür (8, s. 6-17). Eyni zamanda "identiklik" sosial təsisatlara aid edilməklə, siyasi bərabərlik, qanunun aliliyi, vətəndaş həmrəyliyi və dövlətçilik ön plana çəkilir (15, s. 77), milli mədəniyyət anlayışı dövlət identikliyi ilə əlaqələndirilir (9, s. 7-9).

A.Toynbi, O.Şpenqler və digər filosoflar inkişafın, həmçinin elitar mədəniyyətin hansı xalq tərəfindən tərəqqisini əvvəlcədən bəyan etmənin qeyri-mümkünlüyünü bildirmişlər (13, s. 188). Alimlər mənəvi mədəniyyətlə bağlı imkanların düzgün qiymətləndirilməsini vacib hesab etmişlər (12, s. 86), milli mədəniyyətin inkişafında üstqurumun bazisə müsbət təsirini aydınlaşdırmışlar (21). Tədqiqatlarda elitar və kütləvi mədəniyyətlərin bir-biri ilə qarşılıqlı əlaqədə inkişaflarında müasir innovasiyaların mühüm əhəmiyyəti qeyd edilmişdir (6, s. 142).

Bəzi araşdırmalarda insanın cəmiyyətin hərtərəfli inkişafında birinci amil olduğu, baş verən bütün fəaliyyətdə, yeniliklərdə "mərkəz"də olduğu isbat edilmişdir (2, s. 20). Bir qisim filosoflar mədəniyyət və incəsənətin elitaya aid olmasını xalqla əlaqələndirmirlər. T.Eliot və E.Painnotun fəlsəfi baxışlarında buna rast gəlinir. C.Şantayana mədəniyyətin çətin fəaliyyət olduğunu və zövqlü, bacarıqlı, yaradıcı insanlara qarşı çıxmamağı tövsiyə etmişdir (17, s. 125). Teosentrizm mövqeyindən çıxış edən Orta əsr filosofları ümumbəşəriliyi Allahın yaratdığı məkanda "günaha batmış" insanın həmin günahdan təmizlənməsində görürdü (4, s. 38-39).

Beləliklə, mədəniyyətin sosial-fəlsəfi dərkinə müxtəlif tarixi dövrlərdə fərqli yanaşmalar olmuşdur, elitar və kütləvi mədəniyyətlərin inkişafında irəli sürülmüş nəzəriyyələrin mühüm təsiri özünü göstərmişdir. Müxtəlif məkanlardakı dəyişikliklərə müvafiq olaraq milli mədəniyyətlərin inkişafı özünü göstərmiş, ayrı-ayrı səbəblərdən yaranan ziddiyyətlər zəminində həmin xalqın elitar mədəniyyətinin inkişafında çətinliklər mövcud olmuşdur. Müasir dövrdə elitar və kütləvi mədəniyyətlər innovativ proseslərlə bilavasitə bağlıdır, mədəniyyət həmişə "yeni"ni təbliğ edir, bu da getdikcə kütləviləşməyə səbəb olur.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Dadaşov X., Sadıxov A. "Azərbaycan mədəniyyəti və ünsiyyət problemi". Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsrləri. Bakı 2014, №18.
2. Əmirxanov S. "Yuxarı sinif şagirdlərinin estetik tərbiyəsinin formalaşmasına incəsənət muzeylərindən istifadənin təsiri" *mövzusunda pedaqogika elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyası. Bakı, 1996, 169 s.*
3. Hüseynov İ., Əmirxanov S. İctimaiyyətlə əlaqələr. Ali məktəblər üçün dərslik. Azərbaycan dilində. Bakı, Bakı Biznes Universiteti, 2017, 480 səh.
4. Hüseynova N.Ə. "Milli mədəniyyətlər zaman və məkan kontekstində sosial-fəlsəfi təhlil" dissertasiya mövzusu: elmi dərəcə. Bakı, 2014, 158 səh.
5. M.J.Manafova, N.T.Əfəndiyeva və S.A.Şahhüseynovanın ümumi redaktəsilə. Mədəniyyət tarixi və nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. Bakı: Sabah, 2010, 876 səh.

6. Rzaquliyev P. Mədəniyyətdə ənənə və innovasiya münasibətləri. "Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf" mövzusunda beynəlxalq konfrans. Bakı: Təknur MMC, 2012.
7. Аксюнов Б.В. Кризис Традиционных форм диховной культуры в современной цивилизации. Автореф. **Дис...** канд. Филос. Наук. Ставрополь: 2002, 24 с.
8. Алиев И.Г. Очерк истории Атропатены. Баку: Азернешр, 1989, 160 с. 123.
9. Андерсон Б., Бауэр О., Хрох М. Нации и национализм. Москва: Праксис, 2002, 418 с.
10. Гранин Ю.Д. Станет ли Россия «нациоральным государством?» // Вопросы философии, 2011, №1, с.15-27.
11. Ивин А. Философия истории: Учебное пособие. Москва: Гардарики. 2000, 528 с.
12. Майнцер К. Вызовы сложности в XXI веке. Междисциплинарное введение // Вопросы философии, 2010, No 10, с.84-98.
13. Мучник В.М. В поисках утраченного смысла истории: Генезис и эволюция исторических взглядов А.Дж. Тойнби. Томск: изд. Томского Ун-та, 1986, 199 с.
14. Национализм в поздне – и посткоммунистической Европе. Т.1. Неудавшийся национализм многонациональных и частично начиональных государств. М.: РОССПЕН. 2010, 430 с.
15. Семеноу Ю.И. Философия истории (Общая теория основные проблемы, идеи и конценции от древности до наших дней). М.:Современные тетради, 2003, 776 с.
16. Философия культуры. Становление и развитие / под редакцией М.С. Кагана, Ю.В. Перова, В.В. Прозерского, Э.П.Юровской. СПБ.: Издательство «Лань», 1998, 448 с.
17. Шварц Т. От Шопенгауера к Хайдеггеру. Пер. Ц. Арзаканьяна. М.: Прогресс. 1964, 356 с.
18. Monotch H. Noah McClain. Dealing with urban terror: heritages of control, varieties of intervention, strategies of research // International Journal of Urban and Regional Research Volume 27, Issue 3, pages 679-698, September, 2003.
19. Silvio Wisbord and Claudia Mellado. Qərbləşmə, kosmopolitizm və qloballaşma: kommunikasiya nəzəriyyələrinin geomədəni sərhədləri // ISI Journal Citation Reports-©-Ranking: 2011: 13/72 (Communication) p.30-52.
20. *Zeynalov* M.B. *Fəlsəfə tarixi (*Qərb *fəlsəfəsi). Bakı:* Azərbaycan, 2001, 535 səh.
21. ƏlibəyliElçin. Elitarvəkütləvimədəniyyət. http: //elchinalibeyli.blogspot.com/2013/05/
22. Бунаков М.Ю., Лукин Б.Н. Национализм и национальная идентичность в условиях глобализации: проблемы концентуализации/"Credonew", 2006, No 2//http: //credonew.ru

Месхети Джафарова

РАЗЛИЧИЯ В ФИЛОСОФСКИХ ВЗГЛЯДАХ НА ЭЛИТУ И МАССОВУЮ КУЛЬТУРУ

Резюме

Важность взаимодействия с точки зрения окружающей среды и эволюции очевидна в формировании, пстановлении и развитии национальных культур. Так же как пространство и условия важны в элитарной культуре, так же важны пространство и условия в массовой культуре. В процессе становления элитарного искусства, среда, условия, высокие творческие способности личности постепенно покидают национальность и становятся человечностью.

Цель – цель исследования изучить социально-философские аспекты элитных и массовых культур, определить положительные эффекты взаимозависимости, проанализировать их характеристики и сравнить прямую связь этих культур с инновациями и получить результаты.

Методология – изучение философских взглядов и теорий о различных подходах к социально-философскому пониманию элитарной и массовой культур, сравнительных взглядов

на национализм и гуманность, противоречий между элитой и массами в разные исторические периоды.

Результат – различные философские течения анализировали формирование, развитие и значение элитных и массовых культур в человеческой культуре.

Ключевые слова: *элитарная и массовая культура, познание, время, пространство, средства информации, инновация, теория, цивилизация.*

Meskheti Jafarova

DIFFERENCES IN PHILOSOPHICAL VIEWS ON ELITE AND MASS CULTURES

Summary

The article highlights the importance of interaction in terms of both environment and evolution in the formation and development of national cultures. Just as space and conditions are important in elite culture, so are space and conditions important in mass culture. In the formation of elite art, as an environment, conditions, the high creative abilities of individuals are increasingly moving from nationality to humanity.

Purpose – the purpose of the research is to study the socio-philosophical aspects of elite and mass cultures, to determine the positive impact of interdependence, to analyze the characteristics and to compare the direct relationship of these cultures with innovation and to obtain results.

Methodology – study of philosophical ideas and theories on different approaches to the social philosophical understanding of elite and mass cultures, comparative views on nationalism and humanity, the contradictions between the elite and masses in different historical periods.

Finding – different philosophical currents analyze the formation, development and importance of elite and mass cultures in human culture.

Keywords: elite and mass culture, cognition, time, media, innovation. theory, civilization

Fəxrəddin Quliyev
Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi,
tex. ü.f. d., dosent
Fakhraddin.Kuliev@mail.ru

SİNERGETİK PARADİQMA ELMİ TƏDQİQATIN METODOLOJİ PRİNSİPİ KİMİ

Məqalədə sinergetikanın fənlərarası tədqiqat sahəsi kimi yaranmasında mühüm rol oynamış elmi məktəblərin konsepsiyaları nəzərdən keçirilmiş, sinergetik paradiqmanın prinsip və kateqoriyalarının elmi-fəlsəfi şərhinə cəhd edilmişdir.

Özünütəşkil prosesləri, bu proseslərin qanunauyğunluqları və metodoloji aspektləri sinergetik tədqiqatlarda mühüm yer tutur. H.Haken özünütəşkil proseslərini tabeçilik prinsipi, nizamlılıq parametri, faza keçidləri, dairəvi səbəbiyyət kateqoriyaları vasitəsi ilə tədqiq edir. Bu problemə İ.Priqojin dissipativ strukturlar, xaosdan nizamlılığa prinsipi nöqteyi-nəzərindən yanaşır, təsadüfi faktorların konstruktiv roluna diqqəti cəlb edir. S.Kurdyumov və onu məktəbi mürəkkəb sistemlərin unversal xarakter daşıyan təkamülünün attraktorlar strukturu modelini yaratmış, təkamül nəticəsində mürəkkəb sistemlərin gəlib çıxacağı vəziyyətləri tədqiq etmişlər. Barantsev öz tədqiqatlarında asimptotologiyanın sinergetik mahiyyətini aşkar etməklə göstərmişdir ki, asimptotologiyada sinergetikada olduğu kimi əsas prinsip varlıqdan təşəkkülə prinsipidir.

Sinergetika özünütəşkil və özünüinkişaf proseslərinin fəlsəfi-metodoloji prinsiplərini ifadə edir, fənlərarası tədqiqat sahəsi kimi dialektikanın ümumi qanunları ilə konkret elm sahələrində alınan yeni nəticələr arasında əlaqə yaradır.

Xaos və nizamlılıq arasındakı ziddiyyətlər "əməkdaşlıq", "sinergiya" xarakteri daşıyır, belə ki, bu ziddiyyətlərin qarşılıqlı əlaqəsi yeni strukturun yaranması ilə nəticələnir.

Sinergetik prinsiplər varlığın bütün sahələrində mövcud olan invariant ontoloji mexanizmləri ifadə edir, invariantlıq prinsipləri əsasında sosial-fəlsəfi tədqiqatlarda da öz geniş tətbiqini tapır.

Məqsəd: Sinergetik paradiqmanın metodoloji əsaslarının tədqiqi.

Metodologiya: Dialektik - məntiqi metodların konteksində təhlil.

Elmi yenilik: Təşəkkül proseslərinin tədqiqində sinergetikanın prinsip və kateqoriyalarının reallaşdırılması və qiymətləndirilməsi.

Açar sözlər: *sinergetika, metodologiya, qeyri-xətti düşüncə, asimptotologiya, təşəkkül, özünütəşkil, dissipativ strukturlar, koherentlik*

Giriş

XX əsrin sonlarından başlayaraq qeyri-xətti düşüncəyə əsaslanan sinergetik paradiqma təbiətşünaslıqla yanaşı humanitar elmlərdə geniş tətbiq edilməkdədir.

Qeyri-xəttilik bizi əhatə edən dünyanın ontoloji atributudur, onun təkamül qanunlarının aparıcı ideyasıdır. Varlığın müxtəlif sahələrində proseslər daxili vəhdət və dinamik bütövlük prinsiplərindən yaranan qanunauyğunluqlar əsasında baş verir. Dinamik bütövlük elementlərin qarşılıqlı birgə təsiri, mikrosəviyyədə fluktuasiyaların makrosəviyyədə struktur dəyişikliyi, tarazlıqla qeyri-tarazlıq arasındakı dinamika kontekstində tədqiq edilir.

Termodinamik tarazlıqdan uzaq dinamik qeyri-xətti açıq sistemlərin ümumi prinsiplərlə tədqiqi sinergetikanın əsas mövzusudur. Sinergetikanın bir elmi-fəlsəfi metodologiya kimi formalaşmasıında alman fiziki H. Haken [22-26] və belçikalı kimyaçı, Nobel mükafatı laureatı İ.Priqojinin fundamental tədqiqatları [16-20] mühüm rol oynamışdır.

Sinergetik paradiqmanın formalaşması

H.Haken sinergetikanın predmet sferasını "kooperasiya haqqında elm", "qarşılıqlı təsir nəzəriyyəsi", "ayrı-ayrı hissələrdən ibarət olan sistemlərdə ümumi qanunların öyrənilməsi", "birgə fəallıq, birgə enerji" fenomenləri kimi xarakterizə edir, təməl prinsip və kateqoriyaları qismində isə özünütəşkil, ierarxiya, tabeçilik prinsipi, dairəvi səbəbiyyət, ümumiləşdilirmiş faza keçidləri, nizamlılıq parametrini qəbul edir.

Haken sinergetikasında təşkiletmənin qurulması, onun mənşəyi, inkişafı, özünü mürəkkəbləşdirmə sistemi – strukturun formalaşma prosesləri xüsusi əhəmiyyət kəsb edir. Hakenə görə struktur çoxsaylı hissəciklərin koherent hərəkətlərinin yaratdığı vəziyyətdir.

Haken sinergetikanı sistemli təhlilin tərkib hissəsi hesab edir, sistemin zamana görə təkamülünü sistem fəaliyyətinin ümumi prinsipləri, ilk növbədə ixtiyari təbiətli sistemlərdə kooperativ proseslərin özünütəşkili prinsipi əsasında tədqiq edir[24, 17-19].

H.Haken konsepsiyasının əsasını ümumiləşdilirmiş faza keçidi və nizamlılıq parametri təşkil edir. Faza keçidləri yeni strukturun yaranmasıdır, bu proses spontan baş verir, sıçrayışlarla müşayət olunur, yəni, təkamül yolu diskretdir.

Özünütəşkil prosesində nizamlılıq parametrləri fundamental rol oynayır. Belə ki, nizamlılıq parametrləri ierarxik sistemin makroxarakteristikasıdır, sistemi bütövlükdə yeni dəyişənlərlə xarakterizə edir, sistemin fəaliyyəti və attraktorlarını müəyyən edir. Sistem komponentlərinin davranışı tabeçilik prinsipi vasitəsilə müəyyən edilir [26, 54].

Dairəvi səbəbiyyət qeyri-xətti proseslərin fəlsəfi mahiyyətini əks etdirir. Nizamlılıq parametrləri və sistemin vəziyyət parametrlərinin arasında münasibətlər dairəvi səbəbiyyət anlayışı vasitəsi ilə təsvir edilir, yəni vəziyyət parametrləri nizamlılıq parametrlərini formalaşdırır, həm də onların tərəfindən idarə edilir. "Dairəvi səbəbiyyət kollektiv vəziyyət yaradır, bu, sosiologiyada sosial iqlimə(ab-havaya), geniş ictimai rəyə, demokratiyaya və ya diktator rejiminə uyğundur. Nizamlılıq parametri obrazın bütövlükdə təfsilatı ilə birlikdə yenidən yaradılması üçün zəruri və yetərlidir [22, s. 53-54].

Qeyd edək ki, ierarxik nizamın sistem nəzəriyyəsində vacib rol oynadağına hələ L. fon Bertalanfi diqqəti yönəltmişdi: "İerarxik nizamın ümumi nəzəriyyəsi, görünür, ümumi sistem nəzəriyyəsinin ən əhəmiyyətli tərkib hissəsi olacaq... İerarxik nizam prinsipləri təkamül, aramorfoza və təşkilatın ölçüsü məsələləriylə sıx bağlıdır" [4, s.50].

İ.Priqojinə görə sinergetikanın əsas anlayışı dissipativ strukturlardır. Dissipativ strukturlar maddənin qeyri-tarazlıq vəziyyətlərində sərbəst enerji selini induksiya edən yeni vəziyyətidir.

Priqojin Bolsmanın nizamlılıq prinsipindən fərqli olaraq ikinci nizamlılıq prinsipini-fluktuasiyalardan yaranan nizamlılıq prinsipini irəli sürür. Nizamlılıq prinsipi mikro və makrosəviyyələri əhatə etdiyindən həm təsadüf, həm də qanun statusu alır[19, 521]. Təsadüfilik inkişafda olan sistemin immonent xassəsidir. Belə ki, sistem öz dayanıqlığını itirən nöqtələrdə fluktuasiya güclü olur və sistemin inkişaf istiqamətini müəyyən edir, bifurkasiya nöqtələrindən keçid sırf təsadüfi xarakter daşıyır. Bununla yanaşı təsadüfün konstruktiv rolunu qeyd etmək lazımdır, bifurkasiya nöqtələrində "fluktuasiya o budağı seçir ki, həmin yolla sistemin təkamülü davam edir [20, c. 56]. Priqojin fluktuasiyanın təsirinin qlobal xarakterini vurğulayır.

Yüksək qeyri-tarazlıqda olan sistemlərin dinamikasını tədqiq edərək İ. Priqojin yeni makroskopik strukturlar fluktuasiyanın hesabına yaranır ideyasını irəli sürür: "Dayanıqsızlığa fluktuasiyanın nəticəsi kimi baxmaq olar, əvvəlcə sistemin kiçik hissəsində lokallaşdırılır, sonra isə yayılaraq yeni makroskopik vəziyyətin yaranmasına gətirib çıxarır. Bunun üçün sistemin ölçüləri müəyyən böhran qiymətlərindən böyük olmalıdır.

Qeyri-xətti açıq sistemlərin təkamül yolu attraktorlar zəncirlərindən ibarətdir, iki attraktor nöqtəsi arasında sistemin fəaliyyəti deterministik qanunla idarə olunur, ancaq

bifurkasiya nöqtəsinin yaxın ətrafında fluktuasiyalar əhəmiyyətli rol oynayır, sistemin hansı inkişaf budağını onlar "seçir"[16, 327].

Təkamül proseslərinin tədqiqində M. Eygenin xidmətlərini qeyd etmək olar[27-29]. O, avtokatalitik reaksiyaların qanunauyğunluqlarını tədqiq etmiş və Priqojinin tədqiqatlarından istifadə edərək özünütəşkil proseslərinin həyata keçməsi üçün "molekulyar xaosun" mövcud olmasını əsas səbəb kimi göstərmişdir. Onun fikrincə "Təkamülün baş verməsi təsadüfi hadisələrdən başlamalıdır"[27, s.546].

Bununla yanaşı sinergetikanın bir fənlərarası tədqiqat sahəsi kimi formalaşmasında rus alimlərinin rolunu xüsusilə qeyd etmək lazımır. S. Kurdyumovun rəhbərliyi ilə mürəkkəb sistemlərin dinamikasının təkamül modeli hazırlanmış və müxtəlif mürəkkəblik dərəcələri olan strukturların kəskinləşmiş rejimdə təkamül dinamikası tədqiq edilmişdir.

Proseslərin qeyri-xətti analizi və riyazi modelləşdirməsi sahəsində Kurdyumovun kəşfi-enerjinin dissipasiyası ilə müşayət olunan açıq mühitdə istiliyin ətaləti fenomeni, istiliyin müəyyən formada lokallaşdırılması, dalğaların yığılması və yanma intensivliyinin artması (kəskinləşməsi) ilə müşayət olunan LS-rejimi mühüm rol oynadı. Kurdyumov və əməkdaşları müxtəlif təbiətli proseslər üçün universal olan HS və LS rejimləri tədqiq edərək göstərdilər ki, əgər lokallaşdırma mövcud deyilsə, onda HS rejimi, yəni, "qeyri-məhdud yayılan dalğa" rejimi mövcud olur və bütün strukturda qeyri-bircinslik genişlənir. Kəskinləşməylə müşayət olunan LS- "axıb gələn yanma dalğası" rejimində isə, maksimumun kiçik ətrafında lokallaşdırma və prosesin intensiv artması müşahidə olunur.

Nisbətən sadə və abstrakt qeyri-xətti riyazi modellər özündə dərin məzmunlu, konkret ideyaları daşıyır. İnvariantlıq prinsipinə görə riyazi tənliklər müəyyən sinif prosesləri adekvat təsvir edir. Riyazi modelləşdirmə ilə o haqda paradoksal fərziyyə irəli sürülmüşdür ki, güclü qeyri-xətti açıq mühitlərdə dalğaların yayılma və yığılmasının (HS və kəskinləşməylə LS rejimlər) bir-birini əvəz etməsi İn - Yan Çin simvoluna dərin analojidir.

LS rejimdə proseslər kəskinləşmə anına yaxın çox böyük sürət alır, HS-rejimi mərhələsində onların sürəti əhəmiyyətli dərəcədə azalır, soyuma dalğası qeyri-məhdud sahəyə yayılır [10, 57].

Lokallaşdırma rejiminin reallaşdırılması üçün qeyri-xətti mənbənin enerjisi dissipasiya faktorundan üstün olmalıdır. Bu hadisənin ümumiliyi ondadır ki, qeyri–xəttilik dərəcəsi yüksək olan mənbələrə malik sistemin bu keçidləri təmin etməsi proseslərin təbiətindən asılı deyil, proses dövrü xarakter daşıyır. Keçmiş müəyyən həcmdə təkrar olunur.

V.Vasilkova sosial sistemlərdə dinamikanın təhlili üçün LS və HS rejimlərindən istifadə edərək proseslərin inkişaf qanunauyğunluqlarını müəyyən etmişdir: LS rejimi nizamlılığın yaranması, HS rejimi isə nizamlılığın saxlanması mənbəyidir. LS və HS rejimlərinə keçid üçün müvafiq şərait tələb olunur, qeyri-xətti mənbələrin təsiri dissipativ faktordan daha intensivdirsə LS rejiminə, əks halda isə HS rejiminə keçid mümkün olur. Tədqiqatçı nizamlılığa, koherentliyə keçid probleminin sosioloji tədqiqatlardakı metodoloji əhəmiyyətini və tətbiq sahəsini belə ifadə edir: "Sosioloji konsepsiyalarda təqdim olunan sosial nizamlılıq obrazının axtarışı sosial özünütəşkilin gələcək universal modelinin müxtəlif tərəf və aspektlərini əhatə edir" [6, 186].

Qeyri-xətti açıq sistemlərin tədqiqində asimptotik metodların tətbiqi daha bir fərqli yanaşmadır. Asimptotik riyziyyatla sinergetik paradiqma arasında metodoloji uyğunluqlar mövcuddur. Bu sahədə aparılan tədqiqatlar, əsasən, R. Barantsevin [1,3] adıyla bağlıdır.

Məlumdur ki, hələ XX əsrin 70-ci illərində Leninqrad Universitetində R.Barantsevin rəhbərliyi altında işarələr sisteminin inkişaf dinamikasına yönəlmiş fənlərarası istiqamət - semiodinamika üzrə seminar işə başlamışdır. Bu səbəbdən semodinamikanı haqlı olaraq sinergetikanın sələflərindən biri kim qəbul etmək olar.

Barantsev asimptotik riyaziyyat ilə sinergetikanın tədqiqat üsulları arasında paralellər aparır.

Asimptotika, məlum olduğu kimi, məsələlərin qoyuluşu və həllinin sadələşdirilməsinə xidmət edir, eyni zamanda məxsusiliyə yaxınlaşdıqca dəqiqlik artır. Beləliklə, asimptotik metodologiyada üç amil qarşılıqlı təsir edir: dəqiqlik, lokallıq və sadəlik.

Asimptotika ilə sinergetikanı doğmalaşdıran, problemlərin həllinə onların yanaşma uyğunluğu, sabitlikdən dəyişməyə keçiddir: limitdən - yaxınlaşmaya, varlıqdan - təşəkkülə, tamlıqdan - bütövlüyə [3, s. 182]. Hər bir tədqiqat obyekti özünün yaranışdan başlayan təşəkkülündə tədqiq edilir, "hər iki tendensiya həyat fenomeninin dərkinə yönəldilmişdir".

Barantsev göstərir ki, əgər qeyri-xəttilik- koherentlik-açıqlıq parametrlərini sinergetikanın sistem definisiyası kimi götürsək, onda asimptotik riyaziyyat vasitəsi ilə bu üç parametrin hər birinin mümkün sərhədlərini müəyyən etmək və sinergetikanın tətbiq sahəsinin hüdudları haqqında məsələni həll etmək olar [3, s.318].

Məlumdur ki, asimptotik riyaziyyatda keçid qatları, lokallaşdırma vasitəsi ilə sadələşdirmənin qaçılmaz nəticəsidir. Sadə asimptotiklər yalnız məhdudlaşdırılmış sahələrdə əldə edilir.

Barantsevin tədqiqatları təşəkkül proseslərinə fərqli yanaşma kimi elmi əhəmiyyət kəsb edir, ancaq yeni strukturların yaranması mexanizminin açılışında müntəzəmlik və müfəssəllik məsələləri hələ öz tədqiqini gözləyir.

Rezonans təsir mexanizmi

Sinergetik paradiqmanın əsas prisiplərindən biri rezonans təsir mexanizmidir, bu mexanizmin mahiyyəti ondan ibarətdir ki, sistemin inkişaf istiqamətini sistemə təsirin gücü deyil, sistemin daxili xüsusiyyətlərinə uyğunluğu müəyyən edir.

Qeyri-xətti sistemlərə təsir mexanizminin tədqiqi göstərir ki, sistemin arzu olunan istiqamətdə fəaliyyəti təsir gücündən deyil, sistemin daxili xassələrinə onun uyğunluğundan asılıdır: Burada... biz rezonans qıcıqlanmayla — qeyri-xətti sistemin daxili xüsusiyyətləriylə uyğunlaşdırılmış və ona güclü təsir edən qıcıqlanmayla rastlaşırıq" [12, 33]. Bifurkasiya nöqtəsi ətrafında qeyri-xətti sistemə hətta kiçik təsirlər onun sonrakı taleyini təyin edə bilər, ondan uzaqda isə bu təsir hiss olunmur.

Knyazyeva və Kurdyumov qeyri-xətti sistemlərin idarə olunmasının yeni üsulunu-bifurkasiya nöqtəsində gələcək təkamülə yönəltmək iqtidarında olan kiçik təsirləri tədqiq etmişlər. Mürəkkəb sistemlərin idarə olunmasında "düzgün arxitekturanın" seçilməsinin vacibliyini qeyd edirlər: Əsas güc deyil, və mürəkkəb sistemə - mühitə düzgün konfiqurasiya, təsir arxitekturasıdır. Mürəkkəb sistemə kiçik, amma düzgün təşkil olunmuş rezonans təsirlər fövqəladə dərəcədə effektivdir [9, s.5-6].

Müsbət əks-əlaqə

Sinergetik sistemlərin fərqli cəhətlərindən biri bu sistemlərdə müsbət əks-əlaqənin mövcud olmasıdır. Müsbət əks-əlaqə əksikliklərin "əməkdaşlığı", birgə fəaliyyəti nəticəsində nizamlılığın yaranmasıdır.

Məlumdur ki, proseslərin inkiaf qanunquyğunluqlarını müəyyən edən əsas prinsiplərdən biri əks-əlaqə prinsipidir. Əks-əlaqə prinsipi sistemin yüksək dərəcədə qeyri-xəttiliyini təmin edir. Kibernetikada prosesin dayanıqlığı üçün mənfi əks-əlaqədən istifadə edilir. Mənfi əks-əlaqə təsadüfi təsirləri söndürmək vasitəsi ilə elementlərin dayanıqlı, konservativ əlaqələrindən ibarət sistem yaradır.

Sinergetik sistemlərin kibernetik sistemərdən fərqli cəhəti proseslərin termodinamik tarazlıqdan uzaq şəraitdə baş verməsi hesabına müsbət əks-əlaqə mexanizminin mövcud

olmasıdır, yəni, fluktuasiyaların rezonans təsir mexanizmi ilə kiçiyin böyüyə, dayanıqlı attraktiv struktura çevrilməsidir. Belə ki, sistem tarazlıq vəziyyətindən uzaqlaşdıqca müsbət əks-əlaqə sistemin fəaliyyətində əsas rol oynamağa başlayır. Böhran nöqtələrində kiçik fluktuasiyalar sürətlə artaraq ümumi sistemdə rezonans vəziyyəti yaradır.

Sinergetikanın metod və prinsipləri Budanov tərəfindən geniş tədqiq edilmişdir[5]. Budanova görə ən sadə versiyada, sinergetikanın 7 əsas prinsipi təklif edilə bilər: iki varlıq və beş təşəkkül prinsipi [5, 48-49].

Varlığın iki prinsipi – homostatiklik və ierarxiya sistemin "varlıq" mərhələsini, sistemin dayanıqlı işləməsi şərtlrini, attraktorun rolunu müəyyən edir. Attraktor sistemin homeostaz vəziyyətində davranış proqramının məqsədini ifadə edir. Təşəkkülün beş prinsipini isə qeyri-xəttilik, dayanıqsızlıq, açıqlıq, dinamik ierarxiya və müşahidə oluna bilənlik təşkil edir.

Budanov bu prinsipləri transformasiya mərhələsi, sistemin yenilənməsi, ardıcıl olaraq köhnə nizamın aradan çıxması, alternativləri sınama xaosu və, nəhayət, yeni bir nizamın yaranması ilə əlaqələndirir. Bu prinsiplərin həyata keçirilməsi sistemin formalaşması üçün zəruri və kafidir.

Qeyri-xətti düşüncə və təşəkkül prosesləri

Qeyri-xətti düşüncə sinergetikanın əsas epistemoloji kateqoriyalarından biridir. Qeyri-xətti düşüncə tərzinin əsas xarakteristikaları kimi tədqiqatın geniş əhatə dairəsini, yəni, problemə fərqli nöqteyi-nəzərdən yanaşmaqla müxtəlif təbiətli proses və hadisələr arasında dərin əlaqə və qarşılıqlı asılılıqların aşkar edilməsini, real proseslərin adekvat modelinin qurulması və bunun bazasında abstraktlığın əldə edilməsini göstərmək olar.

Bir sıra mütəxəssislər (İ.Dobronravova, Ye.Knyazeva, S.Kurdyumov və başqaları) qeyri-xətti (sinergetik) düşüncə stilini postneklassik elmin düşüncə stili kimi qəbul edirlər. Sinergetik düşüncə "elmi düşüncənin əvvəlki tarixi düşüncə stilləri – determinizm və ehtimal – əsasında inkişaf edərək özünə hər iki elmin elementlərini daxil edir"[11, 35].

Dobronravova qeyri-xətti düşüncənin evristik imkanlarını ayrl-ayrı kateqoriyalarda və ya kateqoriyalar qrupunda deyil, metod kimi dialektikanın kateqorial strukturunun bütövlüyündə görür. Təbiətşünaslığın yeni tədqiqat proqramlarından yeni bütövün təşəkkülündə metodoloji prinsiplərdən simmetriyanın spontan pozulması prinsipi və fluktuasiyaların koherentliyi prinsipini qeyd edir [9, s.142]. .

Proses və qarşılıqlı təsirlərin qeyri-xəttiliyi onunla izah olunur ki, seçim vəziyyəti (bifurkasiya nöqtələri) dayanıqsız və qısa müddətli olur, çoxvariantlılığı ilə seçilir, mühitin elementlərindən yeni strukturların formalaşması spontan baş verir, nizamlılıq parametrləri sistemin elementlərinə qeyri-lokal miqyasda təsir etməklə yeni strukturun bütövlüyünü təmin edir.

Məlim olduğu kimi, fəlsəfə nöqteyi-nəzərindən sinergetikanın təsvir etdiyi proseslər-təşəkkül proseslərdir.

Baxdığımız elmi istiqamətlər fizika, kimya, riyaziyyat və biologiya kimi konkret elm sahələrində alınan elmi nəticələr əsasında formalaşmışdır. Baxılan məsələlərdə təşkkülün konkret formaları tədqiq edilmişdir.

Təşəkkül prinsipinə görə varlığın əsas forması sona çatmış deyil, daim dəyişməkdə olması, təşəkkül prosesi formasıdır, dayanıqlı-bütöv formalardan ehtimal və reallıq arasındakı vəziyyətin bir məqamıdır, ehtimalın reallığa keçməsini nəzərdə tutur.

Təşəkkül prosesləri, yuxarıda qeyd edilən qeyri-xəttilik prinsipləri əsasında baş verir, yəni emercentlik xassəsinə görə nəticə təşkiledicilərin cəminə bərabər deyil.

Təşəkkül proseslərində kontinium və diskretlik vəhdətdədir və bir-birini tamamlayır. Diskretlik attraktor nöqtələrinə uyğundur, sistemin inkişfının yeni istiqaməti müəyyənləşir. Bir

strukturun digər struktura keçidi, yeni keyfiyyətin əldə edilməsidir.

Təşəkkül proseslərinin tədqiqində bir-biri ilə əlaqədar *bütövlük, mürəkkəblik, koherentlik, attraktor və bifurkasiya* kateqoriyaları əhəmiyyəti rol oynayır.

Bütövlük. Bütövlük obyektin mütəşəkkilliyi, daxili rabitəliliyi və nizamlılığının ən yüksək formasıdır. Bütövlük kateqoriyası obyektin keyfiyyət müstəqilliyini ifadə edir, bunun sayəsində obyekt öz-özünə hərəkət etməyə və özünü inkişaf etdirməyə qadir olur.

Yeni fəlsəfi ensiklopediyada bütövlük - obyektin onu təşkil edən elementlərin müəyyən prinsiplərə uyğun təşkil olunmuş məcmusunun xassələridir.

20 əsrdə bütövlük ideyası idrak predmetinin başqa anlamına əsaslanır, yəni subyekt xarakteristikalarına malik olan kimi, biliyin nəzəriliyi biliyin alınmasının proseslərini özünə daxil edən sistemlər kimi, fərd şəxsiyyətlər kimi, fakt hadisələr kimi, vaxt isə xətti olmayan, daha çox topoloji kimi[15, s. 316-317].

Göründüyü kimi, bütövlük ilk növbədə özünün prosessuallıq xassəsi ilə seçilir.

Tədqiqatlarda bütövlüyü mücərrəd ümumilik sferasından hadisə və obyektlərin konkret xüsusiyyətlərinin araşdırılmasına yönəldirlər.

Tam və bütövlük anlayışlarının fərqi bütövlüyün prosessual xarakterində, təşəkkül prosesi ilə əlaqəsindədir: "İşin mahiyyəti öz məqsədiylə bitmir, özünün həyata keçməsiylə təyin olunur, və nəticə həqiqi tam (bütöv) deyil, və nəticə öz təşəkkülü ilə birlikdə əsasdır"[7, 2].

Elementlər qismində fəaliyyət göstərə biləcək sistemlərin tədqiqində onların dayanıqlı bütövlük, totallıq kimi əsaslarını anlamaq üçün tarixilik, yəni sistemlərin təşəkkülü baxımından yanaşılması daha məqsədəuyğun hesab edilir.

Mürəkkəblik. Mürəkkəb olanın təbiəti, təşkilati və təkamül prinsiplərinin tədqiqi sinergetikada konseptual xarakter daşıyır.

Sistemin struktur mürəkkəbliyi onun elementlərinin say çoxluğu, onların arasındakı əlaqələrin mürəkkəbliyi, ierarxik səviyyələrin sayı ilə müəyyən edilir. Funksional mürəkkəblik isə modelləşdirmə, modelin işləmə alqoritminin hesablama mürəkkəbliyi ilə əlaqədardır.

Maynser yeni dövrdə mürəkkəblik anlayışını insan amili ilə, mövcud reallıqla əlaqələndirir, fərdi imkanlarımızın və baş verənləri anlamamızın müxtəlif dərəcələrini nəzərə olan yeni kollektiv davranışın zəruriliyini qeyd edir, bu mənada "yeni eranın başlanması dostluq münasibətlərinin dialoqunun reallaşdırmasından həlledici dərəcədə asılıdır. Bu, o deməkdir ki, insan intuisiyası və insan emosiyalarıyla bağlı yeni tip mürəkkəbliyə diqqət vermək lazımdır" [13, s. 83-84].

Moren mürəkkəbliyi dinamik sistemin timsalında şərh edir, mürəkkəbliyin atributları bir-birinə çevrilə bilir, öz təbiətini dəyişir, belə ki, "eyni zamanda nisbilik, uyğunluq, çoxluq, oxşar olmamaq, ikilik, iki mənalılıq, qeyri-müəyyənlik" [14, s 183] kimi xassələrə malik olur. Moren sistem prinsipini, yəni formalaşma ilə transformasiya arasında əlaqənin vacibliyini göstərir, və sistem antoqanizmi prinsipini irəli sürür. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, sistemin mürəkkəb vəhdəti antoqanizmi həm yaradır, həm də ləğv edir, belə ki, sistem daim təşəkküldə olur, bir vəziyyətdən digər vəziyyətə keçir.

Bu prinsip canlı orqanizmin təşkili səviyyəsində aktiv və dialektikdir, bu səviyyədə transformasiya və formalaşma qırılmaz rekursiv çevrə yaradır.

Koherentlik. Koherentlik ilk baxışdan əlaqəsiz görünən müxtəlif hadisələrin sinxronlaşdırılması, eyni ritmə gətirilməsidir. Yəni, bütün həcm boyu fərdi axınlar arasında özünüinduksiya edən kooperasiya əlaqələri yeni proseslərin başlanmasını inisializasiya edir. Yəni, özünütəşkil proseslərində sistem elementlərinin böyük hissəsi arasında davranış yekdilliyi yaranır.

Koherentlik obyektin sistem xüsusiyyətlərinin təzahürüdür, hissəcik və tam antinomiyasının uyğun məqamlarını üzə çıxarır. Özünütəşkildə koherentlik elementlər arasında kiçik,

amma topoloji düzgün təsirləri ifadə edir. Sistem komponentlərinin birgə fəaliyyəti, koherent davranışı ilə tabeçilik prinsipi arasında funkfional əlaqə mövcuddur.

Koherentliyin dissipativ strukturlarda yaratdığı dayanıqlı vəziyyətlər varlığın özünə oxşarlıq formaları kimi qəbul edilir.

Klassik təhlildə elementlər və onun ətrafı, yəni lokallıq, sinergetik təhlildə isə qloballıq, kollektiv qarşılıqlı birgə təsir, uyğunluq, sinxronluq, koherentlik pronsipləri əsasdır. Qeyri-lokallıq prinsipi - uzağa təsir, məsafədən korrelyasiya əlaqəsi anlayışlarını, elementlərin vəhdət halında birləşdirilməsi və nəzərdə tutulmuş attraktora istiqamətləndirilməsi proseslərini nəzərdə tutur.

Attraktor. Attraktorlar nəzəriyyəsi mürəkkəb sistemləri idarə etmənin mahiyyətini açır. Sistemə təsir o zaman effektiv olur ki, sistemi bir attraktorun təsir zonasından digər attraktorun cazibə sahəsinə keçirə bilir.

Attraktor dinamik sistemlərin riyazi oblastında elə ədədi qiymətlər çoxluğudur ki, başlanğıc şərtlərin geniş spektri üçün sistem bu yığıma doğru inkişaf edir.

Attraktorlar, sistem təkamülünün potensial yollarını müəyyən edən və öz ətraf mühitini formalaşdıra biləcək aktiv dayanıqlı cazibə mərkəzləridir. Sistemin təkamül yolunu faza portretini qurmaqla izləmək mümkündür. Attraktorlar cazibə sahəsində sistemi bütün mümkün vəziyyətlər sahəsinə bölür, bu sahəyə düşən sistem uyğun olan attraktora mütləq şəkildə təkamül edir. Sistemə istənilən xarici təsirin astana qiyməti bununla şərtlənir.

Attraktorların ilk tədqiqi Anri Puankarenin adı ilə bağlıdır, o, diferensial tənliklərin keyfiyyət nəzəriyyəsi üzərində işlərkən riyazi attraktorları diferensial tənliklərin həllərinin limit qiymətləri kimi təyin etmişdir. Puankare ilə başlanan attraktor nəzəriyyəsi müasir dövrdə qeyri-xətti dinamik sistemlərin tədqiqində açar funksiyasını yerinə yetirir.

Dayanıqlı limit tsikli riyazi modelin vəziyyətini məkan koordinatlarında təsvir edən müvafiq faza fəzasında izolə edilmiş qapalı əyridir, hərəkətin dövrülüyünü göstərir. Dayanıqlı avtorəqslərin təsvir formasıdır, dinamik sistemlərin davranışında parametrdən asılılığın analizi üçün istifadə edilir.

Bifurkasiya. Bifurkasiya sinergetikanın əsas kateqoriyalarından biri kimi sistemin inkişaf dinamikasının mexanizmini müəyyən edir. Sistemin inkişaf istiqamətinin seçilməsi baxımından sistem üçün tale yüklü əhəmiyyət daşıyır.

Bifurkasiya – inkişafın mərkəzi nöqtəsidir, bu nöqtədə bütün potensial imkanlar, həmçinin sistem keçmişi, indisi və gələcəyi kəsişir. Bifurkasiya nöqtələrini seçmə üsulu emercent təkamül xarakteri daşıyır, sistemin ierarxik səviyyələrini sıçrayışla dəyişir. Bu halda dəyişikliklərin polivariant ssenariləri mümkündür: irəliləmə, geriləmə, çıxılmaz vəziyyətlər, dağılma, xaos, sistemin nizama salınması.

Bifurkasiya sistemin böhran vəziyyətini xarakterizə edir, fluktuasiyanın təsisri ilə sistem dayanıqsız vəziyyətdə olur, qeyri-müəyyənlik yaranır: sistemin sonrakı vəziyyətini proqnozlşdırmaq mümkün olmur. Bifurkasiya nöqtəsində sistemin gələcək inkişaf istiqamətinin seçimi sistem üçün tale yüklü əhəmiyyət daşıyır.

Bifurkasiya nəzəriyyəsinin əsasları A.Puankare və A.Lyapunov tərəfindən işlənib hazırlanmış, XX əsrin 20-ci illərindən başlayaraq A. Andronov inkişaf etdirmişdir.

Bifurkasiya nəzəriyyəsinin məsələləri - tədqiq edilən sistemin bütün mümkün bifurkasiyalarının təsviri; parametrlərin bifurkasiya qiymətləri çoxluğunun müxtəlif tipli kobud faza portretləri oblastlarına ayrılması; hər bir oblast üçün uyğun faza portretinin qurulması.

Bu məsələlərin həllinə katastrof nəzəriyyəsində baxılır, belə ki, "katastrof nəzəriyyəsi bütün sışçrayışlı keçidlər, kəsilmələr, gözlənilməz keyfiyyət dəyişikliklərinin tədqiqi üçün universal metoddur"[2, s. 7].

Yeni rasionalizm

Sinergetikanın nəzərdən keçirilən prinsip və kateqoriyalarının tətbiqi elmdə yeni rasionalizmin xüsusiyyətlərini nəzərə almağı tələb edir. Priqojin elmin yeni rasionallığını dayanıqsızlıq ideyasında görür, belə ki, qeyri-dayanıqlı prosesləri tam nəzarətə götürmək mümkün deyil : "Etiraf etməliyik ki, sosial prosesləri tamamilə idarə edə bilmədiyimiz kimi, ətrafımızdakı qeyri -sabit hadisələr dünyasını da tamamilə idarə edə bilmərik. ... Yeni bir rasionallığın konturları ortaya çıxır ki, bu da qeyri -sabitlik ideyasına gətirib çıxarır. Bu fikir reallığın hər hansı bir sahəsinə mütləq nəzarət etmək iddialarına son qoyur [17, s.62-63].

Elmi bilikləri fəaliyyət baxımından tədqiq edən Styopin elmi biliklərin əsas blokları arasında onun fəlsəfi əhəmiyyətini ayrıca qeyd edir: dünyanın elmi mənzərəsi, elmin ideal və normaları, onun fəlsəfi və dünyagörüşü əsaslarını müəyyən edir.

Styopinin rasionallıq kateqoriyaları içərisində "subyekt fəaliyyətinin dəyər-məqsəd yönümlərinin xüsusiyyətləri və onların üzərində elmin əsaslarının fəlsəfi-dünyagörüşü xüsusiyyətləri ilə ifadə olunan refleksiyasını" ayrıca qeyd edir.

Rasionallıq növlərini ayırmaq üçün təklif olunan kriterilərdən biri dominant dəyərlər və fəaliyyət subyektinin dəyər-hədəf strukturlarının xüsusiyyətləri ilə bağlıdır. Bu strukturlar bir tərəfdən, sistem obyektinin növünə uyğun olmalıdır, onlar haqqında bilikləri həmin tarixi dövrə uyğun elm hazırlamalıdır. Digər tərəfdən isə bu dövrün mədəniyyəti üçün qəbul edilən dominant dəyərlərə uyğun olmalıdır [21, s.250-251].

Beləliklə, rasionallıq anlayışı aksioloji əhəmiyyət daşıyır, cəmiyyət üçün dominant olan dəyərlərdə ifadə olunur. Qeyri-xətti, alternativ inkişaf tendensiyaları ilə xarakterizə olunan yaşadığımız dünyada mənəviyyat faktorunun tədricən ön plana çıxması elmi rasionallığın aksioloji aspektinin aktuallığının əsas göstəricisidir.

Nəticə

Sinergetika təkamül və inkişaf proseslərinin təsvir modeli və elmi şərhini verdi. Fəlsəfə elmi yeni kateqoriyalarla zənginləşdi, mövcud kateqoriyaların yeni elmi şərhi üçün zəmin yarandı.

Sinergetika qeyri-xətti açıq sistemlərin təşəkkül prosesləri ilə dialektikanın ümumi qanunları arasında əlaqə yaratmaqla əməkdaşlıq və kreativ təbiətli ziddiyyətləri aşkar və tədqiq edir. Xaos və nizamlılıq arasındakı ziddiyyətlər keyfiyyətcə yeni strukturlar yaradır. Təkamülün yolu diskretdir və sistemin təkamülündə təsadüf konstruktiv rol oynayır, təsadüflə zərurət bir-birini tamamlayır.

Sinergetikada təbiətşünaslıq və humanitar elmlərin sintezi üçün nəzəri və tətbiq yönümlü prinsiplər mövcuddur. Postneklassik elmdə insan amilinin əhəmiyyətli rolu onun humanitar elm sahələrində geniş tətbiqinin əsas səbəblərindən biridir.

Humanitar və sosial sistemlərə sinergetik metodların tətbiqi bir sıra fəlsəfi, tarixi və sosioloji problemləri həll etməyə imkan verir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Андрианов И.В., Баранцев Р.Г., Маневич Л.И. Асимптотическая математика и синергетика, М.: Едуториал УРСС, 2004, – 304 с.
2. Арнольд В.И., Теория катастроф, М.: Наука, 1990, 128 с.
3. Баранцев Р.Г. Избранное. – Москва-Ижевск: Институт компьютерных исследований, НИЦ «Регулярная и хаотическая динамика», 2010. – 489 с.
4. Берталанфи Л. Общая теория систем – обзор проблем и результатов. – В кн.: Системные исследования. Ежегодник. 1969. М.: Наука, 1969. səh. 30-54 - 204 с.

5. Буданов В. Г., Методология синергетики в постнеклассической науке и в образовании. — М.: Изд-во ЛКИ. 2007, — 232 с.
6. Василькова В.В. Порядок и хаос в развитии социальных систем. СПб.: Лань, 1999, 480 с.].
7. Гегель, сочинения, том IV, М.Издтельство социальноэкономической литераты, 1959, 440 с.
8. *Добронравова* И.С. Синергетика: *становление нелинейного мышления*. К.: Либідь, *1990*. — 149 с.
9. Князева Е.Н, Курдюмов СП. Синергетика как новое мировидение диалог с И.Пригожиным // Вопросы философии. — 1992. — №12 — 3-30/
10. Князева Е.Н., Курдюмов С.П., Основания синергетики. Режимы с обострением, самоорганизация, темпомиры, СПб.: Алетейя, 2002. - 414 с. Стр. 57, 100
11. Князева Е.Н., Курдюмов С.П. Основания синергетики. Синергетическое моделирование. — М.: КомКнига, 2005. 240 с.
12. Курдюмов С. П., Малинецкий Г. Г. Синергетика - теория самоорганизации. М.: Знание, №2, 1983, 64 стр
13. Майнцер К. Сложность и самоорганизация. Возникновение новой науки и культуры на рубеже века // Введение в синергетику. Хрестоматия: В 3-х ч. Ч. 1. Синергетика и мировая история, Бишкек: Изд-во КРСУ, 2005, с. 66-95.
14. Морен Э., Метод. Природа природы.Прогресс-Традиция, 2005, 464 с.
15. Новая философская энциклопедия. М.: Мысль, Т. 4, 2010, 736 с. 316-317.
16. Пригожин И. От существующего к возникающему: время и сложность в физических науках. М.: Наука, 1985. 328 с.
17. Пригожин И. Философия нестабильности// Введение в синергетику. Хрестоматия: В 3-х ч. Ч. 1. Синергетика и мировая история, Бишкек: Изд-во КРСУ, 2005, с. 54-65.
18. Пригожин И., Николис Дж. Познание сложного. М.: Мир, 1990. 344 с.
19. Пригожин И., Николис Дж., Биологический порядок, структура и неустойчивости, Успехи физических наук, 1973, том 109, вып. 3, стр. 517-544
20. Пригожин И., Стенгерс И. Время, хаос, квант: к решению парадокса времени. М.: Прогресс, 1994. 265 с.
21. Степин В.С., Классика, неклассика, постнеклассика: критерии различения// Постнеклассика: ФИЛОСОФИя, наука, культура. СПб.: Издательский дом «Міръ», 2009. С.249 – 295). 672 стр.
22. Хакен Г. Информаци я и самоорганизация, М.:Мир, 1991, 240 с.
23. Хакен Г. Синергетика, М.: Мир, 1980, 404 с.
24. Хакен Г. Синергетика. Иерархии неустойчивостей в самоорганизующихся системах и стройствах. — М.: Мир, 1985, 424 с.
25. Хакен Г. Тайны природы. Синергетика: наука о взаимодействии. М.; Ижевск: Институт компьютерных исследований, 2003, 320 с.
26. Хакен Г. Принципы работы головного мозга: Синергетический подход к активности мозга, поведению и когнитивной деятельности. — М.: Per Se, 2001. — 353 с.
27. Эйген М., Молекулярная самоорганизция и ранние стадии эволюции, Успехи физических наук, 1973, том 109, вып. 3,стр. 545-589.
28. Эйген М. Самоорганизация материи и эволюция биологических макромолекул. М.: Мир, 1973, 216 стр.
29. Эйген М., Шустер П. Гиперцикл: ПРИНЦИП самоорганизации макромалекул.- М.: Мир, 1982, 270 стр.

Фахраддин Кулиев

СИНЕРГЕТИЧЕСКАЯ ПАРАДИГМА КАК МЕТОДОЛОГИЧЕСКИЙ ПРИНЦИП НАУЧНОГО ИССЛЕДОВАНИЯ

Резюме

В статье рассмотрены концепции научных школ, имеющий весомый вклад в формировании синергетики и предпринята попытка научно-философской интерпретации принципов и категорий синергетической парадигмы.

Процессы самоорганизации, их закономерности и методологические аспекты занимают особое место в синергетических исследованиях. Г.Хакен исследует процессы самоорганизции посредством принципа подчинения и, категорий параметра порядка, фазового перехода и круговой причиннности. К этой проблеме И.Пригожин подходит с точки зрения диссипативных структур, принципа перехода от хаоса к порядку и обращает внимание на конструктивную роль случайных факторов. С.Курдюмов и его школа разработав аттракторную структурную модель эволюции сложных систем, имеющих универсальный характер, выявили состояния, к которым приходят сложные системы в ходе эволюции. Баранцев в своих исследованиях выявил синергетическую сущность асимптотологии, показав что, как и в синергетике, в асимптотологии также принцип от бытия к становлению является основным принципом.

Синергетика обосновывает философско-методологические принципы процессов самоорганизации и саморазвития и как междисциплинарная область исследования, фиксирует связь между общими законами диалектики и новыми результатами, полученными в конкретных областях науки.

Противоположности между состояниями хаоса и порядка носят характер «сотрудничества», «синергии», так как результатом взаимосвязи этих противоположностей является образованием новой структуры.

Синергетические принципы выражают наличие инвариантных онтологических механизмов, существующих во всех областях бытия, которые на основе принципа инвариантности, распространяются и на социально-философские исследования.

Цель. Исследование методологических оснований синергетической парадигмы.

Методология. Использование анализа в контексте диалектико-логических методов.

Научная новизна. Реализация и оценка метдологических принципов и категорий синергетики в исследовании процессов становления и развития.

Ключевые слова: *синергетика, методология, нелинейное мышление, асимптотология, становление, самоорганизация, диссипативные структуры, когерентность*

Fakhraddin Quliyev

SYNERGETIC PARADIGM AS A METHODOLOGICAL PRINCIPLE OF SCIENTIFIC RESEARCH

Summary

The article discusses the concepts of scientific schools, which have a significant contribution to the formation of synergetics, and an attempt is made to scientifically and philosophically interpret the principles and categories of the synergetic paradigm.

Self-organization processes, their patterns and methodological aspects occupy a special place in synergetic research. H.Haken explores the processes of self-organization through the principle of subordination and, the categories of the order parameter, phase transition and circular causality.

I.Prigogine approaches this problem from the point of view of dissipative structures, the principle of transition from chaos to order, and draws attention to the constructive role of random factors. S.Kurdyumov and his school, having developed an attractor structural model of the evolution of complex systems of a universal nature, identified the states that complex systems come to in the course of evolution. Barantsev in his research revealed the synergetic essence of asymptotology, showing that, as in synergetics, in asymptotology the principle from being to becoming is also the main principle.

Synergetics substantiates the philosophical and methodological principles of self-organization and self-development processes and, as an interdisciplinary area of research, fixes the connection between the general laws of dialectics and new results obtained in specific areas of science.

The opposites between the states of chaos and order have the character of "cooperation", "synergy", since the result of the interconnection of these opposites is the formation of a new structure.

Synergetic principles express the presence of invariant ontological mechanisms that exist in all areas of being, which, based on the principle of invariance, extend to socio-philosophical research.

Target. Study of the methodological foundations of the synergetic paradigm.

Methodology. The use of analysis in the context of dialectical and logical methods.

Scientific novelty. Implementation and assessment of the methodological principles and categories of synergetics in the study of the processes of formation and development.

Keywords: *synergetics, methodology, nonlinear thinking, asymptotology, formation, self-organization, dissipative structures, coherence*

İQTİSADİYYAT VƏ İDARƏETMƏ

UOT 51-7

Vilayət İsmayılov
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.e.d.
ismaylov1953@mail.ru

Mənsim Məmmədov
Bakı Avrasiya Universiteti, professor, fiz.-r.ü.f.d.
mensim.56@mail.ru

İQTİSADİ-RİYAZİ METODLARIN TƏTBİQİLƏ EPİDEMİK PROSESLƏRİN ÇOXALMASINA QARŞI FƏRQLİ YANAŞMA

Məqalədə epidemik proseslərin çoxalmasının qarşısının alınması məqsədilə iqtisadi-riyazi metodları tətbiq etməklə fərqli yanaşmaya baxılır. Həmçinin, COVID-19 yaratdığı pandemiyanın səhiyyə sistemləri və digər dövlət xidmətləri üçün geniş təsiri araşdırılır. Epidemiya prosesində əhali (populyasiyanın) sayının dəyişmə dinamikası xarakterli bioloji məsələlər tədqiq edilməklə riyazi metodların köməyi ilə bu tip proseslərin çoxalma sürəti və onun qarşısının alınması məsələlərinin həlli məqalədə öz əksini tapmışdır.

Məqsəd: pandemiya şəraitində xəstəliyin yayılma sürətinin müəyyənləşdirilməsi və bu məqsədlə müvafiq təkliflərin verilməsidir.

Metodologiya: epidemiya prosesində infeksiyanın yayılma sürətinin azalma tempinin əldə edilməsini şərtləndirən iqtisadi-riyazi metodlardan istifadə edilmişdir.

Tədqiqatın nəticələri və praktiki əhəmiyyəti: pandemiya şəraitində əhalinin bir-biri ilə təması zamanı xəstələnmənin yayılma sürətindən asılı olaraq xəstə sayının müəyyən edilməsi və onun müvafiq tədbirlər vasitəsilə azaldılmasının vacibliyidir.

Elmi yenilik:epidemiya prosesində infeksiyanın yayılma sürətini müəyyən edən diferensial tənliklərin tətbiqi əsasında xəstə sayının artma sürəti müəyyən edilmişdir.

Açar sözlər: *epidemiya, proses, infeksiyanın yayılma sürəti, diferensial tənlik, xəstə sayı*

Giriş

Dünya miqyasında hər il Ümumdünya QİÇS-lə mübarizə günü qeyd edilir. Lakin 2019-cu ilin noyabr ayından bu gönə kimi davam edən COVİD-19 infeksion xəstəliyi dünyada çox sürətlə yayılmağa başladı və demək olar ki, qısa müddət ərzində bütün ölkələri caynağına aldı və hər bir ölkədə əhalinin bu virusa yoluxanların kifayət qədər hissəsi onun qurbanı oldu və dünyasını dəyişdi. Bu baxımdan da, hər il qeyd edilən Ümumdünya QİCS günü ölkələrinin səhiyyə təşkilatında və əhalidə tamamilə fərqli hisslər doğurdu. COVİD-

19 virusunun yaratdığı pandemiya bizim cəmiyyətdə dərin kök salmış bərabərsizliyi bütün dünyaya bir daha kəskin formada yayılmaqla onu dərinləşdirdi [5, s.3-5].

Bir çox illər biz hüquqlara əsaslanan və insanlara yönəldilmiş ümumi səhiyyə üçün kifayət qədər vəsait sərf edə bilməmişik və indi dünya tamamilə qorunmamış vəziyyətə düşmüşdür. COVİD-19 yaratdığı pandemiyanın səhiyyə sistemləri və digər dövlət xidmətləri üçün geniş təsiri vardır. Bir çox ölkələrdə VİÇ ilə bağlı xidmətlərin göstərilməsi pozuldu və lazımı malların çatdırılma zəncirləri uzandı. Dünyada VİÇ diaqnozlarının sayı azaldı və hal-hazırda həmin virusa tutulmuş daha az insan ona qarşı müalicəyə başlayır. Qeyd edək ki, bəşəriyyətin mövcud olduğu zaman ərzində müxtəlif dövrlərdə müxtəlif epidemik xəstəliklər baş vermiş və bu epidemiyalar kütləvi hal almaqla demək olar ki, bütün dünyanı əhatə edərək pandemiya halını almışdır. Təbii ki, müxtəlif dövrlərdə mövcud olmuş epidemiyaların yayılmasının qarşısının alınması, onun yayılma (çoxalma) prosesinin azaldılması tibb elminin qarşısında kifayət qədər mürəkkəb problemlər yaratmaqla həm bu elm sahəsinin özünün daha sürətlə inkişafına, həmçinin onun digər elm sahələri ilə əlaqəsinin daha sıx inkişafına,təkamülünə xeyli təsir göstərmişdir. Dünya ictimaiyyətinin COVİD-19 infeksion xəstəliyinin yaratdığı pandemiyaya qarşı mübarizə ümumi səylər üzrə əsas diqqətin insanların maraqlarına yönəldilməsinə verir, bu isə VİÇ-ə qarşı tədbirlərin sürətləndirilməsinə imkan yaradır [5, s.5-8].

Mövcud ədəbiyyatlara istinad

Burada tibb elminin mövcud və yeni hazırlanması zəruri olan dərman preparatlarının tətbiqi ilə yanaşı bir çox tibbi-profilaktik tədbirlərin də həyata keçirilməsinə, müntəzəm olaraq bu tədbirlərə əməl olunmasına çox böyük ehtiyac vardır. Məsələn: Hal – hazırki dövrdə bütün dünyanı əhatə etmiş COVID-19 virusundan yaranmış pandemiyanın yayılma sürətinin azaldılması və onun qarşısının alınması cari vaksinasiya prosesinin daha sürətlə aparılması ilə yanaşı insanların qida rasionunun düzgün təşkili, onların konkret gigiyenik qaydalara əməl etməsi, bir–biri ilə daha az təmasda olmaqla aralarında müəyyən məsafə saxlaması, daha çox açıq havada olması və s. bu kimi təbii tibbi-profilaktik qaydalara əməl etmələri Dünya Səhiyyə Təşkilatı tərəfindən vacib məsələ kimi qarşıya qoyulmuş və bu məsələnin tədqiq edilərək müvafiq vəziyyətdən çıxış yollarının araşdırılmasını tələb edir [5, s. 1-2].

Odur ki, tədqiqat işində pandemiyanın mövcud vəziyyəti təhlil edilmişdir. Bu məsələlərlə bağlı məşğul olan ekspertlər və həkimlərin müəyyənləşdirdiyinə görə hazırda tətbiq edilən hansı tədbirlər effektivdir və bundan sonra da istifadə oluna bilər, hansı tədbirlər səmərəsizdir və dəyişdirilməlidir, həmçinin hazırkı strategiyada hansı əsas boşluqları aradan qaldırmaq lazımdır. [5, s. 8] qeyd edir ki, epidemioloji modelləşdirmə üzrə ekspertlər qrupu bu məsələ müxtəlif yanaşmaların və xidmətlərin birləşdirilərək təsirinin proqnozlaşdırılması ən vacib problemdir.

Qeyd edək ki, bu tip epidemik proseslərlə mübarizə tibb elmi ilə yanaşı digər elm sahələrinin də qarşısında müəyyən problemlər yaşatmaqla, onların həlli üçün müxtəlif üsulların meydana gəlməsini zəruri etmişdir [4, s. 298]. Bu baxımdan da, bizim tədqiqat işi riyaziyyat elminin texniki, təbiətşünaslıq, iqtisadi, sosial, bioloji, tibb və s. elm sahələrinin praktiki xarakterli müxtəlif məsələlərinin həlli və tədqiqində böyük rol oynayan diferensial tənliklər nəzəriyyəsinin epidemiyanın yayılması və onun artma sürətinin azaldılmasında mühüm rola malik riyazi aparatının olması və bu nəzəriyyənin əsas elementlərinin köməyi ilə mövcud bioloji (tibbi) xarakterli epidemik proseslərin konkret riyazi modelinin qurulmasına və onların həlli yollarının fərqli yanaşma ilə araşdırılararaq müəyyən əlverişli nəticələrin əldə edilməsini əhatə edir.

Məlumdur ki, epidemiya prosesində əhali (populyasiyanın) sayının dəyişmə dinamikası, başqa sözlə populyasiyada canlı fərdlərin ümumi sayının dəyişmə xarakterinin təyin olunması populyasiya ekologiyasının ən mühüm məsələlərindən biri, bəlkə də birincisidir. Qeyd edək ki, belə xarakterli bioloji məsələlər daha ümumi şəkildə hələ ötən əsrin ortalarında ingilis alimi H.Beyli [2, s.342] tərəfindən araşdırılmış və diferensial tənliklərin köməyi ilə bu tip proseslərin riyazi modeli qurulmuşdur.

Material və metod

Biz tədqiqat işində epidemiyanın yayılması və onun qarşısının alınmasının daha sadə və konkret halına baxmaqla onun yayılma sürətinin qarşısının alınması üçün konkret hesablama əsasında təklif vermişik.

Fərz edək ki, öyrənilən mövcud epidemik xəstəlik prosesi kifayət qədər uzunmüddətli xarakterə malikdir, yəni infeksiyanın yayılma (bir fərddən digərinə keçmə) sürəti xəstəliyin özünün yayılmasından daha sürətlidir [3, s.315]. Belə halda təbii ki, infeksiyanın yayılma prosesinin öyrənilməsi daha vacib olduğundan biz də, burada məhz bu prosesin riyazi modelinin qurulması və onun tədqiqi ilə məşğul olacağıq. Ona görə də, mövcud epidemiya prosesində infeksiyaya yoluxmuş fərdlərin ümumi qrupdan təcrid olunmadığını və onların bu infeksiyanı təmas zamanı sağlam fərdlərə ötürdüklərini qəbul edirik.

Bu şərtlər daxilində epidemiya prosesinin yayılma sürətinin azaldılmasının riyazi qanunauyğunluğunu müəyyən edək.

Fərz edək ki, epidemiya prosesinin başlanğıc anında mövcud xəstəliyə yoluxanların (xəstə fərdlərin) sayı a, xəstəliyə yoluxmayanların (sağlam fərdlərin) sayı b, müəyyən t zaman anında isə xəstəliyə yoluxanların sayı $x = x(t)$, yoluxmayanların sayı $y = y(t)$ – dir.

Onda kifayət qədər böyük olmayan kiçik $0 \leq t \leq T$ zaman aralığında

$$x + y = a + b, \tag{1}$$

olar.

Aydındır ki, burada [0;T] aralığı konkret bir nəslin yaşamaq (təbii həyat) müddətindən kiçik olmalıdır. Bu halda biz araşdırılan riyazi tənliklərdə fərdlərin (insanların) təbii ölüm hallarını nəzərə almayacağıq.

Nəzəri mülahizələr

Epidemiya prosesində fərdlərin bir–biri ilə təmas zamanı infeksiya xəstə fərdlərdən sağlam fərdlərə ötürüldüyündən (keçdiyindən) təbii ki, müəyyən zaman müddətində sağlam fərdlərin sayı onların xəstə fərdlərlə görüşmə saylarına mütənasib olaraq azalacaqdır ki, bu mütənasiblik xy hasilinə uyğun olacaqdır.

Bu dediklərimizi ümumiləşdirməklə alırıq ki, sağlam fərdlərin azalma sürəti, yəni mövcud epidemiya prosesində infeksiyanın yayılma sürətinin azalma tempi

$$\frac{dx}{dt} = -\gamma xy, \tag{2}$$

adi birtərtibli diferensial tənliyi ilə ifadə olunur. Burada γ mütənasiblik əmsalı olmaqla, sağlam (infeksiyaya yoluxmamış) və xəstə (infeksiyaya yoluxmuş) fərdlərin sayının baxılan zaman anında uyğun mütənasiblik əmsallarının fərqidir.

(1) ifadəsindən $y = a + b - x$ olduğunu (2) – də nəzərə alsaq, yaza bilərik:

$$\frac{dx}{dt} = -\gamma x(a + b - x). \tag{3}$$

Bu tənliyin hər iki tərəfini $x(a + b - x)$ ifadəsinə bölməklə

$$\frac{dx}{x(a+b-x)} = -\gamma dt, \tag{4}$$

dəyişənlərin ayrılan diferensial tənliyini alırıq.

Dəyişənlərinə ayrılan diferensial tənliklərin məlum həll üsuluna əsasən sonuncu (4) tənliyinin hər iki tərəfini inteqrallayırıq. (4) tənliyinin inteqrallanmış formulası aşağıdakı kimidir:

$$\int \frac{dx}{x(a+b-x)} = -\int \gamma dt + lnc, \text{ c = const.}$$

Sonuncu ifadədən yazmaq olar ki:

$$\frac{1}{a+b}\int \left(\frac{1}{x} - \frac{1}{a+b-x}\right) dx = -\gamma t + lnc,$$

və ya

$$\frac{1}{a+b}[ln|x| - ln|a+b-x|] = -\gamma t + lnc.$$

Buradan da:

$$ln\left|\frac{x}{a+b-x}\right| = -(a+b)\gamma t + (a+b)lnc,$$

və ya

$$ln\left|\frac{x}{a+b-x}\right| - lnc_1 = -(a+b)\gamma t$$

burada: $lnc_1 = (a+b)lnc = const$ qəbul olunmuşdur.

Bu bərabərliyi potensiallamaqla

$$\frac{x}{a+b-x} = c_1 e^{-(a+b)\gamma t}, \tag{5}$$

olduğunu alırıq.

c_1 sabitini təyin etmək üçün $t = 0$ anında sağlam fərdlərin sayının $x = a$ olduğunu qəbul edirik. Bu halda baxılan məsələnin $t = 0$, $x = a$ başlanğıc şərtlərini ödəyən xüsusi həllini, yəni verilmiş başlanğıc şərtlərə uyğun mövcud epidemiya prosesinin yayılma tempinin azalmasını xarakterizə edən korrekt məsələnin -Koşi məsələsinin həllini tapırıq.

Doğrudan da, (5) ifadəsində $t = 0$, $x = a$ yazsaq $c_1 = \frac{a}{b}$ alarıq.

Onda (5) bərabərliyi

$$\frac{x}{a+b-x} = \frac{a}{b} e^{-(a+b)\gamma t}, \tag{6}$$

şəklində olar.

(6) tənliyini x dəyişəninə nəzərən həll etməklə (7) formulası əldə edilir:

$$x = \frac{a(a+b)}{a+be^{(a+b)\gamma t}} \tag{7}$$

alınır ki, bu da mövcud epidemiya prosesinin dinamik dəyişməsinin riyazi qanunauyğunluğunu ifadə edir.

Beləliklə alırıq ki, qoyulmuş başlanğıc şərtlər daxilində öyrənilən bioloji xarakterli epidemiya prosesində mövcud infeksiyanın t zaman anına uyğun yayılmasının azalma sürəti (7) qanunu ilə təyin olunur.

Müzakirə

Qeyd edək ki, (7) ifadəsi ilə müəyyən olunan riyazi qanunauyğunluq bir çox tibbi (bioloji) xarakterli epidemiya proseslərində infeksiyanın yayılmasının azalma sürətinin dinamik eksponensional dəyişmə qanunu da adlandırılır.

Epidemiyanın yayılma (çoxalma) surəti haqqında aşağıdakı konkret məsələyə baxaq.

Fərz edək ki, bakteriyaların çoxalma surəti onların sayı ilə mütənasibdir. Başlanğıc $t=0$ zaman anında mövcud 100 ədəd bakteriya $t = 3$ saat 2 dəfə artmışdır. Bakteriyaların yayılma (çoxalma) sayının zamandan asılılığını təyin edək. Bu qanunauyğunluğa uyğun olaraq $t = 9$ saat ərzində bakteriyaların sayının neçə dəfə artdığını müəyyənləşdirək.

Məsələnin həlli üçün fərz edək ki, verilmiş anda bakteriyaların sayı $x=x(t)$-yə bərabərdir. Onda məsələnin şərtlərinə əsasən uyğun riyazi model aşağıdakı diferensial tənlik şəklində olar:

$$\frac{dx}{dt} = kx,$$

Burada: k - mütənasiblik əmsalı olmaqla konkret olaraq verilmiş şərtlərə uyğun təyin edilir.

Bu tənlik asanlıqla dəyişənlərinə ayrıla bilən

$$\frac{dx}{x} = k \cdot dt,$$

diferensial tənlik şəklinə gətirilməklə həll edilir:

$$\int \frac{dx}{x} = k \int dt + lnc \text{ və ya } lnx - lnc = kt.$$

Buradan isə $x = x(t) = ce^{kt}$ alınır. c sabitini təyin etmək üçün $t = 0$ zaman anında $x = 100$ başlanğıc şərtindən istifadə edirik:

$$100 = ce^{0 \cdot k} \text{ və ya } c = 100,$$

c-nin bu qiymətini nəzərə almaqla

$$x = x(t) = 100e^{kt}$$

olduğu alınır.

Bütün bunlara uyğun olaraq k mütənasiblik əmsalını təyin etmək üçün $t = 3$ saat zaman anında $x = 200$ əlavə şərtlərindən istifadə olunur. Bu halda yaza bilərik:

$$200 = 100e^{3k} \text{ və ya } e^{3k} = 2.$$

Buradan isə $e^k = 2^{1/3}$ olduğu alınır.

Beləliklə, t zaman anında bakteriyaların yayılma (çoxalma) surəti üçün aşağıdakı funksional münasibəti (funksiyanı) təyin etmiş oluruq:

$$x = x(t) = 100\, e^{t/3}.$$

Burada $t=9$ saat olduğunu nəzərə alsaq $x=800$ alarıq. Deməli, verilmiş məsələnin şərtlərinə əsasən $t=9$ saat zaman ərzində bakteriyaların çoxalma (yayılma) sayı 8 dəfə artmış olur.

Beləliklə, pandemiya şəraitində xəstəliyin yayılmasının qarşısını almaq məqsədi ilə həm xüsusi müalicə pereparatlarından istifadə etmək (vaksinasiya prosesi), həm də dünya səhiyyə təşkilatının və müvafiq ölkələrin Nazirlər Kabineti və bu durumu təhlil edən digər təşkilatların tövsiyə xarakterli tədbirlərinə riayət edilməsi vacib şərtlərdəndir.

Nəticə

COVİD-19 virusunun yaratdığı pandemiya bizim cəmiyyətdə dərin kök salmış bərabərsizliyi bütün dünyaya bir daha kəskin formada yayılmaqla onu dərinləşdirmişdir. Epidemiya prosesində fərdlərin bir–biri ilə təmasında müəyyən zaman müddətində sağlam fərdlərin sayı onların xəstə fərdlərlə görüşmə saylarına mütənasib olaraq azalır və bu mütənasiblik xy hasilinə uyğun olaraq hesablana bilər.

Pandemiya şəraitində xəstələnmə şərtlərinə əsasən t zamanı (3-9 saat) ərzində bakteriyaların çoxalma (yayılma) sayı 2-8 dəfə artmış olur. Beləliklə, epidemioloji prosesin sürətlə yayılmasının qarşısını almaq üçün həm xüsusi müalicə pereparatlarından istifadə etmək (vaksinasiya prosesi), həm də Dünya Səhiyyə Təşkilatının, müvafiq ölkələrin Nazirlər Kabineti və bu durumu təhlil edən digər təşkilatların tövsiyyə xarakterli tədbirlərinə riayət etmək bu prosesin yayılma sürətinə əngəl ola bilər.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Əhmədov, Q.T., Həsənov, K.Q., Yaqubov, M.H. Adi diferensial tənliklər. -Bakı. -2015, -s.241
2. Бейли, Н. Математика в биологии и медицине. Пер. с англ.- Москва,-1970, -с.342
3. Кудрявцев, В.А., Демидович, Б.П. Краткий курс высшей математики. -Москва, -1975, с.315
4. Госсман, С, Теорнер, Дж. Математика для биологов. -Москва, -1983, с.298
5. Преодоление пандемий ставя интересы людей в центр внимания. Доклад ко всемирному дню борьбы со спидом. ЮНЭЙДС. -2020, -с.92

Вилаят Исмайлов
Мансим Мамедов

ДИФФЕРЕНЦИРОВАННЫЙ ПОДХОД К ПРОТИВОДЕЙСТВИЮ РАЗМНОЖЕНИЮ ЭПИДЕМИЧЕСКИХ ПРОЦЕССОВ С ПРИМЕНЕНИЕМ ЭКОНОМИКО-МАТЕМАТИЧЕСКИХ МЕТОДОВ

Резюме

В статье рассматривается иной подход с применением экономико-математических методов для предотвращения размножения эпидемических процессов. Кроме того, изучается широкий спектр последствий пандемии, вызванной COVID-19, для систем здравоохранения и других государственных служб. Изучая биологические вопросы динамики изменения численности населения (популяций) в эпидемическом процессе, с помощью математических методов нашли свое отражение в статье скорость размножения данного вида процессов и решение вопросов его профилактики.

Цель исследования - определить скорость распространения заболевания в условиях пандемии и внести соответствующие предложения для этой цели.

Методология - в эпидемическом процессе использованы экономико-математические методы, обусловливающие достижение темпы снижения скорости при распространении инфекции.

Результаты и практическая значимость исследования: в условиях пандемии важно определить число больных в зависимости от скорости распространения заболевания при контакте населения друг с другом и снизить его с помощью соответствующих мер.

Научная новизна: на основе применения дифференциальных уравнений, определяющих скорость распространения инфекции в эпидемическом процессе, определена скорость увеличения числа больных.

Ключевые слова: *эпидемия, процесс, скорость распространения инфекции, дифференциальное уравнение, число больных*

Vilayat İsmayılov
Mansim Mammadov

A DIFFERENTIATED APPROACH TO COUNTERING THE PROLIFERATION OF EPIDEMIC PROCESSES USING ECONOMIC AND MATHEMATICAL METHODS

Summary

The article considers a different approach with the use of economic and mathematical methods to prevent the reproduction of epidemic processes. In addition, a wide range of consequences of the COVID-19 pandemic for health systems and other public services is being studied. Studying the biological issues of the dynamics of changes in the population (populations) in the epidemic process, using mathematical methods, the speed of reproduction of this type of processes and the solution of issues of its prevention are reflected in the article.

Purpose of the research: to determine the rate of spread of the disease in a pandemic and to make appropriate proposals for this purpose.

Methodology - in the epidemic process, economic and mathematical methods were used, which determine the achievement of the rate of speed reduction during the spread of infection.

Findings and practical significance of the study- in a pandemic, it is important to determine the number of patients depending on the rate of spread of the disease when the population contacts each other and reduce it with appropriate measures.

Scientific novelty- based on the application of differential equations that determine the rate of infection spread in the epidemic process, the rate of increase in the number of patients is determined.

Keywords: *epidemic, process, rate of infection spread, differential equation, number of patients*

UOT 336.2

Nurəngiz Mikayılova
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, dos.
nurengiz.mikayilova@mail.ru

VERGİ GÜZƏŞTLƏRİ VƏ MÜVƏQQƏTİ VERGİ REJİMİ

"Həyatda iki şey labüddür: ölüm və vergilər".
Bencamin Franklin

Məqalədə vergidən azadolmalar və vergi güzəştlərinin iqtisadi əhəmiyyətinin elmi əsasları göstərilmiş, bəzi xarici ölkələr və Azərbaycanda olan vergi güzəştləri təhlil edilmişdir. Eyni zamanda Koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti vergi rejiminin əsas elementləri araşdırılmış və təhlil edilmişdir.

Məqsəd: ölkədə tətbiq olunan vergi güzəştlərinin araşdırılaraq öyrənilməsi, müvəqqəti vergi rejiminin təhlil edilməsidir.

Metodologiya: tədqiqat işində iqtisadi-statistik və təhlil metodundan istifadə edilmişdir.

Tədqiqatın nəticəsi: vergi dərəcələrinin aşagı salınması və vergi güzəştlərinin tətbiqi ölkədə iqtisadi innkişafa səbəb olmaqla bərabər əhalinin həyat səviyyəsinin yüksəlməsinə və sosial ədalətin təmin olunmasına zəmin yaradır.

Açar sözlər: *vergi güzəştləri, vergidən azadolmalar, vergi dərəcələri, müvəqqəti vergi rejimi*

Giriş

Vergi - dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir [2, s. 4, maddə 11].

Ölkənin gəlir qaynağı olmaqla bərabər vergi dövlət suverenliyinin əsas təzahür formalarından biridir. Azərbaycanın vergi sisteminə dövlət vergiləri, bələdiyyə vergiləri və Naxçıvan Muxtar Respublikasının vergiləri daxildir. Qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur. Heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunda göstərilmiş həcmdən əlavə vergiləri və başqa dövlət ödənişləri ödəməyə məcbur edilə bilməz [1, s.18, maddə 73].

Vergi sistemi ayrı-ayrı dövlətlərdə müəyyən fərqliliyi ilə seçilir. Belə ki, dövlətlərin siyasi quruluş və iqtisadi modellərindən asılı olaraq müxtəlif vergilər və vergi səviyyələri tətbiq olunur. Vergitutma praktikasının nəzəri cəhətdən əsaslandırılması və vergi sisteminin təkamülü iqtisadi fikrin müxtəlif istiqamətlərinin inkişafı ilə eyni zamanda baş vermişdir. "Mübadilə", "Atomistik", "Vergilər sığorta mükafatı kimi", "Klassik", "Keyns" "Təklif iqtisadiyyatı" nəzəriyyələrinə söykənən vergi sistemi tarixən ölkənin müdafiəsi, ümümi istifadədə olan ərazilərin abadlaşdırılması, sosial xərclərin ödənilməsi kimi istiqamətləri özündə birləşdirmişdir. Bir zamanlar zadəganlıq kasıblara qoyulan vergilər ilə təmin olunurdu, lakin müasir vergi sistemləri yoxsullar, əlillər və ya pensiyaçılara hələ işləyənlərdən alınan vergilərlə kömək göstərmək niyyətindədir. Vergi siyasəti cox vaxt siyasətçilərin fəaliyyəti kimi dəyərləndirilir, belə ki, onlar müvəqqəti olaraq nüfuz sahibi

olmaq üçün belə vergi siyasətinə imza atırlar. Lakin bir çox hallarda bu iqtisadi böyüməyə təkan verir və milli maraqları ifadə edir [13, s. 77]. Bundan əlavə müasir dünyada vergilər xarici yardım və hərbi əməliyyatları maliyyəşdirir, makroiqtisadi göstəricilərə təsir göstərərək umummilli məhsulun bölgüsü və yenidən bölgüsü prosesinin əsas iştirakçısına çevrilir. Hər bir dövlət özünəməxsus vergi sistemini yaradarkən vergi ağırlığının necə bölüşdürülməsinə, yəni kim nə qədər ödəyəcək və qazanılan vəsaitlər nəyə sərf olunacaq kimi kriteriyalara diqqət yetirir.

Vergi güzəştləri dünya təcrübəsində

Dövlətlərin vergi sistemində fərqliliklər olduğu kimi vergi güzəştləri də mövcuddur. Belə hesab olunur ki, Britaniya ən geniş vergi güzəştləri və maliyyə dəstəyi ilə liderliyini üzun müddət qoruyub saxlamaqdadır. Britaniyada istehsal, xüsusilə də kənd təsərrüfatı məhsulları istehsal edən şirkət və fermerlər üçün xüsusi vergi güzəştləri raketi nəzərdə tutulur. Bundan əlavə Britaniya qanunvericiliyində sağlamlıq imkanları məhdud vətəndaşları işlə təmin edən şirkətlərə verilən güzəştlər də öz əksini tapmışdır. Sağlamlıq imkanları məhdud şəxsi işə götürən şirkət işçi üçün münasib şərait yaradan zaman əlavə xərc (məsələn, dəstəkləyici texnologiya almaq, şirkət binasında panduslar quraşdırmaq) çəkirsə, dövlət tərəfindən ona vergi güzəşti edilir. Məsələn, əlil arabasından istifadə edən şəxsi işə götürən sahibkar onun üçün £5,000 (12,02 manat) xərc çəkir və onun illik verməli olduğu verginin həcmi £100,000-dirsə (240,70 manat), sahibkardan £90,000 (216,63 manat) dəyərində vergi tutulur [15]. Azərbaycanda əlilliyi olan şəxslərin qeyri-hökumət təşkilatlarına məxsus olan işçilərinin ümumi sayının azı 50 faizi əlilliyi olan şəxslərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsi 50 faiz azaldılır.

XX əsrin sonlarına doğru "Təklif iqtisadiyyatı" nəzəriyyəsinin görkəmli nümayəndəsi Amerika iqtisadçısı A.Lafferin "Laffer əyrisi" adı ilə məşhur olan tədqiqatları əhəmiyyətli rol oynamağa başladı. A.Laffer mənfəət vergisinin dərəcəsini aşağı salmaqla bu vergidən daxilolmaların həcmini sabit saxlamaq və hətta artırmağın mümkünlüyünü əks etdirən hipotetik əyri formasında ilk növbədə paradoksal görünən ideyanı irəli sürdü. Laffer belə hesab edirdi ki, daha aşağı vergi dərəcələri işgüzarlığa, yığıma və investisiyaya və həmçinin innovasiyaya, işgüzar risklərin qəbul edilməsinə stimul yaratmaqla, milli istehsalın və gəlirin əhəmiyyətli dərəcədə artımına şərait yaradacaqdır. Bu şəkildə genişlənmiş vergitutma bazası hətta aşağı salınmış vergi dərəcələri ilə vergi daxilolmalarının həcminin əvvəlki səviyyədə qalmasını təmin edəcəkdir [8, s. 539].

Lafferin təklifləri ABŞ-da 80-ci illərin vergi islahatları çərçivəsində, sonra isə praktiki olaraq inkişaf etmiş ölkələrin əksəriyyətində qəbul edildi və rəsmi olaraq tətbiq olunmağa başlanıldı. Bu zaman həmin ölkələrdə mənfəət vergisinin dərəcəsi 30-40 %-ə qədər aşağı salındı. İnkişaf etmiş ölkələrdə 80-90-cı illərdə vergi güzəştlərinin müəyyən qədər aşağı salınması müsbət dəyişikliklərə gətirib çıxartdı. Ölkənin hansı növ vergi güzəştinə üstünlük verməsindən asılı olmayaraq mənfəətin vergiyə cəlb olunmasında ilk növbədə vergi stimullaşdırılması mexanizminin səmərəli fəaliyyətini təmin edən güclü vergi güzəştləri sistemi qorunub saxlanıldı. ABŞ-ın iqtisadi siyasətinin tərkib hissəsi olan yeni vergi məcəlləsi 1986-cı ildə qəbul olunmuşdur. Yeni vergi qanununun məqsədi federal vergitutma sistemini sadələşdirmək, ədalətli vergilər müəyyənləşdirmək və bunun vasitəsilə ölkədə iqtisadi yüksəliş tempini sürətləndirməkdir. Yeni qanun fərdi gəlir vergisinin yalnız iki stavkasını nəzərdə tutur: 15 və 28 faiz, korporasiyalardan tutulan gəlir vergisi də 34 faizə endirilmişdir [11].

Lafferin təkliflərinin daha geniş formada tətbiqinə Amerika Birləşmiş Ştatlarında son 10 ildə maraq daha da artmaqdadır. 2016-cı ilin əvvəlində təklif edilən daha geniş

modelin iqtisadi böyümədə kəskin bir sürətlənməyə təkan verəcəyini söyləyən iqtisadçılar böyük vergi endirimləri edilməsinə nail oldular. Vergi dərəcələri tədricən endirildi, nəticədə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərin sayı qısa müddətdə artdı, ABŞ-da müxtəlif təyinatlı iş qurmaq nəinki daxili investorlar üçün, hətta xarici investorlar üçün də cəlbedici və əlçatan oldu. Sürətlə vergitutma bazası genişləndi, "kölgə iqtisadiyyatı" azaldı, vergi daxilolmalarının miqdarı artdı. 2017-ci ildə təxminən 1,5 trilyon dollarlıq "kəsilmə" paketinə (vergi dərəcələrinin aşağı salınması) başlanıldı və bunun sayəsində, 2018-ci ildə 3% iqtisadi artıma nail olundu. A.Laffer prezidentin xüsusi mükafatına və "Azadlıq" medalına layiq görüldü [16].

Vergi güzəştləri onların həyata keçirilməsi üsullarına görə də bir-birindən fərqlənir. Bütün inkişaf etmiş ölkələrdə, o cümlədən respublikamızda sürətli amortizasiya kimi dolayı güzəşt növü mövcuddur. Onun köməyi ilə vergiyə cəlb olunan mənfəətdən çıxılan amortizasiya ayırmalarının hesablanmış məbləği onların iqtisadi olaraq əsaslandırılmış kəmiyyətindən yüksək olur. Bunun nəticəsində də mənfəətin bir hissəsi istehsal məsrəfləri hesabına azalır və bununla da vergidən azad olur. İndoneziyada 2016-cı ildə vergi güzəştləri paketi fəaliyyətə başlamışdır. İlkin olaraq müəssisə və təşkilatlarda maddi və qeyri-maddi aktivlərin təkrar qiymətləndirilməsi həyata keçirildi və mənfəət vergisi aşağı salındı [14, s. 9]. Aktivlərin yenidən qiymətləndirilməsi (amortizasiya xərcləri hesabına) mənfəət vergisinin ortalama 10 faiz aşağı düşməsinə səbəb oldu. Kiçik sahibkarlıq subyektlərinin vergi borclarının silinməsi yergi yükünün azalmasına səbəb oldu. Nəticədə iqtisadi artım qeydə alındı.

Xarici ölkələrdə və respublikamızda istifadə olunan vergi güzəştləri sisteminin müqayisəli təhlili böyük nəzəri və praktiki əhəmiyyət kəsb edir. Bütün əsas vergi növlərinə vergi güzəştləri tətbiq olunur və onların hər birinin məqsədli təyinatı müvafiq vergi növünün xüsusiyyətindən asılıdır.

Təyinatına görə iki əsas vergi güzəştləri növü fərqləndirilir:

1.İstehsal və sahibkarlıq fəaliyyətinin ümumi stimullaşdırılmasına yönəldilən vergi güzəştləri - mənfəət vergisinə tətbiq olunur.

2. Müəyyən sosial məsələlərin həllinə yönəldilmiş vergi güzəştləri- əhali tərəfindən ödənilən birbaşa və dolayı vergilərə şamil olunur.

Azərbaycanda tətbiq edilən vergi güzəştləri

11 iyul 2000-ci ildən fəaliyyət göstərən Azərbaycan Respublikasının Vergi Məcəlləsində çoxsaylı vergidən azadolmalar nəzərdə tutulmuşdur və mütəmadi olaraq islahatlar keçirilmış və Məsəllədə dəyişikliklər edilmişdir:

~ təhsil müəssisələrinin, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin təhsil alması üçün yaradılmış xüsusi təhsil müəssisələrinin mənfəəti – mənfəətin dividendlərin ödənilməsinə yönəldilən hissəsi istisna olmaqla;

~ kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) hüquqi şəxslərin bu fəaliyyətdən əldə etdikləri gəlirləri - 2014-cü il yanvarın 1-dən 10 il müddətinə;

~ məktəbəqədər təhsil müəssisələrinin və uşaq evlərinin bu fəaliyyətdən əldə etdikləri gəlirləri 2014-cü il yanvarın 1-dən 10 il müddətinə;

~ investisiya təşviqi sənədini almış hüquqi şəxsin həmin sənədi aldığı tarixdən əldə etdiyi mənfəətin 50 faizi - 7 il müddətinə vergilərdən azad olunmuşdur.

Vergi Məcəlləsinə görə aşagıda sadalananlar torpaq vergisindən azaddır:

~ yaşayış məntəqələrinin ümumi istifadədə olan torpaqları;

~ dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünü idarəetmə

orqanlarının, Azərbaycan Respublikası Mərkəzi Bankının və onun qurumlarının, dövlətin adından yaradılan publik hüquqi şəxslərin (sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan torpaqlar istisna olmaqla), habelə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun mülkiyyətində və ya istifadəsində olan torpaqlar;

~ fiziki və hüquqi şəxslərin istifadəsinə verilməmiş dövlət, meşə və su fondu torpaqları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus olan sektorunun altında yerləşən torpaqlar;

~ dövlət sərhəd zolaqları və müdafiə təyinatlı torpaqlar;

~ yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər qanunvericiliyə uyğun olaraq, sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq, sənaye və texnologiyalar parkında istifadə etdikləri torpaqlara görə 10 il müddətinə (31.12. 2021 tarixinə qədər);

~ yaradılan sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru sənaye, yaxud texnologiyalar parklarının ərazisində istifadə etdiyi torpaqlar;

~ investisiya təşviqi sənədini almış hüquqi şəxs və fərdi sahibkar həmin sənədi aldığı tarixdən mülkiyyətində və ya istifadəsində olan müvafiq torpaqlara görə 7 il müddətinə (31.12.2023 tarixinə qədər) torpaq vergisini ödəməkdən azaddır.

10 noyabr 2018-ci ildən etibarən KOB (kiçik və orta biznes) klaster şirkətləri KOB klaster şirkətlərinin reyestrinə daxil edildiyi tarixdən 7 il müddətinə mülkiyyətində və ya istifadəsində olan və KOB klaster fəaliyyətində istifadə olunan torpaqlara görə torpaq vergisini ödəməkdən azad edilmişdir.

Məlumdur ki, dövlət büdcəsinin gəlirlərində vergilər xüsusi əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin gəlirləri 25 427 000,0 min manat, xərcləri 28 543 000,0 min manat məbləğində proqnozlaşdırılaraq təsdiq edilmişdir.

Cədvəl 1

2021-ci ildə dövlət büdcəsinə ödənilməsi proqnozlaşdırılan vergilər, min manat

Vergilər	*Məbləğ*
Fiziki şəxslərin gəlir vergisi	1 150 000,0
Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi	2 144 000,0
Hüquqi şəxslərin torpaq vergisi	45 000,0
Hüquqi şəxslərin əmlak vergisi	211 000,0
Əlavə dəyər vergisi	4 710 000,0
Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi	2 740 000,0
Sadələşdirilmiş vergi	295 000,0
Aksizlər	1 059 000,0
Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər	170 000,0
Yol vergisi	114 000,0
Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərin avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi	40 000,0
Mədən vergisi	138 000,0
Gömrük rüsumları	950 000,0

Mənbə: http://www.e-qanun.az/framework/46590 [17]

Cədvəl materiallarından göründüyü kimi vergitutmada əlavə dəyər vergisi xüsusi (ƏDV) çəkiyə malikdir. Əlavə dəyər vergisi vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə verilən elektron qaimə-fakturalara və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir [2, s. 187]. Azərbaycan Respublikası ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı əlavə dəyər vergisi ticarət əlavəsindən hesablanan verginin məbləğidir. Azərbaycanda əlavə dəyər vergisi 18 və 0 faizilə tutulur. Sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan şəxslər və bir əqd və ya müqavilə üzrə əməliyyatın ümumi dəyəri 200.000 manatdan artıq olduqda həmin əməliyyatı həyata keçirən ƏDV-nin ödəyiciləridir. ƏDV-dən azadolmalar da mövcuddur, belə ki, maliyyə xidmətlərinin göstərilməsi, milli və ya xarici valyutanın, həmçinin qiymətli kağızların göndərilməsi və ya idxal edilməsi, idxal olunan əmlak istisna olmaqla müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində hər hansı əmlakın qoyulması, ümumtəhsil müəssisələri, habelə peşə təhsili müəssisələri üçün dərslik komplektləri və uşaq ədəbiyyatının istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti, metropolitenlə sərnişindaşıma xidmətləri, ödənişli təhsil xidmətlərinin göstərilməsi, hüquqi şəxsin iştirak paylarının və ya səhmlərinin təqdim edilməsi, texniki yardım da daxil olmaqla, təmənnasız yardım və xeyriyyə məqsədi ilə dövlətlərin, hökumətlərin və beynəlxalq təşkilatların xətti ilə gətirilən mallar və s.kimi əməliyyatlar ƏDV-nin vergitutma obyekti deyil.

Kənd təsərrüfatının inkişaf etdirilməsi və bu sahədə çalışanların stimullaşdırılması məqsədilə kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışı üzrə dövriyyələr – 2014-cü il yanvarın 1-dən 10 il müddətinə, o cümlədən buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı - 2017-ci il yanvarın 1-dən 4 il müddətinə ƏDV-dən azad edilmişdir. Bundan əlavə damazlıq heyvanların idxalı və satışı, toxum və tinglərin idxalı və satışı, mineral gübrələrin, pestisidlərin idxalı və satışı, toxumların yetişdirilməsi, quşçuluq və arıçılıq üçün avadanlıqların, o cümlədən laboratoriya avadanlıqlarının, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınların idxalı və satışı, kənd təsərrüfatı heyvanlarının və quşların profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatlarının idxalı, quş ətinin satışı – 2020-ci il yanvarın 1-dən 4 il müddətinə, kəpəyin istehsalı və satışı – 2019-cu il martın 1-dən 2 il müddətinə, heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələr – 2020-ci il yanvarın 1-dən 4 il müddətinə əlavə dəyər vergisinə cəlb olunmur.

Cədvəl 1-dən göründüyü kimi vergi daxilolmalarında mənfəət vergisinin xüsusi yeri var. Azərbaycan Respublikasında rezident və qeyri-rezident müəssisələr, 2019-cu ildən habelə sahibkarlıq fəaliyyətindən gəlir əldə edən qeyri-kommersiya təşkilatları mənfəət vergisinin ödəyiciləridir. Misgərlik, qalayçılıq, dulusçuluq və saxsı məmulatlarının, təsərrüfat müxəlləfatının, bağçılıq-bostançılıq alətlərinin, xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi, keramika məmulatlarının bədii işlənməsi, bədii tikmə, ağac materiallardan məişət alətlərinin hazırlanması sahəsində hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sənətkarlıq emalatxanalarının binaları və ya binaların bu emalatxanalar yerləşən hissələri əmlak vergisinə cəlb edilmir. Azərbaycanda mənfəət vergisi 27, 25, 24, 22, 20 faizlərlə tutulub, hal-hazırda mənfəət vergisinin dərəcəsi 18%-dir. 2021-ci ildə mənfəət vergisindən 2 740 000,0 min manat büdcəyə vergi daxilolması planlaşdırılır.

Mənfəət vergisinin ödənilməsində də çoxsaylı vergi güzəştləri nəzərdə tutulmuşdur:

~ vergi ödəyicisinin azı 3 (üç) il ərzində mülkiyyətində olan iştirak payının və ya səhmin təqdim edilməsindən əldə olunan gəlirlərinin 50 faizi;

~ mikro sahibkarlıq subyekti olan hüquqi şəxslərin sahibkarlıq fəaliyyətindən əldə etdikləri mənfəətin 75 faizi;

~ KOB klaster şirkətinin mənfəəti – KOB klaster şirkətinin KOB klaster şirkətlərinin reyestrinə daxil edildiyi tarixdən 7 il müddətinə;

~ KOB klasterin iştirakçısı olan hüquqi şəxsin KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdiyi mal (iş, xidmət) üzrə əldə etdiyi mənfəətin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsi – 7 il müddətinə;

~ mikro və ya kiçik sahibkarlıq subyekti olan və hüquqi şəxs kimi fəaliyyət göstərən startapların "Startap" şəhadətnaməsi aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri mənfəəti – 3 il müddətinə;

~ Pərakəndə satış qaydasında malların satışının həyata keçirilməsi üzrə ticarət fəaliyyəti və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər tərəfindən büdcəyə ödənilməli olan mənfəət vergisinin məbləği 2019-cu il yanvarın 1-dən 3 il müddətinə "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş POS-terminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərin ümumi gəlirdəki xüsusi çəkisinə uyğun müəyyən edilən verginin 25 faizi həcmində azaldılır.

Rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin ödəyiciləridirlər. Fiziki şəxslərin gəlirlərindən: alimentlər, fiziki şəxsin əsas iş yerində hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda, 200 manat, illik gəliri 30000 manatadək olduqda, 2400 manat məbləğində olan hissəsi [3, s. 2] sığorta hadisəsi baş verdikdə sığorta olunanın və faydalanan şəxsin həyatına, habelə onun əmlakına və ya əmlak mənafelərinə dəymiş zərərin əvəzini ödəmək üçün pul və ya natura şəklində ödənilmiş vəsait, həmçinin işəgötürən tərəfindən ödənilən bütün növ icbari sığorta və könüllü tibbi sığorta haqları, 3 ildən az olmayan müddətə bağlanan müqavilə ilə həyatın yığım sığortası və pensiya sığortası üzrə işəgötürənin sığortaolunanın vergiyə cəlb olunan gəlirlərinin 50 faizindən çox olmayan hissəsindən Azərbaycan Respublikasının sığortaçılarına ödədikləri sığorta haqları, həyatın yığım sığortası və pensiya sığortası üzrə müqavilənin qüvvəyə mindiyi andan etibarən 3 illik müddət keçdikdən sonra sığorta olunana və faydalanan şəxsə ödənilən hər hansı məbləğlər, dəymiş zərərlərin ödənilməsi ilə bağlı alınan kompensasiya ödənişləri, bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər, sənətkarlığın misgərlik, qalayçılıq və saxsı məmulatlarının, təsərrüfat müxəlləfatının, bağçılıq-bostançılıq alətlərinin, xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi, keramika məmulatlarının bədii işlənməsi, bədii tikmə, ağac materiallardan məişət alətlərinin hazırlanması sahəsində fəaliyyət göstərən fiziki şəxslərin gəlirləri gəlir vergisindən azaddır.

Bundan əlavə, bir qrup fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır: Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının, Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarının, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, [4, s. 2] həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarının (ərlərinin) və övladlarının, 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallar ilə təltif edilmiş şəxslərin, qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin, Çernobıl AES-də qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində digər radiasiya qəzaları nəticəsində, habelə nüvə qurğularının hər hansı növləri, o cümlədən nüvə silahı və kosmik texnika ilə bağlı olan sınaqlar, təlimlər və başqa işlər nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslərin.

I və II dərəcə əlilliyi olan şəxslərin, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların, daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa və ya I dərəcə əlilliyi olan şəxsə baxan və onunla birlikdə yaşayan valideynlərdən (o cümlədən övladlığa götürən şəxslərdən) birinin (özlərinin istəyi ilə), arvadın (ərin), himayəçinin və ya qəyyumun hər hansı

muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 200 manat məbləğində azaldılır.

Aşağıdakı fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır:

1) həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin valideynləri, habelə vəzifələrinin icrası zamanı həlak olmuş dövlət qulluqçularının valideynləri və arvadları (ərləri);

2) 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və arvadları (ərləri);

3) Əfqanıstana və döyüş əməliyyatları aparılan başqa ölkələrə göndərilmiş hərbi qulluqçular və təlim-yoxlama toplanışlarına çağırılmış hərbi vəzifəlilər;

4) məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər. Bu güzəşt mənzil qanunvericiliyinə və ya mülki hüquqi əqdlərə əsasən ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmış şəxslərə şamil edilmir [5, s. 2].

Qohumluq dərəcəsindən asılı olmayaraq himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri 50 manat məbləğində azaldılır. Bu qayda uşaqların 18 yaşa, tələbələrin və şagirdlərin 23 yaşa çatdığı ilin sonunadək, habelə uşaqların və himayədəkilərin öldüyü hallarda ölüm ilinin sonunadək saxlanılır. Fiziki şəxslərin vergi tutulan gəliri uşağın doğulduğu və himayədə olanın himayəyə götürüldüyü aydan başlayaraq azaldılır. Himayədə olanların sayı il ərzində azaldıqda (uşaqların ölüm halları istisna olmaqla) himayədə olanların sayının azaldığı aydan sonrakı aydan başlayaraq onların saxlanması üçün məbləğin çıxılmasına xitam verilir [2, s.154].

Məlumdur ki, görə *aksiz vergisi* dövlət büdcəsinin formalaşmasında mühüm rol oynayır. İçməli spirt, pivə və spirtli içkilərin bütün növləri, tütün məmulatları, neft məhsulları, minik avtomobilləri, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr, idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz, idxal olunan xəzdəri məmulatları, energetik içkilər, avtobuslar elektron siqaretlər üçün maye aksizli mallara aid edilir [7, s. 225]. Aksizlərə Vergi Məcəlləsi ilə vergi dərəcələri və güzəştləri nəzərdə tutulmuşdur:

~ fiziki şəxsin fərdi istehlakı üçün 1,5 litr alkoqollu içkinin, 200 ədəd siqaretin, 20 qram qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş 0,5 karat almazın idxalı, həmçinin Azərbaycan Respublikasına avtomobillərlə gələn şəxslər üçün həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş bakındakı yanacaq;

~ Azərbaycan Respublikası ərazisindən tranzitlə daşınan mallar;

~ Azərbaycan Respublikası Mərkəzi Bankının aktivlərində yerləşdirilmək üçün idxal olunan platin, qızıl və emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz, Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərində yerləşdirilmək üçün idxal olunan qızıl.

Aksizdən azadolmalar yalnız o zaman tətbiq edilir ki, gömrük rüsumlarından azadolmaların şərtlərinə əməl edilmiş olsun. Əgər gömrük rüsumu tutulması məqsədləri üçün idxal, rüsumun geri qaytarılması rejiminin təsiri altına düşürsə və ya azadolmanın şərtləri pozulduğu üçün gömrük rüsumunun ödənilməsi tələb edilirsə, həmin rejim aksizin tutulmasına da tətbiq olunur [2, s. 216-217].

2019-cu il yanvarın 1-dən 2022-ci il yanvarın 1-dək özəlləşdirilməsi başa çatmış dövlət əmlakına görə ödənilmiş əmlak vergisi hesabat ilində digər vergilər üzrə ödənilmiş verginin məbləği özəlləşdirilməsi başa çatmış əmlaka görə ödənilmiş verginin məbləğindən az olmamaq, ödənilmiş əmlak vergisinin qaytarılmasına dair müraciət edildiyi tarixə vergi ödəyicisinin dövlət büdcəsinə vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcu olmamaq şərtləri daxilində vergi ödəyicisinin ərizəsi əsasında qaytarılır və ya onun razılığı ilə sonrakı

vergi öhdəliklərinin yerinə yetirilməsinə aid edilir. Bundan əlavə mülkiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə qalıq dəyəri 1.000.000 manatdan artıq olan şəxslər istisna olmaqla mikro sahibkarlıq subyekti olan şəxslər əmlak vergisini ödəməkdən azaddırlar [6. s. 2]. KOB (kiçik və orta biznez) klaster şirkətləri KOB klaster şirkətlərinin reyestrinə daxil edildiyi tarixdən istifadə etdiyi əmlaklara görə 7 il müddətinə əmlak vergisini ödəməkdən azaddırlar. Ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində aldığı problemli aktivlərin (borcların) əvəzində əldə etdiyi, onun mülkiyyətində (balansında) əmlaka görə 2019-cu il yanvarın 1-dən 5 il müddətinə əmlak vergisini ödəməkdən azad edilmişdir.

Müvəqqəti vergi rejiminin tətbiqi istiqamətləri

2019-cu ilin dekabr ayında Çin Xalq Respublikasında qeydə alınan "COVID-19" infeksiyası nəticəsində bütün dünyada pandemiya elan olundu. 2020-ci il dünya iqtisadiyyatı üçün sosial-iqtisadi cəhətdən kifayət qədər mürəkkəb bir il olmuşdur. Asiya İnkişaf Bankı korona virusunun (COVID-19) dünya iqtisadiyyatına 4,1 trilyon dollar zərərə uğradacağını bildirib. Belə ki, Asiya İnkişaf Bankı "Outlook 2020" hesabatında bildirilir: "COVID-19" virusunun iqtisadi təsiri yeniləndi: virusun dünya iqtisadiyyatına vurduğu ziyan, uzun iqtisadi fəaliyyətlərin dayandırılması, ilkin proqnozlara görə, Avropa, Amerika Birləşmiş Ştatları və bir sıra böyük iqtisadiyyatları olan ölkələrə ümumilikdə 4,1 trilyon dollara başa gələ bilər. Ümumdaxili məhsul da qlobal səviyyədə 4,8 faiz azalıb"[18].

Pandemiya bütün dünya ölkələrində iqtisadi artıma mənfi təsir göstərmiş və ölkəmiz xarici mənşəli şoklara məruz qalmış, nəticədə ölkə iqtisadiyyatı mənfi fəsadlarla üzləşmişdir. Həmin mənfi təsirlərin azaldılması üçün 2020-ci ildə dövlət tərəfindən xüsusi olaraq vəsaitlər ayrılmışdır. 2020-ci ildə dövlət büdcəsindən ayrılmış vəsaitlərlə yanaşı, müəyyən dövlət fondlarından, digər büdcədənkənar imkanlardan, özəl sektordan və maliyyə-bank sektorundan vəsaitlərin səfərbər edilməsi proqramı həyata keçirilmişdir. Azərbaycanda COVID-lə mübarizəyə birbaşa olaraq 644 milyon manata qədər vəsait sərf olunmuşdur. Xərclənən vəsait virusla mübarəzəylə bərabər iqtisadiyyata da sərf olunmuşdur. Baxmayaraq ki, 2020-ci il bütün ölkələr üçün iqtisadi sahədə ağır il olub, amma Azərbaycan digər ölkələrə nisbətən bu vəziyyətdən daha az itkilərlə çıxıb. Ölkə iqtisadiyyatı təqribən 4,2% azalıb. Dünya dövlətlərinə nisbətən bu, yaxşı göstəricidir. Qeyri-neft sənayesində 11%-dən çox artım əldə olmuşdur [10].

Vergi siyasəti və vergitutmada bütün dövlətlər, o cümlədən Azərbaycan da vergi güzəştlərinin tətbiq edilməsini labüd hesab etdi və buna gedildi. Markoiqtisadi sabitliyin tənzimlənməsi və məşgullugun təmin edilməsi üçün geniş əhəmiyyətli dövlət tərəfindən dəstək proqramı işlənib hazırlandı. Bu dəstək proqramı əmək haqqının ödənilməsi, sahibkarlara maliyyə yardımlarının edilməsi, banklarda güzəştli vergilərə zəmanətlərin verilməsi ilə yanaşı vergi güzəştləri də nəzərdə tutulmuşdur. Vergi Məcəlləsinə 04.04.2020 ~ 16.01.2021 dövrü əhatə edəcək "Koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti vergi rejimi" (XVIII) fəslini əlavə edilmişdir. XVIII fəsil 4 maddədən ibarət olmaqla vergi ödəyicilərinin maliyyə vəziyyətinin yaxşılaşdırılması ilə bağlı ümumi müddəaları, hesabatların verilməsi və cari vergi ödəmələri, azadolmalar və güzəştlər, sadələşdirilmiş verginin tətbiqi kimi məsələləri həll edir.

Qəbul edilmiş müvəqqəti rejimə görə aşagıda nəzərdə tutulan fəaliyyəti həyata keçirən vergi ödəyicilərinin, habelə sadələşdirilmiş verginin ödəyicisi olan mikro sahibkarlıq subyektlərinin apardıqları əməliyyatlara tətbiq edilən vergi dərəcələrini, vergi güzəştlərini və azadolmaları, vergilərin ödənilməsi müddətlərini, vergi rejiminin seçilməsi ilə bağlı məsələləri tənzimləyir:

~ avtomobil nəqliyyatı vasitələri ilə ölkədaxili (şəhərlərarası və rayonlararası, şəhərdaxili

və rayondaxili) sərnişin daşımaları (o cümlədən taksi ilə) fəaliyyəti;

~ yerləşmə vasitələri hesab edilən mehmanxana (hotel) və mehmanxana tipli digər obyektlərin fəaliyyəti;

~ turoperator və turagent fəaliyyəti;

~ sifarişlər üzrə malların, o cümlədən yeməklərin, ərzaq və qeyri-ərzaq mallarının satıcılardan alıcılara daşınması və (və ya) çatdırılması fəaliyyəti;

~ ictimai iaşə fəaliyyəti;

~ sərgilərin təşkili, səhnə, istirahət və əyləncə (oyun), kinoteatr, teatr, muzey və konsert zallarının fəaliyyəti;

~ idman-sağlamlıq obyektlərinin fəaliyyəti;

~ hazırlıq (tədris) və ixtisasartırma kurslarının, məktəbdənkənar təhsil müəssisələrinin, psixoloji mərkəzlərinin fəaliyyəti.

Bundan əlavə yuxarıda göstərilən fəaliyyəti həyata keçirən şəxslərə, o cümlədən əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən şəxslərə bu cari vergi ödəmələri üzrə hesablamaların və cari vergi ödəmələri ilə bağlı arayışların vergi orqanına təqdim edilməsinə dair müddəalar tətbiq edilmir.

Müvəqqəti vergi rejiminin tətbiq edildiyi mikro sahibkarlıq subyekti olmayan vergi ödəyiciləri əvvəlki il üzrə mənfəət (gəlir) və əmlak vergisi hesabatlarını müvafiq olaraq hesablanmış vergini cari ilin sentyabrın 1-dən gec olmayaraq ödəyirlər. Halbuki dəyişiklikdən əvvəl bu əməliyyatlar cari ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verilirdi.

"Koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti vergi rejimi"ndə azadolmalar və güzəştlər nəzərdə tutulmuşdur.

Cədvəl 2

Sadələşdirilmiş vergi əvvəl və pandemiya dövründə

Daşınma növü	Sadələşdirilmiş verginin tətbiq edildiyi ölçü vahidi	Pandemiyadan əvvəl sadələşdirilmiş verginin aylıq məbləği, manat	Pandemiya zamanı sadələşdirilmiş verginin aylıq məbləği, manat
Sərnişin daşınması (taksi istisna olmaqla), oturacaq yerlərinin sayına görə:	1 oturacaq yeri üçün	1,8	1,4
Taksi ilə sərnişin daşınması	1 ədəd nəqliyyat vasitəsi üçün	9,0	4,5
Yük daşınması	yükgötürmə qabiliyyəti üçün (hər tona)	1,0	0,5
İctimai iaşə		8%	4%

Mənbə: [2] əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Koronavirus Pandemiyasının təsirinə məruz qalan sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinə vergituma metodundan asılı olaraq verilən güzəştlərə nəzər saldıqda görürük ki, a) mənfəət vergisi rejimində fəaliyyət göstərən ödəyicilərə mənfəətin 75%-i miqdarında vergi güzəşti verilir. (20% mənfəətin 75%-i); b) vergi ödəyicisi tərəfindən həyata keçirilən zəruri profilaktik xərclər, o cümlədən dizenfeksiya tədbirlərinə görə çəkilmiş xərclər

məhdudiyyət nəzərə alınmadan gəlirgən çıxılacaq; ç) vergi ödəyiciləri 1 il müddətində cari vergi ödəmələrindən və bununla bağlı arayışların verilməsindən azad edilir; c) müvəqqəti vergi rejimi müddətində hava nəqliyyatı daşıyıcılarının sərnişindaşıma fəaliyyətində istifadə etdiyi hava gəmiləri əmlak vergisindən azad edilir; d) pandemiyadan zərərçəkmiş fiziki şəxslərdən tutulan daşınmaz əmlakın icarəsi üzrə ödəmə mənbəyində vergi dərəcəsi 50 faiz azaldılaraq, 14 faizdən 7 faizə endirilir; e)ödənilməmiş vergi, DSMF və işsizlikdən sığorta məbləğləri üzrə hasablanmalı faizlər 1 aprel 2020 tarixindən

2021-ci ilin 1 yanvar tarixinədək təxirə salınır; ə)ictimai iaşə fəaliyyəti üzrə alınmış ərzaq və hazırlanmış qida məhsullarının xarab olması 2021-ci il yanvarın 1-dək vergi tutulan əməliyyat sayılmır; n)əmlak və torpaq vergiləri üzrə tam məbləğdə; f) ictimai iaşə fəaliyyəti ilə məşğul olan və ƏDV ödəyicisi olan şəxslərin 2020-ci il üzrə sadələşdirilmiş vergi metodunu seçmək hüququ 2020-ci il sentyabrın 1-dək uzadılır.

Burada qeyd etmək lazımdır ki, nəzərdə tutulmuş vergi güzəşti həmin fəaliyyəti həyata keçirən şəxslərə malların daşınmasını və ya çatdırılmasını sifariş etmiş satıcıların əldə edilən gəlirlərinə tətbiq edilmir. Müvəqqəti vergi rejimi müddətində əhalinin sağlamlığının və zəruri ərzaq məhsulları ilə ehtiyaclarının təmin edilməsi məqsədilə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məhsul (mal) növlərinin idxalı ƏDV-dən azad edilir. ƏDV qeydiyyatında olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər cari ilin sentyabrın 1-dən gec olmayaraq, sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə edəcəyi barədə yazılı məlumatı qeydiyyatda olduğu vergi orqanına təqdim edir. Bu zaman vergi ödəyicisi ərizə ilə müraciət etdiyi tarixdən etibarən sadələşdirilmiş verginin ödəyicisi kimi fəaliyyət göstərir və təqdim edilən mallara (işlərə, xidmətlərə) müvəqqəti vergi rejiminin müddəaları tətbiq edilir.

Koronavirus pandemiyasının təsir etdiyi sahələrdən biri də daşınmaz əmlaka sahib olan fiziki şəxslərdir. Belə ki, Vergi Məcəlləsinə görə fiziki şəxslərdən daşınmaz əmlakın icarəsi üzrə əvvəl 14% vergi tutulurdusa, pandemiya dövründə ödəmə mənbəyindən tutulan verginin dərəcəsi iki dəfə azaldılaraq 7% civarında müəyyən edilmişdir.

Bütün bunlarla bərabər kənd təsərrüfatında çalışanların sosial yükü də differensiallaşdırılmışdır. Hər bir əmək qabiliyyətli ailə üzvünə görə fiziki şəxslərin kənd təsərrüfatına yararlı torpaq sahəsinə uygun olaraq sosial yük differensiallaşdırılmış, torpaq mülkiyyətçilərinin sosial sığorta hesabatının verilməsi sabit qəbzlərlə əvəzləşdirilmişdir.

Cədvəl 3

Kənd təsərrüfatında çalışanların sosial yükünün differensiallaşdırılması

Fiziki şəxslərin kənd təssərüfatına yararlı torpaq sahəsi	Hər bir əmək qabiliyyətli ailə üzvünə görə	
	Pandemiyadan əvvəl	Pandemiya zamanı
< 5 ha	Minimum əmək haqqının 6%-i	Minimum əmək haqqının 2%-i
5-10 ha	Minimum əmək haqqının 6%-i	Minimum əmək haqqının 6%-i
>10 ha	Minimum əmək haqqının 6%-i	Minimum əmək haqqının 10%-i

Mənbə: [10] əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Kənd təsərrüfatı üzrə müsbət inkişaf dinamikası 2020-ci ildə də davam etmiş və bu sahədə üzrə 2 % (bitkiçilikdə 1 faiz və heyvandarlıq üzrə 2,9 faiz) artım qeydə alınmışdır. Pandemiya dövründə aqrar sektorun fəaliyyəti mövcud çağırışlara uyğun qurularaq kənd

təsərrüfatı məhsullarının fasiləsiz istehsalı təmin edilmiş, taxıl üzrə məhsuldarlıq ölkə üzrə 31,2 sentner təşkil etmişdir. Xüsusilə suvarma problemi yaşanmayan əksər regionlarda məhsuldarlıq 40 sentneri ötmüş, pilot təsərrüfatlarda isə taxıl üzrə məhsuldarlıq 60 sentnerə qədər çatmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,5 faiz çox tərəvəz, 4,2 faiz çox meyvə və giləmeyvə, 15 faiz çox tütün, 2,1 faiz çox kartof istehsal edilmişdir. Heyvandarlıq sahəsində də müsbət dinamika saxlanılıb və ət istehsalında ilkin nəticələrə görə 3,1 faiz artım, süd istehsalında isə 1,7 faiz artım əldə olunmuşdur [9].

Qeyd etmək yerinə düşər ki, 2020-ci ildə Dövlət Vergi Xidmətinin xətti ilə vergi daxilolmaları 7,4 milyard manat təşkil etmişdir. Vergi daxilolmaları üzrə illik proqnoz 102,7 faiz, o cümldən, qeyri neft-qaz sektoru üzrə 103,9 faiz icra olunmuşdur. Ümumi daxili məhsul həcminin azalması şəraitində daxilolmaların ÜDM-də xüsusi çəkisi artmış və 10,2 faiz təşkil etmişdir. Dünya bazarında neftin qiymətinin aşagı düşməsi ilə əlaqədar neft-qaz sektoru üzrə daxilolmalarda 20,6 faiz azalma qeydə alınmış, azalma qeyri-neft qaz sektorundan daxilolmalar hesabına kompensasiya olunmuşdur. Bu sektordan daxilomalar 3,3 faiz artaraq 5,6 milyard manat təşkil etmiş, 2020-ci ildə qeyri neft-qaz sektoru üzrə daxilolmaların xüsusi çəkisi 2019-cu ilə nəzərən 5,1 faizdən76 faizə çatmışdır. Qeyri neft-qaz sektoru üzrə vergi daxilolmalarının dövlət büdcəsinin qeyri-neft gəlirlərində xüsusi çəkisi qismən artaraq 2020-ci ildə 52,6 faizə yüksəlmişdir. 2020-ci il ərzində aktiv vergi ödəyicilərinin sayı 24 faizdən çox artaraq 616 mini ötmüş, aktiv ƏDV ödəyicilərinin sayında 17 faizdən çox artım olmuşdur. Aktiv obyektlərin sayı isə 9 faizdən çox artaraq 167 mini ötmüşdür [19].

Sosial-iqtisadi problemlərin tənzimlənməsində vergi siyasəti təsirli bir alət olub vergi güzəştlərinin edilməsi sosial baxımdan haqlı və zəruri bir addımdır. Burada mübahisəli məqam onun əhatə dairəsi və miqyasıdır. İqtisadçılar vergi güzəştlərinin əhatə dairəsinin genişləndirməsini sahibkarlıq fəaliyyətinin inkişafına və sosial problemlərin həll olunmasına gətirib çıxaracağı fikri ilə tam razılaşırlar [12, s. 32].

Nəticə

Dövlət tərəfindən markoiqtisadi sabitliyin tənzimlənməsi, məşgullugun təmin edilməsi, vergi ödəyicilərinin maliyyə vəziyyətinin yaxşılaşdırılması, azadolmalar və güzəştlər, sadələşdirilmiş verginin tətbiqi kimi məsələləri özündə ehtiva edən geniş əhatəli vergi islahatları həyata keçirilir. Vergi dərəcələrinin aşagı salınması və vergi güzəştlərinin tətbiqi ölkədə iqtisadi inkişafa səbəb olmaqla bərabər əhalinin həyat səviyyəsinin yüksəlməsinə və sosial ədalətin təmin olunmasına zəmin yaratmaqla bərabər "kölgə iqtisadiyyatı"na olan meyllənmənin də qarşısını alır.

Koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti vergi rejimində azadolmalar və güzəştlər nəzərdə tutulmuşdur ki, bu da mikrosahibkarlıq fəaliyyətinə dəstək verən əhəmiyyətli iqtisadi fəalyyət mexanizmidir. Bu dəstək müvəqqəti vergi rejimində vergi ödəyiciləri ilə yanaşı vergi orqanlarının da işini əhəmiyyətli dərəsədə asanlaşdırmışdır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Konstitusiyası, 1995, səh.18, maddə 73
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi səh. 4, maddə 11, 2000
3. "Azərbaycan" qəzeti 22 dekabr, 2018-ci il, №289
4. "Azərbaycan" qəzeti, 15 iyul, 2020-ci il, N 136
5. "Azərbaycan" qəzeti, 2012-ci il, N 293
6. "Azərbaycan" qəzeti, 29 dekabr, 2019-cu il, №290

7. N.Y.Mikayılova, "Azərbaycan iqtisadiyyatı","Müəllim" nəşriyyatı, 2018, 312 səh.
8. Y.A.Kəlbiyev, R.B.Məhərrəmov, P.Q.Rzayev, "Xarici ölkələrin vergi sistemi", "İqtisad Universiteti"- 2011, səh. 555 səh
9. 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirənin materialları. https://president.az/articles/49933
10. "Postpandemiya dövründə vergi sistemi" ilə bağlı keçirilən konfransın materialları. https://oxu.az/economy/466784https://oxu.az/economy/466784
11. Curriculum-guidelines-for-bachelor-of-arts-degrees-in-statisti.html
12. Лазуриной О.М. "Налоги и налогообложение". Учебное пособие. Ярославль, -2014
13. Design and assessment of tax incentives in developing countries selected issues and a country experience. united nations new york, 2018
14. Indonesian Pocket Tax Book 2019 Tax Services
15. http://cesd.az/new/wpcontent/uploads/2017/09/CESD_EU_Paper_September_2017.pdf)
16. https://www.nytimes.com/2019/06/19/us/politics/arthur-laffer-medal-of-freedom.html
17. http://www.e-qanun.az/framework/46590
18. https://www.trt.net.tr/azerbaycan/iqtisadiyyat/2020/04/04/covid-19-un-dunya-iqtisadiyyatina-vuracagi-z-r-r-1390850
19. https://oxu.az/economy/466784

Микаилова Нурангиз

НАЛОГОВЫЕ ЛЬГОТЫ И ВРЕМЕННЫЙ НАЛОГОВЫЙ РЕЖИМ

Резюме

В статье указаны научные основы экономического значения освобождений от налогов и налоговых льгот, проведен анализ налоговых льгот в некоторых зарубежных странах и Азербайджане. Также исследованы и проанализированы основные элементы временного налогового режима, введенного в связи с изменениями экономических условий вследствие распространения пандемии.

Цель: Исследование, изучение налоговых льгот, введенных в стране, анализ временного налогового режима

Методология: В исследовательской работе использован экономико-статистический метод и метод анализа.

Результаты исследования: Снижение налоговых ставок и применение налоговых льгот приводят к экономическому развитию в стране и создают благоприятные условия для повышения уровня жизни населения и обеспечения социальной справедливости.

Ключевые слова: *налоговые льготы, освобождения от налогов, налоговые ставки, временный налоговый режим*

Mikayılova Nurangiz

TAX BREAKS AND TEMPORARY TAX REGIME

Summary

The paper presents the scientific basis of the economic significance of tax exemptions and tax breaks, and analyzes tax breaks in some foreign countries and Azerbaijan. In addition, the main elements of the temporary tax regime applied in connection with the change in economic conditions as a result of the spread of the pandemic were studied and analyzed.

Purpose: To study the tax breaks applied in the country, to analyze the temporary tax regime.

Methodology: The study used economic-statistical and analytical methods.

The results of the study: The reduction of tax rates and the introduction of tax breaks lead to economic development in the country, as well as create the basis for improving the living standards of the population and ensuring social justice.

Keywords: *tax breaks, tax exemptions, tax rates, temporary tax regime*

UOT:631.173

İsrafil İsmayılov
"Aqroservis" ASC, professor
i.israfil@aqroservis.gov.az
Səlimə İsmayılova, b.ü.f.d.

TEXNİKADAN İSTİFADƏYƏ GÖRƏ İLLİK LİZİNQ ÖDƏNİŞİNİN MÜƏYYƏN EDİLMƏSİ METODİKASI

Hazırda texnikanın illik lizinq ödənişinin məbləği lizinq müddətinin hər ili üçün sabit olaraq müəyyən edilir. Texnikanın istismar müddəti artdıqca onun texniki resursu aşağı düşür, texniki vəziyyəti isə pisləşir. Bu halda sonrakı illərdə texnikadan istifadəyə görə illik ödəniş məbləğini ödəmək sahibkar üçün çətinləşir. Bu çatışmazlığı aradan qaldırmaq məqsədi ilə iqtisadi və mühəndis prinsiplərinə uyğun olaraq lizinq müddətində ödənişlərin diferensiallaşdırılmasını təmin edən düzəliş əmsalları təklif edilir.

Düzəliş əmsalının fiziki mahiyyəti texnikanın istismar müddətində köhnəlmə dinamikasına uyğun yüklənmə və lizinq ödənişlərini təmin edilməsinə əsaslanır. Müəyyən edilmişdir ki, traktor qərarlaşmış optimal iş həcmi ilə yükləndikdə, yəni 644 saat işləyən traktorun xidmət ömrü nominal illik yüklənmə ilə müqayisədə 2,0-2,5 dəfə yüksək olur. Bu isə fermerə texnikanın uzun müddətli istifadəsi hesabına daha çox gəlir əldə etməyə imkan verir.

Məqsəd – texnika lizinqə verilərkən lizinq müddətində ödənişlərin diferensiallaşdırılmasını təmin edən düzəliş əmsallarının əsaslandırılmasıdır.

Metodologiya – məqalədə aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi, ümumi iqtisadi və mühəndislik metedikalardan istifadə edilmişdir.

Tədqiqatın nəticələri – lizinq ödəmişlərinə diferensial düzəliş əmsallarının tətbiqi ilə kredit ödənişlərinin beş il müddətində tam ödənilməsi, sonrakı istismar illərində texniki resursun, etibarlığın qorunasının rəmin edilməsi və sahibkara əhəmiyyətli dərəcədə gəlir əldə etmək imkanının yaradılmasıdır.

Açar sözlər: *texnika, lizinq ödənişi, xidmət ömrü, diferensial düzəliş əmsalı, iş həcmi, aqrotexniki əməliyyatlar*

Giriş

Respublikada kənd təsərrüfatı texnikasının lizinqə verilməsi xidməti geniş yayılmışdır. 2018-ci ilə kimi respublikada kənd təsərrüftı texnikasının lizinqə verilməsi ilə "Aqrolizinq" ASC məşğul olurdusa 2019-cuildən sonra aqrar sahədə lizinq fəaliyyəti təkmilləşdirilmiş, şəbəkəsi genişləndirilmiş, lizinq prosedurları sadələşdirilmiş və daha da əlçatanlıq təmin edilmişdir. "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikasi Prezidentinin 19 dekabr 2018-ci il tarixli, 413 nömrəli fərmani və bu Fərmanla təsdiq edilmiş Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydasına əsasən kənd təsərrüfatı texnikası lizinq yolu ilə satışı üçün ilkin ödəniş texnikanın qiymətləndirmə nəticəsində müəyyən edilən satış dəyərinin minimum 20 faizi həcmində müəyyən edilir. İdxal edilən texnikanın gömrük dəyərinin, yerli istehsal məhsulu olan texnikanın isə qiymətləndirmə nəticəsində müəyyən edilən dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilir və bu güzəşt məbləği Azərbaycan Respublikasının dövlət büdcəsindən bunun üçün Agentliyə ayrılmış vəsait hesabına

müvəkkil kredit təşkilatları vasitəsilə ödənilir. Texnikanın dəyərinin qalan hissəsini isə 5 il müddətinə müvəkkil kredit təşkilatları tərəfindən Qayda ilə müəyyən edilmiş şərtlər daxilində kreditləşdirirlər. Bu baxımdan texnikanın 5 il müddətində sahibkar tenikanın dəyərini tam ödəməlidir [1].

Respublikada özəl aqrotexniki servis strukturunun yaradılması günün tələbidir. Fermer tərəfindən texnikanın lizinq yolu ilə və ya fərdi qaydada alınması belə strukturların yaradılmasını gündəmə gətirir. Lakin rayonlarda, kəndlərdə texnikanın sayı artdıqca fermerlərin sifarişi əsasında yerinə yetirilən aqrotexniki xidmətlərə görə ödənişlərin məbləğinin də tənzimlənməsi zərurəti yaranır. Odur ki, bu məqalə texnikadan istifadəyə görə illik ödəniş məbləğinin və təşkiledicilərinin elmi əsaslarla müəyyən edilməsi metodikasının işlənməsinə həsr edilmişdir.


Material və metodika

Hər bir texnika üçün fərdi istifadə müqaviləsi bağlanarkən istifadəyə görə ödənilməli olan məbləğ müqavilədə qeyd edilməlidir. Texnikaya görə ödəniş məbləği müəyyənləşdirilərkən hansı göstəricilər nəzərə alınmalıdır. İlk növbədə texnikanın balans dəyəri (B_d, man) yəni satış qiyməti, texnikanın markası, istehsal olunduğu il, xidmət müddəti və illik normativ iş həcmi əsas götürülməlidir.

Mövcud normativ texniki sənədlərdə lizinq obyekti olan texnikanın xidmət müddətində lizinq ödənişləri ilə illik normativ iş həcmi arasında mütənasibliyin olması qəbul edilir. Yəni texnikanın xidmət müddəti ərzində illik normativ iş həcmi ilə illik lizinq ödənişləri arasında uyğunluq olmalıdır. Normativ texniki sənədlərdə texnika növləri üzrə illik normativ iş həcmi orta illik iş həcminə və xidmət müdətindən asılı olaraq müəyyən edilmiş düzəliş əmsallarına görə təyin edilir [2].

Texnikanın xidmət müddətindən asılı olaraq illik iş həcminə düzəliş əmsallarının traktorlar üzrə dəyişməsinin qrafiki təsviri şək.1-də verilir.

Elmi ədəbiyyatlarda bu, texnikanın xidmət müddəti onun texniki resursu və qalıq dəyəri arasında sıx əlaqənin olması ilə izah edilir. Belə ki, texnikanın xidmət müddətinin artması onun texniki resursunun və qalıq dəyərinin azalmasına səbəb olur [3]. Lakin müəyyən edilmişdir ki, texnikanın il ərzində qərarlaşmış yüklənməsi onun xidmət ömrünün artmasına imkan verir [4].




Şək. 1. Traktorlar üçün düzəliş əmsalı nəzərə alınmaqla illik iş həcminin xidmət müddətindən asılı olaraq dəyişməsi

Göründüyü kimi orta illik iş həcmi xidmət müddətindən asılı olmayaraq sabit qalır. Texnikanın illik iş həcmi düzəliş əmsalları nəzərə alındıqda isə xidmət müddəti artdıqca illik iş həcmi azalır. Lakin texnikanın ilk 5-6 xidmət illəri üçün iş həcmi orta illik iş həcmindən çox planlaşdırılır. Bu mühəndislik nöqteyi nəzərindən texnikanın ilk istismar illərində yüklənməsinin artırılmasına yol verilən ehtiyatın olduğunu göstərir. Sonrakı illərdə isə texnikanın illik iş həcminin azalması onun texniki vəziyyətinin və texniki imkanının getdikcə azalması ilə şərtləndirilir. Qeyd etmək lazımdır ki, orta illik iş həcminin dəyişmə əyrisi altında qalan sahə düzəliş əmsalının dəyişmə əyrisi altında qalan sahəyə bərabərdir. Bu isə texnikanın xidmət müddəti ərzində istismar illərindən asılı olaraq texniki potensialının xidmət ömründə düzgün paylanmasını və istifadəsini göstərir.

Nəzəri mülahizələr

Sahibkar isə texnikanın lizinqə alınmasına görə kredit borcunu ödəmək üçün texnikadan hər il istifadəsi zamanı müəyyən gəlir əldə etməlidir. Lizinqalan ilkin ödəniş və dövlətin verdiyi güzəşt nəzərə alındıqdan sonra texnikanın ilkin dəyərinin 40 faizi həcmində vəsaiti beş il müddətində müvəkkil banka ödəməklə geri qaytarmalıdır. İndiki halda müvəkkil banklar həmən məbləği beş ilə bərabər olmaqla bölür və lizinqalan həmən məbləği beş il ərzində ilbəil ödəyir. Burada bir məsləni nəzərdən qaçırmaq olmaz. Texnika istifadə edildikcə onun texniki potensialı azalır və texniki cəhətdən tez-tez xarabolmaların baş verməsi müşahidə edilir. Başqa sözlə texnika işlədikcə onun texniki vəziyyəti pisləşir. Bu o deməkdir ki, texnika xidmət ömrünün sonrakı illərində texniki vəziyyəti pisləşdiyinə görə əvvəlki illərdə olduğu kimi məhsuldar olmayacaq, il ərzində iş günlərinin sayı azalacaq, texniki cəhətdən boşdayanmalar artacaq və illik qazancı da müvafiq olaraq azalacaqdır. Bu halda texnikanı lizinqə götürən fermerə, mexanizatora gəliri azaldığından banka olan kredit borclarını ödəməkdə çətinlik yaranacaq. Odur ki, məsələyə iqtisadi və mühəndis prinsipləri ilə yanaşaraq texnikanın illik ödənişlərinə düzəliş əmsalları nəzərə alınmaqla qaytarılması metodundan istifadəni təklif edirik. Kredit ödənişləri txnikanın dəyərinə edilən güzəliş əmsalları ilə müəyyən edilərsə kredit ödənişləri beş il müddətində tam ödənilə, texnikanın kredit müddətindən sonrakı illərdə etibarlığı qoruna və sahibkar isə müəyyən gəlir əldə edə bilər. Texnikanınn lizinq ödənişləri üçün diferensial düzəliş əmsallarının adi və təklif edilən halda dəyişməsi şəkil 2-də təsvir edilir.



Şəkil 2. 5 il müddətində lizinq ödənişləri üçün düzəliş əmsalının dəyişməsi

Məhz iş həcminin xidmət müddətindən asılılıq xarakteri texnikanın operativ lizinq (istifadə) müqavilələrində nəzərdə tutulan illik, mövsümlük və aylıq ödəniş məbləğinin müəyyən edilməsində istifadə edilə bilər. Texnikanın xidmət ömründən asılı olaraq illik iş həcminin dəyişmə xarakteri eyni ilə illik ödənişə də şamil edilə bilər. Çünki, texnikanın illik iş həcmi ilə il ərzində görülən işə görə ödəniş arasında identiklik mövcuddur. Texnikanın yerinə yetirdiyi kənd təsərrüfatı əməliyyatının dəyəri görülən işin həcminə ($U_ə$, ha) və iş vahidinin qiymətinə (q_{ha}, man/ha) görə müəyyən edilir [4]:

$$V_u = U_ə \cdot q_{ha}, \text{ man} \quad (1)$$

Fərdi sahibkarlar, özəl aqroservis müəsisələri, özəl təsərrüfatlar texnikanın yerinə yetirdiyi kənd təsərrüfatı əməliyyatlarının iş vahidinin qiymətini bazar qiymətləri əsasında müəyyən edirlər. Nəzərə alsaq ki, respublikada mövcud qanunvericiyə əsasən texnikanın lizinq yolu ilə satılması zamanı onun satış qiymətinin 40%-i həcmində dövlət tərəfindən güzəşt tətbiq edilir, onda iş vahidinin qiyməti müəyyənləşdirilərkən bu güzəşt nəzərə alınmalıdır

Burada iş vahidinin qiymətinin süni şəkildə artırılması yol verilməzdir. Təklif edilən metodiki yanaşma, "Aqroservis" ASC-nin rayon bölmələrinin istifadəsində olan texnikaların istifadəsinə görə müəyyən edilmiş taariflər fərdi sahibkar texnikalarının xidmət qiymətlərinin aşağı salması üçün rəqabət yaradan əsas amillərdir.

Məhz bu mülahizələr əsasında texnikanın xidmət ilindən asılı olaraq illik ödənişin məbləği texnikanın orta illik dəyərini, iş həcminə və xidmət müddətindən asılı olaraq illik iş həcminə, düzəliş əmsalına vurmaqla müəyyənləşdirilə bilər.

$$P_{il_i} = \frac{1}{X_ö}(B_d)d_{ə_i} \quad (2)$$

burada P_{il_i}-texnikanın i-ci xidmət ilində istifadəyə görə ödənişin məbləğidir, man;


$X_ö$-texnikanın normativ xidmət müddətidir, il;

B_d- texnikanın balans dəyəridir, man;

$d_{ə_i}$ - texnikanın illik iş həcminin xidmət müddətindən asılı olaraq dəyişməsini xarakterizə edən düzəliş əmsalıdır.

İşlənmiş metodika əsasında lizinqə götürülmüş balans dəyəri 69900 man olan traktorun 20 faiz ilkin ödənişi, dövlətin 40 faizlik güzəşti nəzərəalındıqdan sonra traktorun dəyərinin qalan 40 faizlik hissəsi, yəni baxılan hal üçün 27960 manat vəsaitin traktorun lizinqdə olduğu 5 il üçün ödəniş məbləğinin istismar ilindən asılı olaraq dəyişmə qrafiki şək. 3-də verilir.

Şəkildə müqayisə üçün həmçinin traktorunun orta illik ödənişinin istismar illərinə görə sabit qalmaqla dəyişməsi də göstərilmişdir. Traktorun istismarının ilk illərində istismar ilinə görə ödəniş məbləği orta illik məbləğdən böyük olduğu görünür. İstismarın 3-cü ilində orta illik ödəniş məbləği ilə istismar ilinə görə ödəniş məbləği bərabərləşir. Sonrakı istismar illərində (4 və 5) isə illik ödəniş məbləği orta illik məbləğə nisbətən azalmağa başlayır. Qeyd edilməlidir ki, 3-cü istismar ilinə nəzərən illik ödənişlərin orta illik məbləğdən ümumi artıqlığı 3-cü ildən sonra olan ümumi azalmaya bərabədər olduğundan traktorun istismar müddəti ərzində cəmi ödənişinin məbləği sabit qalacaqdır. Başqa sözlə, hər iki halda ümumi lizinq ödnişi 27960 man təşkil edir. Beşinci ildən sonra lizinq alan texnikanın kredit borcunu tam bağladıqdan sonra lizinqə verən şirkət həmən texnikanı lizinq alanın şəxsi mülkiyyətinə verilməsibarədə sənədi fermerə təqdim edir.



Şəkil 3. Lizinqə verilmiş traktorunun illik ödənişinin ilk 5 istismar ilində dəyişməsi

Müzakirə

Texnika il ərzində sahibkar tərəfindən normativ texniki şərtlərə əməl edilməklə stabil yükləndikdə xidmət ömrü on il deyil daha çox ola bilər. Tədqiqatlar və təcrübə göstərir ki, traktorların xidmət ömrü bu halda 15-25 il arasında dəyişə bilir [4]. Texnikanın xidmət ömrünün normativ xidmət ömründən çox olması fermerə əlavə gəlir götürmək imkanı yaradır. Müəyyən edilmişdir ki, traktor qərarlaşmış optimal iş həcmi ilə yükləndikdə, yəni 644 saat işləyən traktorun xidmət ömrü nominal illik yüklənmə ilə müqayisədə 2,0-.2,5 dəfə yüksək olur [5]. Deməli uyğun olaraq texniki hazırlıq əmsalını, texniki xidmət və təmirə dayanmaları nəzərə almaqla lizinqə alarkən fermerin texnikaya dəyərinin 60 faizi qədər ödədiyi vəsaitdən, yəni baxılan misalda 41940 manatdan daha çox vəsait qazandıra bilər.

Texnikanın xidmət ilindən asılı olaraq illik ödənişin məbləği necə formalaşır. Bu, texnika ilə yerinə yetirilən ayrı-ayrı texnoloji əməliyyatların həcmindən və həmin texnoloji əməliyyata görə iş vahidinin dəyərindən təyin edilir [5].

Texnikanının illik iş həcmi (U_{il},ha) il ərzində yerinə yetirdiyi ayrı-ayrı kənd təsərrüfatı əməliyyatlarının həcminin ($U_{ə_i}, ha$) cəmindən ibarətdir, yəni:

$$U_{il} = \sum_i^n U_{ə_i}, \text{ ha.} \qquad (3)$$

Texnikanın il ərzində yerinə yetirdiyi aqrotexniki xidmətlərə görə topladığı vəsait (V_{il}, man) yerinə yetirilən texnoloji əməliyyatların həcminə ($U_{ə_i}, ha$) və iş vahidinin dəyərinə ($q_{ha}, man/ha$) görə aşağıdakı kimi təyin edilir:

$$V_{il} = \sum_i^n U_{ə_i} \cdot q_{ha}, \text{man.} \qquad (4)$$

Beləliklə, j –ci növ texnikadan istifadəyə görə texnika sahibinə ödəniləcək məbləği ($P_{il_j}, man/il$) il ərzində texnikanın yerinə yetirdiyi aqrotexniki xidmətlərə görə topladığı vəsaitdən və əməliyyatların tarif qiymətində lizinq ödənişlərinin payına görə (h_{ha}) müəyyən olunur:

$$P_{il_j} = \sum_i^n U_{ə_i} \cdot h_{ha}, \text{ man/il}, \quad (5)$$

burada h_{ha} - operatorun əmək haqqı, təmir və texniki xidmət xərcləri, yanacaq-yağlama materiallarının xərci və başqa xərclər çıxıldıqdan sonra əməliyyatların hər hektarının yerinə yetirilməsinə görə tarif qiymətindəki hissədir.

Başqa sözlə

$$h_{ha} = q_{ha_i} - s_x, \text{ man/ha}, \quad (6)$$

burada s_x- əməliyyata görə tarif qiymətində bir hektara düşən operatorun əmək haqqı, təmir və texniki xidmət xərcləri, yanaca-yağlama materiallarının xərci və başqa xərcləri nəzərdə tutur. Riyazi ifadəsi aşağıdakı kimi verilə bilər:

$$s_x = s_ə + s_{ttx} + s_{yym} + s_s, \text{ man/ha}, \quad (7)$$

burada $s_ə, s_{ttx}, s_{yym}, s_s$- uyğun olaraq operatorun əmək haqqının, təmir və texniki xidmət xərclərinin, yanaca-yağlama materiallarının xərcinin və başqa xərclərin bir hektara düşən xüsusu hissəsidir, man/ha.

Nəticə

1. Kənd təsərrüfatı texnikasının sahibkara, fermerə lizinqə verilməsi zamanı müvəkkil banka ödəniləcək illik ödənişlərin məbləğini iqtisadi və mühəndis prinsipləri ilə yanaşmaqla diferensiallaşdıran düzəliş əmsallarının tətbiq edilməsi metodikası məqsədə-uyğundur.

2. Lizinq ödənişlərinə diferensial düzəliş əmsallarının tətbiqi ilə kredit ödənişləri beş il müddətində tam ödənilə, texnikanın kredit müddətindən sonrakı illərdə texniki resursu, etibarlığı qoruna və sahibkarın isə əhəmiyyətli dərəcədə gəlir əldə etmək imkanı yarana bilər.

3.Texnikanın xidmət ömrünün artması il ərzində qərarlaşmış həcmdə, yəni 644 moto-saat işləyən traktor texniki hazırlıq əmsalını, texniki xidmət və təmirə dayanmaları nəzərə almaqla daha çox vəsait qazandıra və əlavə gəlir əldə etməyə imkanı yaradır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikasi Prezidentinin 19 dekabr 2018-ci il tarixli, 413 nömrəli fərmanı, Bakı, 2018. http://e-qanun.az/framework/41022
2. Справочник инженера-механика сельскохозяйственного производства// Нунгезер В.В., Лачуга Ю.Ф и др., Москва, 2011.
3. Черноиванов В.И. Не спешите расставаться с изношенной деталью// МТС, 2009, № 2, с.4-7.
4. Исмаилов И.И Обоснования эффективных сроков службы машин в фермерских хозяйствах // Механизация и электрификация сельского хозяйства, Москва, 2001, №8, с. 23-24.
5. Исмаилов И.И. Обоснование межхозяйственного использования техники и функционирования обслуживающих предприятий в сельском хозяйстве. Монография, Баку, ЭЛМ, 2007, 328 с.

Исрафил Исмайлов
Салима Исмайлова

МЕТОДИКА ОПРЕДЕЛЕНИЯ РАЗМЕРА ГОДОВОЙ ЛИЗИНГОВОЙ ОПЛАТЫ ЗА ИСПОЛЬЗОВАНИЕ ТЕХНИКИ

Резюме

В настоящее время размер годовой арендной платы техники определяется одинаково для каждого года срока аренды. По мере увеличения срока службы техники уменьшается его технический ресурс и ухудшается техническое состояние. В этом случае предпринимателю сложно платить ежегодную арендную плату за использование техники в последующие годы. Для преодоления данного недостатка предложены поправочные коэффициенты, которые предусматривают дифференциацию платежей в период лизинга, в соответствии экономическим и инженерным принципам.

Физическая сущность поправочного коэффициента основана на загрузку техники в соответствии с динамикой ее износа в процессе эксплуатации и обеспечению лизинговых платежей техники. Установлено, что при годовой загрузке трактора в соответствии фиксированному оптимальному рабочему объему, т. е. при 644 часах работы, ресурс трактора, в 2,0-2,5 раза превышает срока службы, по сравнению с номинальной годовой нагрузкой. Это позволяет фермеру зарабатывать больше за счет длительного срока использования техники. Также разработана методика определения обязательств по операционному лизингу техники, на основе характера зависимости срока службы от объема нагрузки.

Цель – является обоснование поправочных коэффициентов, обеспечивающих дифференциацию платежей в период аренды техники.

Методология – в статье использованы общеэкономические и инженерные методики и методика совершенствования лизинговой деятельности в агропромышленном комплексе.

Результат исследования – является полное погашение платежей по кредитам арендаторам в течение пяти лет с применением дифференциальных поправочных коэффициентов, обеспечивающих поддержание технического ресурса, надежности в последующие годы эксплуатации и создание значительного предпринимательского дохода.

Ключевые слова: *техника, арендная плата, срок службы, дифференциальный поправочный коэффициент, нагрузка, агротехнические операции*

Prof. Dr. Israfil Ismayilov
Dos. Dr. Salima Ismayilova

METHODOLOGY FOR DETERMINING THE AMOUNT OF ANNUAL LEASING PAYMENTS FOR THE USE OF MACHINERY

Summary

Currently, the annual rent of machinery is determined equally for each year of the lease term. As the service life of machinery increases, its service life decreases and its technical condition deteriorates. In this case it is difficult for the entrepreneur to pay the annual rent for the use of equipment in subsequent years. To overcome this disadvantage, adjustment coefficients are proposed, which provide for differentiation of payments during the leasing period, in accordance with economic and engineering principles.

The essence of the adjustment coefficient is based on the load of machinery according to the dynamics of its depreciation in the process of operation and provision of the leasing payments of

machinery. It is set that at the annual loading of tractor in accordance with the fixed optimal work volume i.e. at 644 hours of work the life time of tractor is 2,0-2,5 times more than the life time of nominal annual load. This allows the farmer to earn more due to the long service life of machinery. The methodology for determining the obligations on the operational leasing of machinery, based on the nature of the dependence of the service life on the volume of the load is also developed.

Purpose of the research - this is the justification of correction coefficients that ensure the differentiation of payments during the rental period of equipment..

Methodology – The article uses general economic and engineering methods and methodology to improve leasing activities in the agroindustry.

Findings and practical significance of the study - it is the full repayment of payments on loans to tenants within five years with the use of differential correction coefficients that ensure the maintenance of technical resource, reliability in subsequent years of operation and the creation of significant entrepreneurial income.

Keywords: *machinery, lease payment, service life, differential adjustment coefficient, load, agrotechnical operations*

UOT 322.05

Pərvin Məmmədova
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
p.q.memmedova@gmail.com

ÇAY KLASTERLƏRİNİN İNKİŞAFINDA DÜNYA TƏCRÜBƏSİ

Hazırkı mərhələdə Azərbaycan iqtisadiyyatı üçün iki böyük problemin həlli çox vacibdir. Söhbət regional iqtisadi inkişafdakı bərabərsizliyin aradan qaldırılmasından, eyni zamanda da iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılmasından gedir. Ən yaxşı təcrübələrin öyrənilməsi göstərir ki, bu iki əsas iqtisadi problemin həlli məhz klaster yanaşması çərçivəsində uğurlu nəticələr əldə etməyə imkan verir.

Müxtəlif ölkələrin təcrübəsinin təhlili ənənəvi iqtisadi inkişaf yanaşması ilə müqayisədə klaster yanaşmasının üstünlüklərini aydın göstərir. Fərqli ölkələrdən nümunə götürərək regional klasterlərin formalaşması və inkişafında "yaxşı təcrübələr" əldə oluna bilər.

Əgər söhbət çay klasterlərinin inkişafında dünya təcrübəsindən gedirsə son illərdə bu sahədə yüksək nailiyyət əldə etmiş ölkələrin təcrübəsi diqqətçəkicidir. Azərbaycanda çay istehsalının klasterlərini formalaşdırmaq üçün dünya təcrübəsinə ehtiyac duyulur. Məqalədə çayçılığın inkişaf etdiyi 3 ölkə - Çin, Hindistan, Türkiyə araşdırılmış və statistik göstəricilər əsasında təhlil edilmişdir.

Məqsəd – dünya təcrübəsinə əsaslanaraq Azərbaycanda çay klasterlərinin inkişafına fərqli yanaşmanın üstünlüklərini aşkar etmək.

Metodologiya – tədqiqatda statistik və müqayisəli təhlil metodundan istifadə edilmişdir.

Tədqiqatın nəticələri və praktiki əhəmiyyəti – çay istehsalına görə öncül sıralarda yerləşən ölkələrin təcrübəsinə əsaslanaraq Azərbaycanda çay istehsalı klasterinin formalaşdırılması istiqamətində müvafiq tədbirlər planının işlənilməsi və onun realizasiya edilməsində həmin təcrübədən istifadənin mümkünlüyünü əsaslandırmaq.

Tədqiqatin elmi yeniliyi – Azərbaycanın çay istehsalında mövcud problemlərin qruplaşdırılması və onun həlli yollarının müəyyənləşdirilməsidir.

Açar sözlər: *çay klasterləri, dünya təcrübəsi, çay istehsalı, çay istehlakı, çay idxalı*

Giriş

Regionların sosial-iqtisadi inkişafındakı qeyri-bərabərliyin aradan qaldırılması və tarazlı inkişafın təmin edilməsinə nail olmaq üçün mövcud idarəetmə mexanizmlərinin dəyişdirilməsi ilə regionlarda iqtisadi inkişafı sürətləndirəcək daha səmərəli mexanizmlərin də yaradılması zəruridir. Dünya təcrübəsində belə səmərəli mexanizmlərdən biri də regional klasterlərin yaradılmasıdır [3, s.15].

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və Avropa Yenidənqurma və İnkişaf Bankı bu ölkələrin yüksək keyfiyyətli və xüsusi çay növlərinin istehsal etmə potensialını vurğulamaq üçün keçirdiyi görüşdə iştirakçılar çay sənayelərinin dayanıqlı inkişaf etdirilməsi yollarını və çay sektoru icmallarından əldə etdikləri məlumatları iştirakçıların nəzərinə çatdırmışlar. Həmin iclasda Qafqazdakı çayın mədəni əhəmiyyətini, Gürcüstan və Azərbaycanda çay istehsalının dərin tarixi olduğu qeyd edilmişdir: "Çay istehsalının bu ölkələrdə bir əsrdən çox tarixinin olduğunu nəzərə alaraq həmin ölkələrin bu irsinin qorunub saxlanılması və yerli çayların həm ölkə daxilində, həm də xaricdə özünəməxsus xüsusiyyətlərinin yayılmasının təmin edilməsi təchizat zənciri boyunca keyfiyyəti artırmaq qədər vacibdir" [8, s.15].

Klaster eyni sahədə fəaliyyət göstərən, eyni zamanda bir-biri ilə rəqabət aparan və biri-birindən qarşılıqlı asılılığı olan, eyni məhsulun (xidmətin) istehsalı üzrə biri-birini tamamlayan və dəstəkləyən firmaların təmərküzləşməsini ifadə edir. Klasterləşmə həm sektorlar, həm də coğrafi ərazilər üzrə təşkil edilə bilər, lakin coğrafi ərazilərin xüsusiyyətləri nəzərə alaraq hər bir ərazi üzrə spesifik hesab olunan sahə klasterlərinin təşkili təcrübədə də geniş yayılıb. Regional inkişafın təmin edilməsi üçün klaster mexanizminin tətbiqi çox mühümdür.

Bəzi ölkələrdə çay klasterlərinin inkişaf istiqamətləri

Müxtəlif ölkələrin təcrübəsinə nəzər salıqda klasterlər üçün xarakterik əlamətləri asanlıqla görmək olur. Bu əlamətlərin ən mühümü coğrafi təmərküzləşmədir. Bu əlamət ilk olaraq spesifik təbii resurslara, yerli səviyyədə kadr və maliyyə resurslarına bərabər çıxış imkanının mövcudluğunu göstərir. Araşdırmalara görə klasterlərin aparıcı iştirakçıları bir-birinə coğrafi olaraq yaxın yerləşirlər. Dünyada klasterlərin 61%-i eyni şəhər və ya metropol ərazi daxilində, 20%-i isə eyni region və ya ştat daxilində yerləşir. Cəmi 19% klaster müxtəlif regionları və ya ölkələri əhatə edir. İkinci mühüm əlamət kimi prosesdə geniş iştirakçılığı qeyd etmək mümkündür. Üçüncü əlamət ixtisaslaşmadır. Dördüncü əlamət innovativlikdir. Beşinci əlamət kimi müxtəlif iştirakçılar arasında əlaqə və qarışılıqlı təsirin mövcudluğu qeyd edilə bilər. Nəhayət, sonuncu əlamət kimi rəqabət və kooperasiyanın mövcudluğu vurğulanmalıdır.

Hər hansı bir ölkədə klasterlərin inkişaf etdirilməsi ilə innovasiyalar arasında qarşılıqlı bir əlaqə mövcuddur. O ölkələrdə ki, innovasiyalar inkişaf etmirsə, həmin ölkədə klasterlər formalaşmır. Sahibkarlıq təşəbbüslərinin artırılması üçün innovativ siyasətin effektiv olmasına ehtiyac var. Azərbaycanda innovasiyalarla bağlı xərclərin artırılması bu baxımdan çox faydalı olardı.

Hal-hazırda Azərbaycanda çay istehsalı ilə bağlı "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı" qəbul edilmişdir. Buna əsasən də mövcud potensialdan istifadə edərək Azərbaycanda çay istehsalının klasterini formalaşdırmaq üçün dünya təcrübəsinin öyrənilməsinə ehtiyac duyulur. Bu məqsədlə tədqiqatımızda bu sferada inkişaf istiqamətinə nail olmuş, bir sıra ölkələrin təcrübələrinə diqqət yetirmək istəyərdik.

Azərbaycanda çay istehsalının unikal xüsusiyyətləri

Təcrübə göstərir ki, həm yerli, həm də beynəlxalq səviyyədə çaya olan tələbat artır. Məlumatlar göstərir ki, Azərbaycanda adambaşına çay istehlakı 2 kq.-dan çoxdur və bu göstəricinin statistikasına əsasən o, dünyada istehsal həcminə görə önəmli yerdə duran Böyük Britaniya, Türkiyə və Marakeşlə yanaşı ən çox çay istehlak edən ölkədir. Azərbaycan çayları şimal mənşəli, Xəzər dənizi sahillərindəki spesifik böyümə şəraiti sayəsində özünəməxsus xüsusiyyətlərə malikdir. Məsələn, burada istehsal olunan çaylar parlaq rəngə malikdir və kimyəvi maddələr istifadə olunmadan istehsal edilərək emal oluna bilər. Qeyd edilən spesifik xüsusiyyət ölkəmizdə çayın təbii istehsalı üçün yaxşı imkanlar yaradır, çay ixracı bazarlarına çıxmaqla sağlamlıq və ətraf mühit məsələləri ilə maraqlanan istehlakçıların marağına səbəb ola bilər. Bu istehsal növünə dayanıqlı və perspektivli yanaşma, həmçinin iqlim dəyişliyinin səbəb olduğu potensial risklər ölkədə çay sektorunun uğurlu inkişafı üçün açar rolunu oynaya bilər. Azərbaycanda bununla əlaqəli artan temperatur və artan yağıntı miqdarı yeni zərərvericilərin meydana çıxmasına səbəb ola bilər və məhdud olan pestisid istifadəsi üçün təhlükə yaradır ki, bu da ölkənin su ehtiyatlarına təsir göstərə bilər. Beləliklə, Azərbaycanda istehsal olunan çaylar yerli və

xarici istehlakçılar üçün müsbət dəyər və potensialın formalaşmasına təsir göstərməklə beynəlxalq bazarda öz mövqeyini genişləndirmək imkanına malik ola bilər.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) 2018-ci il statistik göstəricilərinə görə dünya çay istehsalında Çin 2414,802 tonla birinci, Hindistan 1252,174 tonla ikinci, Keniya 473,000 tonla üçüncü, Sri Lanka 349,308 tonla dördüncü, Türkiyə isə 243,000 tonla sonra beşinci yeri tutur. Həmçinin qeyd etmək lazımdır ki, dünyanın bir sıra ölkələrində, o cümlədən İndoneziya, Malayziya, Braziliya, Şili, Argentina, Gürcüstan və İranda da çay istehsal edilir və onların da bu sahədə özünəməxsus təcrübəsi vardır.

Çin Xalq Respublikasında çay istehsalı və emalının spesifik xüsusiyyətləri

Çin Xalq Respublikasında çay plantasiyalarının salınması, çay əkini materiallarının yetişdirilməsi, yaşıl çay yarpağının istehsalı və emalı ilə məşğul olan *kənd təsərrüfatı* və yeyinti sənayesi mövcuddur. Çay istehsalının həcminə görə *Çin Xalq Respublikası* dünya bazarında ən böyük istehsalçılardandır.

Ölkə hər il xaricə 300-350 min ton çay ixrac edir. Dünya bazarlarındakı paylarını artırmaq, yeni bazarları öyrənmək və yeni çay brendlərini formalaşdırmaq məqsədi ilə bu ölkədə 157 iri çay şirkətinin və 34 elmi tədqiqat institutunun iştirakı ilə *Çin Çay İstehsalçıları Assosiasiyası* yaradılmışdır. Çin 2016-cı ildə 2,4 milyon tondan çox çay istehsal etmişdir ki, bu da dünyada yetişən bütün çayların 40% -ni təşkil edir.

Beynəlxalq ticarətə gəlincə, Çin dünyanın hər ölkəsindən daha çox çay ixrac edir. Yaşıl çay Çinin ümumi çay ixracatının ən böyük hissəsini təşkil edir və bunun çox hissəsi Mərakeş, Özbəkistan, Qana, Mavritaniya və ABŞ-a gedir. Çin Gömrük məlumatlarına görə, Çin çaylarının bütün növlərinin (yaşıl, qara, oolong, puer, ətirli çay) ixracatı 2017-ci ildə orta hesabla 1%-dən 9%-dək artmışdır. Buna baxmayaraq, Çinin çay idxalı da artmaqdadır. 2017-ci ildə Çin təxminən 25000 metrik ton qara çay idxal etdi ki, bu da əvvəlki ilə nisbətən 40 faiz çoxdur [6,7]. Bunun çox hissəsi Şri Lanka, Hindistan, Keniya, İndoneziya və Tayvandan gətirilir.

Hindistanda çay istehsalı və emalının spesifik xüsusiyyətləri

Bu sahədə dünya arenasında tanınan digər ölkələrdən biri də Hindistandır. Hindistan dünyada ikinci ən böyük çay istehsalçısı ölkə hesab edilir. Həmçinin, dünya ölkələri ilə müqayisədə ən çox çay istehlak edən ölkədir. Hindistanda istehsal olunan ümumi çayın təxminən 80%-i yerli əhali tərəfindən istehlak olunur. Hindistanda çay istehlakına dair araşdırma Hindistanın Çay Şurası tərəfindən aparılmışdır və müəyyən edilmişdir ki, böyük daxili istehlak bazasının olmasına baxmayaraq, ölkədə adambaşına düşən istehlak göstəriciləri qlobal standartlarla müqayisədə aşağıdır.

Daxili istehlak tədqiqi iki mərhələdə hazırlanmışdır: Pilot və Pan-Hindistan Anketi. Anketlər tədqiqatın geniş məqsədlərini nəzərə alaraq tərtib edilmişdir və məhsullar sənaye orqanlarından, çay dərnəklərindən və çay sənayesinin əsas tərəflərindən alınmışdır. Pilotun nəticələri, sənaye qurumları və əsas maraqlı tərəflərlə aparılan müzakirələrə əsaslanaraq qurumlar arasında əsas meylləri müəyyən etmək üçün istifadə edilmişdir.

İkinci mərhələdə aparılan araşdırma Hindistanın həm şəhər, həm də kənd əhalisinin maraqlarını özündə əks etdirir. Tədqiq zamanı əldə edilən istehsal və istehlak haqqında məlumatlar ümumiləşdirilmişdir. Tədqiqat zamanı daxili istehlakın tərkib hissəsi olan institusional istehlak meylləri də sorğuya cəlb olunmuşdur. Nəticələr göstərir ki, Hindistanda çay istehlakı ölkənin şimal və qərb hissələrində aşağıdır. Belə ki, ölkənin şimal hissəsində çay istehlakı 32%, qərb hissəsində isə 31% təşkil edir. Şərq bölgəsində daxili çay istehlakın həcmi 19%, cənubunda isə 18% təşkil edir.

Rəsmi statistikaya görə, Hindistanda çay istehsalı 2016-cı ildə rekord səviyyəyə - 1,25 milyon tonadək artaraq bir daha dünyanın ən çox çay istehsal edən ölkələrindən biri oldu. Hazırda Assam Çay Şirkəti Hindistanda ən böyük çay istehsalçısıdır, Assam, Darjeeling və Nilgiri isə Hindistanın ən böyük çay istehsal edən əyalətlərindəndir.

2015-2018-ci illərin statistik göstəricilərinə əsasən Hindistanda çay idxalının həcmi 31%, dəyər ifadəsində isə 39% artmışdır.

Cədvəl 1

Hindistanda çay istehsal üzrə əsas göstəricilər

İl	Miqdar (kq)	Əlavə dəyər (rupi)	Vahid qiymət (Rupi/kq)	Qablaşdırma dəyəri (ABŞ $)	Vahid qiymət (ABŞ $ /kq)
2015-2016	18.43	244.48	132.65	37.36	2.03
2016-2017	21.06	290.19	134.35	43.27	2.00
2017-2018	20.59	288.56	140.15	44.78	2.17
2018-2019	24.22	341.61	141.04	48.85	2.02
2019-2020	15.54	231.76	149.14	32.66	2.10
2020-2021	10,12	191.33	189.06	25.37	2.51

Mənbə: [5] əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Ölkənin tələbatını ödəmək üçün tədqiqat aparılan dövrdə idxal olunan çay məhsulunun həcmi 31%, dəyər ifadəsində isə 39 % artmışdır.

Cədvəl 2

Hindistanın bölgələrində çay istehsalı, mlyn. Kq

İl	Şimali Hindistan	Cənubi Hindistan	Cəmi
2015	1008.56	224.58	1233.14
2016	1043.11	207.38	1250.49
2017	1091.40	233.65	1325.05
2018	1124.03	226.01	1350.04

Mənbə: [5] əsasında müəllif tərəfindən tərtib edilmişdir

Cədvəl 2-dən də göründüyü kimi 2015-ci ildən 2018-ci ilədək çay istehsalının həcmi 9,5% artmışdır.

Son araşdırmadan məlum olur ki, adambaşına düşən istehlakda artım olsa da adambaşına düşən ümumi istehlak rəqəmləri qlobal etalonlarla müqayisədə aşağı görünür. Hindistanın kəndlərində adambaşına düşən istehlak rəqəmlərində də ciddi artma mövcuddur. Adambaşına cari istehlak rəqəmlərini nəzərə alsaq, istehsalın artması potensialı var.

Türkiyədə çay istehsalının artım dinamikası

Türkiyə, dünyada ən böyük çay istehsalçı və istehlakçılarından biri hesab edilir. Türkiyədə istehsal olunan müxtəlif növ çayların özünəməxsus bir xüsusiyyəti də,

Azərbaycanda olduğu kimi, istehsal olunan çayın parlaqlığı onun istehsalı prosesində heç bir kimyəvi maddədən istifadə edilməməsini şərtləndirir. Bu baxımdan da, Türkiyədə istehsal olunan çay növlərinin əsas istehlakçıları xarici ölkələr hesab edilir.

Türkiyə Statistika İnstitutunun 2010-2017-ci illər üzrə göstəricilərinə əsasən deyə bilərik ki, yaşıl çay istehsalı 2010-cu ildə 1, 305 566 milyon ton olmuş, 2013-cü ildə bu göstərici azalaraq 1,150 000 milyon tona çatmışdır. 2014-cü ildən etibarən bu növ məhsul istehsalının həcmində artım müşahidə edilmiş və 2017-ci ildə müvafiq olaraq 1,350 000 milyon ton təşkil etmişdir. Türkiyə əhalisinin ən çox istehlak etdiyi digər çay növü olan qara çayın istehsal həcminin müqayisəli təhlili göstərir ki, onun istehsal həcmi 2010-cu ildə 235, 237 min ton olduğu halda 2013-cu ildə bu göstərici 22, 624 min ton həcmində və ya 9,6% azalmışdır.

2014-cü ildə isə qara çay istehsalının həcmi 228, 164 min ton olmuşdur. 2017-ci ildə çay istehsalı həmin illə müqayisədə 6,07 min tona və ya 2,7% artıma malik olmuşdur [1, s.269-280; 2].

Türkiyədə istehsal olunan müxtəlif çay növlərinin müqayisəli təhlilindən belə nəticəyə gəlmək olar ki, statistik dövr üçün çayın istehsal həcmində bir o qədər də yüksəlmə olmadığına baxmayaraq bu ölkədə çaya həm yerli əhali tərəfindən, həm də xarici ölkə əhaliləri tərəfindən tələbat daimi olaraq artır və bu da əsas əhəmiyyət kəsb edən amillərdən biri hesab edilir.

Nəticə

Beləliklə, hər bir ölkədə çay istehsalının özünəməxsus spesifik xüsusiyyətləri vardır. Tədqiqatlar göstərir ki, Hindistanda adambaşına düşən istehlakda artım olsa da adambaşına düşən ümumi istehlak rəqəmləri qlobal etalonlarla müqayisədə aşağıdır. Həmçinin, Hindistanın kəndlərində adambaşına düşən istehlak rəqəmlərində ciddi artma vardır. Adambaşına cari istehlak rəqəmlərini nəzərə alsaq, ölkədə istehsalın artması potensialı vardır.

Azərbaycanda istehsal olunan çaylar parlaq rəngə malikdir və kimyəvi maddələr istifadə olunmadan istehsal edilərək emal oluna bilər. Qeyd edilən spesifik xüsusiyyət ölkəmizdə çayın təbii istehsalı üçün yaxşı imkanlar yaradır, çay ixracı bazarlarına çıxmaqla sağlamlıq və ətraf mühit məsələləri ilə maraqlanan istehlakçıların marağına səbəb ola bilər.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Çayın Karadeniz bölgesi için önemi ve tarihi seyri "Karadeniz İnceleme Dergisi, 2016; (21): 269-280
2. Republic of Turkey - Ministry of Economy, report 2018
3. Sosial-iqtisadi inkişafda regional qeyri-bərabərlik: problem araşdırma sənədi. Demokratik Təşəbbüslər İnstitutu (IDI), 2021
4. www.caykur.gov.tr
5. www.indiatea.org
6. www.fao.org
7. www.teaboard.gov.in
8. https://azerbaijan.un.org/index.php/az/127256-azrbaycan-v-gurcustan-cay-snayesind-potensial-imkanlar

Мамедова Парвин

МИРОВАЯ ПРАКТИКА В РАЗВИТИИ ЧАЙНЫХ КЛАССТЕРОВ

Резюме

На данном этапе для экономики Азербайджана очень важно решение двух основных проблем. Речь идет об устранении неравенства в региональном экономическом развитии, а также повышении конкурентоспособности экономики. Изучение лучших практик показывает, что решение этих двух основных экономических проблем позволяет добиться успешных результатов в рамках кластерного подхода.

Анализ опыта разных стран наглядно показывает преимущества кластерного подхода по сравнению с традиционным подходом экономического развития. По примеру разных стран можно получить «передовой опыт» в формировании и развитии региональных кластеров.

Если говорить о мировом опыте развития чайных кластеров, то стоит отметить опыт стран, добившихся высоких результатов в этой области за последние годы. Для того, чтобы сформировать кластер чайного производства в Азербайджане требуется необходимость мирового опыта. В статье рассмотрен опыт 3 стран, где развито производство чая - Китай, Индия, Турция, и на основе статистических данных был проведён анализ.

Цель – на основе мирового опыта стимулировать развитие чайных кластеров в Азербайджане.

Методология – в исследовании использовались методы статистического и сравнительного анализа.

Результаты исследования и практическая ценность – исходя из опыта зарубежных стран, занимающих лидирующие позиции по производству чая, разработать соответствующий план мероприятий по формированию кластера по производству чая в Азербайджане и обосновать возможность использования этого опыта в его реализации.

Научная новизна исследования – это группирование существующих проблем в производстве чая в Азербайджане и определение путей в их решении.

Ключевые слова: *чайный кластер, мировой опыт, производство чая, потребление чая, импорт чая*

Mammadova Parvin

WORLD EXPERIENCE IN THE DEVELOPMENT OF TEA CLASSES

Summary

At this stage, the solution of two major problems is very important for the Azerbaijani economy. We are talking about eliminating inequality in regional economic development, as well as increasing the competitiveness of the economy. The study of best practices shows that the solution of these two main economic problems allows to achieve successful results within the cluster approach.

An analysis of the experience of different countries clearly shows the advantages of the cluster approach compared to the traditional economic development approach. Following the example of different countries, "good practices" can be obtained in the formation and development of regional clusters.

If we are talking about the world experience in the development of tea clusters, the experience of countries that have achieved high results in this area in recent years is noteworthy. World experience is needed to form tea clusters in Azerbaijan. The article examines three countries

where tea growing is developing – China, India, Turkey-and analyzed based on statistical data.

Purpose – to give impetus to the development of tea clusters in Azerbaijan based on world experience.

Methodology – statistical and comparative analysis methods were used in the study.

Findings and practical significance of the study – based on the experience of the countries that occupy leading positions in tea production, develop an appropriate action plan for the formation of a tea production cluster in Azerbaijan and justify the possibility of using this experience in its implementation.

Scientific novelty of the research – this is a combination of existing problems in the production of tea in Azerbaijan and determining their ways to solve.

Keywords: *tea clusters, world experience, tea production, tea consumption, tea imports*

UOT 004.4

Tərənə Vəliyeva
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
e-mail:tarana 055@mail.ru

MÜƏSSİSƏNİN İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ QARŞISININ ALINMASI YOLLARI

Məqalədə müəssisənin informasiya təhlükələrinin yaranma səbəbləri-informasiya sisteminə ziyan vuran proqram təminatının daxil olması, sistem üzərində nəzarətin əldə edilməsi, rabitə xətlərindən və ötürmə resurslarından verilənlərin ələ keçirilməsi, informasiya daşıyıcılarının və sənədlərin oğurlanması və s., həmçinin onların aradan qaldırılması məsələləri tədqiq edilmişdir. Eyni zamanda, müəssisələrdə informasiya təhlükəsizliyi siyasətinin tərkibi, təhlükəsizlik mexanizmləri kompleksi və informasiya təhlükəsizliyini təmin edən sistemlərin əsas xüsusiyyətləri qeyd edilmiş, informasiya təhlükəsizliyinin qarşısının alınmasını təmin etməyin mühüm şərtləri göstərilmişdir.

Məqsəd – müəssisədə informasiyanın təhlükəsizliyinin təmin olunması məqsədilə gözlənilən təhlükələrin qarşısının alınmasıdır.

Metodologiya – məqalədə müəssisəni informasiya təhlükəsindən qorumaq üçün xüsusi təhlükəsizlik tədbirlərinin tətbiq olunması metodlarından istifadə edilmişdir.

Tədqiqatın nəticələri – müəssisənin informasiya təhlükəsizliyi siyasətinin təmin edilməsi üçün məlumatların müdafiə edilməsi, rəhbərliyin qeyri-qanuni işlərlə məşğul olmaq istəyənlər barədə operativ şəkildə məlumatlandırılması, zərərli proqramların tətbiq olunmasının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsidir.

Açar sözlər: *təhlükəsizlik, informasiya təhlükəsizliyi, təhlükəsizlik siyasəti, müəssisə cinayətkarlığı, qabaqlayıcı tədbirlər*

Giriş

Müasir informasiya texnologiyalarının inkişafı informasiya təhlükəsizliyiin ən vacib xarakteristikalarından birini təşkil edir və informasiya emalı sisteminin işlənməsi zamanı təhlükəsizlik amili birinci dərəcəli rol oynayır.

Dünya üzrə bütün sahələri əhatə edən İnternet qlobal şəbəkəsindən istifadə olunmaqla bir çox cinayətlər törədilir və bu mənfi hallar sürətlə yayılır. Buraya aiddir: qeyri qanuni informasiya mənbələrinə daxil olmaq, viruslar yaymaq, banklardan "elektron pul oğurlamaq", parnoqrafiya, "elektron şpionluq" və s. Bunların qarşısını almaq, təhlükəsizliyi qorumaq üçün informasiya həm hüquqi, həm texniki tərəfdən mühafizə olunur və mükəmməl qanunlar işlənib hazırlanır. Bu qanunlarda informasiyaların oğurlanmasının, itirilməsinin, dəyişdirilməsinin, qeyri-qanuni məhv edilməsinin, surətinin götürülməsinin qarşısının alınmasının təmin edilməsi, müxtəlif xidməti qurumların informasiyalarının tam təhlükəsizliyinin müəyyənləşdirilməsi əks olunur. Təhlükəsizliyin təmin edilməsi zəruri bir vəzifə olaraq qəsdən və bilərəkdən müdaxilə, informasiyanın oğurlanması və icazəsiz alınması cəhdlərindən qorunmanı ifadə edir. İnformasiya təhlükəsizliyini pozmaq üçün idarəetmə sisteminin aparat-proqram vasitələrindən icazəsiz istifadə edilir, onların dağılmasına səbəb olan hadisə və hərəkətlər törədilir. Ən qorxulu informasiya təhlükələri informasiya sisteminə ziyan vuran proqram təminatının daxil olması, proqram və ya verilənlərin dəyişdirilməsi, dağıdılması, sistem üzərində nəzarətin əldə edilməsi, rabitə xətlərində və ötürmə sistemlərində verilənlərin ələ keçirilməsi, hesablama sistemlərinin resurslarından

icazəsiz istifadə edilməsi, informasiya daşıyıcılarının və sənədlərin oğurlanması səbəblərindən yaranır.

Cəmiyyətin bütün sahələrində informasiya təhlükəsindən qorunmaq üçün müdafiə vasitələrinin tətbiqi siyasəti ilə məşğul olma yeni informasiyaların işlənib hazırlanmasında, informasiyanın mövcud mühafizə üsulları və vasitələrinin təkmilləşdirilməsində böyük əhəmiyyətə malikdir. İnformasiyanı təhlükədən xilas etmək üçün mənfi-neqativ halların yayılmasının qarşısını almaq, onu qorumaq, proqram və aparat vasitələrinin mühafizəsi problemini həll etmək, xüsusi təhlükəsizlik tədbirlərinin tətbiq olunmasını təmin etmək mühüm şərt hesab olunur.

1. Müəssisənin informasiya təhlükəsizliyi siyasəti

Müasir texnologiyalar cəmiyyətin bütün sahələrində məsafədən asılı olmadan qarşılıqlı əlaqələrin təşkilində böyük qüvvəyə malikdir və informasiya emalı proseslərini təmin edən sistemlərin əsasını təşkil edir. İstənilən müəssisənin fəaliyyətində idarəetmə prinsipləri informasiya ilə təmin olunduğundan funksional məsələlərin həlli informasiya texnologiyaları vasitəsi ilə həyata keçirilir. Müəyyən informasiya texnologiyaları informasiyanın bütövlüyünün pozulmasına yönələn təhlükələrin qarşısını almaq üçün tədbirlər kompleksini təşkil edir. Belə tədbirlər kompleksi informasiyanın təbii və ya süni xarakterli təsirlərdən mühafizə olması toplusudur və informasiya təhlükəsizliyi anlamını verir (şəkil 1). İnformasiya təhlükəsizliyi – informasiyanın icazəsiz əldə olunmasının və ötürülməsinin qarşısını alaraq, informasiya obyektlərini və informasiya istifadəçilərini müxtəlif zərərlərdən mühafizə etməklə, mənfi təsirlərin qarşısını alır [3, s.25-30].



Şəkil 1. İnformasiya təhlükəsizliyi və dövlət maraqları

Mənbə: **Ordu.az**

Ümumilikdə, təhlükəsizlik- şəxsiyyətin, dövlətin və cəmiyyətin maraqlarının daxili və xarici təhdidlərdən, yəni, hədd qoymalardan mühafizə olunması olub, vətəndaşların konstitusiya və beynəlxalq normalara uyğun olaraq hüquqlarını təmin edir. Onun qorunması təhlükəsizlik sisteminin səmərəli fəaliyyəti nəticəsində mümkündür. Təhlükəsizliyin obyektləri kimi, cəmiyyətin maddi və mənəvi dəyərləri, dövlət və onun konstitusion quruluşu, suverenliyi və ərazi bütövlüyü götürülür.

Müasir təhlükəsizlik anlayışı "maddi dünyanın və insan cəmiyyətinin müxtəlif növlü neqativ təsirlərdən qorunması" anlamını verir və onun ictimai həyat sahələri üzrə bir neçə tipləri var: siyasi, sosial, qlobal, beynəlxalq, iqtisadi, informasiya, hərbi, demoqrafik, ekoloji, ərzaq, enerji, psixoloji, mənəvi-əxlaqi və s.

Təhlükəsizlik bir siyasət olmaqla, əsasən idarəetmə strategiyasının və onun resurs-


larının miqdarını müəyyən edir. Siyasət özü isə, fəaliyyətin məqsədləri, hüquqi tələbləri və normalarını təmin etmək, idarə etmək üçün təsdiq edilmiş qaydalar toplusudur [1].

Amerikalı dövlət xadimi, diplomat və beynəlxalq əlaqələr üzrə mütəxəssis Henri Kissincerin fikrincə, təhlükəsizlik siyasəti cəmiyyətin bütün fəaliyyətini əhatə edir və belə fəaliyyət zamanı cəmiyyət öz həyati mənafelərini təmin etməyə səy göstərir [2].

Hər hansı bir müəssisənin təhlükəsizlik siyasəti nəyin müdafiə edilməsini, müdafiə qanunlarından hansıların əsas olmasını müəyyən edir və informasiya sistemi üçün müdafiə strategiyası kimi xarakterizə olunur. Müdafiə strategiyasında informasiya təhlükəsizliyini təmin edən proqram tərtib edilərək, onun yerinə yetirilmə ardıcıllığı müəyyən edilir, proqrama uyğun olaraq resurslar ayrılır və bu resurslara məsul şəxslər seçilir. Ümumilikdə, müəssisənin informasiya sisteminin təşkili kompüter vasitəsilə həyata keçirilir, daha doğrusu, təhlükəsizlik siyasəti kompüter mühitində istifadə edilir və təşkilatın spesifik təminatını (müəyyən məqsədləri təmin edən faktoru) əks etdirir. Spesifik tələbata müxtəlif xüsusiyyətli aparat və proqram təminatlarının öz aralarında lazımi səviyyədə işləmələrinin uyuşa bilməsi, kompüterlər, əməliyyat sistemləri, şəbəkə vasitələri, verilənlər bazalarının idarəetmə sistemlərinin bir-biri ilə razılaşdırılmaları aiddir [3, s.63-65].

2. Müəssisənin informasiya təhlükəsizliyi siyasətinin tərkib elementləri

Hazırda, ən geniş yayılan təhlükələrdən biri müəssisə cinayətkarlığıdır. Bu cinayətkarlıq məlumatların səlahiyyəti olmayan şəxs və ya şəxslər tərəfindən qanunsuz toplanması, mənimsənilməsi, ötürülməsi, məqsədyönlü təsir göstərilməsi əməliyyatlarıdır. Əksər hallarda isə, icazə olmadan eşitmə qurğularının tətbiqi, məsafədən şəkil çəkmə, yaddaşda qalmış informasiyanın oxunması, informasiya daşıyıcılarının surətinin çıxarılması, qurğuların qeyri-qanuni rabitə xəttlərinə qoşulması, məxsusi proqramlar vasitəsilə qadağaların açılması və s. əməliyyatlar cinayət əməlləri olur [4, s.32-35]. Müəssisənin informasiya təhlükəsizliyi siyasərinin təmin olunmasını rəhbərliyin informasiya təhlükəsizliyi üzrə idarəçilik və dəstəyinin müvafiq qanunlara və normativlərə uyğun olaraq təşkili əhatə edir (şəkil 2).



Şəkil 2. Məlumatların qanunsuz toplanmasının qarşısının alınması
Mənbə: İŞƏTSQ

Bu siyasət vacib resursların, məsələn, kompüter sistemlərinin və verilənlərin mühafizəsinə məqsədləri, məsuliyyəti və ümumi tələbləri təsvir edərək, təhlükəsizlik mexanizmləri kompleksinin köməyi ilə realizə olunur. Təhlükəsizlik mexanizmləri kimi, şəbəkələrarası ekranlar, antivirus sistemləri, video-nəzarət sistemləri və s. götürülür. İnformasiya təhlükəsizliyi siyasətinə daxil olan sənədlər iyerarxik şəkildə bu cür təsvir edilir:

1. Umumi informasiya təhlükəsizliyi siyasəti – rəhbərliyin münasibəti bildirilərək informasiya təhlükəsizliyinin idarə edilməsinə yanaşma, nəzarətin məqsədləri və mexa-

nizmləri müəyyən edilir;

2. Xüsusi informasiya təhlükəsizliyi siyasəti – antivirus proqramlarına müraciət, paroldan istifadə, İnternetin tətbiqi və s.təmin olunur;

3. İstismar üzrə təlimatlar yaradılır;

4. Vəzifələr üzrə təlimatlar yaradılır [1].

Müəssisənin informasiya təhlükəsizliyi siyasətinin tərkibinə aşağıdakı bölmələr daxildir:

- informasiya risklərinin idarə edilməsi;
- giriş hüquqlarının verilməsi;
- informasiya resurslarının auditi;
- elektron poçtdan istifadə;
- informasiya təhlükəsizliyi insidentlərinə cavabvermə;
- informasiya təhlükəsizliyinin monitorinqi;
- məsafədən giriş;
- fiziki təhlükəsizlik;
- informasiyanın kriptoqrafik mühafizəsi;
- şəxsi heyətin təhlükəsizliyi;
- şəbəkə təhlükəsizliyi;
- ehtiyat surətçıxarma;
- resursların təkrar istifadəsi, məhv edilməsi və s.

3. Müəssisənin informasiya təhlükəsizliyi problemləri və onun həlli yolları

Müəssisənin informasiya təhlükəsizliyi, adətən, sənəd formasında tərtib olunur və bu sənəddə müəssisənin problemləri izah olunur, bütün sahələr üzrə problemlərin həlli həyata keçirilir. Müəssisənin problemlərinə aşağıdakılar aid edilə bilər:

- müəssisənin müəyyən məqsədə çatması üçün görüləcək işlərin formalaşdırılması, bu məqsəd naminə ümumi istiqamətin müəyyənləşdirilməsi;
- İnformasiya təhlükəsizliyinin təmin edilməsi proqramının formalaşdırılması və proqramın yerinə yetirilməsində məsul şəxslərin müəyyən edilməsi;
- qayda-qanunların həyata keçirilməsi üçün material bazasının tərtib olunması;
- idarəedicilik qərarlarını yerinə yetirmək üçün proqram təminatının düzgün istifadə edilməsi.

Müəssisədə təhlükəsizlik siyasətinə baza təhlükəsizliyi, xüsusiləşdirlmiş təhlükəsizlik və təhlükəsizlik prosedurları aiddir.

Baza təhlükəsizliyi-müəssisədə təhlükəsizliyin məqsədini və strukturunu açıqlayır, kimin nəyə cavab verməsini müəyyənləşdirir, edilmiş dəyişikləri vaxt çərçivəsində müəyyən edir, icazə verilən və verilməyən fəaliyyətləri müəyyən edir. Eyni zamanda müəssisənin özünə aid olan informasiyanı təhlil etməsinə, təhlükəsizlik sisteminin yaradılması üçün vacib olan işlərin bütünlükdə yerinə yetirilməsinə imkan verir.

Xüsusiləşdirilmiş təhlükəsizlik-müəssisədə təhlükəsizliyin cari vəziyyətini araşdırmağa şərait yaratmaqla müəyyən sayda istifadəçilərin maraqlarını və əlçatanlıq siyasətini larını təmin edir. Əlçatanlıq dedikdə, elektron avadanlıqlardan və müəssisə ilə əlaqəli şirkətlərin servislərindən düzgün istifadə edilməsi üçün standart normaların müəyyən edilməsi, işçilərin onlara məxsus informasiyaların və korporativ resursların təhlükəsizliyinin qorunması nəzərdə tutulur. Əks halda, müəssisə virusların hücumu, şəbəkə sisteminin və servisin etibardan düşməsi kimi risklərlə qarşılaşa bilir. Əlçatanlıq siyasəti isə, işçinin ona məxsus informasiyanı kompüterdə saxladıqdan sonra, qoruması üçün, məsuliyyət daşımasını, işçinin ona aid olmayan, lakin istifadəsi üçün icazə verilən faylları oxumağa,

surətlərinin çıxarılmasına səlahiyyətlərinin olmasını, elektron poçtdan istifadə imkanının verilməsini əhatə edir.

Təhlükəsizlik prosedurları – təhlükəsizlik siyasətini yerinə yetirən mexanizmi, yəni, sxemi hansı formada müdafiə etməyi müəyyən edir. Prosedur – müəssisədə icra olunan məsələlərin həllini həyata keçirən təlimatdır. Bu təlimata aiddir: müəssisəyə aid informasiyaların məxfi saxlanması üçün parolların qurulması, müdafiə olunması, dəyisdirilməsi, ehtiyat üçün surəti çıxarılmış material və vəsaitlərin müdafiə olunmaqla yaddaşda saxlanılması, login və istifadəçi parolunun arxivləşdirilməsi, işçi işdən çıxarıldıqda ona məxsus parolun ləğv edilməsi və s. (şəkil 3).



Şəkil 3. Təhlükəsizlik prosedurları
Mənbə: Texniki Yardım

Müəssisədə bəzən, baş vermiş qayda-qanun pozuntularına cavab vermək mümkün olmur, lakin, elə pozuntular da vardır ki, baş verməmiş onların qarşısını almaq olur. Təhlükəsizlik pozuntularının qarşısını almaq üçün aşağıdakı qaydalara əməl etmək mühüm hesab edilir:

- "xidmətdən imtina" hücumunu vaxtında yoluna qoymaq;
- işçilərə vəzifə prinsiplərinin icrasını yerinə yetirməli olduqlarını izah etmək;
- işlənəcək informasiyanı izləmək; tədqiqatları təhlil etmək və qəflətən edilən hücumları araşdırmaq;
- informasiyanı müəssisədən kənara yaymağı ehtimal olunan işçini xəbərdar etmək;
- müəssisədə yerinə yetiriləcək işlərin təhlillərinə rəhbərlik edən şəxsin məsuliyyətini və bu işdə iştirak edənlərin kimliyini yoxlamaq və s.

Müəssisənin İnformasiya təhlükəsizliyinin idarəedilməsinin elementlər bir neçə qrup üzrə standartlaşdırılır:

1. Təhlükəsizliyin təmin edilməsi–müəssisənin rəhbərliyi tərəfindən informasiya təhlükəsizliyi sahəsində siyasətin dəstəklənməsi;
2. İnformasiya təhlükəsizliyinin təşkili – müəssisədə informasiya təhlükəsizliyi sisteminin iş qabiliyyətini təmin edəcək təşkilati strukturun yadradılması;
3. Resursların idarə edilməsi – informasiya resurslarının dəyər dərəcələrinə görə məsuluyyətin paylanması;
4. İşçilərin təhlükəsizliyi – insan səhvləri riskinin, oğurluğun və avadanlığın qanunsuz istifadəsinin azaldılması;
5. Fiziki təhlükəsizlik – avtorizə olunmamış girişin və təşkilatın informasiya sisteminin işinin pozulmasının qarşısının alınması;
6. Kommunikasiyanın və əməliyyatların idarə edilməsi – qurğuların və şəbəkələrin təhlükəsiz fəaliyyətinin təmin edilməsi;
7. Müəssisənin informasiya sisteminin yaradılması – bu sistemin inkişafı zamanı

informasiya təhlükəsizliyi tələblərinin yerinə yetirilməsi;
8. Tətbiqi proqramların və verilənlərin təhlükəsizliyinin dəstəklənməsi;
9. İnformasiya təhlükəsizliyi insidentlərinin idarə edilməsi;
10. Müəssisənin fasiləsiz fəaliyyətinin idarə edilməsi – fövqəladə hallarda fasiləsiz fəaliyyətin təmin edilməsi üçün fəaliyyət planının hazırlanması.

4. İnformasiya təhlükəsizliyi siyasətinin təmin olunmasının kompleks tədbirləri

Ümumilikdə, informasiya təhlükəsizliyi siyasətinin təmin olunması problemi kompleks yanaşma tədbirlərini tələb edir. Bu tədbirlərə aiddir:

- Qanunvericilik tədbirləri;
- İnzibati tədbirlər;
- Təşkilati tədbirlər;
- Proqram-texniki tədbirlər.

Qanunvericilik tədbirləri müvafiq qanunları, normativ aktları, standartları və s. əhatə etməklə, informasiya təhlükəsizliyinin pozucularına qarşı neqativ münasibəti dəstəkləyir.

İnzibati tədbirlər təşkilatlarda informasiya təhlükəsizliyi sahəsində tədbirlər proqramını formalaşdırır və onun yerinə yetirilməsini zəruri resurslar ayırmaqla və işlərin vəziyyətinə nəzarət etməklə yerinə yetirir.

Təşkilati tədbirlər informasiya mühafizəsinin səmərəli vasitələrindən biri olmaqla, qurulan bütün mühafizə sistemlərinin əsasını təşkil edir. Mühafizə sistemləri bunlardır:

- şəxsi heyətin idarə olunması;
- sistemin iş qabiliyyətinin saxlanması;
- təhlükəsizlik rejiminin pozulmasına reaksiya;
- bərpa işlərinin planlaşdırılması.

Proqram – texniki tədbirlər identifikasiya (istifadəçinin öz adının bildirməsi) və autentikasiya (istifadəçi adının təsdiqlənməsi), icazələrin idarə olunması, protokol-laşdırma və audit, kriptoqrafiya, ekranlaşdırma proseslərinin icra olunmasına imkan verir.

Autentikasiyanın ən geniş yayılmış növü paroldur. Daxil edilmiş parol və istifadəçi üçün əvvəlcədən verilmiş parol müqayisə edilir. Onlar üst-üstə düşdükdə istifadəçinin həqiqiliyi təsdiqlənmiş sayılır. Bəzən parollar elektron ələ keçirilə bilir. Bu zaman çıxış yolu rabitə xətləri ilə ötürülməzdən əvvəl parolların kriptoqrafik şifrələnməsidir. Parolların etibarını artırmaq üçün ona hərf, rəqəm, durğu işarələri olmaqla texniki məhdudiyyətlər qoyulur, fəaliyyət müddətləri vaxtaşırı dəyişdirilir, sistemə lazımsız daxilolma cəhdləri məhdudlaşdırılır və digər müvafiq metodlar tətbiq edilir.

İcazələrin idarə edilməsi istifadəçi və proseslərin informasiya və kompyuter resursları üzərində yetinə yetirdikləri əməliyyatları müəyyən etməyə və onlara nəzarət etməyə imkan verir. Bu idarə edilmə proqram vasitələri ilə realizə olunur və informasiya təhlükəsizliyi sahəsində ən mürəkkəb mövzu hesab olunur.

Protokollaşdırma informasiya sistemində baş verən hadisələr haqqında məlumatın qeyd edilməsi və toplanması, *audit* isə, toplanan informasiyanın analizidir. Protokollaşdırma və audit prosesi əsasən istifadəçi və administratorların hesabat verməsini təmin edir və informasiya təhlükəsizliyini pozma cəhdlərini aşkarlayır.

Kriptoqrafiya (yunan dilində "gizli yazı") informasiyanı mənfi əməllərdən mühafizə etmək üçün istifadə edilən informasiya çevirməsidir-şifrləmədir. Bu əməliyyat müəyyən alqoritmdən və açardan istifadəni nəzərdə tutur.

Ekranlaşdırma iki informasiya sistemini nizamlamaqla istifadəçilərin serverlərə müraciətlərini təmin edir və öz funksiyalarını iki sistem arasındakı bütün informasiya

axınına nəzarət etməklə yerinə yetirir [7].

İnformasiya sistemlərində informasiya təhlükəsizliyini kompleks təşkil etmək üçün bu sistemin yerləşdiyi bütün ərazi tam əhatə olunmalı, sistemin qurğularının və rabitə xətlərinin yerləşdiyi ayrı-ayrı ərazilər nəzarətdə saxlanmalı, informasiya daşıyıcılarının xarici təsirlərdən qorunması təmin olunmalı, informasiyanın saxlanması, emalı və ötürülməsi prosesləri düzgün icra edilməlidir. İnformasiya təhlükəsizliyini təmin etmək üçün bir çox proqram sistemləri mövcuddur. Bu sistemlərdən də ən çox müraciət olunanları "Kerberos" və "Kobra" sistemləridir.


"Kerberos" sistemi – şifrlənmə açarlarının mübadiləsi üçün yaxşı mühafizə olunan mərkəzləşdirilmiş idarəetmə sistemi olub, bir neçə işçi stansiyalara malikdir. Bu işçi stansiyalar mühafizə olunmur və serverlər zəif mühafizə olunur. Sistemdə informasiya şəbəkədə ötürülərək bir neçə dəfə şifrlənirr. Şəbəkədə parollar heç vaxt şifrlənməmiş ötürülmür. Xidməti informasiyanın mübadiləsi zamanı məhdud vaxt ərzində işlək olan və istifadəçinin adından, ünvanından və vaxt qeydiyyatından ibarət olan şifrlənmiş verilənlərdən-autentikatorlardan (authenticator) istifadə edilir (şəkil 4).



Şəkil 4. "Kerberos" proqram sistemi (Heimdal Kerberosun işləmə prinsipini öyrənirik)
Mənbə: SecuritvLab.ru

"Kerberos" sistemində istifadəçi özünün identifikasiya kodunu sistemə daxil edir. Həmin kod kliyent tərəfindən şifrlənir və "icazə almaq üçün icazə" sorğusu kimi identifikasiya serverinə ötürülür. İdentifikasiya serveri verilənlər bazasında icazəli istifadəçilərin parolunu tapıb məlumatı şifrləyir və kliyentə göndərir. Kliyent "İcazəyə icazə" aldıqdan sonra onu açır, oradan parolu götürür və istifadəçidən parolu soruşur. Alınan və daxil edilən parollar uyğun gəlirsə, kliyent tələb olunan şəbəkə resurslarına müraciət üçün serverə şifrlənmiş sorğu tərtib edir. Açılma və yoxlamalar nəticəsində istifadəcinin həqiqiliyinə əmin olduqdan sonra server istifadəçiyə sistemin resurslarından istifadə üçün şifrlənmiş icazə göndərir. Kliyent bu icazənii alıb, şifri açır, şifrlənrniş məlumat vasitəsilə tələb olunan serverlə əlaqə yaradır və istifadəçi resurslara müraciət hüququ əldə edir.

"Kobra" sistemi düzgün mühafizə texnoloqiyasına əsaslanmaqla ən geniş yayılmış və səmərəli sistemlərdən biridir. Bu sistemdə düzgün mühafizə dinamik şifrlənmə üsulunun köməyilə qurulur. Xarici yaddaşa yazılan məxfi informasiya istifadəçinin parolundan asılı olan açara görə avtomatik şifrlənir. Şifrlənən informasiyanın oxunması zamanı şifr avtomatik olaraq açılır. Şifırlənmənin sürətini və etibarlığını artırmaq üçün kriptomühafizə texnoloqiyasından istifadə edilir (şəkil 5) [6, s.142-143].



Şəkil 5. "Kobra" proqram sistemi
Mənbə: /Back/PDF Broghure/Get A Demo/

İnformasiya verilənlər bazasında (VB) saxlanılarkən onların təhlükəsizliyini mühafizə etmək də ən mühüm şərt hesab olunur. Verilənlər bazasında mühafizə vasitələrinə aiddir: parol mühafizəsi, verilənlərin və proqramların şifrlənməsi, VB obyektlərinə müraciət hüququnun təyin edilməsi.

Parol mühafızəsi – VB-yə icazəsiz müraciətin ən sadə mühafizə üsulu olub, istifadəçilər və ya VB administratoru tərəfindən təyin edilir, onun uçotunu və saxlanmasını VBİS yerinə yetirir. Parollar VBİS-in müəyyən sistem fayllarında şifrlənmiş şəkildə saxlanır. Parolu daxil etdikdən sonra istifadəçiyə mühafizə olunan VB ilə işləmək üçün bütün imkanlar verilir.

Verilənlərin şifrlənməsi -- VBİS-in formatını bilən digər proqramların bu bazada olan verilənləri oxuya bilməməsi üçün istifadə olunan metoddur. Bu şifrləmədə hər bir kəs VB-nin şifrini açа bilir. Əgər şifrlənmə və şifrin açılması üçün parol tələb olunursa, onda düzgün parol daxil edilərək şifr açılır.

VB obyetlərinə müraciət hüququnun təyin edilməsi-VBİS-in əsas resurslarından istifadə etmək üçündür. Bu müraciət hüquqi obyektlər üzərində bir çox mühüm əməliyyatları-obyektin verilənlərinə baxılması və oxunmasını, verilənlərin redaktə edilməsini, verilənlərin cədvəlinin strukturunun dəyişdirilməsini və s. təyin edir.

Bəllidir ki, informasiyanı İnternet vasitəsi ilə əldə edilməsi İT-nin vacib parameterlərindən biri sayılır. Bu zaman İnternet mühüti hər kəs üçün daha təhlükəsiz edilməli və kibercinayətkarlığa qarşı mübarizə aparılmalıdır. Kibercinayət-informasiya sisteminə bağlı informasiya ehtiyatlarını və informasiya texnologiyalarından istifadə edən istifadəçiləri hədəfə alan, icazəsiz və hüquqa zidd şəkildə daxil olunan və sonra həyata keçirilən əməl və ya cinayətlərdir. Başqa sözlə, kibercinayət əsasən kompüter və internetə bağlı işlənən əməldir. Kibercinayət zamanı insan, onun əmlakı, eyni zamanda istifadə olunan sistemin özü də hədəf seçilir. Məsələn, bir sistemə zərər vermək, bazanı, informasiya ehtiyatını silmək, şifrələmək, ələ keçirmək, sistemin iş prinsipini dayandırmaq, şəxsi həyatın toxunulmazlığını pozmaq, əlaqəni icazəsiz izləmək, qeydə almaq və s. əməllər kibercinayətkarlıq hesab edilir. Kibercinayətkarlıqla mübarizə aparmaq üçün ekspert və mütəxəssislərin təcrübə mübadiləsi aparmasına şərait yaradılmalı, əks-hücumlara hazır olunmalıdır [5, s.34-37].

Nəticə

İstənilən müəssisədə informasiya təhlükəsizliyi üzrə mükəmməl strategiya tətbiq olunmalıdır. Bu strategiyada informasiya proseslərinin mühafizəsi, sabitliyi, informasiya ehtiyatlarının qorunması, təhdidlərin qarşısının alınması üçün istifadəçilərin fəaliyyətinin əlaqələndirilməsi, kibertəhlükəsizlik sahəsində risklərin qiymətləndirilməsi, idarə olunması və s. kimi mühüm müddəalar gücləndirilməlidir. Müəssisələrin informasiya-telekommunikasiya sistemlərinin və şəbəkələrinin, elektron sənəd dövriyyəsinin, kibertəhlükəsizlik sahəsində hazırlığın artırılması, bu sahədə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, internet informasiya resurslarının və informasiya sistemlərinin təhlükəsizlik parametrlərinə diqqətin gücləndirilməsi əsas şərt kimi nəzərə alınmalıdır.

Azərbaycanda informasiya təhlükəsizliyi ilə bağlı bütün sahələrdə operativ və çevik fəaliyyət təmin olunaraq antivirus, antihaker proqram məhsullarının tətbiq edilməsi prosesi gedir, dünya tərəfindən qəbul edilmiş ən qabaqcıl və innovativ informasiya təhlükəsizliyinə dair standartların tətbiq edilməsinə dərin zəmin yaradılır. Təhlükəsizlik xidmətlərindən istifadənin diapazonunun günü-gündən genişlənməsi daha müasir texnoloji yeniliklər təklif edir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. AzScienceCERT "İnformasiya təhlükəsizliyi siyasəti". AMEA İnformasiya Texnologiyaları İnstitutu. 2013
2. Rüstəmov (BDU-nun professoru) Milli təhlükəsizlik məsələsi (yazı)
3. V.Ə.Qasımov "İnformasiya təhlükəsizliyinin əsasları". Dərslik. Bakı, 2009
4. M.Əlizadə, H.Bayramov, Ə.Məmmədov "İnformasiya təhlükəsizliyi". Dərslik. Bakı. "İqtisad Universiteti" nəşriyyatı, 2016
5. "İnformasiya sistemlərində təhlükəsizliyin təmini" fənnindən mühazirələr. SDTK. Sumqayıt. 2020
6. M.Məmmədov "İnformasiya iqtisadiyyatı". Dərs vəsaiti. Kitab Yurdu.org. 2013
7. İnformasiya təhlükəsizliy i/ Kompüter şəbəkələrində informasiya təhlükəsizliyinin təmini.Vikikitab
8. "Kibercinayətkarlıq haqqında" Konvensiyanın Təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 30 sentyabr 2009-cu il

Тарана Велиева

ПУТИ ПРЕДОТВРАЩЕНИЯ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ ПРЕДПРИЯТИЯ

Резюме

В статье рассмотрены причины возникновения информационных угроз предприятий-проникновение вредоносного программного обеспечения в информационную систему, получение контроля над системой, перехват данных с линий связи и передающих ресурсов, хищение носителей информации и документов и др., а также были исследованы вопросы их устранения. При этом отмечается состав политики информационной безопасности на предприятиях, комплекс механизмов безопасности и основные характеристики систем обеспечения информационной безопасности, указываются важные условия обеспечения предотвращения информационной безопасности.

Цель – предотвращение ожидаемых угроз с целью обеспечения информационной безопасности на предприятии.

Методология – в статье использованы методы применения специальных мер безопасности для защиты предприятия от информационной опасности.

Результаты исследования – защита информации для обеспечения политики информационной безопасности предприятия заключается в оперативном информировании руководства о желающих заниматься незаконной деятельностью, принятии превентивных мер по предотвращению внедрения вредоносных программ.

Ключевые слова: *безопасность, информационная безопасность, политика безопасности, корпоративная преступность, превентивные меры*

Tarana Valiyeva

THE INFORMATION SECURITY POLICY OF ENTERPRISE

Summary

The article discusses the causes of information threats to enterprises – the penetration of malicious software into the information system, gaining control over the system, interception of data from communication lines and transmitting resources, theft of information carriers and documents, etc., and also investigated the issues of their elimination. At the same time, the composition of the information security policy at enterprises, the complex of security mechanisms and the main characteristics of information security systems are noted, and important conditions for ensuring the prevention of information security are indicated.

Purpose of the research – prevention of expected threats in order to ensure information security in the enterprise.

Methodology – the article uses methods of applying special security measures to protect the enterprise from information hazards.

Findings – information protection to ensure the information security policy of the enterprise consists in promptly informing the management of those who want to engage in illegal activities, taking preventive measures to prevent the introduction of malicious programs.

Keywords: *безопасность, информационная безопасность, политика безопасности, корпоративная преступность, превентивные меры*

UOT 332.6

Ülkər Məmmədova
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
ulker555@mail.ru

KƏND TƏSƏRRÜFATI İSTEHSALÇILARININ KREDİTƏ ÇIXIŞININ ASANLAŞDIRILMASININ XARİCİ TƏCRÜBƏSİ

Məqalədə kənd təsərrüfatı istehsalçılarının maliyyə təminatının yaxşılaşdırılması, onların kredit resurslarına çıxışının asanlaşdırılması üzrə xarici təcrübənin araşdırılması zərurəti əsaslandırılmışdır. Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışında mühit yaradan üç əsas amildən birinin səmərəli kreditləşdirmə olduğu göstərilmişdir. Kənd təsərrüfatı istehsalçılarının səmərəli kreditləşdirilməsi üzrə Qərbi və Şimali Avropanın bəzi ölkələrinin təcrübəsi təhlil edilmişdir. Kanadanın kreditləşmə hesabına kənd təsərrüfatını dəstəkləməsi təcrübəsinə nəzər salınmışdır. Yaponiyada kənd təsərrüfatı istehsalçılarının kredit resurslarına çıxışının asanlaşdırılması təcrübəsinə münasibət bildirilmişdir. Şərqi Avropanın postsosialist ölkələrinin müvafiq təcrübəsi tədqiq olunmuşdur. Nəzərdən keçirilmiş xarici təcrübənin Azərbaycanda tətbiqi imkanları qiymətləndirilmişdir.

Məqsəd: kənd təsərrüfatı istehsalçılarının kredit resurslarına çıxışının asanlaşdırılması üzrə xarici təcrübənin araşdırılmasıdır.

Metodologiya: tədqiqat işində iqtisadi-statistik və təhlil metodundan istifadə edilmişdir.

Tədqiqatın nəticəsi: Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması baxımından prioritet olan əlverişi kredit təminatı sisteminin qurulması istiqamətində xarici təcrübənin tətbiqi üçün bank sistemində zəruri təshihlər edilməlidir. Kənd təsərrüfatına kredit kommersiya bankları tərəfindən bank kreditlərinə dövlət zəmanəti verilməklə və faiz dərəcələri subsidiyalaşdırılmaqla həyata keçirilə bilər. İstehsalçıların kreditlə təminatının yaxşılaşdırılması üçün onlar faiz dərəcələrinin müəyyən edilməsi zamanı banklarla birgə qərar qəbul etmək imkanına malik olması vacibdir.

Açar sözlər: *xarici təcrübə, kredit resurslarına çıxış, Qərbi, Şimali və Şərqi Avropa ölkələrinin təcrübəsi, səmərəli kreditləşdirmə, kənd təsərrüfatı istehsalçıları, tətbiq*

GİRİŞ

Qabaqcıl təcrübənin təhlili və qiymətləndirilməsi inkişafın sürətini artıran və əhatə dairəsini genişləndirən mühüm amildir. Bu baxımdan kənd təsərrüfatı istehsalçılarının maliyyə təminatının yaxşılaşdırılması, onların maliyyəyə çıxışının asanlaşdırılması üzrə qabaqcıl xarici təcrübənin araşdırılması xüsusi önəm kəsb edir. Müasir dövrdə kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışında mühit yaradan üç əsas amilin əsas xarakteristikaları araşdırılmalıdır: səmərəli kreditləşdirmə, sığorta və sahənin investisiya cəlbediciliyinin artırılması üzrə xarici təcrübə. Təqdim olunan məqalədə kənd təsərrüfatı istehsalçılarının kredit resurslarına çıxışının asanlaşdırılması üzrə Qərbi və Şimali Avropa, Kanada, Yaponiya, Şərqi Avropa və bir sıra digər regionların ölkələrinin təcrübəsi araşdırılmışdır.

Kənd təsərrüfatı istehsalçılarının səmərəli kreditləşdirilməsi üzrə Qərbi və Şimali Avropa təcrübəsi

Maliyyə resurslarına çıxış və onlardan istifadə səmərəliyi kənd təsərrüfatı istehsalçıları üçün həyati məsələlərdir. Sahənin yüksək riskli olması, eyni məhsul istehsalçılarının eyni ərazidə çox sayda fəaliyyət göstərməsi səbəbindən rəqabət mübarizəsinin kəskinləşməsi, gəlirlik səviyyəsini aşağı olması və bu kimi bir sıra digər amillər kənd təsərrüfatı istehsalçılarının maliyyə resurslarına çıxışının asanlaşdırılması, həmin resurslardan səmərəli istifadənin təmin edilməsi məsələlərinə daim artan marağı şərtləndirir.

Aqrar sahənin özünəməxsus cəhətləri kifayət qədər dayanıqlı olsa da, müxtəlif ölkələrdə kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışı mühitində və həmin maliyyə resurslarına çıxışın asanlaşdırılması imkanlarında kifayət qədər fərqlər vardır. Bu və digər səbəblərdən, kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılmasının müxtəlif ölkələrdə sınaqdan çıxarılmış təcrübəsinin təhlili və qiymətləndirilməsi məqsədəuyğundur. Bazar münasibətlərinin formalaşma və inkişaf səviyyələrinin müxtəlifliyi, aqrar sahəyə münasibətdə dövlətin və cəmiyyətin tutduğu mövqedəki fərqlər, bu və ya digər dövlətin aqrar istehsal siyasəti və bir sıra bu kimi amillər, haqqında danışılan təcrübənin araşdırılmasının məqsədəuyğun olduğunu söyləməyə əsas verir.

Kreditləşdirmə tarixi müxtəlif sistemlər, fəaliyyət sxemləri və s. ilə zəngindir. İnkişafın müxtəlif səviyyələrində kreditləşdirmənin üsulları fərqli olsa da, zaman keçdikcə onlar təkmilləşmiş, aqrar istehsalçıların maraqlarını nəzərə almaq istiqamətində davamlı cəhdlər göstərilmişdir. Bununla belə postsovet və postsosialist məkanı ölkələri uzun illər bu prosesdən kənarda qalmışdır. Odur ki, bazar münasibətlərinin fonunda aqrar sığorta münasibətlərinin təşəkkülü üzrə müxtəlif ölkələrin təcrübəsinin öyrənilməsi obyektiv zərurətə çevrilmişdir.

Kənd təsərrüfatı istehsalçılarının kreditləşdirilməsi üzrə Avropa, xüsusilə Qərbi Avropa təcrübəsi inkişaf edən ölkələrdə aqrar sahənin kreditlə təminatının perspektivlərini müəyyən etmək baxımından maraqlı hesab edilir. Avropada ötən əsrin ikinci yarısından vüsət alan inteqrasiya prosesləri kənd təsərrüfatına həlledici təsir göstərmişdir. Bu amilin kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışında da yeri və rolu əhəmiyyətlidir. Başqa sözlə, Qərbi Avropa ölkələrində aqrar sahənin maliyyə təminatında inteqrasiya amilinin rolunu sərf-nəzər etmək doğru olmazdı.

Kənd təsərrüfatının son əsrdə xüsusi diqqət verildiyi Qərbi Avropada Fransanın aqrar ənənələri məcmu səmərəlilik məşğulluq və sahənin iqtisadi məqsədəuyğunluğuna xidmət edir. XX əsrin sonlarında bu ölkədə kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması baxımından atılan addımlar diqqətə layiqdir. Belə ki, həmin dövrdə kənd təsərrüfatının bank kreditləşdirilməsində inhisarçı rolu oynayan Fransa Aqrar Bankı (Credit Agricole) öz yerini tədricən kooperativ banklara verdi. Həmin banklar, hazırda fermerin maraqlarına cavab verən rəqabət şəraitində işləyirlər. Fransada güzəştli kredit mexanizmi fəal surətdə istifadə olunur. Maraq doğuran bir məqamı xüsusi olaraq qeyd etmək, zənnimizcə yerinə düşər. Məsələ ondadır ki, haqqında danışılan kreditlərin məbləğinin üçdə ikisindən çoxu, cari istehsal ehtiyaclarına deyil, abadlaşdırma və modernləşdirmə məqsədlərinə yönəldilir. Belə ki, aşağıdakı mənbədə göstərildiyi kimi "Fransada güzəştli kreditlərin ümumi həcminin 70%-dən çoxu təsərrüfatların abadlaşdırılması və modernləşdirilməsi məqsədi ilə verilir. Dövlət mövcud iqtisadi siyasətin ehtiyaclarına uyğun olaraq güzəştli kreditlər vermək şərtlərini dəyişdirir. Kənd təsərrüfatı istehsalında yeniliklər tətbiq edən və fəaliyyətə yenicə başlayan gənc fermerlər və yeni təsərrüfatlar üçün xüsusi güzəştli kreditləşdirmə rejimi yaradılır " [1, s.108]. Belə vəziyyət fermerlər

arasında, kənd təsərrüfatı ilə məşğul olan, daha dəqiq desək fermer təsərrüfatı yaradan gənclərin sayını və aqrar innovasiyalara həssaslığı artırır.

Postsovet məkanı ölkələrində proqram məqsədli yanaşma üzrə müəyyən təcrübə vardır. Odur ki, aqrar sahənin maliyyə təminatına həmin yanaşmanın fəal surətdə tətbiq edildiyi ölkələrin təcrübəsinə maraq böyükdür. Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılmasının İspaniya təcrübəsi proqram-məqsədli yanaşma nümunəsi hesab oluna bilər. Rəqabət qabiliyyətinin təmin edilməsində əmək, maliyyə və texnologiya amillərinin optimal nisbətini təmin etməyin zəruriliyini qəbul edərək bu ölkədə "kənd təsərrüfatı sektorunun maliyyələşdirilməsini yaxşılaşdırmaq üçün Fəaliyyət Planı hazırlanmışdır ki, bu da:

- kənd təsərrüfatı istehsalçılarının dövlət və özəl maliyyə mənbələrinə çıxışının asanlaşdırılması;
- dövriyyə vəsaitlərinin komplektləşdirilməsi üçün likvidliyin artırılması;
- kredit və maliyyələşdirmə şərtlərinin yaxşılaşdırılması;
- sahə müəssisələrinin mövcud borclarının yenidən maliyyələşdirilməsi məqsədi daşıyır" [2, s.168].

Qərbi Avropa ölkələrində, habelə dünyanın inkişaf etmiş digər ölkələrində kənd təsərrüfatı istehsalçılarının əlverişli kreditlərə əlyetənliyini təmin etmək üçün bank sistemində müxtəlif institusional yanaşmalar tətbiq edilir. İnkişaf etmiş ölkələrin əksəriyyətində kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışı baxımından, onlara bank sistemində imtiyazlar verilməsi nəzərdə tutulur. Haqqında danışılan ölkələrin təcrübəsi göstərir ki, aqrar sahənin inkişafı üzrə ixtisaslaşdırılmış bankların fəaliyyəti müsbət nəticələr versə də [1, s.106-110; 2, s. 166–174; 3, s. 340-350 və s.], onların fəaliyyəti, heç də həmişə zəruri amil kimi ortaya çıxmır. Bu baxımdan, Böyük Britaniya təcrübəsi xüsusi maraq doğurur. Məsələ ondadır ki, böyük tarixə malik olan kənd təsərrüfatının yüksək inkişafı fonunda Böyük Britaniyada sahədə kredit siyasətinin prinsipləri, iqtisadiyyatın digər sahələrindən, demək olar ki, fərqləndirilmir. Bu ölkədə ixtisaslaşdırılmış kənd təsərrüfatı bankı da fəaliyyət göstərmir. Sahənin kreditləşdirilməsi ilə, əsasən iri kommersiya bankları (Midland Bank, Barklayz Bank, Lloyd Bank və s.) məşğul olur. Fərqli cəhət permanent (fasiləsiz) adlanan kreditlər üzrə faiz dərəcələrinin və kreditlərin həcminin müəyyən edilməsində fermerlərin yaxından iştirakının təmin edilməsidir.

"Kənd təsərrüfatına qoyulan investisiyaların maliyyələşdirilməsi əsasən permanent kredit adı altında həyata keçirilir. Bank və fermer hər il fermerin iqtisadi vəziyyətindən asılı olaraq faiz dərəcəsi, kreditin məbləği barədə razılığa gəlirlər. Bundan əlavə, burada bank olmayan ixtisaslaşmış təşkilatlar geniş fəaliyyət göstərir" [1, s.107].

Böyük Britaniya təcrübəsində zənnimizcə, inkişaf edən ölkələrin aqrar sahəsinin səmərəliliyi baxımından mühüm olan daha bir cəhəti də qeyd etməliyik. Bu meliorasiya şirkətinin modernləşdirilməyə dəstək məqsədilə onilliklər müddətində dəyişməz faizlə fermerə borc verməsidir. Başqa sözlə, bank sisteminin bu və ya digər sahəyə imtiyazlar təqdim etməsinin çətin olması faktı, haqqında danışılan ölkədə kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması üçün kifayət qədər uğurlu alternativlər tapılmasına gətirib çıxarmışdır. Onu da qeyd edək ki, Böyük Britaniyada haqqında danışılan dəstək təkcə meliorasiya sahəsində göstərilir. Aqrar xidmətlərin digər profilləri üzrə də fəaliyyət göstərən şirkətlər də vardır.

İtaliya inkişaf etmiş və yüksək məhsuldarlığa malik kənd təsərrüfatına malikdir. Bu ölkə kənd təsərrüfatı və ərzaq məhsullarına olan daxili tələbatının dördə üçünü ödəyə bilir. Avropada baş verən intensiv inteqrasiya proseslərindən sonra burada taxıl və ət istehsalı, proqramlı şəkildə bir qədər azaldılmış, bitkiçiliyin digər sahələri, xüsusil tərəvəzçilik və

meyvəçilik innovasiyalı surətdə sürətlə inkişaf etdirilmişdir. Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışı vəziyyəti və onun innovasiyalı əsasda yaxşılaşdırılması məsələləri İtaliyanın mərkəzi və yerli hakimiyyət orqanlarının fəaliyyət prioritetlərindən biridir. Bu baxımdan 2014-2020-ci illər üzrə İtaliyanın kənd ərazilərinin inkişaf Proqramı, zənnimizcə diqqətə layiqdir.

Proqram çərçivəsində yaradılan – fermerlərə və kənd təsərrüfatı işçilərinə innovasiyalı informasiya xidməti üzrə rəqəmsal sistem (AssInCampo) inkişafın yeni keyfiyyət mərhələsinə keçid üçün nəzərdə tutulur. Haqqında danışılan rəqəmsal sistemin inkişafında mühüm istiqamətlərdən biri kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılmasıdır. Bu məqsədlə İtaliyada "fermerlərə informasiya dəstəyi verən, kənd təsərrüfat sığortasının düzgün təşkili üçün lazımi tövsiyələr əldə etməyə şərait yaradan, inzibati prosedurları sürətləndirən və sadələşdirən, kənd təsərrüfatı sığortası bazarı ilə bağlı aktual informasiyanı özündə cəmləşdirən AssInCampo adlı xüsusi bir veb tətbiq yaradılmışdır" [4]. Diqqətəlayiq cəhət, AssInCampo veb tətbiqində kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması üzrə iqtisadi, inzibati, maliyyə, sığorta və s. kimi bütün əsas aspektlərin vəhdətdə nəzərdən keçirilməsi üzrə davamlı və kifayət qədər uğurlu cəhdlərdir.

Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışını asanlaşdıran üsul və vasitələrin təkmilləşdirilməsi istiqamətində Şimali Avropanın daha çox inkişaf etmiş ölkələrinin təcrübəsi də diqqətdən kənarda qalmamalıdır. Bu baxımdan Finlandiya təcrübəsi maraq doğurur. Aqrar sahədə kiçik və orta biznesin üstünlük təşkil etdiyi Finlandiyada heyvandarlıq daha çox inkişaf etmişdir. Heyvandalığın tələbatını, əsasən ödəyən yem istehsalında innovasiyalı inkişafın xarakteristikaları diqqətəlayiqdir. Fermerlərin maliyyəyə çıxışının vəziyyəti nəinki digər ölkələr, habelə Qərbi Avropa ölkələri sırasında müsbət cəhətləri ilə kifayət qədər seçilir. Bu ölkədə kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxıxşını daha da yaxşılaşdırmaq üçün bütün mümkün vasitələrin optimal kombinasiyasını əldə edilməsi istiqamətində son dövrlərdə daha fəal tədbirlər görülür. Başqa sözlə "Finlandiyada fermerlərə dəstək qrantlar formasında, faiz dərəcələri subsidiyalaşdırılmış kreditlər, kreditlərə dövlət zəmanətləri və ya bu üç formanın kombinasiyası kimi göstərilir" [2, s.171].

Kanada təcrübəsi

Kənd təsərrüfatının inkişaf səviyyəsinə görə dünyada lider ölkələrdən biri kimi Kanadada istehsalçıların maliyyəyə çıxışı daim diqqət mərkəzindədir. Bu, amil yəni aqrar istehsalçıların maliyyəyə əlverişli çıxışı sahənin intensiv inkişafını şərtləndirən amillərdən biri kimi qəbul edilir. Ölkədə kənd təsərrüfatına kredit verilərkən sahənin, mövsümün, inkişafın, demək olar ki, bütün əsas parametrləri nəzərə alınır. Belə ki, Kanadada "yaz-tarla işləri üçün faizsiz avans kreditləri, payızda isə faizsiz kreditlər verilir ki, bu da kənd təsərrüfatı istehsalçılarına mövsümi məhsulların satışını təxirə salmağa imkan verir. Kənd təsərrüfatı kreditləşməsinin əsası 1959-cu ildə qoyulmuş Fermer Kredit Korporasiyası tərəfindən həyata keçirir. Korporasiya torpaq satın-alınması, bina və tikililərin inşası və yenidən qurulması, heyvanlar, maşın, avadanlıq, gübrə, toxum alınması üçün kreditlər verir. Kreditin müddəti 10 ildən 30 iləkdir "[3, s.346-347].

Yaponiya təcrübəsi

Asiya qitəsinin bir çox ölkələrində kənd təsərrüfatı sistemi dünyanın digər regionlarından xeyli dərəcədə fərqlənir. Bununla belə, burada da innovasiyalı inkişafa artan diqqət, həmin sistemin dünya standartlarına uyğunlaşmasına gətirib çıxarır. Qitənin və

dünyanın ən inkişaf etmiş ölkələrindən biri kimi Yaponiya kənd təsərrüfatının inkişafı baxımından xeyli dərəcədə məhdud təbii resurslara malikdir. Belə ki, ölkə ərazinin yalnız beşdə biri əkinə yararlıdır. Onu da qeyd edək ki, bu ərazilər, göstərilən ciddi cəhdlərə baxmayaraq urbanizasiya proseslərinin nəzərəçarpacaq təzyiqinə məruz qalır. Başqa sözlə, kənd təsərrüfatına yararlı ərazilərin şəhər infrastrukturu altında qalması prosesi, son dövrlərdə zəifləsə də, hələ də davam edir.

İqtisadiyyatın digər, xüsusilə yüksək texnoloji sənaye sahələrinə nisbətən Yaponiyada kənd təsərrüfatı inkişaf baxımından bir qədər geri qalır. Burada bitkiçilik sahəsi qismən daha çox inkişaf etmişdir. Sahənin innovasiyalı intensiv inkişaf məsələləri daim diqqət mərkəzindədir. Kənd təsərrüfatına sistemli himayə göstərilir, o cümlədən onun bir çox sahələri fəal surətdə subsidiyalaşdırılır. "Yaponiyada əsas maliyyə qurumu Kənd Təsərrüfatı və Meşə Təsərrüfatı Mərkəzi Kooperativ Bankıdır. Kooperativ kreditləşmənin məqsədi üzvlərin qarşılıqlı maliyyələşdirilməsi olduğundan, kooperativ kreditləri adətən, qısamüddətli xarakter daşıyır. Uzunmüddətli kreditlər əsasən kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın maliyyələşdirilməsi üçün dövlət korporasiyası vasitəsilə dövlətin uzunmüddətli maliyyələşdirmə proqramları ilə təmin olunur" [1, s.108].

Şərqi Avropa təcrübəsi

Şərqi Avropanın postsosialist məkanı ölkələrində aqrar sahədə sivil bazar münasibətlərinin formalaşması və inkişafı üçün, onilliklər ərzində həyata keçirilmiş islahatlar artıq öz müsbət nəticəsini göstərir. Əlbəttə, həmin ölkələrin hamısında irəliləyişlərin eyni tempini əldə etmək mümkün olmamışdır. Mərkəzləşdirilmiş iqtisadiyyat şəraitində belə kollektiv təsərrüfatların, demək olar ki, fəaliyyət göstərmədiyi Polşada kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması son onilliklərdə aqrar siyasətin prioritetlərindən biri olmuşdur. Dövlət sahəyə bank kreditlərini cəlb etmək üçün bəzən faiz ödənişlərinin, hətta 50 faizini öz üzərinə götürür. "Polşada kənd təsərrüfatı kreditləri üzrə ixtisaslaşmış bir neçə bank, o cümlədən BGZ fəaliyyət göstərir. Dövlət uzunmüddətli kreditlərin (10 ilə qədər) faiz dərəcəsinin yarısını kompensasiya edir" [3, s. 345]. Ölkədə kənd təsərrüfatının aqrobiznesə çevrilməsinin sürətləndirilməsi üçün sistemli təşviq tədbirlərinin hazırlanması və yerinə yetirilməsi xətti yeridilir. O cümlədən, burada kənd təsərrüfatının bir sıra sahələrində sahibkarlıq fəaliyyətinin təşviq edilməsi üçün böyük güzəşt nəzərdə tutan kreditlərdən istifadə olunur. "Polşada kənd təsərrüfatı sektoruna güzəştli kredit verilməsi də geniş yayılmışdır. Bu zaman sahibkar bankın faiz dərəcəsinin cəmi 3%-ini ödəyir, dövlət isə qalan hissəni banka qaytarır" [2,s.170].

Aqrar sahənin kreditləşdirilməsi baxımından Şərqi Avropa ölkələrində tətbiq edilən sistemlərdə oxşar cəhətlər çoxdur. Belə ki, həmin ölkələrdə kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması tədbirləri çərçivəsində institusional strukturun formalaşdırılması üçün xeyli dərəcədə oxşar addımların atılması müşahidə olunur. Aşağıdakı mənbədə, həmin addımların konseptual baxımdan yaxınlığını görmək mümkündür. "Litvada kooperativ əsasda 12 kredit ittifaqı yaradılmışdır. Dövlət bu prosesdə, onları gəlir vergisindən azad etməklə uçot, idarəetmə və marketinqin vahid sistemini inkişaf etdirməklə birbaşa iştirak etmişdir; Sloveniyada Əmanət və Kredit Xidmətləri Birliyi, Estoniyada dövlətin maliyyə dəstəyi ilə Mərkəzi Birliyə birləşdirilmiş 11 əmanət və kredit assosiasiyası yaradılmışdır; Bolqarıstanda, Avropa Birliyinin maliyyə dəstəyi ilə kiçik fermerlər üçün qarşılıqlı kreditləşdirmə fondları sistemi yaradılmışdır" [1, s.109]. Haqqında danışılan ölkələrdə kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması tədbirlərinin institusional mühitinin yaxşılaşdırılması prosesi, Avropa Birliyi təcrübəsi nəzərə alınmaqla təkmilləşdirilməkdə davam edir.

Ümumiləşdirmə

Dünya ölkələrinin kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması üzrə əldə etdiyi təcrübə barədə yuxarıda deyilənlərlə kifayətlənmək, əlbəttə çətindir. Bununla belə qeyd edək ki, məhz inkişaf etmiş və postsosialist (Şərqi Avropa) ölkələrinin təcrübəsinə diqqət verilməsi, zənnimizcə məqbuldur. Məsələ ondadır ki, Azərbaycanda kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması istiqamətində qərarların qəbulu zamanı, inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsi nəzərə alınmalıdır. Şərqi Avropanın postsosialist ölkələrinin təcrübəsi bazar iqtisadiyyatına keçid və sivil bazar münasibətlərinin formalaşdırılması təcrübəsi kimi ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir. Postsovet məkanı ölkələrinin müvafiq təcrübəsinə gəldikdə isə, qeyd edək ki, həmin təcrübəyə yeri gəldikcə müraciət ediləcəkdir.

İndi isə kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması baxımından prioritet olan əlverişli kredit təminatı sistemi qurulması istiqamətində xarici təcrübəni ümumiləşdirməyə cəhd edək. İlk növbədə, onu qeyd edək ki, sahənin kreditləşdirilməsində kooperativ banklar, bank olmayan kredit təşkilatları və ixtisaslaşdırılmış banklar mühüm rola malikdir. Adətən, haqqında danışılan ölkələrdə həmin bakların bir və ya iki növü fəaliyyət göstərir. Deyək ki, ABŞ və Kanadada bank olmayan kredit təşkilatları, Fransa, Almaniya, Yaponiya kimi ölkələrdə kooperativ banklar üstünlük təşkil edir. Başqa sözlə, "kənd təsərrüfatının kreditləşdirilməsi kooperativ banklar tərəfindən həyata keçirilir (Almaniya, Polşa, Fransa, Yaponiya); kənd təsərrüfatını dəstəkləyən bank olmayan kredit təşkilatları fəaliyyət göstərir (Kanada, ABŞ); kredit dəstəyi bir və ya bir neçə böyük ixtisaslaşmış bank tərəfindən təmin olunur (Hollandiya, Hindistan), kənd təsərrüfatına kredit kommersiya bankları tərəfindən bank kreditlərinə dövlət zəmanəti verilməklə və faiz dərəcələri subsidiyalaşdırılmaqla həyata keçirilir (Avstriya, Braziliya, Böyük Britaniya, Çin)" [3, s.348]. Əlbəttə, yaddan çıxarmaq olmaz ki, adı çəkilən ölkələrin, demək olar ki, hər birində "eyni zamanda, müxtəlif maliyyələşdirmə sxemləri fəaliyyət göstərir, təsnifat dominant olan və ya digər dövlətin bazasında aparılır " [5, s.152].

Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması, onların kreditlə təminatının yaxşılaşdırılması üçün, istehsalçılar faiz dərəcələrinin müəyyən edilməsi zamanı banklarla birgə qərar qəbul etmək imkanına malik olmalı, kooöperativ bankların təcrübəsindən fəal surətdə istifadə edilməli, qrantlardan istifadə barədə sistem kifayət qədər şəffaf olmalıdır.

Nəticə

Xarici təcrübəyə münasibətdə ehtiyatlı olmağın zəruriliyini qeyd edən tədqiqatçıların da fikri diqqətdən kənarda qalmamalıdır. Bu baxımdan belə bir mövqenin də olduğunu unutmaq olmaz ki, hazırda formalaşan informasiya cəmiyyətində "qabaqcıl təcrübənin təkrarlanmasına davamlı cəhdlərin özünü doğrultmaması, tilsimli dairə effekti yaradır. Daim irəlidə olanı təqib etmək "elmi" formalaşır və bu düşüncə ətalətinə səbəb olur" [6]. Əlbəttə, haqqında danışılan mövqe dünyada qabaqcıl hesab edilən təcrübənin, o cümlədən kənd təsərrüfatı istehsalçılarının kreditə çıxışının asanlaşdırılması üzrə mütərəqqi təcrübənin təhlili və qiymətləndirilməsini istisna etmir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Бурых Е.С. Зарубежный опыт организации сельскохозяйственного кредитования //Вестник Алтайского государственного аграрного университета, №1(87), 2012, с.106-110
2. Рыкова И.Н., Шкодинский С.В., Юрьева А.А. Опыт отдельных стран европейского союза в поддержке агропромышленного комплекса // Вестник Тверского государственного университета. Серия: Экономика и управление. 2019. №1. С. 166–174, с.168).

3. Шкарупа Е.А. Зарубежный опыт сельскохозяйственного кредитования; возможности использования в российских условиях // Экономика: вчера, сегодня, завтра. 2017. Том 7. № 5В. с. 340-350
4. Официальный сайт Министерства аграрной политики и продовольствия, лесного хозяйства и туризма Италии. Электронный ресурс. Режим доступа: https://www.politicheagricole. it/flex/cm/ pages/ServeBLOB. php/L/IT/IDPagina
5. Курбанова О. Э. Зарубежный опыт кредитования сельскохозяйственного производства и перспективы его применения в России.//Вестник Саратовского гос. социально-экон. университета. №5 (74), 2018, с.151-153
6. Balaev R. A. and others. Sustainable development aspects of information society// "Davamlı inkişafın sosial-iqtisadi problemləri" mövzusunda 37-ci Beynəlxalq Elmi konfrans. Bakı, 14-15 fevral, 2019

Улькер Мамедова

ЗАРУБЕЖНЫЙ ОПЫТ ОБЛЕГЧЕНИЯ ДОСТУПА К КРЕДИТАМ ДЛЯ СЕЛЬХОЗПРОИЗВОДИТЕЛЕЙ

Резюме

В статье обосновывается необходимость изучения зарубежного опыта улучшения финансового обеспечения сельхозпроизводителей, облегчения их доступа к кредитным ресурсам. Было показано, что эффективное кредитование является одним из трех основных факторов доступа сельскохозяйственных производителей к финансированию. Был проанализирован опыт Франции, Италии, Испании, Великобритании, Финляндии и других стран Западной и Северной Европы по эффективному кредитованию сельскохозяйственных производителей. Был рассмотрен опыт Канады в поддержке сельского хозяйства посредством кредитования. Прокомментирован опыт Японии в облегчении доступа сельскохозяйственных производителей к кредитным ресурсам. Изучен соответствующий опыт постсоциалистических стран Восточной Европы. Были оценены возможности применения рассматриваемого зарубежного опыта в Азербайджане.

Цель: изучение зарубежного опыта облегчения доступа сельхозпроизводителей к кредитным ресурсам.

Методология: в исследовании были использованы экономико-статистические и аналитические методы.

Результаты исследования: необходимо внести изменения в банковскую систему, чтобы применить зарубежный опыт в создании доступной кредитной системы, что является приоритетом с точки зрения облегчения доступа к финансированию для сельскохозяйственных производителей. Сельскохозяйственные кредиты могут предоставляться коммерческими банками с государственными гарантиями по банковским кредитам и субсидированием процентных ставок. Чтобы повысить кредитоспособность производителей, они должны иметь возможность принимать совместные решения с банками при установлении процентных ставок.

Ключевые слова: *зарубежный опыт, доступ к кредитным ресурсам, опыт стран Западной, Северной и Восточной Европы, эффективное кредитование, сельхозпроизводители, применение*

Ulkar Mamedova

FOREIGN EXPERIENCE IN FACILITATING ACCESS TO CREDIT FOR AGRICULTURAL PRODUCERS

Summary

The article substantiates the need to study foreign experience in improving the financial support of agricultural producers, facilitating their access to credit resources. Effective lending shown to be one of the three main drivers of agricultural producers' access to finance. Analyzed the experience of France, Italy, Spain, Great Britain, Finland and other countries of Western and Northern Europe for the effective crediting of agricultural producers. It considered the experience of Canada in support of agriculture by lending. Commented on Japan's experience in facilitating access for agricultural producers to credit resources. We studied the relevant experience of post-socialist countries of Eastern Europe. The possibilities of applying the considered foreign experience in Azerbaijan assessed.

Purpose: study of foreign experience in facilitating access of agricultural producers to credit resources

Methodology: in the study used economic, statistical and analytical methods

The results of the study: it is necessary to make changes in the banking system in order to apply foreign experience in creating an affordable credit system, which is a priority from the point of view of facilitating access to finance for agricultural producers. Agricultural credits can provided by commercial banks with government guarantees for bank credits and interest rate subsidies. To improve the creditworthiness of producers, they must be able to make joint decisions with banks in setting interest rates.

Keywords: *foreign experience, access to credit resources, experience of countries of Western, Northern and Eastern Europe, effective lending, agricultural producers, application*

UOT: 338.1

Səbinə İsmayılova
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
sebineismayilova966@gmail.com

ELMİ TƏDQİQATLARIN MALİYYƏLƏŞDİRİLMƏSİ SAHƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏ

Məqalədə elmi tədqiqatlarin maliyyələşdirilməsi sahəsində dünya ölkələrinin təcrübəsi və ölkələr üzrə bu sahəyə ayrılan vəsaitlərin həcmi təhlil edilir. Həmçinin, tədqiqat işində bəzi dünya ölkələrində elmi tədqiqat və araşdırmaların ÜDM-də xüsusi çəkisi müəyyənləşdirilməklə ayrı-ayrı ölkələrdə tədqiqatların araşdırılmasının və onların maliyyələşdirilməsinin təşkili məsələrinin təhlilinə həsr edilmiş tədqiqatların işlənilməsininin zəruriliyinin məqsədəuyğunluğu qeyd edilir.

Məqsəd: elmi tədqiqatların maliyyələşdirilməsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsidir.

Metodologiya: tədqiqat prosesində statistik təhlil, müqayisəli təhlil, təhlil-sintez və s. kimi metodlardan istifadə edilmişdir.

Tədqiqatin nəticələri: təcrübəyə əsasən qeyd edə bilərik ki, dövlətin az miqdarda da olsa elmi tədqiqatlara maliyyə dəstəyi elmi-tədqiqat işlərinin ümumi koordinasiyasını müvəfəqiyyətlə həyata keçirir və geniş inkişaf proqramlarını effektiv yollarla tətbiq etməyə imkan verir.

Açar sözlər: *elmi tədqiqat, elmi tədqiqatların maliyyələşdirilməsi, fundamental elmi tədqiqatlar, mənbə, maliyyələşdirilmə*

Giriş

Elm və texnologiyanın inkişafında atılan hər yeni addım böyük maliyyə və müasir infrastruktur tələb edir. Elm, xüsusən də fundamental elm inkişaf etmiş ölkələrin "mülkiyyətinə" çevrilir. Elm iqtisadi artımın əsas amillərindən biri hesab edilirsə, onun inkişafında iştirak edən hər bir ölkə dünya iqtisadi artımında özünəməxsus bir yer tutmağa cəhd edir. Ancaq elm, iqtisadiyyatın digər sahələri kimi, maliyyə olmadan inkişaf edə bilməz. Elmin və ya elmi araşdırmanın maliyyələşdirilməsi hər bir ölkə üçün son dərəcə çətinlik yaradan bir problemdir. Burada əsas çətinlik "elmi araşdırmanı "kim" və "necə" maliyyələşdirməlidir?" sualının düzgün canlandırılmasıdır. Dövlət, biznes strukturları, əhali, vətəndaş cəmiyyəti və s. daxil olmaqla hər kəs elmin inkişafı ilə maraqlanır. Ancaq yuxarıda göstərilən amillərdən ikisi əsas hesab edilir ki, bunlara dövlət və iş strukturları olmaqla elmi araşdırmalara investisiya qoyuluşu üçün maliyyə imkanlarına sahibdirlər.

Bəzi xarici ölkələrdə elmi tədqiqatlara maliyyə dəstəyi

ABŞ-da bir çox dövlət qurumları tədqiqat layihələrinin konkret növləri üzərində işləmək üçün ayrı-ayrı şəxslərə və tədqiqatçılar qrupuna maliyyə yardımı edirlər. Elm və elmi araşdırmalara maliyyə dəstəyi göstərən dövlət qurumlarına aşağıdakılar daxildir:

- Milli Elm Fondu (NSF – *The National Science Foundation*) – elm, mühəndislik və təhsil;
- Milli Sağlamlıq İnstitutları (NIH – *The National Institutes of Health*) – elm və texnologiya sahəsində sağlamlıq ilə bağlı layihələr;
- Energetika Nazirliyi (DOE – *The Department of Energy*) – enerji ilə bağlı tədqiqatlar;

• Milli Aerokosmik Agentliyi (NASA – *The National Aerospace Agency*) – aerokosmik elm və mühəndislik ilə bağlı araşdırmalar və s.

Milli Sağlamlıq İnstitutlarının (NIH) Xarici Tədqiqatlar Bürosu dünyanın ən böyük biyomedikal tədqiqatlarının maliyyələşdiricisi olmaqla insan sağlamlığı və xəstəlikləri ilə uzaqdan əlaqəli hər bir sahədə tədqiqatların aparılmasını maliyyələşdirir.

Milli Elm Fondu (*The National Science Foundation* – NSF) müstəqil bir federal agentlik olan ABŞ-nın Milli Elm Fondu, Amerikanın kollec və universitetlərində aparılan federal dəstəkli əsas tədqiqatların təxminən 20%-ni maliyyələşdirir.

Newton Siyahısı (**Newton's List**) Newton siyahısı, qrant axtaranlar və maliyyələşdirənlər üçün bir forum təqdim edərək beynəlxalq elmi əməkdaşlığı asanlaşdırmağa çalışır. Sayt, beynəlxalq maliyyə dəstəyi axtaran şəxslər və qrantlarını beynəlxalq auditoriyaya təqdim etmək istəyən təşkilatlar üçün açıq ödənişsiz resurs mənbəyidir. 2013-cü ildə yaradılan və CRDF Global və ABŞ Milli Elm Fondu (NSF) tərəfindən maliyyələşdirilən Newton's List, təbii və sosial elm sahələrində çalışan tələbələr və tədqiqatçılar üçün istifadəçilərin mövcud beynəlxalq maliyyə imkanlarının məcmusunu təşkil edir.

Grants.gov Milli Sağlamlıq İnstitutları, Milli Elm Fondu, Enerji Departamenti və bir çox maliyyələşdirmə dəstəyi göstərən təşkilatlar da daxil olmaqla Amerika Birləşmiş Ştatları hökumətinin 26 agentliyindən ibarət olan bütün mövcud maliyyə imkanlarından istifadəyə əsaslanır, başqa sözlə, bütün ABŞ-da tədqiqatların ən vacib ictimai maliyyələşdiriciləri üçün pulsuz mənbədir.

COS – Maliyyələşdirmə Fürsətləri. Elm Cəmiyyəti, 700-ə kimi üzv təşkilatı olan "mövcud maliyyə məlumatlarının ən geniş, ən əhatəli bazası" formasında iddia olunan bir birlikdir [1].

Amerika Birləşmiş Ştatları fundamental elmin maliyyələşdirilməsi həcminə görə dünyada birinci yeri tutur. ABŞ-da fundamental tədqiqatların maliyyələşdirilməsi mənbələri arasında ən böyük pay federal büdcə vəsaitlərinə aiddir. Bu, ümumdövlət prioritetlərinə aid olan və idarəetmə üzrə yüksək səviyyədə toplanmış dövlət maliyyə resursları hesabına maliyyələşdirilən fundamental elmi tədqiqatların iqtisadi təbiətini əks etdirir.

İnkişaf etmiş ölkələrdə fundamental elmi tədqiqatların əsas icraçıları sırasında aparıcı universitetlər yer alır. Böyük Britaniya istisna olmaqla, Avropanın əksər ölkələrində, eləcə də ABŞ-da fundamental elmi tədqiqatlar üstünlük təşkil edir. Böyük Britaniya Avropa elmində xüsusi yer tutur, çünki fundamental tədqiqatlar əsasən biznes tərəfindən aparılır, ancaq burada dövlətin də payı böyükdür. Lakin Böyük Britaniyanın ali məktəbləri sırasına daxil olan fundamental tədqiqatlarının 20%-i kifayət qədər əhəmiyyətli paydır. Asiya ölkələrində fəaliyyət sahələri arasında fundamental tədqiqatlar üçün xərclərin bölüşdürülməsinin qeyri-bərabərliyi müşahidə olunur.

Aşağıda qrafik 1-də tədqiqat və işləmələrə ayrılan vəsait bütün ölkələr üzrə yekun olaraq tərtib olunmuşdur.


Qrafikdən aydın görmək olur ki, elmi tədqiqat və araşdırmalara çəkilən xərclərin ÜDM-də faizinin kəskin artımı 2017ci ilə nisbətən 2018-ci ildə (5,6% daha çox) qeydə alınmışdır. Burada həm özəl sektorun, həm də dövlət sektorunun elmi tədqiqatlara ayırdığı vəsaitlərdir.

İntellektual mülkiyyətin qorunması, elmi-tədqiqat işlərinin maliyyə dəstəyi, müxtəlif vergi dərəcələrinin tətbiqi, elmi-tədqiqat sahəsində əməkdaşlığın aşağı salınması, həmçinin elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi üçün biznes strukturların stimullaşdırılması, elmi nailiyyətlərin ixracı üçün əlverişli mühitin yaradılması və digər tədbirlər bu sahədə dövlət idarəçiliyin və dəstəyinin səviyyəsini müəyyən edən əsas göstəricilərdir.

Bu gün Çin elmi tədqiqatlar və təcrübi – konstruktor işləri sahəsində dünya ölkələri

sırasında aparıcı mövqeini inamla tutur [2].

Yeri gəlmişkən, Çində artıq 2050 və 2100-cü illər Dövlət Proqramlarının üçün hədəfləri hazırlanmışdır. Proqnozlara görə, Çin 2050-ci və XXI əsrin sonuna qədər super gücə çevrilməklə, dünyada lider ölkə ola bilər. Bir çox proqnozlara görə, Çinin innovasiya potensialı uzun müddət artacaq, bir sıra aparıcı ölkələrin isə innovasiya potensialı azalacaqdır. Belarusiyalı professor B.N.Panşinin elmi cəhətdən əsaslandıraraq gəldiyi nəticəyə görə, qarşıya qoyulmuş məsələlərin həllində əminlik Çin Elmlər Akademiyasının yüksək sosial nüfuza malik elmi potensialına əsaslanır.



Qrafik 1: 2015-2018-ci illərdə bütün ölkələr üzrə elmə çəkilən xərclərin ÜDM-də faizi

Mənbə: [data.worldbank.org] əsasında müəllif tərtib etmişdir

Çin, cəmiyyətinin inkişaf perspektivlərinin elmin nailiyyətləri ilə qırılmaz əlaqəsi və onlardan dövlət maraqlarına uyğun istifadə etməsi sayəsində, elm cəmiyyətinin bütün təbəqələrində böyük hörmət və dəstəyə malikdir.


Xarici ölkələrdə elmi tədqiqatlara sərf olunan xərclər daha çox özəl sektor tərəfəndən ayrılır (şəkil 1). Lakin Azərbaycan və bir sıra MDB ölkələrində tədqiqatlara çəkilən vəsaitlər özəl sektor tərəfindən yox, dövlət tərəfindən ayrılır.

Elmin inkişafı üçün birbaşa və ya dolayı xərclər iqtisadi artım amilinə çevrilir. Buna görə hər bir ölkə elmin davamlı inkişafına xüsusi diqqət yetirir.

Bu baxımdan, tədqiqat xərclərinin həcmləri və mənbələrinin müqayisəsi ölkələrin rəqabət qabiliyyətinin qiymətləndirilməsi üçün əsas alətlərdən birinə çevrilmişdir. Odur ki, Dünya Bankı da daxil olmaqla bəzi beynəlxalq təşkilatlar bu cür xərclər barədə mütəmadi olaraq illik hesabatlar dərc edirlər. Dünya Bankının hesabatlarında elmi tədqiqatlar üçün xərclər dövlət və bütün qeyri-dövlət mənbələrinin cari və əsaslı xərclərini əhatə edir [3]. Bu xərclər yalnız tədqiqat xərclərini deyil, həm də məlumat əldə etmə və bunların bütün sahələrdə tətbiqi xərclərini də əhatə edir.

Bir çox tədqiqatçılar iqtisadi artım və elmi tədqiqat üçün xərclərin həcmi arasında güclü qarşılıqlı asılılığın olduğunu öz əsərlərində qeyd edirlər. İnkişaf etməkdə olan ölkələrin əksəriyyətində elmi araşdırmalara yönələn investisiyalara özəl sektor üç səbəbdən cəlb edilmir. Birincisi, tədqiqat xərcləri risklidir. Onlar həmişə müsbət nəticə verə bilmir. İkincisi, elmi tədqiqatların nəticələrini dərhal istehsalatda tətbiq etmək mümkün deyildir.

Bu, çox vaxt aparır. Odur ki, əksər hallarda özəl sektor hazır texnologiyadan istifadə etməyə üstünlük verir. Üçüncü səbəb isə inkişaf etməkdə olan ölkələrdə özəl sektorun geniş maliyyə imkanlarının olmaması və ya geniş maliyyə imkanlarının leqallaşdırılması ilə bağlı problemlərdir [4].



Şəkil 1: 2019-cu ildə bəzi dünya ölkələrində elmi tədqiqat və araşdırmaların ÜDM-də xüsusi çəkisi, %-lə.

Mənbə: [data.worldbank.org] əsasında müəllif tərtib etmişdir

"Horizon 2020", Avropanın qlobal rəqabət qabiliyyətini təmin etmək üçün tədqiqatlar sahəsində yenilikçi bir maliyyə alətidir [5].

İqtisadi artımı sürətləndirmək və iş yerləri açmaq üçün bir vasitə hesab edilən "Horizon 2020" Avropa liderləri və Avropa Parlamenti üzvlərinin siyasi dəstəyindən istifadə edir. Onlar "Horizon 2020" nin gələcəykdə böyük sərmaye olacağı fikrini qeyd edirlər.

"Horizon 2020" tədqiqat və yeniliyi birləşdirərək üstün elm, sənaye liderliyi və cəmiyyətdəki problemlərlə mübarizə mövzusuna nail olmaq üzrə müvafiq köməklik göstərir. Burada məqsəd, Avropanın dünya səviyyəsində bir elm məhsulu istehsal etməsini təmin etmək, yenilik və tədqiqatlar qarşısındakı maneələri aradan qaldıraraq, dövlət və özəl sektorun yenilik təqdim etməklərində birlikdə çalışmalarını asanlaşdırmaqdır.

"Horizon 2020", 7 il ərzində (2014 - 2020) özəl investisiyalara əlavə olaraq təxminən 80 milyard avroluq maliyyələşdirmə dəstəyinə görə indiyədək Avropa İttifaqının ən böyük araşdırma və innovasiya proqramı hesab edilir.

"Horizon 2020"-nin əsas məqsədi elmi – tədqiqatlar və innovasiya sahəsində problemlərin aradan qaldırılması, eyni zamanda vahid bir bazarın yaradılmasıdır.

"Horizon 2020"-dən sonra "Horizon Europe" (2021-2027) Avropa İttiqanın tədqiqat və innovasiyaların maliyyələşdirilməsi üçün əsas proqramı kimi nəzərdə tutulur.

Avropa İttifaqı "Horizon Europe" iddialı elmi-innovasiya proqramı ilə yüksək

səviyyəli tədqiqat, görkəmli alim və tədqiqatçıları maliyyələşdirir və 85 milyard avro dəyərində olan "Horizon 2020"-nin varisi hesab edilir. Bu proqram iqlim dəyişikliyi ilə mübarizə apararaq, BMT-nin Davamlı İnkişaf Məqsədlərinə çatmasına kömək edir və Avropa İttifaqının rəqabətqabiliyyətini artırır. Avropa Tədqiqat Şurası vasitəsilə tədqiqatçıları tərəfindən müəyyən edilmiş və idarə olunan tədqiqat layihələrini dəstəkləyir, tədqiqatçılar üçün təqaüdləri maliyyələşdirir və dünya səviyyəli tədqiqat infrastrukturuna sərmayə qoyur. Proqram, qlobal problemlərlə mübarizə apararkən yeni iş yerləri yaradaraq, Avropada kadr ehtiyatından tam isifadəyə imkan verir, iqtisadi artımı stimullaşdırır və Avropa Tədqiqat Sahəsi çərçivəsində investisiyaların təsirini optimallaşdırır. Proqramda Avropa İttiqafaqından və onlarla əlaqəli ölkələrdən olan hüquqi şəxslər iştirak edə bilər.

"Horizon Europe" 1 yanvar 2021-ci il tarixindən başlayaraq və7 il davam edəcəyi bildirilir. Avropa İttifaqının "Horizon Europe" proqramına 100 milyard avro vəsait ayıracağı bildirilir. Həyata keçirilən proqramın əsas məqsədi ABŞ və Çinə qarşı tədqiqat və texnoloji inkişaf bazarında Avropanın mövqeyini daha da gücləndirmək və dayanıqlı etməkdən ibarətdir [6].

Avropa İttifaqının Beynəlxalq əməkdaşlıq üzrə müşaviri Manfred Horvatın sözlərinə görə, Avropa daha rəqabətə davamlı olmaq istəyirsə, "Çin və Braziliya kimi getdikcə daha yenilikçi ölkələrlə əməkdaşlıq etməlidir". Bu o deməkdir ki, inkişaf etməkdə olan ölkələrin tədqiqatçılarının işi bütün dünyada tanındığı halda, həmin ölkələr də daxil olmaqla beynəlxalq əməkdaşlığın maliyyələşdirilməsi getdikcə daha əlverişli hesab edilir.

İnkişaf etməkdə olan ölkələrin əksəriyyətində geniş yayılmış korrupsiya və mülkiyyət hüquqlarının qorunmaması özəl sektor fondlarının təhlükəsizliyi üçün mütləq şərtləri istisna edir. Eyni səbəblərə görə, elmi araşdırmalara ayrılan vəsaitlərin böyük hissəsi dövlət büdcəsindən maliyyələşdirildiyi üçün bu vəsaitlərdən səmərəli istifadə problemi yaranır. İnkişaf etmiş ölkələrdə özəl sektordan elmi araşdırmalara daha çox vəsait ayrılır. Hətta, bəzi ölkələrdə tədqiqat üçün özəl sektorun xərclərinin payı 90% -i keçir. Bu ölkələrdə özəl sektor hesabına artan maliyyələşmə nəticəsində elmi müəssisələrin və elmi tədqiqatların sayı inkişaf etməkdə olan ölkələrə nisbətən xeyli çoxdur.

Rusiyada elmi təşkilatların 40%-dən çoxu büdcə təşkilatlarıdır. Onlar zəmanət verilmiş dövlət maliyyələşməsinə malikdir və ölçüsü yalnız əməkdaşın ştat sayından asılıdır. Bu cür maliyyələşdirmə məhsuldar elmi işi stimullaşdırmır, buna görə də büdcə məhdudiyyətləri şəraitində belə maliyyələşdirmə mexanizmi xüsusilə səmərəsizdir. Bu, geniş və əhatəli cəbhədə tədqiqatların dəstəklənməsindən məhdud sayda prioritetlərin maliyyələşdirilməsinə keçid zərurətinə, həmçinin, büdcə vəsaitlərinin elmə paylanması mexanizminə dəyişiklik etmək zərurətinə səbəb olub.

Moskva Fiziki-Texniki İnstitutunun mühəndisləri tərəfindən layihələndirilmiş və karbonsuz hidrogen enerjisi ilə işləyən qar dənəciyi ("Snejinka") adlı 12 milyon ABŞ dolları dəyərində dəbdəbəli stansiya 2022-ci ildə bütün dünyada tədqiqatçıların maraqlarını əhatə etməklə ondan istifadə üçün açılacaqdır [7].

Rusiya Beynəlxalq Kosmik Stansiyası, Cenevrədə İsveçrənin Cenevrə yaxınlığında yerləşən CERN elementar hissəciklər fizikası üzrə Avropa laboratoriyası, Fransada ITER-in Beynəlxalq istilik nüvə reaktoru layihəsi, həmçinin Almaniyada da daxil olmaqla, iri beynəlxalq tədqiqat layihələrində iştirak edir.

Almaniya xüsusilə Rusiya üçün əsas elmi tərəfdaşdır və hazırda 300-ə yaxın birgə tədqiqat layihəsi həyata keçirilir. Bu ölkələrin işbirliklərinə geostrateji baxımdan əhəmiyyətli Arktikada araşdırmalar da daxildir. Məsələn, MOSAİC (Arktik iqlimin öyrənilməsi üçün Çox Disiplinli Sürüşmə Rəsədxanası) adlı davam edən bir layihə - dəniz buzu içərisində kilidlənmiş bir Alman Tədqiqat gəmisinin bortunda 300 alimin iştirak etdiyi

Arktikada illik tədqiqat missiyası xeyli dərəcədə Rusiya təchizat gəmilərinin maddi-texniki dəstəyindən asılıdır [8].

2019-cu ildə Almaniyada tədqiqat və inkişafa 110 milyard avrodan çox sərmayə qoyulmuşdur. Bu istiqamətdə bir çox müxtəlif təşkilat və institutlar elmi tədqiqatların maliyyələşdirilməsində, gənc akademik istedadların yetişdirilməsində iştirak edirlər.

Dövlət sektoru Almaniyada bütün tədqiqat və inkişaf xərclərinin təxminən 30% - ni təmin edir (2019-cu ildə həmin xərclər təxminən 34 milyard avro təşkil etmişdir).

Almaniya Federativ Respublikası federalizm prinsipinə, federal hökumət və 16 ayrı-ayrı dövlətin konstruktiv əməkdaşlığına əsaslanır. Bu tədqiqatın maliyyələşdirilməsi maliyyə xərclərinin diferensial paylanmasına səbəb olur. Federal hökumət və dövlətlər tədqiqatın maliyyələşdirilməsi və təşkili ilə bağlı müstəqil fəaliyyət göstərirlər.

Ali təhsilin maliyyələşdirilməsi ilə yanaşı, dövlət sektoru da elmi istedadların inkişafında xüsusilə maraqlı olan qeyri-dövlət tədqiqat təşkilatları tərəfindən maliyyələşdirilir.

Federal hökumət beynəlxalq tələbə və tədqiqatçılar mübadiləsi üzrə dünyanın ən böyük maliyyə təşkilatı olan Alman Akademik Mübadilə Xidməti (DAAD) kimi maliyyə təşkilatlarını maliyyələşdirməyə davam edir, əsas vəzifəsi alim və tədqiqatçıların ən yaxşı tədqiqat layihələrini seçmək və maliyyələşdirməkdən ibarətdir.

Bundan əlavə, Almaniyada vətəndaş hüququna uyğun olaraq qeydiyyatdan keçmiş və elmin inkişafına yönəlmiş 5000-dən çox fond vardır.

Holland Tədqiqat Şurası (NWO) Hollandiyanın ən vacib elmi maliyyələşdirmə orqanlarından biridir, o elmdə keyfiyyət və yeniliyi həyata keçirir. NWO, hər il ictimai problemlər və tədqiqat infrastrukturu ilə əlaqəli araşdırmalara təxminən 1milyard avro investisiya ayırır [9].

NWO, Hollandiyada və xaricdə alimlər və digər mütəxəssisləri, milli və beynəlxalq əməkdaşlığa təşviq edir, böyük tədqiqat müəssisələrinə investisiya yatırır, bilik istifadəsini asanlaşdırır və tədqiqat institutlarını idarə edir. Bu təşkilat universitetlərdə və bilik qurumlarında 7200-dən çox tədqiqat layihəsini maliyyələşdirir.

Tədqiqat üçün dövlət vəsaitinin əksəriyyəti birbaşa Təhsil, Mədəniyyət və Elm Nazirliyindən universitetlərə göndərilir. Bu, birbaşa dövlət tədqiqat maliyyəsidir. Bundan əlavə, NWO, Təhsil, Mədəniyyət və Elm Nazirliyindən və demək olar ki, bütün digər dövlət nazirliklərindən elm üçün dövlət vəsaiti alır və bu vəsait müsabiqə yolu ilə universitetlərə və milli tədqiqat institutlarına paylanır. NWO rəqabətçi tədqiqat maliyyəsini idarə edir və pulun ən yaxşı elmi istedada və ən yaxşı tədqiqat təklifinə çatmasını təmin edir.

COVID-19 pandemiyası hamımıza elm və yeniliyin həyati əhəmiyyətini göstərdi. İngilis tədqiqatçıları, peyvənd tapmaq üçün qlobal səylərin önündə getməklə pandemiyanın həyatımıza və dolanışığımıza təsirini müəyyənləşdirmək üçün çox çalışırlar. Bütün forma və ölçülərdə təşkilatlar böhrana yenilikçi və ya yeni yollarla cavab vermək məqsədi ilə yorulmadan çalışırlar.

Sənaye inqilabından radio ixtirasına, peyvəndlərdən ümumdünya şəbəkəsinə qədər elmin, tədqiqat və yeniliklər dünyaya və insanların həyatına verdiyi töhfə heç bir mübahisə doğurmur.

COVİD-19 böhranından sonra biz daha ədalətli, sağlam, daha davamlı və əvvəlkindən daha yenilikçi olacaq bir gələcək qurmaq istəyirik. Tədqiqat və innovasiya, bu məqsədə nail olmaq üçün yeni ideyalar və yeni texnologiyalar yaratmaqla, onları tətbiq etməklə, davamlı təkmilləşdirməni stimullaşdırmaqla və məhsuldarlığı artırmaqla, insanların və icmaların daha yaxşı anlaşılmasına kömək etməklə, maraqlı yeni karyera və

dinamik yeni biznesləri dəstəkləyərək, dövlət xidmətlərini yaxşılaşdırmağa kömək etməklə mühüm əhəmiyyət kəsb edir və edəcəkdir. Maliyyə orqanlarının sürətli hərəkətlərinin dəstəyi ilə bütün dünya alimləri öz səylərini bu qlobal prioritetə nail olmaq, ölkələr və sahələr (müvafiq peşələr) arasında əməkdaşlıq etmək, nəticələri açıq və tez bir zamanda mübadilə etmək üçün yönəltmişlər. Sürətli məqsədli maliyyələşdirmə tədqiqatçılara və siyasətçilərə vacib məsələləri aydınlaşdırmaq və həll etmək üçün birləşməyə və müəssisələrə milli ehtiyacları ödəmək üçün yeni bir şəkildə əməkdaşlıq etməyə imkan verdi.

Nəticə

Fundamental tədqiqatların simasında bünövrə nə qədər geniş, dərin və möhkəm olsa, "innovasiya tipli ölkə binası" daha möhkəm və möhtəşəm olacaqdır. Hər hansı bir müasir cəmiyyətin modernləşməsi, bir çox cəhətdən, xüsusilə, elmin inkişafından asılıdır. Hər bir ölkə elmin inkişafı qayğısına qalır: tədqiqatlara vəsait ayırır, maddi bazanı möhkəmləndirir və güclü, ixtisaslaşdırılmış kadrlar hazırlayır.

Elmi-tədqiqat təşkilatlarında, idarəetmə sistemində yeniləşmənin onun səviyyəsi üzrə diferensiallaşmanın nəzərə alınması vacibdir. Mövcud ölkələr üzrə təcrübəyə əsasən qeyd edə bilərik ki, dövlətin az miqdarda da olsa elmi tədqiqatlara maliyyə dəstəyi elmi-tədqiqat işlərinin ümumi koordinasiyasını müvəfəqiyyətlə həyata keçirir və geniş inkişaf proqramlarının effektiv yollarla tətbiq etməyə imkan verir.

Bir çox şirkətlər bu yeni iqtisadi reallıqda inkişaf etmək üçün innovasiya tətbiq etmələri lazım olduğunu başa düşdülər. Daha çox innovasiyalar ixtira edən ölkələr, şirkətlər böhrana daha davamlı olurlar, böyük ehtimalla böhranlar zamanı onlar yeni ixtiralarını bazarlara çıxacaq, daha çox ehtimalla işçiləri saxlaya və mürəkkəb ticarət şəraitində inkişaf edə biləcəklər.

COVİD-19-u aradan qaldırmaq üçün birbaşa ehtiyacdan başqa, bütün dünya qarşısında duran ən böyük problem iqtisadiyyatımızın inkişaf etdirilməsini və iqlim dəyişikliyinin nəticələrinə qarşı davamlılığın artırılmasını təmin etməkdən ibarətdir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. https://www.nsf.gov/od/oise/IntlCollaborations/index.jsp
2. Лу Си. Фундаментальные исследования — основа инноваций // Китай. 2018. № 3. С. 24
3. data.worldbank.org
4. https://en.unesco.org/
5. https://ec.europa.eu/
6. https://ec.europa.eu/info
7. https://cyberleninka.ru
8. https://www.research-in-germany.org
9. https://www.nwo.nl/en/vision-science-2025

Сабина Исмайлова

МЕЖДУНАРОДНЫЙ ОПЫТ В ОБЛАСТИ ФИНАНСИРОВАНИЯ ИССЛЕДОВАНИЙ

Резюме

В статье анализируется мировой опыт в области финансирования научных исследований и объем средств, выделяемых на эту сферу по странам. Также в исследовательской работе подчеркивается целесообразность разработки исследований, посвященных рассмот-

рению исследований в некоторых странах мира с определением удельного веса научных исследований в ВВП, а также анализа вопросов организации их финансирования.

Цель – изучение международного опыта в области финансирования исследований

Методология – в процессе исследования было использовано статистический анализ, сравнительный анализ, анализ-синтез и др. методы.

Результаты исследования – исходя из опыта, можно отметить, что финансовая поддержка государством научных исследований даже в небольших объемах адекватно осуществляет общую координацию научно-исследовательских работ и позволяет эффективно реализовывать широкий спектр программ развития.

Ключевые слова: *научные исследования, финансирование научных исследований, фундаментальные научные исследования, источники, финансирование*

Sabina Ismayilova

INTERNATIONAL EXPERIENCE IN THE FIELD OF RESEARCH FUNDING

Summary

The article analyzes the world experience in the field of research financing and the amount of funds allocated to this area by country. The research paper also emphasizes the expediency of developing studies devoted to the consideration of research in some countries of the world with the determination of the share of scientific research in GDP, as well as the analysis of the organization of their financing.

Purpose of the research – study of international experience in the field of research funding

Methodology – in the course of the study, statistical analysis, comparative analysis, analysis-synthesis, and other methods were used.

Findings and practical significance of the study – based on experience, it can be noted that the state's financial support for scientific research, even in small amounts, adequately carries out the overall coordination of research and allows for the effective implementation of a wide range of development programs.

Keywords: *scientific research, financing of scientific researches, fundamental scientific researches, source, financing*

Новруза Адилова
Бакинский Государственный Университет,
доцент
e-mail: adilova.novruze.20@mail.ru

Хафиза Алиева
Университет Одлар Юрду,
стар. преподователь
e-mail: hafizaaliyeva.@gmail.com

ПУТИ ГОСУДАРСТВЕННОГО РЕГУЛИРОВАНИЯ ПОВЫШЕНИЯ УРОВНЯ ЖИЗНИ НАСЕЛЕНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

В статье исследуются экономические категории, характеризующие материальные, моральные и социальные потребности населения Азербайджанской Республики, описывается обеспечение жизненного уровня населения материальными благами и услугами, эффективное использование потребностей и оплата.

Также исследуется тот факт, что уровень жизни населения имеет очень важные особенности и характеристики, и используется система статистических показателей для решения их сложных характеристик и с помощью различных индикаторов определяется уровень и структура доходов населения в рыночной экономике, рассматривается развитие механизмов рыночной экономики как одного из основных факторов улучшения социально-экономического положения населения Азербайджанской Республики.

Цель: Обеспечение моральных и социальных потребностей населения Азербайджанской Республики, культурного уровня населения, условий труда, выплаты социальных пособий.

Методология: в исследовании использованы методы экономико-статистического анализа.

Результаты исследования показывают, что обеспечение нравственных и социальных потребностей населения, характеризующих уровень жизни, потребление продуктов питания, образование, занятость, свободу человека являются основными условиями.

Ключевые слова: *уровень жизни, социально-экономические условия труда, доходы, расходы, человеческий потенциал, индекс развития*

Введение

Уровень жизни – это экономическая категория и социальный стандарт, характеризующий обеспечение материальных, моральных и социальных потребностей населения. К основным составляющим уровня жизни относятся: здоровье, питание, доходы и расходы населения, жилье, жилье, платные услуги, культурный уровень населения, условия труда и отдыха, социальное обеспечение и другие. Уровень жизни населения определяется преждевсего как обеспеченность населения необходимыми материальными благами и услугами, требуемый уровень их потребления и степень эффективного удовлетворения их потребностей. В рыночной экономике необходимо статистически изучать вопросы социальной защиты населения, исходя из социальных льгот по уровню жизни, величине, динамике и дифференциации его доходов, а также условий жизни человека.

Согласно концепции ООН, уровень жизни определяется показателями, характеризующими здоровье человека, потребление продуктов питания, образование, занятость и условия труда, жилье, социальное обеспечение, одежду, отдых и правоохранительные органы. Уровень жизни зависит от ряда факторов – экономических, социальных, научно-технических, экологических. Изменения каждого из этих факторов влияют на уровень жизни населения, и управление ими является национальной проблемой. Потому что это национальные приоритеты, определяющие уровень жизни населения. Как видите, уровень жизни – довольно сложное и многогранное понятие. В связи с этим многие элементы уровня жизни имеют важные особенности и характеристики, и для их комплексного характера необходимо использовать систему статистических показателей. На практике основными социально-экономическими показателями уровня жизни являются: - денежный доход (среднемесячный доход на душу населения); - в распоряжении реальные деньги; - среднемесячная заработная плата, рассчитанная для занятых в экономике; - размер установленной ежемесячной пенсии; - прожиточный минимум (среднемесячная сумма на душу населения); - количество людей, чей доход меньше прожиточного минимума;-сравнение других показателей с размером прожиточного минимума для соответствующих социальных групп населения.

Известно, что повышение общего уровня цен на товары и услуги в экономике (то есть возникновение инфляции) оказывает существенное влияние на бюджет домашних хозяйств, доходы в их распоряжении, словом, уровень жизни. Денежная стоимость материальных товаров и услуг, фактически потребленных домохозяйством в течение определенного периода времени, является «ценностью жизни». Он отражает изменения рыночной стоимости в связи с изменением розничных цен на основные потребительские товары и услуги. Индекс стоимости жизни используется для перераспределения доходов населения в случае изменения цен. В широком смысле «уровень жизни» включает, но не ограничивается, труд, уход, занятость, жизнь, отдых, условия труда, здоровье, образование и так далее [1, с.147].

Таким образом, всестороннее изучение уровня жизни возможно только через систему статистических показателей. Следует отметить, что по мере изменения социальных отношений соответственно меняется и система показателей. Формирование системы показателей, позволяющей адекватно отражать статистические характеристики уровня жизни, явилось одной из основных причин отсутствия однозначного мнения о понятии уровня жизни в экономической литературе. Уровень жизни в основном определяется доходами населения. Таким образом, степень обеспеченности населения материальными благами и услугами зависит от ее объема. Информация о доходах населения страны – один из основных показателей, характеризующих развитие экономики и ее эффективное функционирование. Основная задача статистики доходов в современное время – дать количественную оценку формированию совокупного дохода населения, его структуре и динамике, влияющих на него факторах, распределению и использованию между различными группами населения, основным направлениям. Одна из особенностей показателей, характеризующих уровень и динамику доходов населения, заключается в том, что они одновременно отражают экономические, социальные события и процессы.

Уровень и динамика доходов населения

Одним из основных факторов улучшения социально-экономического положения населения страны является дальнейшее углубление и развитие механизмов

рыночной экономики. В результате последовательной работы, проводимой в последние годы в развитии частного сектора и предпринимательства, заметно, что сформировались важные тенденции в структуре доходов населения. Здесь наблюдается тенденция увеличения доли доходов от предпринимательской деятельности в структуре доходов. В начале 1990-х годов около 70% денежных доходов приходилось на заработную плату, а в 2020 году 63,5% доходов приходилось на предпринимательство (Таблица 1).

Таблица 1

Показатели, характеризующие динамику объема и структуры доходов населения Азербайджанской Республики в 2016-2020 годах, в млн.

Индикаторы	2016	2017	2018	2019	2020
Общий доход	8064	20735	25607	30525	37555
Начальный доход	6394	16979	22126	26862	33985
Включая					
Вознаграждение сотрудников	2955	5872	7027	8020	9660
Они происходят из предпринимательской деятельности	3433	10881	14725	18544	23847
Доход от собственности	6.8	226.5	374.2	298.0	488.3
Полученные текущие и капитальные трансферты	1669	3756	3480	3663	3570
Доля в общем доходе (%)					
Доход и всего	100.0	100.0	100.0	100.0	100.0
Общий доход	79.3	81.9	86.4	88.0	90.5
Начальный доход Вознаграждение сотрудников	36.6	28.3	27.4	26.3	25.7
Они происходят из предпринимательской деятельности	42.6	52.5	57.5	60.6	63.5
Доход от собственности	0.001	1.1	1.5	0.01	1.3
Полученные текущие и капитальные трансферты:	20.7	18.1	13.6	12.0	9.5

Источник: Официальный сайт Государственного комитета по статистике Азербайджанской Республики

Статистика показывает, что наблюдается неуклонный рост динамики ряда источников, генерирующих денежные доходы населения. Таким образом, объем доходов от предпринимательской деятельности в 2016 году увеличился примерно в 6,9 раза. За этот период размер заработной платы увеличился примерно в 3,3 раза.

В соответствии с многочисленными задачами статистики доходов в статисти-

ческой практике используются разные показатели, которые отличаются друг от друга методом расчета [2, с.79].

Для оценки размера доходов на макроуровне традиционная статистика рассчитывает доходы населения на основе баланса доходов и расходов населения. На основе этого показателя определяются номинальный денежный доход, располагаемый денежный доход, реальный денежный доход и так далее.

Для оценки уровня и структуры доходов населения в рыночной экономике используется ряд показателей, характеризующих различные его аспекты. Одним из показателей доходов является размер личных доходов населения. Это все виды доходов, получаемых населением в денежной и натуральной форме. Совокупный (валовой) доход населения рассчитывается путем суммирования стоимости бесплатных и льготных услуг, оказываемых населением за счет личных доходов и социальных фондов. Следует отметить, что данные показатели считаются номинальными, так как рассчитываются по текущим ценам. Они не определяют реальное содержание доходов. Личный доход, находящийся в распоряжении населения, определяется за вычетом членских взносов, обязательных платежей и налогов из государственных номинальных доходов населения. Он характеризует часть личного дохода, направляемую на потребление и сбережения. В практике макроэкономической статистики на основе этих трех показателей оцениваются такие вопросы, как потребление и склонность к сбору, а также уровень сбора. Для расчета показателя денежных доходов на душу населения (на домохозяйство) сумму денежных доходов делят на среднегодовую численность населения (по количеству домохозяйств) [3, с.158].

Известно, что при наличии инфляции в экономике любое увеличение доходов не позволяет нам спекулировать на повышении уровня жизни. Следовательно, необходимо рассчитывать номинальные и располагаемые реальные доходы населения путем корректировки влияния ценового фактора, который приводит к изменению покупательной способности денег. Реальное выражение также рассчитывается путем деления соответствующих показателей текущего периода на индекс потребительских цен и их умножения на индекс покупательной способности хороших денег. Индекс покупательной способности денег обратен индексу цен. Изменение имеющегося реального дохода зависит от трех факторов – изменения номинального дохода, ставки налоговых платежей и покупательной способности денег. В процессе статистического анализа создается система индексов для оценки воздействия каждого из этих факторов. Статистический анализ – это социально-экономическая категория, отражающая уровень и уровень жизни. Материальные ценности включают продукты питания, одежду, обувь, жилье, предметы культуры и быта. Коммунальные, транспортные, коммуникационные, культурные, медицинские, бытовые и др. Услуги населению объединены в группу общеименно-хозяйственных услуг. Основными задачами статистики уровня жизни являются:

1) отражать социально-экономическое благополучие населения;

2) оценить степень социально-экономической дифференциации общества, разнообразие уровня жизни разных слоев населения и демографических групп;

3) изучить влияние различных социально-экономических факторов на уровень жизни, состав и динамику населения;

4) выявить и охарактеризовать группы с низким доходом, нуждающиеся в социально-экономической защите и т. д.

Уровень жизни, его динамика и дифференциация напрямую связаны с уровнем развития производительных сил в конкретной стране или районе, объемом и структурой национального богатства, производством и распределением ВВП и национального

дохода. Поскольку невозможно объединить показатели, входящие в эту систему, в один показатель международной шкалы, невозможно рассчитать единый показатель, который комплексно характеризует уровень жизни. По мнению ООН, одна из ее основных задач - способствовать повышению уровня жизни населения [4, с.234].

Комитет экспертов ООН предложил разработать следующую систему уровня жизни:

1. Санитарно-гигиенические условия;
2. Потребление продуктов питания;
3. Образование (включая грамотность и технические специальности);
4. Условия труда;
5. Занятость;
6. Общее потребление и сбор;
7. Транспортные средства;
8. Жилищные условия (в том числе жилищное благоустройство);
9. Одежда;
10. Организация отдыха;
11. Социальное обеспечение;
12. Свобода человека.

Таким образом, он рекомендовал рассматривать санитарные условия, потребление продуктов питания, образование, занятость и свободу человека в качестве основных условий, характеризующих уровень жизни. Кроме того, к приведенному выше списку добавлен раздел «основная информация». Этот раздел включает в себя население и рабочую силу, доходы и расходы, транспортные и информационные должности. Хотя каждое из этих условий связано с уровнем жизни, степень его воздействия не одинакова. Жилищные условия, расход и др. являются условиями, которые прямо отражают уровень жизни, а доходы и расходы членов общества в целом или его отдельных секторов косвенно отражают уровень жизни, поскольку они применимы ко всему населению. Хотя эксперты ООН создали комплексную систему показателей уровня жизни, они признали, что до сих пор не существует международного показателя, включающего все аспекты уровня жизни. По мнению экспертов, отсутствие такого единого агрегированного показателя нежелательно с точки зрения международных сравнений. Статистическая комиссия ООН пришла к такому же выводу. По мнению комиссии, невозможно подготовить годовой отчет по уровню жизни в рамках ООН. Комитет экспертов предложил использовать национальный доход (особенно национальный доход на душу населения) и среднюю продолжительность жизни в качестве систематического показателя уровня жизни. Однако, несмотря на возражения экспертов из бывшего СССР, группа социальной статистики позже исключила национальный доход из списка ключевых показателей и вместо этого добавила ряд специальных показателей:

а) демографические условия и показатели уровня жизни: продолжительность жизни, младенческая смертность, обеспеченность больничными койками, уровень медицинской помощи (количество врачей на тысячу человек)

б) показатели, относящиеся к условиям труда: номинальная и реальная заработная плата рабочих и служащих, продолжительность рабочих дней и рабочих недель, а также минимальный возраст для приема на работу.

Вышеуказанные показатели отражали образ жизни населения, а не его уровень жизни. В системе показателей уровня жизни населения показатели потребления населением материальных благ и услуг занимают одно из центральных мест. Изменения количества и структуры потребительского фонда населения четко отражают тенденцию

экономического развития страны. Общий фонд потребления населением материальных благ и услуг рассчитывается путем суммирования следующих величин.

1. Личное потребление населением материальных благ.
2. Потребление населением платных услуг.
3. Потребление населением бесплатных услуг.

Компоненты индекса человеческого развития

К материальным благам, потребляемым населением, относятся продукты питания (продукты питания, напитки), непродовольственные товары (одежда, обувь, мебель, товары культурного назначения), а также домашние расходы на топливо, электричество, воду и газ. Показатели потребления материальных благ можно определять в стоимостном и натуральном выражениях. Таким образом, общий объем потребления населением материальных благ и услуг, являющийся одним из общих показателей, рассчитывается как в пересчете на население в целом, так и в стоимостном выражении на душу населения. Потребление продуктов питания составляет около половины от общего личного потребления. Хотя наблюдается тенденция к снижению доли расходов на питание в семейном бюджете, она остается высокой. Показатели потребления продуктов питания рассчитываются на душу населения (как правило, ежегодно). Здесь используются натуральные единицы измерения. Пищевые продукты делятся на 10 основных групп, потребление которых рассчитано на душу населения в течение года: мясо и мясные продукты; молоко и молочные продукты; яйца; рыба и рыбные продукты; сахар и растительное масло; картошка; овощи и дыни; фрукты и ягоды (кроме виноделия); хлеб и хлебобулочные изделия. Особенность среднедушевого потребления продуктов питания заключается в том, что при сравнении этих продуктов по отдельным территориальным единицам необходимо знать половозрастной состав потребителей, а также сферы их деятельности. Поэтому, чтобы учесть эти особенности, статистика переводит показатели потребления в условные единицы потребления с учетом возраста мужчин, занятых на механизированных работах [5, с.209].

В экономической литературе продолжается дискуссия по проблемам оценки уровня жизни населения. Речь идет о более комплексных комплексных показателях уровня жизни. Например, ООН рекомендует использовать для этой цели Индекс человеческого развития. Суть предлагаемого метода состоит в том, чтобы взять в среднем пять ключевых показателей, таких как ожидаемая продолжительность жизни при рождении, образование, бедность, безработица и реальный ВВП на душу населения. На основе этих показателей составляются обобщенные показатели уровня жизни в индексе человеческого развития.

Относительная величина уровня и качества жизни населения за любой период, охватывающая только социально-экономические показатели; например, ВВП на душу населения, потребление продуктов питания на душу населения, доход на душу населения и другие подобные однокомпонентные показатели; доходы и расходы, доход и прожиточный минимум и др. такие двухкомпонентные относительные индикаторы можно найти с помощью полных наборов индикаторов, основанных на методах комбинирования интегрированных или статистически эквивалентных индикаторов, используемых для расчета индексов человеческого развития попарно или по множеству регионов. Человеческое развитие рассматривается не только как удовлетворение основных потребностей, но также как общее и динамичное изменение человека. Его можно применять в равной степени как в слабых, так и в высокоразвитых странах. Индекс человеческого развития (ИЧР) измеряет уровень и прогресс в области

здравоохранения, образования и доходов, используя более широкую концепцию развития, основанного только на доходе, в качестве сводного показателя. За последние 20 лет ИЧР подверглась широкой критике. Некоторые не согласны с его структурой и составом. Другие предполагают, что он включает в себя множество показателей, от гендерного равенства до биологических различий. Хотя некоторые из критических замечаний являются законными, речь идет не о создании индикатора, который полностью охватывает благополучие жизни, а скорее о сосредоточении внимания на развитии аспектов, которые могут способствовать прогрессу людей и общества [6, с.324].

ИЧР остается обобщающим показателем прогресса в трех измерениях: здоровье, образование и доход. Однако Отчет о человеческом развитии за 2010 год, посвященный 20-летию Доклада о человеческом развитии за 1999 год, значительно изменил классификацию показателей, используемых для измерения доходов и прогресса в образовании. При оценке уровня жизни валовой внутренний продукт на душу населения заменялся валовым национальным доходом на душу населения [7, с.232].

Для оценки состояния образования показатель грамотности заменяется средней продолжительностью обучения, а охват детей школьным образованием принимается за ожидаемую продолжительность обучения. Средняя продолжительность образования используется в основном как индикатор для многих стран, и между странами существуют значительные различия. Однако ожидаемая продолжительность обучения соответствует временным рамкам этой меры. Несмотря на изучение альтернативных показателей здоровья за последние 20 лет, не было обнаружено ни одного хорошего или альтернативного показателя, который бы отличался от ожидаемой продолжительности жизни при рождении. В Докладе ООН о человеческом развитии за 2010 год метод суммирования этих трех показателей сосредоточен на средних геометрических изменениях. Нет необходимости полностью заменять измерения, так как низкое значение любого измерения напрямую отражается в ИЧР. Этот метод, по сути, позволяет более надежно округлять показатели стран по трем показателям [8, с.245].



Схема 1. Компоненты индекса человеческого развития

В Азербайджанской Республике, которая в 2016 году занимала 82-е место согласно ИЧР по трем вышеупомянутым показателям, ИЧР в мире составляет 8,5 процента, ожидаемая продолжительность жизни при рождении составляет 0,8 года или 1,2 процента, средняя продолжительность обучения - 3,7 лет или 49,3 процента. В 2017 году ожидаемая продолжительность обучения составила 0,1 года, или на 0,9 процента больше. Отчет о человеческом развитии 2018 разделен на следующие три

компонента: средства к существованию: необходимо расширить реальные свободы, чтобы люди могли жить в достатке; расширение прав и возможностей: расширяет возможности отдельных лиц и групп действовать и достигать ценных результатов; справедливость: уважение прав человека и других целей общества повышает социальную справедливость и стабильность результатов с течением времени.

Вывод

Концепция развития человека - это ашуг, задуманный для нового века, а также достаточно полезный и удобный пример. Результаты этого исследования показателей, характеризующих человеческое развитие, будут актуальны для всех возрастных, идеологических, культурных и социальных классов в будущих исследованиях.

ЛИТЕРАТУРА

1. Алиев А.А., Гасымов Н.А. Актуальные проблемы повышения уровня жизни населения в Азербайджане, Баку «Сада», 2016. С. 346.
2. Гасанов Р.Т. Концептуальные основы рыночной модели социально-экономического развития Азербайджанской Республики, Издательство «Элм». Баку-2012. Стр. 354
3. Статистические показатели Азербайджана, ADSK, издательство «Сада» Баку 2019,178 с.
4. Международная организация труда, конвенции и рекомендации. Баку 1996, 339 стр.
5. Алирзаев А.Г. «Экономика и управление социальной сферой» (учебник). Баку: Издательство «Экономический университет», 2000, 326 стр.
6. Гончаров П.К. Социогосударственность: сущность, мировой опыт, российская модель // Социально-гуманитарные знания. 2000. N2. 146 с.
7. Маршалл А. «Принципы политической экономии», М., 2007, 203 с.
8. Смит А. «Исследование причин богатства народов», М., 2003. 589 с.

Novruzə Adilova
Hafizə Əliyeva

AZƏRBAYCAN RESPUBLİKASINDA ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİNİN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ YOLLARI

Xülasə

Məqalədə Azərbaycan Respublikasında əhalinin həyat səviyyəsinin maddi, mənəvi və sosial tələbatlarının təmin edilməsi üzrə xarakterizə edən iqtisadi kateqoriyalar araşdırılmış, əhalinin həyat səviyyəsinin maddi nemətlər və xidmətlərlə təmin edilməsi tələbatlardan səmərəli yollarla istifadə edilməsi, ödənilməsi müəyyən edilərək açıqlanmış, əhalinin həyat səviyyəsinin çox əhəmiyyətli cəhətlər və xüsusiyyətlərə malik olması və onların kompleks səciyyəsinin həlli üçün statistik göstəricilər sistemindən istifadə edilməsi araşdırılaraq göstərilmişdir.

Məqalədə bazar iqtisadiyyatı şəraitində əhalinin gəlirlərinin səviyyəsini və quruluşunu qiymətləndirmək üçün onun müxtəlif səciyyələndirən göstəricilərdən istifadə edilərək müəyyənləşdirilmiş, Azərbaycan Respublikasında əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasının əsas amillərindən biri bazar iqtisadiyyatı mexanizmlərinin inkişafı araşdırılmışdır.

Məqsəd: Azərbaycan Respublikasında əhalinin həyat səviyyəsinin mənəvi, sosial tələbatlarının təmin edilməsi, əhalinin mədəni səviyyəsi, əmək şəraiti, sosial təminatların ödənilməsi açıqlanmışdır.

Metodologiya: tədqiqat işində iqtisadi statistik təhlil metodlarından istifadə edilmişdir.

Tədqiqatın nəticələri: əhalinin həyat səviyyəsini səciyyələndirmək üçün mənəvi və sosial tələbatlarının təmin edilməsi, ərzaq məhsullarının istehlakı, təhsil, məşğulluq, insan azadlığı üçün əsas şərt kimi göstərilir.

***Açar sözlər**: həyat səviyyəsi, sosial-iqtisadi əmək şəraiti, gəlirlər, xərclər, insan potensialı, inkişaf indeksi*

Novruze Adilova
Hafiza Aliyeva

WAYS OF STATE REGULATION OF RAISING THE LIVING STANDARDS OF THE POPULATION IN THE REPUBLIC OF AZERBAIJAN

Summary

The article examines the economic categories that characterize the material, moral and social needs of the population in the Republic of Azerbaijan. The article describes the provision of the population's living standards with material goods and services, the effective use of needs, and payment. The article examines the fact that the living standards of the population have very important features and characteristics, and the use of a system of statistical indicators to address their complex characteristics.

The article identifies the level and structure of the population's income in a market economy using its various indicators. The article examines the development of market economy mechanisms as one of the main factors in improving the socio-economic situation of the population in the Republic of Azerbaijan.

Purpose: To ensure the moral and social needs of the population in the Republic of Azerbaijan, the cultural level of the population, working conditions, payment of social benefits.

Methodology: economic statistical analysis methods were used in the research.

The results of the study show that the provision of moral and social needs of the population to characterize the standard of living, food consumption, education, employment, human freedom are the main conditions.

Keywords: *living standards, socio-economic working conditions, income, expenses, human potential, development index*

UOT 311.311

Ayşən Vəlibəyli
Azərbaycan Kooperasiya Universiteti,
doktorant
velibeyli.aysen.va@gmail.com

QEYRİ-NEFT SEKTORUNDA İKT-dən İSTİFADƏNİN ƏSAS İSTİQAMƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Məqalədə Azərbaycan qeyri-neft sektorunda informasiya və kommunikasiya texnologiyaların (İKT) inkişafı məsələləri tədqiq olunur. Müasir iqtisadi vəziyyətdə respublikamızda kosmik proqramların, mobil telfonlaşdırmanın, müasir informasiya infrastrukturunun, xüsusilə də internet şəbəkəsinin inkişafı ilə bağlı təhlillər və qiymətləndirilmələr aparılır. Ayrıca Azərbaycanın İKT sektoru üzrə əsas makro iqtisadi göstəriciləri təhlil olunur. Məqalənin sonunda aparılan tədqiqat üzrə ümumiləşdirilmiş nəticələr göstərilir.

Məqsəd – qeyri -neft sektorunda İKT-ın inkişaf istiqamətlərinin müəyyən edilməsidir.
Metodologiya – Azərbaycanda İKT inkişafının əsas istiqamətlərinin qiymətləndirilməsində müqayisəli təhlil və sistem yanaşma istifadə edilmişdir.
Nəticə - qeyri-neft sektorunda İKT-ın inkişaf istiqamətlərinə dair kompleks tədbirlər təklif edilmişdir.
Açar sözlər: *İKT, qeyri-neft sektoru, rabitə,elektron hökümət, kənd təsərrüfatı*

Giriş

Müasir zamanda ölkəmiz bütün sahələrdə dinamik inkişaf edir. Böyük uzaqgörənliklə aparılan iqtisadi islahatların nəticəsidir ki, qeyri-neft sektoru tərəqqi yoluna çıxmış, iqtisadiyyatın enerji amilindən asılılığı azalmışdır. İnfrastruktur layihələr, sosial məsələlər uğurlu həllini tapmış, ölkə iqtisadiyyatının şaxələndirilməsi təmin edilmişdir. Strateji valyuta ehtiyatlarımızın artması sosial problemlərin həlli üçün əlavə maliyyə resurslarının cəlb edilməsinə əlverişli şərait yaratmışdır.

Elmi-texniki tərəqqinin ən son nailiyyətlərinə əsaslanmaqla müasir informasiya texnologiyalarının sürətlə inkişaf etdirilməsi dövlətimizin qarşısında duran prioritet vəzifələrdən birinə çevrilmişdir. Ulu öndərin 2003-cü il 17 fevral tarixdə imzaladığı "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə (2003-2012-ci illər) Milli Strategiya" müasir informasiya texnologiyalarının Azərbaycanda tətbiqi sahəsində prioritet vəzifələri müəyyənləşdirmişdir. Prezident İlham Əliyev respublikamızda İnformasiya Kommunikasiya Texnologiyalarının (İKT) inkişafına xüsusi diqqət və qayğı ilə yanaşır. Bu baxımdan ölkədə İKT-nin sürətli inkişafı ilə bağlı mühüm fərman və sərəncamların imzalanması təqdirəlayiqdir. Dövlət başçısının 2005-ci il 22 oktyabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı ("Elektron Azərbaycan")", eləcə də "Xüsusi iqtisadi zonaların yaradılması haqqında" 2007-ci il 6 mart tarixli fərmanı ölkədə İKT sektorunun inkişafına mühüm şərait yaratmışdır. 2008-ci il 11 avqust tarixli "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncamı da bu sahədə həyata keçirilən dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərir. Respublikada rabitə və

informasiya texnologiyalarının inkişafı üzrə dövlət proqramının qəbul edilməsində əsas məqsəd ölkənin informasiya cəmiyyətinə keçidinin,

İKT-nin inkişafını və geniş tətbiqini təmin etmək yolu ilə informasiya və biliklərə əsaslanan, rəqabətə davamlı iqtisadiyyatın qurulması və inkişaf etdirilməsi üçün zəminin formalaşdırılması, dövlət idarəetmə mexanizmlərinin səmərəliliyinin artırılması və qərarların qəbulu prosesində vətəndaşların və sosial institutların iştirakı imkanlarının genişləndirilməsi, cəmiyyətin informasiya məhsulu və xidmətlərinə olan tələbatının dolğun ödənilməsidir.

Azərbaycanda İKT inkişafının əsas istiqamətlərinin qiymətləndirilməsi

Azərbaycanda uğurla həyata keçirilən sosial-iqtisadi siyasət telekommunikasiya və informasiya texnologiyaları sektorunun inkişafına da müsbət təsir göstərmişdir. MDB məkanında daha çox ölkəmizdə İKT-nin inkişafı ilə bağlı mühüm addımlar atılmışdır. Belə ki, MDB ölkələri arasında ilk dəfə Azərbaycanda sabit telefon şəbəkəsi tam elektronlaşdırılmışdır. Artıq ölkəmizin istənilən yaşayış məntəqəsində yüksək sürətli, eləcə də genişzolaqlı internetə çıxış imkanı əldə olunmuşdur.

Ölkəmizdə telekommunikasiya sahəsində əldə olunan nailiyyətlər yeni texnologiyaların tətbiqinə əlverişli şərait yaratmışdır. Əhaliyə internet xidmətlərinin göstərilməsində ciddi uğurlar qazanılmışdır. Azərbaycanda internet istifadəçilərinin sayı ildən-ilə artır. Sürətli internet istifadəçilərinin sayı təxminən 80 % təşkil edir.

Mobil telefon şəbəkəsində yeni fəaliyyət xidmətlərinin göstərilməsi istiqamətində ciddi işlər aparılmışdır. Artıq ölkəmizdə hər 100 nəfərə təxminən 105 mobil telefon düşür ki, bu da inkişaf etmiş ölkələr səviyyəsində dəyərləndirilir. Mobil telefon xidmətlərində qiymətlərin aşağı salınması yönümündə kompleks tədbirlər həyata keçirilir ki, bu da əhalinin mobil telefon şəbəkələrindən geniş istifadəsinə əlverişli zəmin yaradır.

Respublikada kosmik proqram üzrə işlər də uğurla davam etdirilir. Belə ki, 2013-cü ilin fevral ayında ilk telekommunikasiya peykinin orbitə çıxarılmışdır. Bu məqsədlə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi digər təşkilatlarla birlikdə ikinci telekommunikasiya peykinin hazırlanması, yer səthinin monitorinqi və öyrənilməsi üçün alçaqorbitli izləyici peyklərin yaradılması istiqamətində araşdırma işlərini həyata keçirir.

Azərbaycanda XXI əsrin tələblərinə cavab verən müasir informasiya infrastrukturunun, habelə iqtisadiyyatda mühüm yer tutan informasiya və kommunikasiya məhsulları sektorunun yaradılması işində ciddi nailiyyətlərin əldə olunması onu deməyə əsas verir ki, ölkəmiz iqtisadi cəhətdən qüdrətli dövlətdir.

Son illərdə İKT sektoru iqtisadiyyatın aparıcı və dinamik inkişaf edən sektoruna çevrildi. Bu illər ərzində sektor həcmi, hər üç ildən bir iki dəfədən çox, illik artım tempi, təxminən 20-25% olmaqla artırdı. Onun ÜDM-də payı 1,7%, qeyri-neft ÜDM-də isə payı 3,3% -ə qədər artmışdı. Sektora investisiya qoyuluşu, demək olar ki, 2,5 milyard ABŞ dolları təşkil etmişdir ki, bunun da 28% -i dövlət tərəfindən, 72 %, yerli biznes strukturlarının və xarici investorların tərəfindən qoyulmuşdur. 2003-cü illə müqayisədə milli iqtisadiyyatımızda özəl sektorun payı 67,3%-dən 80%-ə qədər artmışdır [1]. Azərbaycan Respublikasında, MDB ölkələri arasında ilk dəfə olaraq, stasionar telefon şəbəkəsi tamamilə elektronlaşdırıldı və ölkənin bütün yaşayış məntəqələrini telefonlaşdırdı. Respublikanın bütün rayon mərkəzləri maqistral fiber optik telekommunikasiya şəbəkəsinə qoşulur. Mobil şəbəkə genişləndirilir. Respublikada fəaliyyət göstərən üç mobil operator müasir 3G xidmətlərini təmin edir. 2012-ci ildə ölkəmizdə 4G texnologiyasının tətbiqi başlandı. Ölkədə hər 100 nəfərə 110 mobil abunəçi düşür. 2020-ci ilin nəticələrinə görə, Azərbaycan əhalisinin 85%-i internet istifadəçi, o cümlədən 70%-i genişzolaqlı internet istifadəçisi olmuşdur. Azərbaycanda və dünyada İnternetin dəyəri ildən-ilə azalır. Beləliklə, 2004-cü illə müqayisədə 2019-cu ildə 1 Mbit/s sürəti ilə internetə qoşulma

dəyəri 1200 manatdan ilə 10 manata qədər azalmışdır. Ölkə üzrə genişzolaqlı xidmətlərə qoşulmağın orta dəyəri orta aylıq əmək haqqının 3%-ni təşkil edir. Bu, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən təyin olunan strateji inkişaf hədəflərə nail olmasını təmin etmişdir. Son 5 ildə beynəlxalq internet kanalının həcmi 12,9 dəfə artmış və 200 Gbit/s-ə çatmışdır, digər tərəfdən internet xidmətləri bazarının həcmi demək olar ki, 4 dəfə artmışdır. 8 fevral 2013-cü il tarixində Azərbaycan Respublikası Azərbaycanın ilk telekommunikasiya peyki Azerspace-1, müstəqillik dövründə ölkəmizin ən yüksək texniki nailiyyətlərindən biri olan orbitə təqdim edildi [2]. Peykin kommersiya istismarı artıq Avropaya, Yaxın Şərq, Orta Asiya və Afrikaya telekommunikasiya xidmətlərini, televiziya və radio yayım xidmətlərini, Azərbaycan mütəxəssisləri tərəfindən qurulmuş peyk infrastrukturu vasitəsilə idarə olunur. Ölkəmizdə görülən işlər rəqəmsal yayımın keçidinin tam təmin edilməsi ilə bağlı tövsiyələrinə uyğun olaraq həyata keçirilir. İllər keçdikcə xidmətlərin səviyyəsini və keyfiyyətini, infrastrukturun modernləşdirilməsi, İKT sahəsindəki kadr potensialının modernləşdirilməsi, sənayenin liberallaşdırılması üçün ardıcıl işlər görülmüşdür.

Ümumiyyətlə, qeyri-neft sektorunda İKT-ın inkişafını aşağıdakı cədvəl 1-də əks etdirmək mümükündür.

Cədvəl 1

Azərbaycanın İKT sektoru üzrə əsas iqtisadi göstəricilər

Göstəricilərin adı	2015	2016	2017	2018	2019
İKT sektorunda məhsul (xidmətlər) buraxılışı, milyon manat	1 589,2	1 527,5	1 662,6	1 786,9	2048.9
rabitə sektoru	1 378,2	1 315,9	1 391,1	1 441,6	1 617,0
İKT sektorunda yaradılmış əlavə dəyərin həcmi, milyon manat	970,7	958,7	1 038,1	1 112,0	1279.7
rabitə sektoru	858,1	843,0	890,5	923,4	1 051,5
İKT sektorunda yaradılmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi, faizlə	1,8	1,6	1,5	1,4	1.6
rabitə sektoru	1,6	1,4	1,3	1,2	1.3
İKT müəssisələri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalar, milyon manat	338,4	198,2	170.2	183,7	294.7
İKT məhsullarının idxalı, milyon manat	268,6	371,1	565,1	883,8	901.6
kompüter və periferiya avadanlıqları	60,0	99,2	168,4	315,8	198.1
telekommunikasiya avadanlıqları	99,8	160,5	244,0	328,6	458.2
elektron avadanlıqlar	34,0	74,9	99,8	145,9	177.4
digər İKT məhsulları	74,8	36,5	52,9	93,5	67.9
İdxal olunmuş İKT məhsullarının ölkəyə idxal olunmuş bütün növ məhsulların dəyərində xüsusi çəkisi, faizlə	2,8	2,7	3,7	4,5	3.9
İKT sektorunda çalışan işçilərin siyahı sayı, min nəfər	20,1	18,0	18,1	19,0	19.3
İKT sektorunda çalışan işçilərin iqtisadiyyatın bütün sahələri üzrə muzdlu işçilərin siyahı sayına nisbəti, faizlə	1,3	1,2	1,2	1,2	1.3

Mənbə: [4].

Cədvəldən göründüyü kimi, İKT sektorunda məhsul (xidmətlər) buraxılışı 2015-2019-cu illər ən çox 2019-cu ildə müşahidə olunmuşdur.Eyni zamanda həmin dövrdə sahədə yaradılan əlavə dəyərin həcmi də göstərilən dövrdə 1,3 dəfə artmışdır. Təbii ki, bu yüksək artım deyil, amma İKT sektorunda, xüsusəndə, qeyri neft sahələrdə informasiya texnologiyaların inkişafı barədə dəlalət edir. Maraqlı fakt ondan ibarətdir ki, cədvəl 1-dən bəlli olur ki, İKT müəssisələri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalar 2015-2019-cu illər üzrə enmə meyli nümayiş etdirmişdir.Belə ki, 2017-ci ildə bu göstəricinin enməsi maksimum həddində çatmış və bu ildən sonra bir qədər artsada, 2019-cu ildə 294.7 mln. manata çataraq 2015-ci illə müqayisədə təqribən 13% enmişdir.

Lakin Azərbaycanda bu sektorda daxili investisiya həcminin azalmasına baxmayaraq yuxarıda qeyd edilən dövr ərzində kompüterlərin, elektron avadanlıqların və proqram məhsullarının istehsalı ildən ilə artmaqdadır. Son 5 il ərzində ölkənin informasiya texnologiyaları sahəsi demək olar iki dəfə genişlənib, ortaillik artım templəri isə 17% təşkil edib.

Ölkədə "elektron hökümət"in formalaşmasına ciddi diqqət yetirilir. İT vasitələrindən istifadə etməklə məmur-vətəndaş münasibətlərinin sadələşdirilməsi və şəffaflaşdırılması bürokratik əngəllərin aradan qaldırılmasına kömək edir. Ölkədə "elektron hökümətin" lazımi infrastrukturu yaradılıb. Artıq "Elektron hökümət" portalı fəaliyyət göstərir, xüsusi infrastrukturun vasitəsi ilə dövlət orqanlarının informasiya sistemləri arasında informasiya mübadiləsi aparılır, elektron imzadan istifadə üçün infrastruktur və sertifikatlaşdırma üzrə xidmət mərkəzləri yaradılıb. Nəticə etibarı ilə e-imzanın tətbiqi geniş yayılır, dövlət orqanları tərəfindən müxtəlif elektron xidmətlər göstərilir. Hal-hazırda "Elektron hökümət" portalına qoşulmuş dövlət qurumlarının elektron xidmətləri əhaliyə "bir pəncərə" prinsipi əsasında təklif olunur. "Elektron hökümət" portalı haqqında Əsasnamənin" təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2013-cü il tarixli 813 nömrəli Fərmanı bu sahədə aparılan işə xüsusi təkan verdi. Qeyd edilənlərlə yanaşı vətəndaşlara xidmətlərin müasir innovasiyaları tətbiq etməklə daha keyfiyyətli, rahat, vahid məkandan göstərilməsi, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətləri təşkiletmə prosesinin sürətləndirilməsi, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2012-ci il tarixli 685 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan Asan Xidmət mərkəzləri təsis edilmişdir və bu özünü qısa müddət ərzində müsbət təcrübə kimi göstərdi. Nail olunmuş inkişafa əsasən informasiya təhlükəsizliyi məsələləri yaradılmış infrastrukturun, informasiya sistemlərinin, toplanmış informasiyanın mühafizəsinin təşkili, həmçinin vətəndaşların və digər istifadəçilərin bu imkanlardan sərbəst istifadəsi üçün şəraitin yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir və daima diqqət mərkəzindədir. Bu sahədə fəaliyyətin təkmilləşdirilməsi, dövlət orqanlarının informasiya resurslarının və sistemlərinin mümkün təhlükələrdən mühafizəsi, kibertəhlükəsizlik üzrə ümummilli hazırlığın və maarifləndirmənin artırılması məqsədi ilə ölkədə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi və Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi fəaliyyət göstərir. Görülən işin dayanaqlığının təmin olunması və milli potensialın gücləndirilməsi üçün İKT sahəsində yüksəkixtisaslı kadrların hazırlığı genişləndirilir. Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2007-ci il tarixli 2090 nömrəli Sərəncamı ilə "2007-2015 –ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", İKT sahəsində

yüksəkixtisaslı kadrların hazırlığı prioritet istiqamət kimi müəyyənləşdirilib. İKT sahəsində mütəxəssislərin hazırlığına dəstək Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında fəaliyyət göstərən "İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi və Tədrisi Mərkəzi" MMC vasitəsi ilə həyata keçirilir. Ölkədə yüksək ixrac potensialına malik, rəqabətqabiliyyətli innovativ İKT sənayesinin inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları ilə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu və "Yüksək Texnologiyalar Parkı" yaradılıb. Bu yeni qurumlar maliyyə və təşkilati dəstəyi təmin edəcək, Azərbaycan iqtisadiyyatının güclənməsinə, xarici investisiyaların cəlb olunmasına və ölkədə İKT məhsullarının istehsalının genişlənməsinə, yeni şirkətlərin fəaliyyətinin təşkilinə və innovativ təşəbbüslərə (start-up) səbəb olacaq. Azərbaycan Respublikası bir çox regional layihələrin təşəbbüskarı və fəal icraçısıdır.

BMT-nin Baş Assambleyasının rezolyusiyaları ilə (2009,2012 və 2013-cü illərdə) dəstəklənən "Trans-Avraziya Super İnformasiya Magistralı" (TASİM) layihəsinin reallaşdırılması, həmçinin ölkəmizin üzv olduğu "Avropa-Yaxın Şərq İnformasiya Magistralı" nın (Europe-Persia Express Gateway-EPEG) imkanlarından istifadə İnternetə çıxış üçün ölkəmizin potensialının xeyli artmasına kömək edəcək. İnternetdən geniş istifadə milli kontentin inkişafına gətirib çıxarıb, dövlət orqanlarının, çoxsaylı fiziki və hüquqi şəxslərin, ictimai təşkilatların saytları yaradılıb. Sosial şəbəkələrdən, sosial medianın digər vasitələrindən istifadə geniş vüsat alıb, ölkəmizin tarixinə, mədəniyyətinə, təhsilinə və digər sosial sahələrinə aid müxtəlif informasiya resurslarının sayı xeyli artıb. İKT-nin inkişafı, cəmiyyətdə istifadə imkanlarının genişləndirilməsi üçün, ilk növbədə, əhalinin İKT haqqında biliklərinin artırılması, görülən işlər və mövcud imkanlar barədə vətəndaşların məlumtlandırılması üçün, həmçinin informasiyanın əlçatarlı olması üçün şərait yaradan ictimai mərkəzlərin fəaliyyəti və kompüterlərin güzəştli şərtlərlə əldə olunması üçün imkanlar yaradılıb. Regionlarda müntəzəm surətdə İKT üzrə müxtəlif təlim kursları, seminarlar keçirilir. "Xalq kompüteri" layihəsi çərçivəsində müəyyən sosial qruplara güzəştli şərtlərlə 22500 müxtəlif tipli müasir kompüter təqdim edilib. Əldə olunmuş nailiyyətlərlə yanaşı İKT sahəsinin inkişafı üçün ölkəmizdə informasiya cəmiyyətinin qurulmasını sürətləndirməklə, Konsepsiya ilə müəyyən edilmiş məqsədlərə nail olmaqla müəyyən addımlar atılmalı və bu sahə ölkə iqtisadiyyatının aparıcı istiqamətlərindən birinə çevirilməlidir.

Xüsusi ilə İKT-nin Azərbaycanın qeyri-neft sektorunun avanqard hissəsi olan kənd təsərrüfatındaki inkişafını qeyd etmək lazımdır.

Belə ki, mobil texnologiyaların kənd təsərrüfatına təsiri də getdikcə geniş yayılmaqdadır. Kənd təsərrüfatında, bağçılıq, heyvandarlıq və kənd təsərrüfatı maşınları üçün bir neçə smartfon proqramlar mövcuddur. Hindistanda "Jayalaxmi Agrotech Pvt Ltd" tərəfindən hazırlanmış və inkişaf etdirilən smartphone mobil proqramları, ən çox istifadə edilən kənd təsərrüfatı proqramlarıdır. Onların mobil proqramları regional dildədir və məlumatı ən sadə şəkildə çatdırmaq üçün nəzərdə tutulmuşdur. Asiyadakı minlərlə fermer bu proqramlarla məlumatlandırılırlar. Ölkəmizin kənd təsərrüfatında informasiya texnologiyasının tətbiqinin olduqca vacib məsələ olduğunu nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev cənabları 16 aprel 2014-ci il tarixli 152 nömrəli Fərman imzalanmışdır. Fərmanda bildirilirdi ki, Kənd Təsərrüfatı Nazirliyi beynəlxalq təcrübəyə əsəslanmaqla "elektron kənd təsərrüfatı" informasiya sisteminin yaradılmasını təmin etməli, aqrar sektorda şəffaflıq yaratmalıdır. "Elektron kənd təsərrüfatı" informasiya sisteminin yaradılması prioritet vəzifə olaraq 2015-ci ildən Nazirliyin fəaliyyətinin mühüm

sahəsini təşkil etməkdədir. Artıq 2018-ci ildə ***e-xidmə.agro.gov.az*** saytı yaradılmışdır. Bu sayta aşağıdakı sahələr üzrə xidmətlər daxildir: toxumçuluq fəaliyyəti, damazlıq təsərrüfatları, baytarlıq, fitosanitar, lizinq, kənd təsərrüfatı texnikası üzrə ödəmə, informativ xidmətlər. Hal-hazırda ölkəmizdə kənd təsərrüfatının interaktiv regional informasiya sistemi hazırlanır. Yeni interaktiv regional xəritə Azərbaycanın istənilən rayonunda fəaliyyət göstərən fermer barədə ətraflı məlumat əldə etməyə imkan yaradacaq. Bu məlumat platforması Azərbaycanın kənd təsərrüfatının potensialını, gündəlik dinamik inkişafını vizual olaraq izləməyə imkan verəcək. E-kənd təsərrüfatı hökümətin kənd təsərrüfatı strategiyasının və iqtisadiyyatın perspektivli qeyri-neft sektorlarını daha da təkmilləşdirmək istiqamətində irəli sürdüyü geniş siyasətin əsas komponentidir. Belə ki, Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumatda bildirilir ki, indiyədək təxminən 410 min fermer Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyatdan keçib və özünün şəxsi kabinetini yaradıb [5].

Bakıda və respublikanın bütün rayonlarında yeni inşa edilmiş və ən müasir avadanlıqlarla təchiz edilmiş inzibati və laboratoriya binaları modern maddi–texniki baza, zəruri informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilmişdir. Heç şübhəsiz həmin sistemlərin gələcəkdə geniş tətbiqi ölkəmizin kənd təsərrüfatının inkişafında, məhsul bolluğunda və şəffaflığın təmin olunmasında öz müsbət təsirini göstərəcəkdir.

Nəticə

Mövcud vəziyyətin təhlili aşağıdakı nəticələrə gəlməyə imkan verir:

- ölkənin davamlı inkişafını təmin etmək üçün İKT prioritet bir sahə kimi inkişaf etdirilməlidir;
- cəmiyyətin İKT məhsul və xidmətlərində artan ehtiyacı sürətlə təmin edilməlidir;
- iqtisadiyyatın real sektorunda İKT istifadəsi genişləndirilməlidir;
- İKT sahəsinin ixrac yönümlüyü, xarici rəqabətə davamlılığı, innovativ iqtisadi potensialı gücləndirməlidir;
- İKT sahəsinin normativ bazası və dövlət tənzimlənməsi təkmilləşdirilməlidir;
- "elektron hökumət" sisteminin iqtisadiyyat üzrə göstərilən elektron xidmətlərinin əhatə dairəsi genişləndirilməlidir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Ministry of Communications and High Technologies of the Republic of Azerbaijan (2014), "Azercosmos OJC to operate SPOT 7 high resolution optical Earth observation satellite", available at: http://www.mincom.gov.az/ media(ru/novosti/ details/7778 (Accessed 3 february 2019).
2. Алгулиев Р.М., Алиев А.Г. Экономические особенности информационных технологий [Economic characteristics of information technologies], "Элм", 2002, 56 с. Баку, Азербайджан.
3. Ш.Т.Алиев. Важность ускорения перехода к инновационным технологиям и инновационной экономике в Азербайджанской Республике в контексте мирового опыта. Материалы XIV Международной научно-практической конференции «Актуальные вопросы развития инновационной деятельности», 18-22 мая 2009 года, г.Алушта, Крым, Украина, 14с. 74-77.
4. Azərbaycan Dövlət Statistika Komitəsi- https://www.stat. gov.az/ source/information_society/az/001_2.xls (baxış vaxtı: 10.06.2021)
5. Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi - https://www.agro.gov.az/az/ekt

Айшан Валибейли

ОЦЕНКА ОСНОВНЫХ НАПРАВЛЕНИЙ ИСПОЛЬЗОВАНИЯ ИКТ В НЕНЕФТЯНОМ СЕКТОРЕ

Резюме

В статье рассматриваются вопросы развития информационных и коммуникационных технологий (ИКТ) в не нефтяном секторе Азербайджана. Здесь проводятся анализ и оценка ситуации по республике, связанной с развитием космических программ, мобильной телефонной связи, современной информационной инфраструктуры, и в особенности сети Интернет в современных экономических условиях. Отдельно проводится анализ основных макроэкономических показателей в сфере ИКТ. В конце статьи автором приводятся обобщенные выводы по исследуемой теме.

Цель состоит в том, чтобы определить направления развития ИКТ в не нефтяном секторе.

Методология - в исследовательской работе использованы сравнительный анализ и системный подход к оценке основных направлений развития ИКТ в Азербайджане.

Результат - были предложены комплексные меры по направлениям развития ИКТ в не нефтяном секторе

Ключевые слова: *ИКТ, не нефтяной сектор, связь, электронное правительство, сельское хозяйство*

Ayshan Valibayli

ASSESSMENT OF THE MAIN DIRECTIONS OF THE USE OF ICT IN THE NON-OIL SECTOR

Summary

The article discusses the development of information and communication technologies (ICT) in the non-oil sector of Azerbaijan. Analysis and assessment of the situation in the republic related to the development of space programs, mobile telephony, modern infrastructure, and in the peculiarities of the Internet in modern economic conditions are carried out. It is separately analyzed the main macroeconomic indicators in the field of ICT. In the end of the article, the author presents generalized conclusions on the topic under study.

Purpose – is to determine the development directions of ICT in the non-secure sector.

Methodology – Comparative analysis and system approach to assessing the main directions of ICT development in Azerbaijan have been used.

Findings – In the non-oil sector, complex measures have been proposed on the development directions of ICT.

Keywords*: ICT, non-oil sector, communications, electronic government, agriculture*

Pərvanə Məmmədova
Azərbaycan Texniki Universiteti
quliyeva_@rambler.ru

AZƏRBAYCANDA SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İNNOVASİYA FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Məqalədə innovasiya ilə bağlı nəzəri-metodoloji baxışlar, innovasiya ideyasının meydana gəlməsi, reallaşması mərhələri qeyd edilir və bu ideyyanın XX əsrin 60-cı illərində xüsusi aktuallıq qazandığı vurğulanır. Məqalədə elm adamlarının innovasiya ilə bağlı fikirləri ümumləşdirilməklə müasir iqtisadiyyatda innovasiyaların əsas və fərləndirici xüsusiyyətləri verilir. Həmçinin, Azərbaycanda sənaye müəssisələrinin innovasiya fəaliyyətinin qiymətləndirilməsi və innovasiyaya maneə olan amillər əhəmiyyətlilik dərəcəsinə görə təhlil edilmiş və əldə edilən nəticələr ümumiləşdirilmişdir.

Məqsəd – Azərbaycanda sənaye müəssisələrinin innovasiya fəaliyyətinin qiymətləndirilməsi çıxış edir.

Metodologiya – tədqiqat işində müqayisəli, təhlil, məntiqi ümumiləşdirmə, sistemli yanaşma, analiz, metodlarından istifadə edilmişdir.

Tətbiqi əhəmiyyəti – nəzəri-metodoloji biliklər əsasında sənaye müəssisələrində innovasiya proseslərinin inkişafı və problemləri ilə bağlı mövcud vəziyyəti aşkarlamaq, sistemləşdirmək və bu istiqamət üzrə səmərəliliyinin yüksəldilməsinə xüsusi diqqətin cəlb edilməsidir.

Tədqiqatın nəticələri – 2009-2019-cu illər üzrə aparılan təhlillər göstərir ki, sənayedə innovasiyası prosesi üzrə yeniliklər olduqca azdır. Belə hal isə onu deməyə əsas verir ki, sənayedə yeni texnologiyaların tətbiqi ilə istehsalın təşkili zəifdir.

Açar sözlər: *innovasiya, sənaye məhsulu, məhsul innovasiyası, diffuziya, elmi-texniki tərəqqi*

Giriş

Bazar münasibətlərinin inkişaf etdiyi müasir şəraitdə istənilən müəssisənin dinamik və davamlı inkişafının əsas şərti innovasiya resurslarının düzgün və səmərəli idarə olunmasından çox aslıdır. Müasir dövrdə innovasiya ideyanın yarandığı dövrdən onun kommersiya baxımından reallaşmasına qədər olan mərhələləri; ideyanın işlənilməsi, istehalda tətbiqi, mübadiləsi və istehlakı ilə əlaqədar bütün dövrü əhatə edir. Bu baxımdan müasir dövrdə innovasiya iqtisadi inkişafın əsas fərqləndirici cəhəti olmaqla bərabər elmi-texniki tərəqqinin istehsalda təsirinin güclənməsi kimi xarakterizə etmək olar. Hazırda o, ölkələr iqtisadi baxımdan qabaqcıl ölkələr sırasına çıxmışdır ki, onlar innovasiv yanaşmadan geniş istifadə etmişdir. XX əsrin 60-cı illərində Avropada elmi-tədqiqat və təcürbə konstruktor işlərinin praktiki olaraq tətbiqi və idarə edilməsi işləri xüsusi aktuallıq qazanmışdır. İqtisadi baxımdan qabaqcıl olan ABŞ, Çin, Almaniya, Böyük Britaniya, Yaponiya, İtaliya, Fransa kimi ölkələrin iqtisadi cəhətdən inkişafının əsasında dayanan əsas amillərdən biri də innovasiya proseslərinə əsaslanan milli iqtisadi inkişafın qurulmasıdır.


1. Bu sahədə aparılmış tədqiqatlar və innovasiya nəzəri baxış

Araşdırmalar göstərir ki, istər xarici və istərsədə yerli iqtisadçı, alim və mütəxxəsisslər müəssisələrdə innovasiya ilə bağlı müxtəlif yanaşmalarıolmuşdur. Məsələn, ölkə iqtisadçılarından T.Hüseynov göstərir ki, innovasiya üçün 3 (üç) əsas əlamət olmalıdır [1, s. 301]:

- elmi-texniki yeniliyə malik olmalı,

- istehsala tətbiq olma imkanı olmalı,
- kommersiyalaşma imkanı.

İqtisadi ədəbiyyatlar göstərir ki, "innovasiya" termini ilk dəfə Y.Şumpeter özünün 1912-ci ildə çap olunmuş "İqtisadi inkişaf nəzəriyə"si əsərində işlədərək iqtisadiyyata gətirmişdir. Həmin dövrdən 103 il keçməsinə baxmayaraq innovasiya anlayışı iqtisadi düşüncələrdə geniş yer almış və nəyin ki, müəssisələrin, iqtisadiyyatın səmərəli inkişafının istənilən metodu ilə əlaqələndiriləməyə başlamışdır. Y.Şumpeter texniki, təşkilati, iqtisadi və idarəetmə xarakterli yeniliklər vasitəsilə istehsalda dəyişiklər edilməsini əsaslandırmağa çalışmış və bununla da o, istehsal prosesi çərçivəsində innovasiya prosesesinin nəzəri əsaslarını araşdırmağa çəhd etmişdir. Qeyd etmək lazımdır ki, yeni kombinasiyaların iqtisadi inkişafda rolunu ilk dəfə Y.Şumpeter araşdırmış və innovasiya prosesini tam təsvirini vermişdir. Y.Şumpeter bu cür dəyişikliklərin beş tipini fərqləndirirdi [2, s.145]:



Sxem 1. Y.Şumpeter görə innovasiyanın beş tipi

Mənbə: [2, s.145]

Qeyd etmək lazımdır ki, XX əsrin 30-40-ci illərindən sonra innovasiya prosesi və və innovasiya ilə bağlı tədqiqatlar xüsusi aktuallıq qazanmağa başlamışdr. Bu 60-70-ci illərdə Q.Menş, A.Klaynknext, A.Ançişkin və başqa iqtisadçılar innovasiyalar nəzəriyyəsinin inkişafına kifayət qədər güclü töhfələr vermişlər. Azərbaycanlı iqtisadçılardan isə T.Ə.Quliyev, M.C.Atakişiyev, Q.S.Süleymanov, A.B.Abbasov və bir çoxlarının elmi əsərlərində innovasiya ilə bağlı yanaşmalara rast gəlmək mümkündür.

İstər yerli və istərsədə xarici iqtisadi ədəbiyyatlarda innovasiyalar texnoiloji parametrlərinə görə iki qrupa ayrılır:

- Məhsul innovasiyası
- Proses innovasiyası.

Məhsul innovasiyası yeni məhsulların və yeni məhsul çeşidlərinin yaradılması, proses innovasiyası isə yeni texnologiyaların tətbiqi ilə istehsalın təşkilini nəzərdə tutur.

İnnovasiyanın harada tətbiqi və istifadə olunması məsələsindən aslı olaraq onun faydalılığı müxtəlif ala bilər. Lakin onun ümumi prinsipləri fikrimizcə aşağıdakı kimi olmalıdır:

- əvvəla innovasiya fərdi və ya ictimai tələbatı ödəməli;
- elmi-texniki yeniliklərə mail olmalı;
- praktiki həyata keçirə bilmə imkanına malik olması;
- son nəticə etibarilə mənfəətin artmasına və işin faydalılığına səbəb olmalı;
- yeniliyin şaxələnməsinə və yayılmasına səbəb olmalı;
- kommersiya məqsədi baxımından istifadə olunmalı və reallaşdırma imkanına malik olmalıdır;
- sosial-iqtisadi, ekoloji, elmi-texniki və idarəetmə səmərəliliyinin artmasına xidmət etməlidir.

Metodoloji baxımdan müəssisə üçün innovasiya fəaliyyətinin əsas şərti odur ki, burada hər şey yaşlanmışdır. Buna görə də, sistematik olaraq müəssisələrdə köhnəlmiş, tərəqqiyə maneə olan hər bir şeydən imtina etmək, eləcədə müəssisələrin müvəffəqiyyətinə hesablanmış lakin, maneə olan səhvlər və uğursuzluqlar kimi proseslərdən də imtina etmək lazımdır. Belə xoşagəlməz problemlərin yaşanmaması üçün isə müəssisə və şirkətlərin vaxtaşırı istehsal etdikləri məhsullar, texnologiya və iş yerləri eləcədə bazar və məhsulların paylanma kanalları təhlil etməlidir.

Müasir dövrümüzdə də bir çox iqtisadçılar innovasiya proseslərini müasir iqtisadiyyatın ayrılmaz tərkib hissəsi kimi qeyd edir və bu fikirlərini müxtəlif cür əsaslandırırlar (cədvəl 1). Qeyd olunan fikirə sübut olaraq rus iqtisadçı alimlərindən olan Y.V.Vertakova və E.S. Simonenko iqtisadiyyatın ümumi strukturunu araşdırmış XX əsrin ikinci yarısını sənaye dövrü, XX əsrin sonu XXI əsrin əvvəlini isə innovasiya kimi adlandırır.

Araşdırmalar göstərir ki, son dövrlər iqtisadiyyatda yeni texnologiyaların hazırlanması və tətbiq edilməsi əvvəlki dövrlər lə müqayisədə çox sıx rast gəlinir. Bu isə nəyin ki, iqtisadiyyatda hətta texlologiyanın özündə belə rəqabət mühütünü gücləndirir.

1992-ci ildə texnolagiya sahəsində göstəricilərin yığılmasına dair Oslo əsaslanmasına görə innovasiya daha çox iki mənada işlədilir:

- birincisi, yeni çeşidin və ya yeni məhsulun yaradılması;
- ikincisi, innovasiya sistem və ya proses kimi göstərilir.

Cədvəl 1

Müasir iqtisadiyyatın əsas fərqləndirici xüsusiyyətləri

Amillər	Dövr	
Xarakteristika	Sənaye dövrü (XX əsrin II yarısı)	İnnovasiya dövrü (XX əsrin sonu - XXI əsrin əvvəli)
İqtisadi inkişafın həlledici faktoru	İstehsal təcrübəsi	Elmi biliklər
Kapitalın həlledici amili	Fiziki	İntelektual
Üstünlük təşkil edən aktivlər	Maddiyyat	Qeyri-maddiyyət
Əsas konkret Üstünlüklər	Sənaye texnologiyası	Texniki və innovasiya idarəedilməsi
Dünya iqtisadiyyatında əsas strategiya	Xüsusi mülkiyyət və kapitalın müxtəlifliyi	Texnologoiya və bilik və elmin rəngarəngliyi
İstehsalda əsas formula	Kapital + Əmək	Kapital + Emi-texniki tərəqqi
İnnovasiya prosesi	Dövrü	Daimi

Mənbə: [3.s.122]

Yeni çeşidin yaradılması bazarın araşdırılmasını, elmi-texniki tərəqqinin naliyyətlərindən səmərəli istifadə olunmağı, beynəlxalq və yerli bazarlar ilə sıx əlaqəni nəzərdə tutur. İkincisi isə müəssisədə araşdırmanı, proektləşdirməni, istehsalın təşkili kimi amilləri nəzərdə tutur. Bu isə onu deməyə əsas verir ki, hər iki proses bir-birindən ayrılmaz surətdə bağlıdır.

İnnovasiya ilə bağlı müasir iqtisadi nəzəri baxışları təhlil edərkən aydın olur ki, onları beş əsas tipə ayırmaq olar:

– yeni məhsul yaratmaq (çeşid siyasəti);

– istehsala yeni metod tətbiq etmək (texniki innovasiya);

– yeni əmtəə və ya çeşid bazarı yaratmaq (bazar innovasiyası);

– xammal və yarımfabrikat tədarükünün əsas yeni mənbəsi (marketinq innovasiyası);

–idarəetmə strukturunun yenidən təşkil edilməsi.

Sənaye müəssisələri baxımından innovasiya prosesinin əmtəəyə çevrilməsi 2 (iki) əsas faza ilə fərqlənir:

1. Yaradılma və yayılmasına görə.
2. Yeniliyin diffuziyasına görə.

İnnovasiya prosesinin əmtəəyə çevrilməsi üzrə birinci amil bir sıra ardıcıl mərhələlərdən ibarətdir ki, buraya təcrübə-konstruktor işləri, elmi tədqiqatlar, sınaqlar və satışının təşkilini aid etmək olar. İkinci fazası isə yeniliklərin istehsalçılar ilə istehsalçılar arasında bölüşdürülməsi ilə bağlıdır.

2. Azərbaycanda sənaye müəssisələrinin innovasiya fəaliyyətinin qiymətləndirilməsi

Ümumbəşəri təcürbə göstərir ki, istənilən yeniliyin əsas qayəsini innovasiyalar təşkil edir. İnnovasiyalar əsasında iqtisadi inkişafa canlanma gəlir. Digər baxımdan innovasiyalı məhsul onun istehlakçılarının sayının artırılmasına da səbəb olur. Bu baxımdan təhlil olunan dövrdə innovasiyalar texnoiloji parametrlərinə məhsul və ya proses innovasiyası olması ilə bağlı 2-ci cədvələ nəzər salaq.

Cədvəl 2

İnnovasiyaların tiplərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən xərclər, min manat

İllər	Bütün sənaye	məhsul innovasiyaları	Xüsusi çəkisi %	proses innovasiyaları	Xüsusi çəkisi %
2009	4619.0	2328.0	50.4	2291.0	49.6
2010	8139.0	7952.0	97.7	187.3	2.3
2011	31589.0	30904.0	97.8	684.6	2.2
2012	9326.0	5975	64.1	3351.0	35.9
2013	13877.2	11899.5	85.7	1977.7	14.3
2014	21534.1	13510.4	62.7	8023.7	37.3
2015	35179.1	13685.2	38.9	21493.9	61.1
2016	27929.0	20313.8	72.7	7615.2	27.3
2017	16135.7	10439.6	64.7	5696.1	35.3
2018	34353.6	23298.7	67.8	11054.9	32.2
2019	48037.1	38343.5	79.8	9693.6	20.2

Mənbə: https://www.stat.gov.az/

Məlumatların təhlinindən görünür ki, 2009-cu ildə 2,3 milyon manatlıq məhsul innovasiyası yəni, yeni məhsulların və yeni məhsul çeşidlərinin yaradılmışdırsa bu göstəri, növbəti illərdə artmış və 2019-cu ildə bütün sənaye üzrə innovasiyaların tiplərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən xərclərin 79,8% məhsul innovasiyası ilə bağlı olmuşdur. Belə hal isə onu deməyə əsas verir ki, sənayedə yeni texnologiyaların tətbiqi ilə istehsalın təşkili olduqca azdır. Başqa bir tərəfdən isə elmə çəkilən xərclərin azlığını və ya elmin səmərəliliyi ilə bağlı ciddi fikirlərin ortaya qoyulmasını tələb edir. İnnovasiyaların maliyyələşmə mənbələrinin təhlili də göstərir ki, innovasiya çəkilən xərclərin böyük hissəsi müəssisələrin öz imkanları hesabınadır. Görünür bu da yetərli deyildir.

İnnovasiyalı məhsul ilə istehlakçılar arasında əlaqəni gücləndirmək üçün fikrimizcə məhsulların tanıtım imkanlarından xüsusilə də onların ticarət nişanları və markalarından geniş istifadə olunması zəruridir. Belə ki, ölkədə istehsal olunan sənaye müəssisələrinin əksər məhsullarında fikrimizcə istehlakçı baxımından zəruri və əhəmiyyətli məlumatlar yerləşdirilmir. Yəni istehlakçılarda yeni çeşid məhsulları almaq üçün ilk növbədə məhsula inam hissini formalaşdırmaq və istehlakçı ilə məhsul arasında əlaqə qurmaq lazımdır. Qeyd etdiyimiz fikirə sübut olaraq yeni çeşid innovasiyalı məhsulun istehlakçı baxımdan digər məhsullarla müqayisədə hansı üstünlüyə malik olduğunu bilməsi hər bir istehlakçının konistitsion haqqıdır. Təssüf ki, yeni istehsal olunan məhsulun digəri ilə müqayisədə nə üstünliyə malik olduğunu istehlakçı bilmir. Bu da istehlakçı baxımından inamsızlığa səbəb olur. Qeyd edilən fikirlərin sübutu olaraq ölkədə istehsal olunan əksər məhsullar nəinki xarici bazarlarda hətta yerli bazarlarda belə xüsusi brend kimi tanınmır.

Aparılan araşdırmalar göstərir ki, müasir dövrdə innovasiya fəallığı nəzərə çarpacaq dərəcədə aşağı səviyyədədir. Bunun səbəbləri fikrimizcə olduqca çoxdur. Lakin, bu səbəblərdən əsas aşağıdakıları qeyd etmək olar:

- Sənaye müəssisələrində yüksək təhsilli idarə heyyətinin olmaması.
- İnvestisiya qoyuluşlarının azlığı.
- İnnovasiyaların həyata keçirilməsi baxınından infrastrukturun olmaması ilə bağlıdır.


Qeyd etmək istərdik ki, ölkənin sənaye müəssisələrində innovasiyaya mane olan problemləri əhəmiyyətlilik dərəcəsindən aslı olaraq üç qrupa ayırmşlar:

- əsas və ya həlledici amillər;
- əhəmiyyətli amillər;
- az əhəmiyyətli amillər.

Eyni zamanda bildirmək lazımdır ki, müəssisələrdə innovasiyaya mane olan amillər müəssisələrin sayları üzrə vermişdir. Burada həmçinin müəssisələrin innovasiya siyasətinə və ya innovasiya fəaliyyətinə mane olan amillərdə üç qrupda verimişdir:

1. İqtisadi amillər.
2. İstehsal amilləri.
3. Digər səbəbli amillər.

Fikrimizcə, müəssisələrdə innovasiya fəaliyyətinə mane olan amillərin hər birinin diqqətlə öyrənilməsi tələb olunur. Bu baxımdan Azərbaycanda sənaye müəssisələrində innovasiyalara mane olan amilləri araşdıraq.



	2009	2010	2011	2012	2013	2014	2015	2016	2017	2018	2019
Digər səbəblər	26.8	16.5	15.2	13.4	13.5	10.8	20.5	15.7	11.9	10.4	8.6
İstehsal amilləri	42.9	54.3	61.6	64.9	64.6	60.8	51.8	67.5	61.5	67.7	73.3
İqtisadi amillər	42.9	54.3	61.6	64.9	64.6	60.8	51.8	67.5	61.5	67.7	73.3

Şəkil 2. Sənaye müəssisələrində innovasiyalara mane olan əsas və ya həlledici amillər, faiz

Mənbə: https://www.stat.gov.az/

Məlumatların təhlili göstərir ki, sənaye müəssisələrində innovasiyalara mane olan əsas və ya həlledici amillər içərisində iqtisadi amillər təhlil üçün qeyd edilən bütün illərdə üstünlük təşkil etmişdir. Son dörd ildə isə iqtisadi amillərin xüsusi çəkisi əhəmiyyətli dərəcədə artmışdır.

Nəticə

Azərbaycan Respublikasında sənaye müəssiəsələrin innovasiya fəaliyyətinin idarə edilməsinin və ya innovasiya ilə bağlı əsas problemlərindən biri daxili bazarın özünün stimullaşdırıcı rol oynamamasıdır. Bunu ən azı təzə məhsullara ödəniş qabiliyyətli tələbatın aşağı olması və təzə məhsullara çəkilən xərclərin əvəzinin ödənilməsi müddətlərinin uzun olması ilə də izah etmək olar. Bununla bağlı inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bazar sanki hər bir yeniliyi tələb edir və ya hər bir yeniliyin bazar stimullaşdırması kimi xüsusi mexanizm fəaliyyət göstərir. Təbii olaraq müəssisə və firmalar daima çalışırlar ki, öz gəlirlərini artırsınlar. Bunun üçün isə onlar yeni məhsul yaratmaq, alıcıların və ya istehlakçıların zövqünü oxşamaq və onu realizə etmək üçün çalışırlar. Belə hal isə öz növbəsində innovasiya aktivliyinə səbəb olur. Bu istiqamətdə ölkəmizdə mövcud olan mənzərəni nəzərə alsaq görürük ki, ölkəmizdə istehsal deyil, alıcı deyil, daha çox satıcı bazarı formalaşmışdır. Fikrimizcə bu istiqamətdə də ciddi atddımlar atılmalı və bazar münasibətlərinin formalaşması mexanizminə uyğun olaraq yenilənməsi, dəyişdirilməsi və daha çox alıcı bazarının inkişafı nəzərə alınmalıdır.

İnnovasiyanın müəssisələrdə səmərəli fəaliyyət göstərməsinin digər istiqamətlərindən biri də rəqabət mühütünün formalaşdırılmasıdır. Məhz rəqabət mühütü müəssisələri digər rəqib müəssisəyə nisbətən hansısa yeniliklər, məhsulun qurluşunda, çeşidində və ya hansısa digər əlamətində yenilik etməyə sövq edir ki, bu da müəssisələr arasında innovasiya prosesinin kəmiyyət və keyfiyyət göstəricilərinə daha həssas və dəqiq yanaşmanı tələb edir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. T.Ə.Hüseynov Firmanın iqtisadiyyatı Bakı -2009 səh.588
2. Шумпетер Й. Теория экономического развития. М.: Прогресс, 1982. 455 с.
3. Ю.В.Вертакова, Е.С.Симоненко. Управление инновациями теория и практика Москва.-2008.- 223s.
4. "İnnovasiya menecmenti" A.H.Tağıyev, İ.B. Əmirov Bakı, "Təknur" -2010, 192 s.
5. http://ru.wikipedia.org/wiki/Шумпетер, Йозеф
6. M.C. Atakişiyev və Q.S.Süleymanov "İnnovasiya menecmenti" Bakı-Təfəkkür-2004 134 səh.
7. A.B.Abbasov "Biznesin əsasları " Dərslik ,Bakı-2011 səh 464
8. C. Kərimov, A. Orucov, H. İsrafilov Dünya iqtisadiyyatı dərclik 2007 s 392;
9. İ.M.Abbasov, R.F.Sadiqov menecment dərs vəsaiti bakı 2013 səh206
10. В.И.Титов «ТД» Ексмо» экономика предприятия; Москва-2017 с-414
11. *F. Qasımov,T.Əliyev, Z.Nəcəfov Milli innovasiya sisteminin idarə edilməsi Bakı-2013 səh 680*
12. John Sloman, Kevin Hinde, Dean Garratt Economics for Business Financial Times/Prentice Hall, 2010 s 742

Мамедова Парвана

ОЦЕНКА ИННОВАЦИОННОЙ АКТИВНОСТИ ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЙ АЗЕРБАЙДЖАНА

Резюме

В статье показано, что теоретико-методологические взгляды на инновации охватывают все этапы от зарождения идеи инновации до ее реализации. Этой идеи подчеркивается, что особую актуальность он приобрел в 60-е годы XX века. В статье обобщены взгляды ученых на инновации. Приведены основные и отличительные черты инноваций в современной экономике.

Задача – ценить инновационную деятельность промышленных предприятий Азербайджана.

Методология – вработе использованы сравнительный, аналитический, логическое обобщение, системный подход, анализ, методы.

Результаты исследования – анализ 2009-2019 гг. показывает, что инноваций в процессных инновациях в отрасли очень мало. Это говорит о слабой организации производства в отрасли с применением новых технологий.

Ключевые слова: *инновации, промышленный продукт, продуктовая инновация, распространение, научно-технический прогресс*

Mammadova Parvana

EVALUATION OF INNOVATIVE ACTIVITY OF INDUSTRIAL ENTERPRISES IN AZERBAIJAN

Summary

The article shows that theoretical and methodological views on innovation cover all stages from the origin of the idea of innovation to its implementation. This idea it is emphasized that it acquired particular relevance in the 60s of the twentieth century. The article summarizes the views of scientists on innovation. The main and distinctive features of innovations in the modern economy are given.

Objective – assess the innovative performance of industrial enterprises in Azerbaijan.

Methodology – comparative, analytical, logical generalization, systematic approach, analysis, methods were used in the research work.

The results of the study – the analysis of 2009-2019 shows that there are very few innovations in process innovation in the industry. This suggests that the organization of production in the industry with the application of new technologies is weak.

Keywords: *innovation, industrial product, product innovation, diffusion, scientific-technical-progress*

UOT 33.314

Nailə Sarıyeva
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistr
sarıyev.seymur@bk.ru

YOXSULLUĞUN MAHİYYƏTİ, OBYEKTİV SƏBƏBLƏRİ VƏ AZALDILMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

Məqalədə yoxsulluğun iqtisadi, təşkilati, sosial–siyasi səbəbləri və nəticələrinin mövcudluğu qeyd edilməklə göstərilir ki, yoxsulluğun iqtisadi əsası iqtisadi artımın əhalinin tələbatına uyğun olmaması ilə izahlandırılır.

Həmçinin, yoxsulluq probleminin mahiyyəti, yanaşma səbəbləri, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yoxsuluğun təsiri problemləri və onun aradan qaldırılma yolları müəyyən edilmiş kriteriyalar əsasında tədqiq edilir.

Məqsəd – yoxsulluğun səbəblərinin və onun azaldılması istiqamətlərinin müəyyənləşdirilməsidir.

Metodologiya – tədqiqatda müqayisəli təhlil metodundan istifadə edilmişdir.

Tədqiqatın nəticələri – yoxsulluğun azaldılması istiqamətləri əsaslandırılmışdır.

Açar sözlər: *həyat səviyyəsi, yoxsulluq, tənzimləmə, gəlir, əmək haqqı*

Giriş

Son illər ərzində iqtisadiyyatın davamlı və rəqabət qabiliyyətli inkişafı istiqamətində çoxşaxəli iqtisadi islahatlar həyata keçirilmişdir. Ölkə əhalisinin həyat səviyyəsinin yüksəldilməsi yoxsulluq probleminin həllini şərtləndirmişdir. Yoxsulluq problemi iqtisadi sistemin tipindən və xarakterindən asılı olmayaraq mövcud olmuşdur. Yoxsulluq ölkələrin sosial-iqtisadi inkişaf səviyyəsi ilə bilavasitə bağlıdır. Yoxsulluq səviyyəsi dövlətin sosial-iqtisadi siyasəti ilə sıx əlaqədar olmaqla əhalinin təbəqələşmə səviyyəsindən asılı olur.

Yoxsulluğun mahiyyəti və xüsusiyyətləri, azaldılması istiqamətləri

Planlı təsərrüfatçılıq sistemində yoxsulluğun yaranması daha çox əhalinin tələbkarlıq qabiliyyətinin məhdudlaşdırılması ilə bağlı olmuşdursa, bazar iqtisadiyyatına keçid şəraitində bu tendensiya mövcud təsərrüfat əlaqələrinin pozulmasından, vahid xalq təsərrüfatı sisteminin həmahəng işləməsindən qaynaqlanır. Yoxsulluq sosial-iqtisadi proses olmaqla hər bir ölkənin iqtisadi durumu, onun maddi və sosial şəraiti, islahatlarındərinliyi və onun sosial – nəticələrinə uyğun olaraq formalaşır və həlli yolları zəruriləşir [3].

Müasir şəraitdə beynəlxalq iqtisadi münasibətlərin prinsipləri və qanunauyğunluqları, qlobalaşma prosesləri, işsizlik və həyat səviyyəsinin pisləşməsi meyllərini artırır və yeni aspektlər tələb edir. Bu da öz növbəsində bir sıra qorxu və risklərin yaranmasına səbəb olur [1]. Birləşmiş Millətlər Təşkilatının 2000-ci ildə Baş Assambleyasının Cenevrədə keçirilən sosial-iqtisadi inkişafa dair sessiyasında qloballaşmanın iqtisadiyyatın mərkəzi problemi olaraq, maddi nemətlərin bölgüsündə gəlir əldə edilməsində sosial sferada qeyri-bərabərlik yaratması qeyd edilmişdir. Gəlir səviyyəsi ölkələrdə alıcılıq qabiliyyətinin və əmtəə xidmət təklifinin miqdarı və istehlak dəyərlərinin qiyməti ilə ölçülür. Yoxsulluq dövlətlər arasında iqtisadi əlaqələr, miqrasiya problemləri və kapital

axınının intensivləşməsi ilə müşahidə olunduqda yoxsul ölkələrin gəlirlərinin bir hissəsi inkişaf etmiş ölkələr tərəfindən mənimsənilir. Belə ki, ucuz iş qüvvəsi və təbii resursların istifadəsi üçün cəlb olunan kapitala görə az xərclə yüksək mənfəət əldə etmək mümkün olur ki, bununda bölünməsində maliyyə və pul sahibi daha çox pay mənimsəyir. Yoxsulluq həmçi xroniki bir proses olmaqla qloballaşan bazar iqtisadiyyatı şəraitində daha da dərinləşir.

Yoxsulluq səviyyəsi makroiqtisadi göstərici olub, onun qarşısının alınması həyat səviyyəsinin yüksəldilməsi probleminin sinonimi hesab olunur. Yoxsulluğun qarşısının alınmasına yönəldilən tədbirlər sosial müdafiə tədbirlərinin məqsədli təşkili və idarə edilməsilə bağlı kriteriyaları özündə əks etdirir.

Respublikanın ayrı-ayrı bölgələri özünəməxsus xüsusiyyətləri, fərqli inkişaf dinamikasına malik olduğu üçün onların yoxsulluq metodları üzrə qütbləşməsi və təsnifləşdirilməsi aparılır. Bu zaman adambaşına düşən məcmu gəlir səviyyəsi və real istehlak həcmi əsas götürülür. Ona görə də məcmu gəlirlə yanaşı, onun real alıcılıq qabiliyyəti tələbat və onun ödənilməsi dərəcəsi kimi adambaşına düşən istehlak həcmi maddi və mənəvi nemətlərin tələbatın ödənilmə dərəcəsində prioritetliyi əsas götürülməklə yoxsulluğun səviyyəsinin müəyyənləşdirilməsində başlıca kriteriya hesab olunmalıdır.

Ölkənin sosial–iqtisadi inkişaf konsepsiyasının mühüm həlqəsi kimi yoxsulluğun aradan qaldırılmasının əsas amilləri olan iqtisadi artım, bölgü və istehlak olunan maddi və mənəvi nemətlərin artırılması mühüm vəzifələr kimi qarşıda durur.

Yoxsulluğun səviyyəsi xroniki və birdəfəlik faktorlardan asılı olaraq dəyişir. Təbiidir ki, yoxsulluq hər bir fərddən, ailədən, regiondan başlayır. Bu baxımdan yoxsul ailələr maddi və mənəvi cəhətdən təmin olunmuş ailələrə nisbətən daha az istehlak edirlər. Bu baxımdan yanaşsaq, ilk növbədə yoxsulluq iqtisadi vəziyyət və demoqrafik tərkib, yaxud hər hansı təsərrüfat və biznes fəaliyyətində yaranan risklərlə ölçülür. İqtisadi vəziyyət yoxsulluğa əhəmiyyətli dərəcədə təsir göstərir. İqtisadi vəziyyətin yoxsulluğa təsirini adambaşına düşən ÜDM-in səviyyəsi, gəlirlərin dinamikası, qiymət tərəddüdləri, həmçinin inflyasiya tempi, sosial gərginliyin artıb–azalması vasitəsilə özünü təzahür edir. Məlum olduğu kimi Azərbaycan Respublikasında yoxsulluğun dərinləşməsinin mühüm səbəblərindən biri də qaçqınlıq və məcburi köçkünlük problemləri və onun uzun müddət sosial-iqtisadi inkişaf səviyyəsində yaratdığı iqtisadi, mənəvi və psixoloji amillərlə bağlı olmuşdur. Hərçənd indiki halda ölkənin ərazi bütövlüyü bərpa olunsa da 1 mln.dan artıq əhalinin həyat səviyyəsi hələ bir müddət öz aktuallığını saxlamaqdadır.

Bazar iqtisadiyyatına keçid və vahid SSRİ xalq təsərrüfatına uyğunlaşmış istehsal sahələri öz əmtəə bazarlarını itirdikləri üçün istehsal olunan məhsullara da tələbat azalmış, liberal iqtisadiyyatın ilkin şərti olaraq idxal hesabına bazarın formalaşmasına gətirib çıxarmışdır. Xarici ölkələrin Azərbaycan əmtəə bazarına məhsul idxalının daha sürətlə artması yerli istehsalın məhsullarının yığılıb qalmasına, müəssisələrin əmək haqqı və digər borcların artmasına, son nəticədə işçi qüvvəsinin azaldılması və işin tamamilə dayandırılması ilə nəticələnmişdir. Yoxsulluğun demoqrafik amili artıq qiymətlərin artması hesabına pensiyaçıların, işləyənlərin və çox uşaqlı ailələrin əmək fəaliyyətindən kənarda qalıb, dövlət himayəsində zəruri müavinət almamaları pulsuz təhsilin, səhiyyə xidmətlərinin azalmasına gətirib çıxarmış, əhalinin məcmu ehtiyatlarının ödənilməsində dövlətin rolunun azalması, şəxsi vəsaitlərinin öz təyinatından ayrılaraq, məhz yoxsulluğu yaradan səbəblər istiqamətində xərclənməsinə gətirib çıxarmışdır.

Yoxsulluğun yaranmasını həmçinin islahatların sosial-iqtisadi nəticələri ilə əlaqələndirmək lazımdır. Bazar iqtisadiyyatı tələblərinə uyğun ilkin şəraitinin yaradılması ilkin kapitalın olması ilə mümkündür. Azərbaycanda müstəqillik şəraitində ilkin kapitalın

yaradılması istehsal, ixracat və əhalinin natural təsərrüfat hesabına öz ehtiyaclarını ödəməklə, yaxud xarici ölkələrdən və əhali resurslarından iqtisadi dövriyyə borc kapital cəlb etməklə vəziyyətdən çıxış yolu tapılır. Bu şəraitlərin hər biri Azərbaycan Respublikasında özünəməxsus xüsusiyyətlər kəsb edir. Belə ki, ixracat məhsulu üçün xammal olan məhsulların istehsalını artırmaq və onun səmərəsini yüksəltmək problemi əlavə kapital qoyuluşu problemi ilə rastlaşır.

Məhz ixracatın stimullaşdırılması tədbirləri və respublikaya kapital axınının ilkin investisiya şəraitinin yaradılması ölkədə daxili imkanların iqtisadi dövriyyə cəlb edilməsi yolu ilə yerli işçi qüvvəsindən istifadə və xidmət sferası üçün kapital axınına səbəb oldu. Yoxsulluğun ilkin araşdırma metodologiyası ümumi iqtisadi durumun və mütərəqqi dəyişmələrin, yoxsulluğun həddinə və əhalinin paylanması dərəcəsinə təsiri ilə araşdırılanda meydana çıxır və spesifik olaraq formalaşır.

Yoxsulluq əhalinin həyat səviyyəsinə görə təbəqələşmə dərəcəsini və yoxsul əhali ilə orta təminatlı və yüksək maddi rifaha malik olan əhali arasında tələbatın ödənilməsinin real vəziyyəti ilə müqayisədə üzə çıxır. Həyat səviyyəsinin bazar iqtisadiyyatı şəraitində təhlili və proqnozu, onun meyar və göstəriciləri sistemində verilib. Yoxsulluqla həyat səviyyəsi arasında ümumi və fərqli cəhətləri nəzərə alıb, daha çox sosializm cəmiyyəti üçün xarakterik olan ümumiləşmiş, sosial-iqtisadi problem əhalinin həyat səviyyəsinin yüksəldilməsi meyarı ilə qəbul olunurdu. Həyat səviyyəsinin ölçülməsinə istehlak olunan maddi və mənəvi nemətlərin məcmu və tələbatının ödənilməsi dərəcəsi kimi yanaşma və uyğun olaraq ölçmə üçün tətbiqi mexanizmlər mövcud idi.

Konseptual yanaşma baxımından yoxsulluq tənzimlənən bir proses kimi beynəlxalq və respublika daxili məqsədli proqramların sosialyönlü və həlli mexanizmlərinin elmi əsaslarla düşünülmüş bir sistem formasıdır. Həm daxili resursları, həm də xarici ölkələrin investisiya və digər maliyyə, maddi yardımlarını nəzərə almaqla respublikada "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf" üzrə dövlət proqramları işlənib hazırlanmış və tətbiq olunur. Yoxsulluğun azaldılmasının məhz iqtisadi inkişafla vəhdətdə proqram xarakterinə gətirilməsi yoxsulluğun kriterial inkişaf istiqaməti olaraq məqsədyönlü fəaliyyət dairəsinə gətirilməsi, digər tərəfdən iqtisadi inkişafın nəticələrinin sosial-iqtisadi effekti kimi baxılması, istehsal bölgü və istehlak sferasının tənzimlənməsi deməkdir.


Real istehlak səviyyəsi, yoxsul ailələrdə, yüksək gəlirlər həddindən həmin ailənin yoxsulluq həddinin çıxarılması meyarı əsas ola bilər. Az təmin olunmuş və tələbatı aşağı olan ailələrdə yüksək gəlir və maddi-mənəvi nemətlər, onun yoxsulluğunun tam ləğvi göstəricisi deyildir. Ona görə də yoxsulluğun azaldılması tamamilə tənzimlənmə mexanizmi proqram xarakterli tədbirlərin kompleks məcmuu kimi formalaşdırılır. Maddi və mənəvi nemətlərin istehlakı arxasında iqtisadi, demoqrafik, coğrafi, sosial amillər gizlənir. Bu amilləri differensial göstəricilər və meyllər formalaşdırır. Bu baxımdan əhalinin təbii artım, məşğulluq səviyyəsi və məşğul olanlarla işləməyənlərin sayının nisbəti, pensiyaçıların və təqaüdçülərin sayı, onların təminat səviyyəsi, təbii iqlim şəraiti, əmtəə və xidmət təklifi yoxsulluğun formalaşması və yoxsulların sayının müəyyən edilməsi amilləridir.

Yoxsulluq maddi və mənəvi nemətlərin istehsalı, bölgüsü və istehlakı sferasında baş verən dəyişikliklərin, maddi, mənəvi və xidmət cəhətlərinin göstəriciləri ilə vəhdətdə öyrənilir. Ona görə də yoxsulluğu aşağıdaki kimi təsvir etmək olar (şəkil 1).

Hər bir cəmiyyətdə iqtisadi inkişafın və əhalinin tələbatını nəzərə alan zəruri maddi və mənəvi nemətlərin məcmuu, həmin ailənin istehlak büdcəsini təşkil edir. İstehlak büdcəsi insanın yaşayışı üçün lazım olan maddi və mənəvi nemətlərin minimum səviyyəsini, onun tərkibini müəyyən edir. Həyat səviyyəsinin yüksəldilməsi, normativ göstəricilərinin hüquqi qanunvericilik bazasının yaradılması, həmçinin əhalinin sosial müdafiə

məqsədləri üçün astana və hesab göstəricisi kimi qəbul olunur. Minimum yaşayış səviyyəsi ümumim iqtisadi artım və əhalinin tələbatının dinamik dəyişməsi ilə bağlı olaraq kəmiyyət və keyfiyyətcə dəyişir.

Gəlirlərin yaşayış minimumundan aşağı olması həmin ailələrin nisbi yoxsulluğunu müəyyən edir. Əhalinin sayı, təbii artım, onun yaş və məşğuliyyət quruluşu, ailənin təminat səviyyəsini, onun gəlir və istehlakının quruluşunu yaradır. Əhalinin təbii artımı müstəqillik dövründən aşağı düşməyə başlayıb. Gəlirlərin yaşayış minimumundan aşağı olması həmin ailələrin nisbi yoxsulluğunu müəyyən edir. Əhalinin sayı, təbii artım, onun yaş və məşğuliyyət quruluşu, ailənin təminat səviyyəsini, onun gəlir və istehlakının quruluşunu yaradır. Əhalinin təbii artımı müstəqillik dövründən aşağı düşməyə başlayıb. İqtisadi ədəbiyyatda təbii artımla maddi rifah arasında reqressiya əlaqəsi olmasa da ev təsərrüfatı göstəriciləri ailədə üzvlərin artması ilə onların gəlirlərinin azalmasını sübut edir. Yoxsulluq həddi məhz uşağı çox olan ailələrdə daha aşağıdır. Hər bir yeni doğulan uşağa uyğun gəlirlərin 25 % artmasını tələb edir. Bu da yoxsulluq səviyyəsini dəyişdirir.



Şəkil 1. Yoxsulluğun sxematik təsviri
Qeyd: [2, 4] əsasında tərtib edilmişdir

Azərbaycan əhalinin ümumi sayı ilə əmək qabiliyyətli yaşda olan əhali arasında əlverişli nisbət mövcuddur (cədvəl 1). Əhalinin sayının artımına uyğun olaraq əmək qabiliyyətli insanlarının sayı da artır. İqtisadi fəal əhalinin ümumi sayının statistik göstəriciləri üzrə 95,0 % məşğul olanlar kimi qəbul olunur. Əlbəttə, məşğulluq meyarı özəlləşdirilmiş əmlak şəraitində torpaq payı və mülkiyyət hüququ olanlar götürülür. Əhalinin demoqrafik tərkibi, məşğulluğunun mülkiyyət münasibətlərindən asılılığı və təsərrüfat formalarında fəaliyyəti onun əməyinin ödənilməsi xarakterini və səviyyəsini müəyyən edir. Ona görə də yoxsulluq nisbi proses olaraq regionlarda təsərrüfatın sahələri və onların məhsuldarlığı və əmtəə bazarına çıxmaq qabiliyyəti ilə ölçülür. Azərbaycanda əhalinin yoxsulluğunun demoqrafik göstəricisi hər bir ailədə işləyənlərin işləməyənlərə nisbəti ilə ölçülür. Bütövlükdə əməkqabiliyyətli yaşında olan əhalinin sayı 2018-ci ildə bütün əhalini

sayına nisbətən 68% civarındadır.

İqtisadiyyatın dayanıqlı inkişafının təmin olunması, əhalinin sosial rifahının yüksəldilməsi, sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncam və Fərmanları ilə təsdiq edilmiş "Azərbaycan 2020 Gələcəyə baxış" İnkişaf kosepsiyası və "milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" müəyyən olunmuş tədbirlərin icrasının uğurlu davam etdirilməsi, həmçinin müntəzəm və sistemli islahatların və məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində iqtisadi artıma nail olmuş, qeyri-neft sahələrinin inkişafı sürətlənmişdir. Görülmüş işlərin nəticəsində 2019-cu ildə ÜDM real ifadəsi 2.2% artaraq cari qiymətlərlə 81.7 milyard manat olmuşdur. Adambaşına düşən ÜDM-nin həcmi 8247.0 manat təşkil etmişdir.

Araşdırmalar göstərir ki, potensial baxımından hər məşğul olanın məcmuu gəliri özü və ailəsini təmin etmək üçün, onun yaşaması üçün lazım olan normativ istehlak büdcəsindən 2 dəfə çox olan gəlirlə ödənilməlidir. Əks halda gəlir səviyyəsi bu potensial həcmdən az olanda yoxsulluq prosesi formalaşacaq. Yoxsulluğun makroiqtisadi əsasları ümumi daxili məhsulun artımı, onun istifadəsi, adam başına düşən səviyyəsinin yüksəldilməsi respublikada həyata keçirilən bir sıra tədbirlərdə və yeni investisiya proqramlarında əks olunur. ÜDM-nin büdcə və sahibkarlıqla əlaqəsi, əlverişli bölgü prinsipləri yoxsulluğun

Cədvəl 1

Əhalinin həyat səviyyəsinin sosial-iqtisadi göstəriciləri

Göstəricilər	2015	2016	2017	2018	2019
Əhalinin sayı, min nəfər	9705.6	9810.0	9898.1	9981.5	10067.1
O cümlədən					
Əmək qabiliyyətli yaşda, min nəfər	6677.8	6705.5	6771.6	6842.5	6894.5
Əhalinin təbii artımı, hər 100 nəfərinə	11.7	10.6	8.9	8.4	8.7
Əhalinin pul gəlirləri, mln. man	41744.8	45395.1	49187.98	53103.7	57035.0
Adam başına düşən pul gəlirləri, min manat	240.5	252.5	238.4	276.0	292.6
Əhalinin istehlak xərcləri, manat	260.6	272.4	280.5	286.2	298.4
Ümumi daxili məhsul, mln.manat	54380.0	60425.2	70337.8	800092.0	81681.0
Adam başına ÜDM, manat	5706.6	6269.6	7226.0	8156.2	8247.0
Dövlət büdcəsinin gəlirləri, mln.manat	17498.0	17505.7	16518.7	22508.9	24398.5
Ümumi daxili məhsulda, %-lə	32.2	29.0	23.5	28.1	29.9
İqtisadiyyatda məşğul olan işçilərin orta aylıq nominal əmək haqqı, manat	466.9	499.8	528.5	544.6	635.1
Pərakəndə ticarət əmtəə dövriyyəsi, mly.manat	25.7	30.2	35.3	37.1	39.4
Pullu xidmətlərin həcmi, mlrd.manat	7462.8	80527.0	8636.0	9131.8	9607.3
Adam başına düşən pullu xidmətlərin dəyəri, manatla	783.1	821.7	887.2	929.9	970.01
Pərakəndə əmtəə dövriyyəsinin fiziki həcm indeksləri əvvəlki ilə nisbətən %-lə	111	108.2	102.5	103.0	103.6
Pərakəndə ticarət dövriyyəsinfə qeyri-dövlət sektorunun payı (mly. manat)	25682.3	29728.0	35252.3	37072.2	39348.4

Qeyd: Az. Dövlət Statistika Komitəsi. Bakı, 2020

mövcud vəziyyətini və onun azaldılması yollarını formalaşdırır. Dövlət büdcəsinin gəlirlərinin ÜDM-də payı, fikrimizcə, yoxsulluğun azaldılması yolunda dövlətin maliyyə imkanlarının tam ödənilməsi haqqında əsas verir.

Nəticə

Beləliklə, yoxsulluğun makroiqtisadi problemləri özəl sektorda iş yerlərinin açılması və iqtisadiyyatın strukturunda mütərəqqi dəyişmələr ilə əlaqədə təhlil olunmalıdır. Bu günkü özəlləşdirmə və torpaqların özəl sektorda olması ilkin resurs potensialının bir tərəfini, onun maddi əsasını yaradır. Onun maliyyə əsası isə həmin vəsaitlərdən istifadə etmək üçün pul, kredit, xarici resursların iqtisadi dövriyyə cəlb edilməsi yolları ilə mümkünlüyünü əsaslandırır. Beləliklə, yoxsulluq probleminin həlli kompleks yanaşma tələb edir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Əlirzayev Ə.Q. Iqtisadiyyat: düşüncələr, baxışlar. Bakı: Bakı Dövlət Universoteti, 2002, s.466
2. Маер В.Ф. Доходы населения и рост благосостояния народа, М., Мысль, 1968,с. 250
3. Рутгайзер В.М. Ресурсы развития непроизводственной сферы, М., Мысль, 1975, с.229
4. Зыкин Б.Н. Эффективность региональной экономики, М., Наука, 1981, с.191
5. http://stat.gov.az
6. http://economy.gov.az

Наила Сарыева

СУЩНОСТЬ, ОБЪЕКТИВНЫЕ ПРИЧИНЫ БЕДНОСТИ И ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ЕЁ СОКРАЩЕНИЯ

Резюме

В статье, отмечая наличие экономических, организационных, социально–политических причин и последствий бедности, показано, что экономическая основа бедности объясняется недостаточностью экономического роста для удовлетворения потребностей населения.

Также изучаются сущность проблемы бедности, причины ее подхода, проблемы влияния бедности на повышение уровня жизни населения и пути ее преодоления на основе установленных критериев.

Цель – выявление причин бедности и направлений ее сокращения.
Методология – в исследовании использовался метод сравнительного анализа.
Результаты исследования – обоснованы направления сокращения бедности.
Ключевые слова: *уровень жизни, бедность, регулирование, доход, заработная плата*

Naila Sarıyeva

THE ESSENCE OF POVERTY, OBJECTIVE REASONS AND MAIN DIRECTIONS OF REDUCTION

Resume

The article, noting the presence of economic, organizational, socio-political causes and consequences of poverty, shows that the economic basis of poverty is explained by the lack of

economic growth to meet the needs of the population.

The essence of the problem of poverty, the reasons for its approach, the problems of the impact of poverty on improving the standard of living of the population and ways to overcome it on the basis of established criteria are also studied.

Purpose - the goal is to identify the causes of poverty and the ways to reduce it.

Methodology – The results of the study the method of comparative analysis.

Findings – the directions of poverty reduction are justified.

Keywords: *standard of living, poverty, regulation, income, wages*

UOT 33.338

Yasəmən Quluzadə
Azərbaycan Kooperasiya Universiteti,
dissertant
jasminshahzade@gmail.com

İQTİSADİ SƏMƏRƏLİYİN MAHİYYƏTİ VƏ MƏZMUNU

Məqalədə səmərəliyin mahiyyətini açıqlayan müasir yanaşmalar araşdırılmışdır. Həmçinin tədqiqat işində iqtisadi səmərəliyi ifadə edən məlumatların təhlili əsasında xərclər və vaxta qənaətin müəssisələrin səmərəliliyinin yüksəldilməsində əhəmiyyətli rol oynadığı göstərilmişdir. Eyni zamanda,tədqiqat işində bir sıra anlayışların konkret izahı verilmiş və səmərəliliklə bağlı nəzəri yanaşmalar ümumiləşdirilmişdir.

Məqsəd – səmərəliyin mahiyyəti və məzmunu ilə bağlı müasir yanaşmaların araşdırılması və ümumiləşdirilməsidir.

Metodologiya – tədqiqat işində müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, sistemli yanaşma, analiz metodlarından istifadə edilib.

Tədqiqatın nəticələri – tədqiqatda bir sıra anlayışların konkret izahı verilməklə səmərəliliklə bağlı nəzəri yanaşmalar ümumiləşdirilmişdir.

Açar sözlər: *səmərlilik, xərclər, nəticə, əhalinin nominal və real gəlirlərinin səviyyəsi, sosial səmərə*

Giriş

Səmərəlilik iqtisadiyyatın ən vacib ümumi kateqoriyalarından biridir və eyni zamanda iqtisadiyyatda iqtisadi təcürbənin ən əsas konsepsiyasıdır. İqtisadi təcürbənin ən əsas konsepsiyası olması onunla şərtlənir ki, müasir dövrümüzdə iqtisadi fəaliyyətin hər bir sferasında iqtisadi səmərəliyin üzə çıxartmaq üçün ciddi, səylər göstərilir və buna müvafiq konsepsiyalar hazırlanır.

Nəzəri yanaşmalar göstərir ki, səmərəlilik istehsal ilə birbaşa bağlıdır. İstehsalın əsas hədəfi ən az xərclərlə (maddi, maliyyə və əmək və s.) maksimum səmərəni əldə etmək olduğundan iqtisadi yanaşmalar onu göstərir ki, səmərəliliyi qiymətləndirmək üçün iqtisadi nəzəriyyədə müəyyən olunan yanaşmalardan və metodlardan istifadə etmək məqsədə müvafiqdir.

Səmərəliliyin mahiyyəti

Səmərəlilik iqtisadi fəaliyyətinin məzmunu ilə bağlı olduğundan iqtisadi fəaliyyəti səmərəlilik baxımından qiymətləndirilməsi üçün iqtisadi fəaliyyətin dörd əsas iqtisadi kateqoriyasına diqqət yetirmək maraqlıdır və fikrimcə, səmərəlilik aşağıda qeyd edilən bu iqtisadi göstəricilərdə kifayət qədər əks oluna bilmişdir. Bunlar aşağıdakılardır:

- "resurslar" ;
- "xərclər",
- "nəticə"
- "səmərəlilik".

Göstərilən bu anlayışlar elmi və praktik istifadədə insan fəaliyyəti ilə yanaşı ilk növbədə istehsalda təqdim olunur. Yəni istehsal fəaliyyətində nə qədər resurslardan istifadə olunacaq, xərcələr nə qədər və nəticə nə olacaqdır ki, sonda görülən bu işlərin

səmərəli olub, olmadığı müəyyənləşdirmək üçün qiymətləndirilir. Müasir bazar iqtisadiyyatı şəraitində göstərilən hər bir iqtisadi kateqariyanın məzmununun və qarşılıqlı əlaqəsinin mahiyyətinin öyrənilməsi tələb edir.

Eyni zamanda hər bir təsərrüfat subyekti çalışır ki, öz fəaliyyətində maksimum dərəcədə səmərəli olsun. İqtisadi ədəbiyyatlarda səmərə və səmərəlilik anlayışları bir-birinin sinonimi kimi işlədilir. Bu baxımdan hesab edirik ki, hər şeydən əvvəl "səmərə" ilə "səmərəlilik" anlayışlarını aydınlaşdırmaq və ayırmaq lazımdır. Nəzərəi yanaşmalar göstərir ki, iqtisadi səmərə, maddi nemətlər istehsalında insan əməyinin nəticəsi kimi başa düşülür.

Lakin bununla belə səmərə özü həm maddi nemətlər istehsalında müəssisənin, həm də şəxsin işini hələ kifayət qədər xarakterizə etmir. Daha dolğun bir xarakterizə üçün səmərənin hansı xərclər miqdarında əldə edildiyini bilmək vacibdir. Yanaşmalar təsdiqləyir ki, eyni xərclərlə vahid səmərə və əksinə fərqli xərcləri ilə eyni səmərəni əldə edə bilməsi olduqca realdır. Buna görə də iqtisadi səmərə mütləq bir göstəricidir. Bu səmərəyə səbəb olan xərclərin mütləq dəyərləri ilə müqayisə olunarsa, səmərəlilik adlanan nisbi bir göstərici əldə edilir. Səmərəlilik iqtisadçılar tərəfindən yalnız mənfəət, gəlirlilik dərəcəsi kimi və çəkilən xərclər qarşısında hansı nisbətdə nə qədər məfəətin eldə edildiyini müəyyən etmək kimi qəbul edildiyindən nisbi göstərici kimi başa düşülür və qəbul edilir. Eyni zamanda səmərəlilik mənfəəət, gəlir, əlavə dəyər, məhsulun satışından əldə ediln xalis gəlir və s. ilə müqayisə olunan bilən göstərici olduğundan anlayışı çoxşaxəlidir.

Səmərəliliyin təmin edilməsi qarşıya qoyulan məslənin optimallaşdırılmasının təmin etməkdir. İdarəetmədən tutmuş istehsala qədər səmərəliliyinin artırılması problemi cəmiyyətin ən vacib məsələlərdən biridir. Səmərəlilik çox yönlüdür, xüsusən nəzərə alsaq ki, səmərə sözü hər hansı bir fəaliyyətin nəticəsində meydana gəlir. Buna görə də səmərə sözü iqtisadi, ekoloji, təşkilati, hüquqi, sosial, etik və digər mənaları verə bilir.

Səmərəlilik problemi məslənin optimallaşdırılması, xərclərin minimumlaşdırılması, məhdud resurslardan səmərəli istifadə etməni və s. kimi zəruri məsələləri əhatə etdiyindən hesab edirik ki, səmərəlilik bir iqtisadi kateqorya kimi iqtisadiyyatın bir nömrəli problemidir. Bəzən bir çox iqtisadçı iqtisad elmini səmərəlilyin öyrənilməsi haqqında elm kimi də hallandırırlar.

Ümumi yanaşmada qeyd etdik ki, səmərə əldə edilən nəticə ilə ölçülür. Aparılan təhlillər, onu deməyə əsas verir ki, müasir iqtisadi baxışlar "səmərəliliyi" hər hansı bir sistemin fəaliyyətinin nəticəsi kimi xarakterizə edir. Başqa sözlə hər bir iş nəticə ilə ölçülür. Nəticədə nəyə nail olunubsa bu onun səmərlilik əmsalıdır.

Müasir yanaşmalar təsdiqləyir ki, səmərəlilik insan fəaliyyəti nəticəsində, ilk növbədə istehsalda təqdim olunur və hesab edirik ki, ölçülə bilən bir iqtisadi göstəricidir. Belə ki, səmərəlilik son nəticə, mənfəət, əlavə dəyər, qənaət həm məcmu, həm də ayrı-ayrı elementlərin cəmi ilə ölçülə bilən bir göstərici kimi qəbul edilə bilər.

Tədqiqatın əvvəlində qeyd etdik ki, səmərəliliyə dörd aspektədən baxmaq əhəmiyyətli olardı. Onlardan resurslar və xərclərə birlikdə baxmaq məqsədəuyğundur. Resursların və xərclərin təsnifatı iqtisadi səmərəliliyin mahiyyətini aydınlaşdırmaq üçün böyük nəzəri və praktik əhəmiyyətə malikdir. Göstərilən bu iki amil dialektik cəhətdən bir-birinə bağlıdırlar, ümumi cəhətləri çox olduğu qədər eyni zamanda iqtisadi mahiyyətinə görə də bir-birindən fərqlənir. Formalaşma mənbəsinə görə, bölüşdürülmə xarakterinə görə birbaşa və ya dolayı şəkildə müqayisə olunacaq səviyyədə fərqlidir. İstehsal prosesində maddi, maddi-texniki, əmək, məlumat, maliyyələşdirmə mənbələri qarşılıqlı əlaqədədir.

Belə ki, resuslar adətən əmək vasitələri, kapial, investisiyalar (əsas fondlar) və əmək obyektləri (dövriyyə kapitalı), əmək ehtiyatları müəssisənin işçiləri fiziki və mənəvi

qabiliyyətləri, peşəkar bilik və bacarıqları ilə müəssisənin maddi ehtiyatları və ya resurslarıdır. Bu ehtiyyatları hərəkətə gətirmək üçün müəyyən xərclərin çəkilməsini önə sürür.

"Xərc" yanaşması son nəticə olarq hər hansı bir məhsulun istehsalı, xidmətin görülməsi üçün müəyyən istehsal xərclərinin olmasını zəruri edir. Belə hal isə "resurs-xərc" yanaşması, birləşdirərək istifadə olunan mənbələrin həcmini, istehsal prosesinin son nəticəsini əks etdirir ki, bu da xərclər baımından səmərəliliyi qiymətləndirməyə imkan verir.

Səmərəliliyin qiymətləndirilməsinə dair müasir yanaşmalar onun müxtəlif təsnifatları ilə əlaqələndirilir. Ən sadə formada səmərəliliyin qiymətləndirilməsi aşağıdakı kimi ola bilər:

$$Səmərəlilik = \frac{Çəkilən\ xərc}{əldə\ edilən\ nəticə}. \quad (1)$$

Hesab edirik ki, iqtisadiyyatda, iqtisadi nəzəriyyədə və iqtisadi münasibətlərdə səmərəlilik nədir, onun mahiyyətini və məzmununu nələr təşkil etdiyini ilk növbədə öyrənmək üçün tədqiqatçı almilərin bununla bağlı fikirlərinə nəzər salamaq əhəmiyyətlidir.

Səmərəliyin mahiyyəti və məzmunu ilə bağlı nəzəri baxışlar

Azərbaycan iqtisadçılarından M.X.Meybullayev tədqiqatlarında səmərə anlayışına aşağıdakı kimi göstərir: "Səmərə – İstehsal prosesində həyata keçirilən fəaliyyətin nəticəsidir". Səmərlilyi işə aşağıdakı kimi göstərir. Səmərəlilik – istehsal fəaliyyəti prosesində alınan nəticə ilə ona çəkilən xərclərin dəyər ifadəsində müqayisə edilməsini əks etdirən anlayışdır [1, s. 181-182]. Z.Ə.Səmədzadə isə iqtisadi səmərəni iqtisadi fəaliyyətin nəticələri ilə həmin nəticələrin alınması və istifadə edilməsi üçün çəkilmiş xərclər arasındakı fərq kimi göstərir. İqtisadi səmərəlilik sistemin fəaliyyəti prosesində iqtisadi effekt yaratmaq və həqiqətən bu cür effekt yaratma qabiliyyətidir. 2) resursların paylanmasını dəyişdirməklə iqtisadi subyektlərdən birinin vəziyyətinin yaxşılaşması, digərlərinin vəziyyətinin isə pisləşməməsinin mümkün olmamasıdır [2, s. 826-828].

Məhşur ABŞ iqtisadçılarından N.Q.Menkyu isə səmərəliliyi məhdud resurslarından maksimum nemətlərin yaradılması kimi başa düşülməsini təklif edir. İqtisadçı alim hətta inkişaf etmiş ölkələrin digər ölkələrlə müqayisədə irəli çıxmasını da səmərəliliklə əlaqələndirir. Belə ki, N.Q.Menkyu ABŞ-la digər iqtisadi baxımdan zəif ölkənin vəziyyətini səmərəlilik baxımından vəziyyətini bir saat iş vaxtı müddətində istehsal edilən əmtəə və xidmətlərin kəmiyyətləri səviyyələrindəki fərqlərə çevrildiyini göstərir [3, s. 124-125].

Ölkə iqtisadçılarından Q.Y. Əbdülsəlimzadə isə iqtisadi səmərəliliklə sosial ədalətliliyin düzgün, dəqiq nisbətlərinin müəyyənləşdirilməsi ən optimal variant kimi qiymətləndirilə bilər və bütövlükdə cəmiyyət səmərəliliklə ədalətlilik arasındakı seçimi nə qədər mürəkkəb,çətin və eləcədə riskli olsa da, mütləq baş verməli olduğunu göstərir [4, s. 165].

Keçmiş sovet dövrünə aid olan iqtisadi ədəbiyyatlarda iqtisadi səmərəlilik nəticə ilə onun əldə edilməsinə sərf olunan xərclər (resurslar) arasındakı nisbətlə təyin olunurdu.

Belarus iqtisadçılarından T.S.Vertinskaya səməlilk ilə nəticəni sinonim kimi təqdim edir. O göstərir ki, iqtisadi səmərə iqtisadi fəaliyyətin nəticəsidir [5, s. 14]. Başqa bir iqtisadçı K.A.Rayçkiy müəssisənin fəaliyyətinin son nəticəsi məhsul istehsalıdır və məhsul satışının həcmi mənfəət şəklində olur ki, bu da müəssisə fəaliyyətində səmərəlilkdir [6, s. 136].

E.N.Kərimov isə öz tədqiqatlarında qeyd edir ki, iqtisadi fəaliyyətin nəticələri və onun gedişində çəkilən xərclərlə bağlı ən ümumi, əhəmiyyətli və sabit əlaqələrin və

münasibətlərin məcmusunu ifadə edir. Səmərəlilik iqtisadiyyatda istehsal amillərindən istifadəsinin ümumiləşdirilmiş nəticəsini, birləşməsinin keyfiyyətini və məhsuldarlığını təcəssüm etdirir. İqtisadi kateqoriya olaraq səmərəlilik iqtisadi göstəricilərin vahid keyfiyyət və kəmiyyət xarakteristikasını təmin edir. Səmərəlilik bütöv təkrar istehsal prosesinə və bütün mərhələlərinə xasdır: istehsal, bölgü, mübadilə və istehlakda çıxış edir [7, s. 211].

Təbii ki, səmərəlilyin mahiyyəti və məzmunu ilə bağlı yanaşmaları daha da genişləndirmək və artırmaq olar. Bu baxımdan müasir dövrdə olan baxışlara, yanaşmalara nəzər yetirmək də məqsədə müvafiqdir.

Araşdırmalar təsdiqləyir ki, iqtisadiyyatın ən ümumi konsepsiyası kimi səmərəlilik kateqoriyası daim inkişaf edir və buna görə də məzmunu tədricən dəyişir və mürəkkəbləşir. Hesab edirik ki, yalnız istehsalın səmərəsini məhsul və müvafiq xərclərin nisbəti ilə əks etdirən səmərəlilik iqtisadi parametrlərlə məhdudlaşmır, həm də xarici mühitlə münasibətlərin müxtəlif xüsusiyyətlərini, məsələn, öhdəliklərin yerinə yetirilməsi, uyğunlaşma, rəqiblərlə qarşılıqlı əlaqə kimi xüsusiyyətləri əhatə edir, xarici mənfi və müsbət xarici təsirlərin olmasını da özündə cəmləşdirir.

İqqtisadi nəzəriyyədə səmərəlilik daxili və xarici səmərəliliyi, həm də statik və dinamikliyi ayırd edir. Daxili səmərəlilik hər hansı bir müəssisənin fəaliyyətini daxili mənbələr hesabına yəni çəkilən xərclərlə əldə edilən məhsul və ya nəticə nisbətinə əsaslanan qiymətləndirməsini əks etdirir.

Xarici səmərəlilik sosial ehtiyacların strukturunu, onların müəssisə tərəfindən təmin olunma dərəcəsini, istehsal olunan məhsulun faydalılıq səviyyəsini, şirkətin bazardakı payını və dəyişmə istiqamətini, müəssisənin məhsullar və mənbələr üzrə bazarlardakı potensialını əks etdirir.

Statik səmərəlilik, istehsal bazasının tam səviyyəli keyfiyyət yeniləməsi istisna olmaqla, əməliyyat və taktiki məsələlərin həll edildiyi qısa müddətdə bir müəssisənin fəaliyyətini qiymətləndirməyin və idarə etməyin əsas formasıdır.

Dinamik səmərəlilik, uzun müddətdə mənbələrdəki dəyişkən dəyişikliklər və texnologiyalardakı dəyişikliklər nəticəsində daha yaxşı nəticələrin əldə edilməsini nəzərdə tutur. Dinamik effektivlik uzun müddət müəssisənin yüksək rəqabət qabiliyyətini qorumağın əsas yoludur.

Səmərəlilik bəzən iqtisadi ədəbiyyatlarda alt sistemlərin tərkibinə görə (obyektlərə görə) təsnif edir.

- hədəf (funksional),
- texnoloji (resurs) və
- iqtisadi səmərəlilik.

Hədəf (funksional) səmərəlilik tədqiq olunan sistemin işinin təyin olunan məqsədə uyğunluq dərəcəsi kimi başa düşülür. Müəssisə çoxfunksiyalı bir obyekt olduğundan və bir çox sosial-iqtisadi subyekt tərəfindən gözləntilərin obyekti olduğu üçün hədəf səmərəliliyi konsepsiyası bu subyektlərin müxtəlifliyinə və baxışlarına uyğun olacaqdır.

Texnoloji və ya resurs səmərəliliyi, bir tərəfdən, müxtəlif növ məhsulların istehsal həcmləri ilə digər tərəfdən xərclərin həcmi arasındakı nisbətdir.

Səmərəlilik tələb olunan (arzu olunan) faktiki və ya gözlənilən nəticənin əldə olunma dərəcəsi, hədəfə çatma dərəcəsi kimi başa düşülür.Prosesin səmərəliliyi məqsədə çatmaq qabiliyyəti, məqsədə çatma dərəcəsidir.

Bəzən iqtisadi ədəbiyyatlarda keyfiyyət və səmərəlilik göstəriciləri eyni və ya birbirinin sinonimi kimi göstərilir. Keyfiyyət və səmərəlilik göstəriciləri arasındakı fərq ondan ibarətdir ki, səmərəlilik göstəriciləri prosesi və sistemin fəaliyyətinin təsirini, keyfiyyət göstəriciləri isə sistemin məqsədinin həyata keçirilməsinə uyğunluğunu xarakterizə

edir.

Səmərəlilik iqtisadi kateqoriya olaraq qeyri-bərabər bir daxili quruluşa malikdir. İqtisadi münasibətlər sistemini ifadə edən iqtisadi səmərəliliyi iqtisadiyyatın daxili quruluşuna görə bir çox sahəyə aid edilə bilir: İstehsal üzrə səmərəlilik, əmək üzrə səmərəlilik, bölgü üzrə səmərəlilik, idarəetmə, investisiya, innovasiya, investisiya, İqtisadi artım və s. Qeyd edək ki, sadlanan bu göstəricilərin hamsı bir-biri ilə qarşılıqlı əlaqədədir və müəyyən dərəcədə bir-birini qarşılıqlı şərtləndirir. Həmçinin iqtisadi sistemin ümumi keyfiyyətini,vəziyyətinin ümumi qiymətləndirməsini müəyyən edir. Digər tərəfdən, bu elementlərin hər biri iqtisadiyyatın müəyyən bir sahəsində müstəqil rol oynaya bilər, digər iqtisadi kateqoryalar ilə ziddiyyətə girə bilər, iqtisadi sistemin xarici mühitlə inkişafını və qarşılıqlı təsirinin fərqli cəhətlərini ifadə edə bilər.

Səmərəlilik kateqoriyasının məzmununun elementlərini və strukturunu nəzərə alaraq onu da qeyd etmək lazımdır ki, xarici mühitlə əlaqənin xüsusiyyətlərinə əlavə olaraq sosial səmərəni də əks etdirir. Buna görə səmərəliliyin məzmunu tez-tez iki komponenti – iqtisadi və sosial baxımından nəzərdən keçirilir və buna görə iqtisadi sistemin iqtisadi səmərəliliyi və sosial səmərəliliyi vurğulanır. Buna görə də bir çox iqtisadi ədəbiyyatlarda səmərəliliyi iki yerə ayırırlar:

- iqtisadi səmərəlilik;
- sosial səmərəlilik.

Beləliklə də iqtisadi səmərliliyin ölçü meyyarı kimi ona çəkilən xərclər, sosial səmərəlilik isə sosial parametrlərə xarakterizə ifadə olunur. Nəticədə də bu iki göstərici birləşərək "sosial-iqtisadi səmərəlilik" anlayışını meydana gətirmişdir.

İstehsal səmərəliliyinin qiymətləndirilməsi iqtisadi səmərəliliyin bir meyarından istifadə olunmasını nəzərdə tutur, iqtisadiyyatın bütün sahələri üçün eyni olmalıdır. Beləliklə, istehsalın iqtisadi səmərəliliyinin ümumi meyarı əməyin məhsuldarlıq göstəricisidir. Digər bir göstərici kimi mənfəətin artması ola bilər. Eyni zamanda səmərəlilik göstəricisi istehsalın stimullaşdırlmasına daxili resursların səfərbərliyə alınmasına xidmət etməlidir. Beləliklə də yanaşmalar göstərir ki, səmərəilik iqtisadi kateqorya kimi makro, müəssisə və sosial sferada özünü biruzə verir.

Səmərəlilik kateqoriyasındakı məzmundakı ən böyük fərqlər, iqtisadi sistemin vəziyyəti (tarazlıq, transformasiya) ilə əlaqələndirilir. Qısası yaxın vaxtlara qədər əsasən ənənəvi iqtisadi nəzəriyyədə hökm sürən yanaşmaya uyğun olaraq səmərəlik kateqoriyasının tarazlıq sistemləri konsepsiyası çərçivəsində öyrənilməsinə yanaşma da maraqlıdır.

Makro, mikro və sosial baxımdan səmərəlilyin göstəriciləri

Səmərəlilik anlayışında həlledici rol bazar iqtisadiyyatının fəaliyyətinin ayrılmaz tərkib hissəsi olması və onun fəaliyyətinin əsas prinsiplərini başa bazar iqtisadiyyatı baxımından düşməkdir. Bunun üçün böyük idrak və metodoloji rol oynayan L.Valras tərəfindən hazırlanmış ümumi iqtisadi tarazlıq konsepsiyası xüsusilə maraqlıdır. Bu yanaşma V.Pareto tərəfindən daha da işlənib təkmilləşdirilməiş iqtisadiyyatda maksimum səmərəlilik şərtləri ilə ümumi tarazlığa nail olmaq üçün şərtlərini müəyyən etməyə çalışmışdır. Makroiqtisadi baxımdan istənilən səmərəlilik ilk növbədə makroiqtisadi tarazlığı qorumaqla həyata keçirilməlidir. Bununla bağlı K.Errou, J.Debre, O.Lanqe, D.Xiksin və digər məhşur iqtisadçıların yanaşmaları mövcuddur. Ümumən makroiqtisadi səmərliliyin göstəriciləri kimi aşağıdakılar çıxış edir:

- Adambaşına düşən xalis məhsulda artım;
- Vahid xalis məhsul istehsalına sərf olunan resurslar və xərclər;
- Əlavə vahid məhsul istehsalının əsas və dövriyyə kapitalının orta illik dəyərinə

nisbəti;

- Məhsulun bir manatına düşən dövriyyə və istehsal xərcləri və s.

Müəyyən dövrlərdə ictimai-siyasi sabitlik iqtisadi səmərəliliyin əldə edilməsindən, çox əhəmiyyətli bir hədəf kimi qəbul edilə bilər. Belə olan halda bu məqsədləri birləşdirən və ziddiyyətləri aradan qaldıracaq xüsusi bir siyasət hazırlanmalıdır. Resursların və hazır məhsulların bölüşdürülməsi, müəyyən mənada tələbin səviyyəsini müəyyən edirsə, istehsalın həcmi, kapital qoyuluşları, istehsal olunan məhsula qiymətlərin və işçilərə əmək haqqlarının təyin edilməsi müəssisənin fəaliyyətindən asılı olmayaraq qərar verilir. Buna görə müəssisələrin idarəetmə strukturlarının səyləri yalnız planın yerinə yetirilməsinin yollarını və vasitələrini tapmaq, əmək məhsuldarlığını artırmaq və daxili amillər səbəbindən məhsulun maya dəyərini azaltmaq məqsədi daşıyırdı. Təbii ki, bu şərtlər daxilində idarəetmə səmərəliliyinə ən çox yalnız ümumi kateqoriya elan edilmiş istehsal səmərəliliyinin bir elementi kimi baxılırdı. Bu baxımdan müəssisə səviyyəsində səmərəliliyinin göstəriciləri və ya səmərəliliyin meyyarları kimi aşağıdakılar çıxış edir:

- Xalis məhsul vahidinə çəkilən resursların və xərclərin həcmi;
- Xalis istehsal baxımından əmək və kapital məhsuldarlığının dinamikası;
- Xalis istehsal artımının kapital qoyuluşlarına nisbəti;
- İstehsal baxımından kapital qoyuluşlarının geri qaytarılma müddəti;
- İstehsal istehsalın rentabelliyi mənfəət şəkilində əsas və dövriyyə kapitalının orta illik dəyərinə nisbəti;
- Bir manatlıq məhsulun maya dəyərinin azaldılması və s.

Səmərəliliyin məzmunda iqtisadi və sosial komponentlərin şərhi də birmənalı deyildir. Lakin ümumi mənada deyə bilərik ki, iqtisadi səmərəlilik idarəetmənin iqtisadi məqsədini - xərcləri minimuma endirərkən nəticəni maksimum dərəcədə artırmağı ifadə edirsə, sosial səmərəlilikdə - sosial hədəfləri ifadə edir. İqtisadi səmərəlilik az xərclə daha yüksək nəticənin əldə edilməsidir. Sosial-iqtisadi səmərəlilik isə insanların sağlamlığına, ətraf mühitə zərər vurmadan az xərclə daha çox nəticənin əldə edilməsidir. Eyni zamanda, bəzi hallarda iqtisadi və sosial hədəflər bir-birinə uyğundur və biryönümlüdür, lakin daha çox bir-birinə ziddir və hətta qarşılıqlı olaraq istisna edirlər.

Nəzəri yanaşmalar göstərir ki, sosial səmərəliliyi qiymətləndirmək üçün istifadə olunan göstəricilər:

- Əhalinin nominal və real gəlirlərinin səviyyəsi;
- Əhalinin istehlaka və qənaətə marjinal meylliklərinin həddi;
- Gəlir bölgüsünün bərabərlik səviyyəsi (iqtisadi cəhətdən fəal əhalinin real gəlir baxımından kvartil, kvantil və desil bölgüsü);
- Sosial xidmətlərə əhalinin əlçatanlıq səviyyəsi (səhiyyə, təhsil, bədən tərbiyəsi, istirahət zonalarında aktiv istirahət və onun növləri və s.);
- Əhali üçün yüksək keyfiyyətli mənzil, su, qida və müxtəlif müasir sosial əhəmiyyətli funksional istiqamətlərin mövcudluğu və faydaları.

Bir çox nəzəriyyəçi alimin əsas yanaşmalarından biri də resursların səmərəli bölgüsü təmin olunmasıdır. Bunun üçün də idarəetmənin də maksimum dərəcədə şərtlərə uyğun hərəkət edməzi zəruridir.

Nəticə

Beləliklə, səmərəlilik kateqoriyasının məzmunu əsasən tarazlıq konsepsiyasına və idarəetmənin səmərəliliyinin artırılması probleminə müvafiq olaraq tarazlıq vəziyyətinə olması müəüm şərt olaraq qarşıya çıxmışdır. "Resurs"larla bağlı yanaşması əldə edilmiş

səmərənin istifadə olunan kapitalla müqayisə edilməsini əhatə edir. Bu yanaşma səmərəliliyi iqtisadi sistemin qarşıya qoyulmuş iqtisadi hədəflərə çatmaq üçün mövcud potensialdan istifadə etmə qabiliyyəti kimi qəbul etməyimizə imkan verir."Xərc" yanaşması əldə edilmiş səmərəinin istehsal xərclərinə (istehlak edilmiş kapitala) uyğunluğunu nəzərdə tutur. Müəyyən iqtisadi fəaliyyət sahələrini qiymətləndirərkən, səmərəlilik istehlak edilmiş resursları nəzərə aldığından xərclər üzrə yanaşma əsaslandırılmalıdır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. M.X.Meybullayev. Makroiqtisadiyyata giriş. Bakı 2011 səh. 480
2. Z.Ə.Səmədzadə. İqtisadi ensiklopediya. Bakı-2009 səh. 2086
3. Мэнкью Н.Г. Принципы макроэкономики. 4-е изд. / Пер. с англ. — СПб.: Питер, 2012. — 544 с
4. Q.Y.Əbdülsəlimzadə Mikroiqtisadiyyat-Makroiqtisadiyyat s. 303.Bakı-2014;
5. Вертинская, Т.С. Социально-экономическая эффективность внешнеэкономической деятельности на региональном уровне. Минск: Право и экономика, 2005. – 128 с
6. Раицкий, К.А. Экономика предприятия: учебник / К.А.Раицкий. – М.: ИТК «Дашков и К», 2002. – 1012 с.
7. E.Kərimov, B.Osmanov. İqtisadi nəzəriyyə Bakı -2010 səh. 631

Ясемен Гулузаде

СУЩНОСТЬ И СОДЕРЖАНИЕ ЭКОНОМИЧЕСКОЙ ЭФФЕКТИВНОСТИ

Резюме

В статье рассмотрены современные подходы, раскрывающие сущность эффективности. Также в исследовании на основе анализа данных, выражающих экономическую эффективность было показано, что затраты и экономия времени играют важную роль в повышении эффективности предприятий. При этом в исследовательской работе дается конкретное объяснение ряда понятий и обобщаются теоретические подходы, связанные с эффективностью.

Цель – исследование и обобщение современных подходов к сущности и содержанию эффективности.

Методология – в исследовательской работе использованы методы сравнительного анализа, логического обобщения, системного подхода, анализа.

Результат – в исследовании дается конкретное объяснение ряда понятий и обобщаются теоретические подходы к эффективности.

***Ключевые слова**: эффективность, затраты, результат, уровень номинальных и реальных доходов населения, социальный эффект*

Yasemen Quluzade
Dissertation of Azerbaijan Cooperative University

THE ESSENCE AND CONTENT OF ECONOMIC EFFICIENCY

Summary

The article considers modern approaches that reveal the essence of efficiency. Also in the study, based on the analysis of data expressing economic efficiency, it was shown that costs and time savings play an important role in improving the efficiency of enterprises. At the same time, the research paper provides a concrete explanation of a number of concepts and summarizes theoretical approaches related to efficiency.

Purpose – research and generalization of modern approaches to the essence and content of efficiency.

Methodology – comparative analysis, logical generalization, systematic approach and analysis methods were used in the research work.

Findings – the study provides a concrete explanation of a number of concepts and summarizes theoretical approaches to efficiency.

Keywords: *productivity, costs, result, level of population numinol and real income, social benefit*

UOT: 33, 332.3

Abbas Səfərov
Aqrar Tədqiqatlar Mərkəzi, dissertant
e-mail: abbas211@mail.ru

AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATININ TRANSFORMASİYASI STRATEGİYASININ KONSEPTUAL ASPEKTLƏRİ

Məqalədə Azərbaycanda kənd təsərrüfatının transformasiyası prosesinin kompleks təhlili və onun rəqabət qabiliyyətinin qiymətləndirilməsi əsasında keyfiyyətli artıma və institusionallaşmanın səmərəliliyinin artırılmasına maneçilik törədən neqativ sistemyaradan amillər aşkar edilmişdir. Eyni zamanda, müxtəlif strategiyaların məzmunu və nəticələrinin müəyyənləşdirilməsinə əsaslanaraq strateji idarəetmə obyektinin iqtisadi modeli verilmişdir.

Məqalədə aqrar sferanın inkişafını təmin edən əsas məqsədlərin kombinasiyasından ibarət məqsədlər ağacı və onun elementlərinin fəaliyyətinin təşkil edilməsi əsasında aqrar sahədə transformasiya proseslərinin strateji idarə edilməsinin konseptual modeli tərtib edilmişdir.

Məqsəd - aqrar sahənin inkişafını təmin edən əsas məqsədlərin kombinasiyasından ibarət məqsədlər ağacının qurulması və aqrar sahədə transformasiya proseslərinin strateji idarə edilməsinin konseptual modelinin tərtib edilməşidir.

Metodologiya - tədqiqat işində iqtisadi-statistik və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

Tədqiqatın nəticələri – müxtəlif strategiyaların məzmunu və nəticələrinin müəyyənləşdirilməsinə əsasında strateji idarəetmə obyektinin iqtisadi modeli verilmiş, aqrar sahədə transformasiya proseslərinin strategi idarə edilməsinin konseptual modelinin əsas üstünlüklrə qeyd edilmişdir.

Açar sözlər: *kənd təsərrüfatı, transformasiya, strategiya, səmərəlilik, məqsədlər ağacı, konseptual model*

Giriş

Bazar münasibətlərinin institusionallaşdırılması şəraitində kənd təsərrüfatının transformasiyası strategiyası onun iqtisadi inkişafının yeni keyfiyyət mənbələrinin şərt və amillərindən istifadə etməklə kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsinin müsbət dinamikasını təmin etmək imkanı ilə xarakterizə olunur. Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsinin bu müsbət dinamikası iqtisadi inkişafın yeni keyfiyyət mənbələrinin, o cümlədən ölkə ərazisində lokallaşdırılmış sosial, təbii resurs, investisiya və infrastruktur potensialının tarazlaşdırılmış təkrar istehsalının həyata keçirilməsi əsasında təmin edilə bilər. Ümumilikdə, strateji dedikdə, ölkə siyasətinin uzunmüddətli aspektində iqtisadi inkişafın məqsəd və vasitələrinin nisbəti başa düşülür [13, s.53-57].

Bir sıra ədəbiyyatlarda strategiyanın konsepsiyası anlayışının aşağıda qeyd edilən beş istiqamətin birləşməsi kimi təyin edilməsi təklif edilir:

- fəaliyyət planının strateji məqsədləri;
- rəqiblərə hiylə işlətməklə onların fəaliyyətinin qarşısının alınmasına planlaşdırılmış hərəkətlərin ört-basdır edilməsi;
- fəaliyyətin ardıcıllığı, yəni plan həyata keçirilə bilər, lakin istənilən halda fəaliyyət ardıcıllığının təmin edilməsi;
- ətraf mühitdəki mövqe, yəni əhatə dairəsi ilə əlaqə səviyyəsinin müəyyən edilməsi;

- perspektivə nail olunması, yəni lazımi vəziyyəti öncədən görə bilməklə mövcud şərait üçün istiqamətləndirilməsi [9, s. 221-235].

İqtisadiyyatın sahə aspekti baxımından strateji idarəetmə insan potensialına söykənən fəaliyyəti əks etdirir, kənd təsərrüfatı məhsulu istehsalçılarını təsərrüfat subyektlərinin və idarəetmə obyektlərinin iqtisadi münasibətlərinin uyğunlaşdırılması, bazar mühitinin inkişafı, təsərrüfat formalarının müxtəlifliyi, uzunmüddətli perspektivdə məqsədə nail olmaq üçün rəqabət üstünlüklərinin artırılması vasitəsilə istehlakçıların sorğularına orientasiya edir.


Kənd təsərrüfatının inkişaf strategiyaları və onların tətbiqindən gözlənilən nəticə

Strategiyanın formalaşdırılması kənd təsərrüfatı istehsalının tətbiq edilməsi sistemlərinin çoxformalı xüsusiyyətləri şəraitində həyata keçirilir, buradan isə onların təsnifləşdirilməsinin çoxcəhətliliyinin işlənilməsinin vacibliyi şərtlənir (şəkil 1) [10, s.168; 12, s.156-159]. Azərbaycanda kənd təsərrüfatının transformasiyası prosesinin kompleks təhlili və onun rəqabət qabiliyyətinin qiymətləndirilməsi keyfiyyətli artıma və institusionallaşmanın səmərəliliyinin artırılmasına maneçilik törədən neqativ sistemyaradan amilləri aşkar etməyə imkan vermişdir ki, bunlara da əsas fondların yüksək dərəcədə aşınması; əsas kapitala yönəldilən investisiyaların aşağı səviyyədə olması; qeyri-effektiv məşğulluq, əməyin zəif motivasiyası və əmək bazarının qeyri-qənaətbəxş vəziyyəti səbəb olur. Lakin, qeyd edək ki, Azərbaycanda kənd təsərrüfatının səmərəli inkişaf strategiyasının seçilməsi onun bilavasitə güclü və zəif tərəflərilə şərtləndirilir. Beləliklə, kənd təsərrüfatının fəaliyyətinin SWOT təhlini aparmaqla, onun nəticələrinə təsir edə biləcək əlverişli və əlverişsiz xarici hadisələri üzə çıxarmaq mümkündür (şəkil 2).

Aqrar sahənin mövcud inkişaf strategiyasının təhlili göstərir ki, burada əsas məqsəd bütün kənd əhalisinin həyat keyfiyyətinin yüksəlməsində istehsal potensialının modernləşdirilməsi əsasında kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsidir. Azərbaycanda aqrar sahənin inkişafının prioritet istiqamətləri həm xüsusi spesifikaya malikdir, həm də bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir, lakin onun subyektlərinin əksər hissəsi iqtisadiyyatın resurs-enerji qənaətliliyi əsasında modernləşdirilməsini əsas istiqamət olaraq seçirlər. Belə ki, məsələn, kənd təsərrüfatı və emalı sənayesi məhsullarının innovasiya səviyyəsi və rəqabət qabiliyyətinin artırılması şərtləri əsasında istehsal potensialının gücləndirilməsinin prioritet istiqamətləri müəyyən edilmişdir ki, bunlara da kənd təsərrüfatı istehsalçılarının yeni texnika, maşın və avadanlıqlarla təmin edilməsi səviyyəsinin yüksəldilməsi və aqroservis xidmətləri bazarının genişləndirilməsi; maliyyəyə çıxışın asanlaşdırılması, yerli və xarici investorların kənd təsərrüfatı istehsalına daxil olmasını motivasiya edən əlverişli şəraitin yaradılması; innovativ texnologiyaların tətbiqilə beynəlxalq standartlara uyğun kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və infrastrukturun inkişafı əsasında istehsalçıların yerli və xarici bazarlara çıxışının asanlaşdırılması; istehsal vasitələri bazarının inkişafı və xidmətlərlə təminat səviyyəsinin yüksəldilməsi; aqrar sahədə dövlət tənzimlənməsi və biznes mühitinin təkmilləşdirilməsi; regionlarda məşğulluğun artırılması və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə təkan verən alternativ fəaliyyət sahələrinin inkişafı; kənd təsərrüfatı əkinlərinin vəziyyətinin aqrokimyəvi monitorinqinin tədqiqatı və s. aiddir.

Fikrimizcə, bəzi ölkələrin nisbətən yüksək əlavə dəyəri olan xidmətlər sektoruna keçid etməyə cəhd etməsinə baxmayaraq kənd təsərrüfatı sektorunda sahədaxili modernləşdirilmədən əldə ediləcək potensial faydanı nəzərdən qaçırmaq olmaz. Halbuki, digər inkişaf etməkdə olan ölkələrdə əmək məhsuldarlığının artırılması hesabına iqtisadiyyatda

aparılacaq struktur dəyişikliklərini təşviq etməkdə kənd təsərrüfatı sektoru mühüm rol oynayır. Belə ki, sistemli şəkildə aqrar sahənin transformasiyası həm kənd təsərrüfatının ilkin sektorlarında məhsuldarlığı artırır, həm də kənd təsərrüfatı məhsullarının sənayeləşməsinə və emalına ciddi təkan verir, bu da istesal sahəsində məhsulların istehsalat-satış zəncirlərinin inteqrasiyası prosesini asanlaşdırır.



Şəkil 1. Kənd təsərrüfatı sferasında strategiyalar: növləri, məzmunu və tətbiqindən gözlənilən nəticə

Qeyd: [7, s.97-115; 8, s. 76-81] əsasında müəllif tərtib etmişdir

Daxili mühit	Xarici mühit
Üstünlüklər (güclü tərəflər) 1.İqtisadiyyatın diversifikasiyasının nisbətən yüksək səviyyəsi 2.Əhalinin kənd təsərrüfatı və əkin torpaqları ilə yüksək təminatı 3.Torpaqların yüksək təbii münbitliyi 4. Azərbaycanın meyvə, tərəvəz, çay və üzüm yetişdirmədə regional üstünlüyü 5. Kiçik təsərrüfatçılıq formalarının inkişafı 6. Ölkələr arası ticarət əlaqələrinin inkişafında coğrafi mövqeyinin əlverişliliyi 7. Kənd təsərrüfatı mütəxəssislərinin keyfiyyətli hazırlanması təminatının mövcudluğu	Çatışmazlıqlar (zəif tərəflər) 1. Rayonların sosial-iqtisadi inkişaf səviyyəsinə görə fərqləndirilməsi 2. Texniki və texnoloji sənayenin geriliyi 3. Menecmentin yüksək ixtisas səviyyəsinin nisbətən aşağı olması 4. Kəndlərdə işsizliyin yüksək səviyyəsi 5. Kənd əhalisinin aşağı gəlir səviyyəsi 6.Marketinq və logistika infrastrukturunun inkişaf etməməsi
Əlverişli imkanlar 1. Mülkiyyət hüquqlarının müdafiəsi institutlarının inkişafı 2. Qonşu və xarici ölkələrlə qarşılıqlı tərəfdaşlıqdan toplanmış potensial 3. Aqrar iqtisadiyyatın innovasiyalı inkişaf yoluna keçməsi üzrə vahid strategiyanın işlənilməsi əsasında innovasiya fəaliyyətinin aktivləşdirilməsi 4. Xarici investisiyaların cəlb edilməsi	Potensial təhlükələr 1. İşğaldan azad olunmuş ərazilərdə dövlət idarəçiliyi üzrə mövcud çətinlər 2. Kənd təsərrüfatı istehsalının təbii amillərdən asılılığı 3. Kənd təsərrüfatı məhsullarının qiymət dispartetinin daha da gücləndirilməsi 4. Kənd təsərrüfatı istehsalçılarının təbiət və s. hadisələrdən sığortalanmaması

Şəkil 2. SWOT təhlilinin cəmlənmiş matrisi
Qeyd: müəllif tərəfindən hazırlanmışdır

Kənd təsərrüfatı sektorunda məhsuldarlığın aşağı səviyyədə olmasına baxmayaraq, ümumi işçi qüvvəsinin əsas hissəsi hələ də bu sahədə məşğuldur, bu sektorda məhsuldarlığın artırılması potensialı özündə milyonlarla kiçik torpaq sahibinin və kənd əhalisinin yoxsul vəziyyətdən çıxmasına əlverişli imkan yaradır. Bu proses, həmçinin, kənd təsərrüfatı istehsalı prosesində təbii ehtiyatlardan istifadənin səmərəliliyinin artırılması hesabına dayanıqlı inkişafa imkan yaradır ki, bu da öz növbəsində, mənfi xarici təsirləri azaldır.

Son on il ərzində tariflərin ləğvi sayəsində ticarət xərclərinin əhəmiyyətli dərəcədə azalmasına baxmayaraq, Mərkəzi Asiya ərazisində yerləşən keçmiş sovetlər ittifaqı ölkələrində qeyri-tarif ticarət xərcləri nisbətən yüksək olaraq qalır. Reytinq tərtib edilərkən malların bir hissəsinin ümumi ixrac və idxal prosesi çərçivəsində prosedurların üç dəsti: sənədləşmə tələblərinə riayət olunması, sərhəd nəzarəti və daxili daşımalar ilə bağlı olan vaxt və xərclər (tariflər istisna olmaqla) ölçülür.

2002-ci ildən etibarən mütəmadi olaraq dünya ölkələrinin (190 ölkədə) 11 göstərici əsasında müqayisəli təhlili aparılır və onların əldə etdiyi göstəriciləri əsasında reytinq cədvəli tərtib edilir. Dünya Bankının "Diong Business 2020" hesabatında biznesin asan aparılması istiqamətindəki təhlilin nəticəsinə əsasən 2019-cu ildə Azərbaycan bu göstəriciyə görə 190 ölkə sırasında 25-ci yer almış və 96,2 bala qədər yüksəlmişdir. Bu göstəriciyə görə 2020-ci ildə Azərbaycan 9 pillə reytinqini aşağı salmış və 34-cü sırada yer almışdır.


Keçmiş sovetlər ittifaqı və Avropa-Mərkəzi Asiya ölkələrində biznesin asan aparılması göstəriciləri üzrə fərqli reytinq sıraları əldə edilmişdir. Məsələn, müqayisə edilən ölkələr içərisində kreditin alınması üzrə 1-6-cı yerlərdə Azərbaycan -100 bal və ya 1 pillə, Gürcüstan -85 bal və ya 15-ci pillə, Rusiya-80 bal və ya 25-ci pillə, Ukrayna-75 bal

və ya 37-ci pillə, Avropa-Mərkəzi Asiya ölkələri-72,2 bal və Belarus-50 bal və ya 104-cü pillədə yerləşmişlər. Kreditin alınması göstəricisi üzrə bu ölkələr içərisində Türkiyə və Polşa hər biri 37 bal almışlar [15, s.30-35].

Tədqiqat işi kənd təsərrüfatının transformasiyası strategiyasının konseptual aspektlərini və onların reallaşdırılması mexanizmini əsaslandırmağa imkan vermişdir ki, bu da institusional parametrlərin keyfiyyətli inkişafının göstəricisidir.

Aqrar sahənin inkişafının məqsədlər ağacı

Əsas məqsədə nail olmaq, gələcəkdə aqrar sahənin inkişafına təkan verə biləcək ölkənin resurs potensialını müəyyənləşdirən özəl hədəflərin reallaşdırılmasını nəzərdə tutur. Beləliklə, aqrar sahənin inkişafını təmin edən formalaşdırılmış əsas məqsədlərdən ayrı-ayrı məqsədlər irəli gəlir və onların kombinasiyasından ibarət məqsədlər ağacını tərtib etmək olar (şəkil 3).



Şəkil 3. Aqrar sahənin inkişafının məqsədlər ağacı
Qeyd: müəllif tərəfindən tərtib edilmişdir

Aqrar sahənin məqsədlər ağacının elementləri aşağıdakı məzmuna malikdir.

1. Kənd təsərrüfatı və emal sənayesinin istehsal potensialının modernləşdirilməsi-mütərəqqi texnika və texnologiyaları əldə etməklə ərzaq təhlükəsizliyinə və iqtisadiyyatın diversifikasiyasına nail ola bilən, damazlıq heyvandarlığın,elit toxumçuluğun inkişafını həyata keçirmək imkanına malik olan dövlət-özəl informasiya təminatı sisteminin yaradılması ilə rəqabətqabiliyyətli innovativ-özünü təmin edən, ixrac-yönümlü kənd təsərrüfatı və emal sənayesinin yaradılmasını ehtiva edir.

Bu elementin fəaliyyətində aşağıdakıların icrası nəzərdə tutulur: -kənd təsərrüfatının maddi-texniki bazasının yenidən qurulmasını həyata keçirmək, kənd təsərrüfatı texnikalarının lizinq sistemini genişləndirmək; -xarici ölkələrdən kənd təsərrüfatı texnikası idxalının davam etdirilməsi çərçivəsində gələcəkdə onların yerli istehsalının həyata keçirilməsi məqsədi ilə ölkə ərazisində müştərək zavodların yaradılması istiqamətində addımların atılması; -enerji və resurs-qənaətli yeni nəsil texnika və texnologiyalardan istifadə etməklə kənd təsərrüfatı bitkilərinin istehsalı və emalının təşkili; -marketinq araşdırması əsasında ilk növbəli sahə innovasiya layihələrinin siyahısını müəyyən etmək; -yerli kənd təsərrüfatı istehsalçıları üçün ekoloji təmiz məhsul istehsalının subsidiyalaşdırılmasını həyata keçirmək; -innovativ məhsul və texnologiyalara olan tələbatın və kənd təsərrüfatı məhsullarının təbliğinə marketinq dəstə-

yinin öyrənilməsi məqsədi ilə monitorinq sisteminin yaradılması; - dənli və dənli paxlalı bitkilərin xüsusi çəkisinin artırılması hesabına əkin sahələrinin strukturunun təkmilləşdirilməsi, yem bitkiləri və günəbaxan sahələrinin optimallaşdırılması; -kənd təsərrüfatı bitkilərinin seleksiya nailiyyətlərindən və toxumçuluq sistemindən səmərəli istifadə etmək; - çoxillik otların və sideral bitkilərin əkinlərinin artırılması hesabına torpağın münbitliyinin bərpası üzrə tədbirlərin, əkinçiliyin biolojiləşdirilməsinin nailiyyətlərinin təmin edilməsi; - alaq otları, xəstəliklər və ziyanvericilərdən bitkilərin qorunması tədbirlərinin effektivliyini artırmaq; - bütün növ heyvanların və quşların məhsuldarlığının yüksəldilməsini təmin etmək, seleksiya-damazlıq işinin yaxşılaşdırılması yolu ilə iri buynuzlu mal-qara və quşların sayının artımını sabitləşdirmək, heyvanların saxlanılma və yemlənmə, həmçinin iqtisadi zonalar üzrə səmərəli yerləşdirmə texnologiyasını təkmilləşdirmək.

2. Kənd təsərrüfatı və əkin torpaqlarının meliorasiyası. Bu elementin icrası təbii mühitin uzunmüddətli komponentlərinin yaxşılaşdırılması, torpağın münbitliyinin qorunması və artırılması, həmçinin hidromeliorasiya sistemlərinin etibarlı istismarının təmin edilməsi əsasında heyvandarlığın möhkəm və sabit yem bazasının yaradılması üçün suvarılan əkinçiliyin qorunub saxlanmasını və inkişafını təmin edəcəkdir. Burada Azərbaycanın quraqlıq rayonlarında kənd təsərrüfatı istehsalının sabitləşdirilməsi, yem istehsalı, meyvə-tərəvəz və s. məhsulların yetişdirilməsi üçün meliorasiya-su təsərrüfatı kompleksi mühüm amil kimi çıxış edir. Aqrar sahənin inkişafının strateji yol xəritəsinin [1] və qəbul edilmiş dövlət proqramının [2] həyata keçirilməsi suvarılan torpaqlarda kənd təsərrüfatı məhsullarının istehsal həcminin artırılması hesabına Azərbaycanın dayanıqlı iqtisadiyyatının təmin edilməsinə və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə imkan verəcəkdir.

Qeyd olunan elementin fəaliyyəti aşağıdakılarla şərtləndirilir: -ölkədə mövcud meliorasiya sistemi fondunu saxlamaq və işləmə qabiliyyətini təmin etmək;- suvarma sistemlərini qaydaya salmaq, onları suvarma texnikası və müasir texniki vasitələrlə təchiz etmək;- kənd təsərrüfatı bitkilərinin suvarılması üsul və texnologiyalarının təkmilləşdirilməsinə, torpaqların münbitliyinin qorunması və suvarmanın mənfi ekoloji nəticələrinin (qrunt sularının toplanması səviyyəsinin artırılması, ərazilərin subasması halları və s.) qarşısının alınmasına istiqamətlənmiş işlərin proqramını yerinə yetirmək; - kiçik ölçülü çiləmə-suvarma texnikasından hərtərəfli istifadə məqsədilə suvarılan sahələrin yenidən qurulmasını həyata keçirmək; -ölkənin idxaldan ərzaq asılılığının və yerli istehsal ərzaq məhsullarının daimi çatışmazlığının qarşısını almaq.

3. Kiçik aqrar sahibkarlığına dövlətin, QHT-nin dəstəyi, formalaşması və inkişafı. Vətəndaşları müstəqil sahibkarlıq fəaliyyəti həyata keçirməyə sövq edən şəraiti yaratmaq, Azərbaycanın aqrar sahəsində səmərəli fəaliyyət göstərən kiçik və orta tipli müəssisələrin keyfiyyət və kəmiyyət artımına nail olmaq mümkündür. Çünki, kənd təsərrüfatı məhsullarının ümumi dəyərində fermerlərə təhkim edilmiş torpaq və məhsul istehsalı payı yüksək səviyyədədir. Ölkənin sosial-iqtisadi inkişafında kiçik və orta aqrobiznesin rolunun əhəmiyyətli dərəcədə artırılması onların əmək məhsuldarlığının yüksəldilməsi hesabına mümkündür [3, s.85-89].

Üçüncü elementin fəaliyyəti zamanı aşağıdakılar təmin edilməlidir: -sahibkarlıq subyektlərinin fəaliyyətinin hüquqi, təşkilati və analitik təminatının inkişafına yardım etmək; -kiçik və orta aqrobiznesin inkişaf etdirilməsində prioritet istiqamətlərə maliyyə dəstəyini stimullaşdırmaq; -əhalinin şəxsi yardımçı təsərrüfatlarının, bu təsərrüfatlarda istehsal olunmuş kənd təsərrüfatı məhsullarının tədarük sisteminin, köməkçi sahələrin və istehsalatların inkişafına daxil olan kənd əhalisinin həyat keyfiyyətinin, kəndin sosial inkişafının yüksəldilməsinə əlverişli şəraiti formalaşdırmaq; - kiçik biznes subyektlərin mikrokreditləşmə sisteminin inkişafı vasitəsilə kiçik əmtəə təsərrüfatlarının maliyyə resurslarına çıxışını təmin etmək; - mülkiyyət hüququnun müdafiəsini və müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsini təmin edən

ümumi şəraitin yaradılmasına yardım göstərmək; - sinergetik effektə və miqyasdan qənaət effektinə nail olmaq məqsədilə üfüqi və şaquli inteqrasiya üçün daha əlverişli şəraitin yaradılmasını təmin etmək; - keyfiyyətli bazar infrastrukturunun sürətli formalaşmasına köməklik göstərmək.

4. Aqrar sahə işçilərinin əməyinin və investorların motivasiyası. Kənd təsərrüfatı əməyi az cəlbedici, zəif mexanikləşdirilmiş və aşağı ödənişli olaraq qalmaqda davam edir. Həmçinin, əmək potensialından daha hərtərəfli istifadə etmək, işçinin bilik və bacarıqlarını tətbiq etmək üçün maddi, mənəvi və psixoloji xarakterlərin stimullarını birləşdirməyi nəzərdə tutan güclü və dayanıqlı əməyin motivasiyası tələb olunur.

İnvestorlar daha çox gəlir gətirən sahələrə maliyyə yatırımı etməyə meyllidirlər. Odur ki, bu istiqamətdə də aqrar sahə digər sahələrə nisbətən investisiya qoyuluşunda nisbətən geridə qalır. Bu məqsədlə də, aqrar sahəyə investisiya qoyuluşunda yerli və xarici investorların cəlb edilməsi istiqamətində müəyyən tədbirlərin görülməsi vacibdir və burada əsas aparıcı rol dövlətin üzərinə düşür. Çünki, kənd təsəttüfatına investisiya qoyuluşunun təkmilləşdirilməsi və investorlar üçün əlverişli şəraitin yaradılması vacibdir.

Dördüncü elementin fəaliyyətində nəzərdə tutulur: -iqtisadiyyatın ayrı-ayrı sahələri ilə bağlı qəbul edilmiş məqsədli dövlət proqramlarında nəzərdə turulmuş kadr potensialının inkişaf etdirilməsini əhatə edən tədbirlər planının işlənib hazırlanması və təsdiq edilməsi, bundan irəli gələn təlim və idarəetmə kadrlarının və mütəxəssislərinin hazırlanması, ixtisaslarının artırılması işinin qurulması; -kənddə işsizliyinin azaldılması və qeyri-kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olanların sayının artırılması üzrə tədbirlər kompleksini həyata keçirmək; - konkret sosial problemlərin həlli sahəsində kənddə əsas sosial qruplar arasında tərəfdaşlıq münasibətlərini qurmaq: dövlət, cəmiyyət və biznes arasında qarşılıqlı əlaqələri inkişaf etdirmək; -"insan kapitalı"nın təkrar istehsalı inkişafının təkmilləşdirilməsinə imkan verən şəraitin yaradılması; -intellektual kapitalın inkişafına şərait yaratmaq və keyfiyyətli təhsil almağa kömək etmək; -kənd ailəsi institutunu əmək və mənəvi tərbiyə mərkəzi kimi möhkəmləndirmək; -sosial, mühəndislik və memarlıq infrastrukturunu inkişaf etdirmək.


5. Kənd təsərrüfatı istehsalının monitorinqi. Kənd təsərrüfatında radikal dəyişikliklər aqrar sahənin təkrar istehsalı prosesinin iştirakçıları arasında qarşılıqlı fəaliyyətin təşkilinin yeni formalarının axtarılıb müəyyənləşdirilməsi aktuallığını şərtləndirir [3, s.85]. Kənd təsərrüfatı məhsullarının marketinqinin inkişafı bu sahədə əsas problemlərindən biri olan səmərəli satış sisteminin formalaşdırılmasına yardım edəcəkdir.

Beşinci elementin fəaliyyəti bir çox problemlərin həll edilməsinə istiqamətləndirilir: - tələb və təklifin stimullaşdırılması vasitəsilə kənd təsərrüfatı istehsalçılarına yerli aqrar məhsulların xarici bazarlara təşviqi üzrə agentliyin yaradılması ilə dəstəyin göstərilməsi, ÜTT iştirakçıları tərəfindən vicdansız rəqabət olduğu halda, ona operativ qərar qəbul etmək səlahiyyətinin verilməsi; -əmtəələrin təşviqi ilə bağlı: sərgilər, seminarlar, sertifikatların əldə edilməsinə köməklik göstərən tədbirlərin maliyyələşdirilməsinə dəstək verilməsi; -dövlət tədarük ağentliyi vasitəsilə yerli kənd təsərrüfatı istehsalçılarından dövlət və bələdiyyə ehtiyacları üçün satınalmaların həyata keçirilməsi; əmtəələrin təşviqi ilə bağlı: sərgilər, seminarlar, sertifikatların əldə edilməsinə köməklik göstərən tədbirlərin maliyyələşdirilməsinə dəstək verilməsi; -dövlət tədarük ağentliyi vasitəsilə yerli kənd təsərrüfatı istehsalçılarından dövlət və bələdiyyə ehtiyacları üçün satınalmaların həyata keçirilməsi; -"Pulsuz yeməkxana", "Ərzaq dəstləri» layihələri vasitəsilə sosial kartların, sosial təminat orqanlarının və qeyri-kommersiya təşkilatları qrantlarının verilməsi mexanizminin işlənilməsi ilə aztəminatlı vətəndaşların və təqaüdçülərin müştəri tələbatına dəstək proqramlarının həyata keçirilməsi; - aqrobiznes üzrə bütün təsərrüfat formaları və aqrar sahədə kənd təsərrüfatı məhsulları istehsalçılarının, emal və xidmət strukturlarının və digər tərəfdaşların tələbatını təmin etmək

üçün hər bir vasitə və informasiya verən mənbədən istifadə etməklə informasiya bazasının yaradılması; aqrobiznes üzrə bütün təsərrüfat formaları və aqrar sahədə kənd təsərrüfatı məhsulları istehsalçılarının, emal və xidmət strukturlarının və digər tərəfdaşların tələbatını təmin etmək üçün hər bir vasitə və informasiya verən mənbədən istifadə etməklə informasiya bazasının yaradılması; -aqrar sahənin mövcud ümumtəhsil və inzibati strukturları əsasında konsultativ sistemin yaradılması, bu sistemin normativ və hüquqi bazasının fəaliyyətinin təmin edilməsi; -aqrar iqtisadiyyatda innovasiyalar haqqında operativ informasiyanın yayılması sisteminin səmərəli işləməsini təmin etmək; -aqrobiznes subyektləri münasibətlərinin peşəkar səriştəliliyinin və məlumatlılığının artırılması hesabına bazar münasibətlərinə uyğunlaşmasını sürətləndirmək.

Aqrar sahədə transformasiya proseslərinin strateji idarə edilməsinin konseptual modeli

Tədqiqat işində aqrar sahənin inkişafı üzrə məqsədlər aşacının elementlər və onların fəaliyyətinin təşkil edilməsi bilavasitə aqrar sahədə transformasiya proseslərinin strategi idarə edilməsinin konseptual modelinin işlənilməsini şərtləndirir. Bu baxımdan həmin sferada transformasiya proseslərinin strateji idarə edilməsinin konseptual modeli tərtib edilmişdir (şəkil 4).



Şəkil 4. Aqrar sahədə transformasiya proseslərinin strateji idarə edilməsinin konseptual modeli

Qeyd: [4, s.9-15; 5, s.14-17] əsasında müəllif tərtib etmişdir

Strateji məqsədlərin həyata keçirilməsinin idarə edilməsi üzrə beynəlxalq təcrübə göstərir ki, onların əldə edilməsi dövlət hakimiyyəti orqanlarının strateji məqsədə nail olmaq üçün yönəldilmiş qərarların qəbul edilməsi və həyata keçirilməsinin səmərəli mexanizmini qurmaq bacarığından çox asılıdır [6, s.32-43; 11, s. 120-123].

Ölkəmizdə aqrar sahənin inkişafında əlverişli innovasiya mühitinin yaradılması, kiçik innovasiya müəssisələrinin stimullaşdırılması, yeni istehsal texnologiyalarının tətbiqi məsələlərində dövlət müdaxiləsinin çoxcəhətli iqtisadi alətləri tətbiq edilir: indikativ qiymətqoyma, kreditləşmə və sığortanın dəstəklənməsi, vergitutma üzrə güzəştlər, subsidiyalaşdırma, proqram-məqsədli idarəetmə və s. Fikrimizcə, bu qeyd edilmiş alətlərdən istifadənin gerçəkləşdirilməsi aşağıdakı istiqamətlərdə ciddi şəkildə düzəlişin aparılmasını tələb edir:

- xüsusi əhəmiyyətli məhsul növlərinin, ilk növbədə heyvandarlıq, bitki yem proteinləri, dənli və dənli-paxlalı bitkilərin istehsalı üzrə müəyyən proqramların maliyyələşdirilməsi şəklində dövlətin birbaşa iştirakı;
- infrastruktur elementlərinin (dövlət-özəl tərəfdaşlığı) maliyyələşdirilməsi;
- fərqli vergiqoyma səviyyəsi tətbiq etməklə aqrobiznesin dolayı yolla tənzimlənməsi.

Kənd təsərrüfatı məhsullarının istehsalı üzrə nəzərdə tutulan proqramlarda dövlətin birbaşa maliyyələşmə prosesində iştirakı dövlət tənzimlənməsi alətlərinin konkret metodlarla tətbiq edilməsi üzrə məntiqi bağlılığı və uyğunluğu müəyyən edən normativ hüquqi aktların məcmusundan irəli gəlir. Bu zaman əsas istiqamətlər olaraq aşağıdakıların seçilməsi məqsədəuyğun hesab edilir:

- innovativ biznesin formalaşdırılması və inkişafı üzrə tədbirlər sisteminin müstəqil hədəf blokunun sərbəstləşdirilməsi ilə özəl investorların vəsaitlərinə və fəaliyyətdə olan mexanizmlərə vəsaitin xərclənməsinə yenidən baxılmasına üstünlük verilməsi əsasında innovasiyalı aqrar biznesin dəstəklənməsi üzrə dövlət proqramının hazırlanması;
- "əkin" lərin maliyyələşdirilməsi (innovativ məhsulun ticarət perspektivlərinin əsaslandırılması və öyrənilməsi üçün geri ödənilməməklə büdcə vəsaitlərinin ayrılması), pay (büdcədən verilən kredit formasında) və vençur müəssisənin maliyyələşdirilməsi (kiçik investisiya firmaları və ya vençurların yaradılması) mexanizmlərini əhatə edən "elm-istehsalat" innovasiya tsiklinin fasiləsizliyi və davamlılığının təmin edilməsi.

Bu istiqamətdə artıq Azərbaycan hökuməti tərəfindən müəyyən addımlar atılmışdır. Belə ki, 14 iyul 2016-cı ildə qəbul edilmiş "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu Maddə 4-də "Elmi innovasiya sahəsində dövlət siyasətinin əsas istiqamətləri" qeyd edilmiş, həmçinin 6-cı Fəsil, Maddə 34-də "Elmi və elmi-texniki fəaliyyətin maliyyələşdirilməsi"nin dövlət büdcəsinin vəsaiti, elmi fəaliyyət subyektlərinin öz vəsaitləri, dövlət fondlarının vəsaitləri, kreditlər, qrantlar, ianələr və digər qanuni mənbələr hesabına həyata keçirilməsi nəzərdə turulmuşdur.

Ölkə səviyyəsində infrastruktur elementlərinin maliyyələşdirilməsi çərçivəsində icra hakimiyyəti orqanlarının strateji planında idarəetmə fəaliyyətinin əsas predmeti kimi infrastruktur layihələri nəzərdə tutulur. Onların uğurla həyata keçirilməsi əsasən dövlət-özəl tərəfdaşlıq institutunun formalaşdırılmasından asılıdır. Belə layihələrin icrası zamanı infrastruktur obyektlərinə görə dövlət, istehsal obyektlərinin, innovasiya müəssisələrinin və s. tikintisinə görə isə biznes fəaliyyəti məsuldur. İnkişaf etmiş ölkələrdə innovativ infrastrukturun formalaşdırılması sayəsində innovasiya prosesi çox effektiv olur və onun əsas bloklarına maliyyə, istehsalat-texniki (maddi), informasiya, kadr, ekspert-konsaltinq bloku daxildir.

Biznes fəaliyyətinin dolayı tənzimlənməsi ümumi xarakterli tədbirləri özündə əks

etdirməklə ölkənin aqrar iqtisadiyyatının möhkəmləndirilməsinə yönəldilir. Bu, ilk növbədə, sahibkarlıq şəraitinin formalaşmasına aid olan təsərrüfat fəaliyyətinin aparılmasının institusional çərçivəsi kimi başa düşülür. İnkişaf etmiş ölkələrdə biznes fəaliyyətinin əsas istiqamətlərdən biri birbaşa dövlət maliyyələşməsinin azaldılması ilə innovasiya sahəsinin vergi stimullaşdırılmasının gücləndirilməsi hesab edilir. İnnovasiya fəaliyyətini stimullaşdıran xüsusi vergi güzəştlərinə tədqiqatların cari qeyri-kapital xərclərinin silinməsini, elmi-tədqiqat və layihə-konstruktor işlərinə ayrılmış xərclərin silinməsinin müəssisə üçün mümkün olan müddətə keçirilməsini və bu məqsədlə istifadə ediləcək bina və avadanlıqların sürətli amortizasiyasını, müəssisələrin layihə-konstruktor işlərinə çəkilmiş xərclərinin faizinə bərabər olan hesablanmış mənfəət vergisinin azaldılmasına imkan verən vergi kreditini və s. aid etmək olar.

Aqrar sahədə sistemli transformasiya proseslərinin strateji idarə edilməsinin əsas elementlərindən biri də kənd təsərrüfatında monitorinqin aparılması və onun səmərəliliyinin qiymətləndirilməsi hesab edilir. Strateji idarəetmənin qiymətləndirməsinin monitorinqi onun realizasiyasının təmin edilməsi və daimi aktuallığının saxlanılması məqsədi ilə həyata keçirilir. Monitorinqin nəticələri nəzərə alınmaqla kənd təsərrüfatındakı ehtiyatların istifadəsinin effektivliyinin artırılması, strateji planın məqsəd və fəaliyyətinin korrektə edilməsi ilə bağlı qərarlar qəbul edilir və bu da alınan nəticələrin göstəricilər sistemi vasitəsilə keyfiyyət və kəmiyyət dəyişikliklərini qiymətləndirməyə imkan verəcəkdir.

Nəticə

Azərbaycanda kənd təsərrüfatının sosial-iqtisadi inkişafının yüksək tempi uzunmüddətli perspektivdə təklif olunan strateji istiqamətlərin reallaşmasından kəskin şəkildə asılıdır. Bu baxımdan, aqrar biznes sosial-iqtisadi mühitə maksimum dərəcədə inteqrasiya olunmalı, fəaliyyətin nəticələrinə görə isə əhalinin həyat keyfiyyətinin yeni səviyyəsini formalaşdırmalı və cəmiyyətin ehtiyaclarına zidd olmamalıdır. Həmçinin, dövlət orqanlarının fəaliyyəti, əhaliyə göstərilən sosial xidmətlərin üsul və formaları, dövlətin vergi və büdcə siyasətinin əsas prioritetləri kənd təsərrüfatının inkişafına, o cümlədən ölkədə investisiya fəaliyyətinin səmərəliliyinin artırılmasına cavab verən əlverişli şəraiti təmin etməlidir. Bu qeyd etdiklərimizə nail olmaq üçün aqrar sahədə sistemli transformasiya proseslərinin strateji idarə edilməsinin əsas elementlərinin həyata keçirilməsi kənd təsərrüfatında monitorinqin mütəmadi olaraq aparılması və onun səmərəliliyinin qiymətləndirilməsi vacib şərtlərdəndir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"//Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı-Bakı: 2016.-177s.
2. Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı //Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı. –Bakı: -2019, № 500
3. İsmayılov, V.İ. Kənd təsərrüfatı məhsullarının iqtisadi tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsi / V.İ. İsmayılov. -Bakı: -Müəllim. -2021.-318 s.
4. Буздалов, И.Н. Аграрная политика: научные основы, методы и механизмы осуществления (начало) //-Москва: Экономика сельскохозяйственных и перерабатывающих предприятий, - 2014. -№4,- с. 9- 15
5. Гонова, О.В. Аргументация механизма государственной поддержки регионального сельскохозяйственного производства // -Ивановск: Вестник Университета, -2013. № 23, -

с.14-17
6. Иванова, Н.В. Стратегия синергетического развития отраслей аграрной сферы в региональной экономике России //-Москва: Вестник университета,-2011. № 8, 32-43
7. Коломийченко, О.В. Стратегическое планирование развития регионов России: методология, организация / О.В.Коломийченко. - СПб.: Наука, - 2014. -198 с.
8. Матюнина, О. Ю. Стратегия развития аграрного сектора АПК самодостаточного региона /Диссертация на соискание ученой степени кандидата экономических наук. /- Воронеж, 2006. -353с.
9. Минцберг, Г. Стратегический процесс: концепции, проблемы, решения / Г. Минцберг, Дж. Б.Куинн, С. Гошал; -СПб.: Питер, - 2001. - 534 с.
10. Рохчин, В.Е. Система стратегического планирования социально-экономического развития регионов России: теоретико-методологический аспект / В.Е. Рохчин, И.И. Егоров, К.Н.Знаменская [и др.]; -СПб: ИРЭ РАН, -2005. -168 с.
11. Савенкова О.Ю. Деструктивные процессы в области формирования сельского рынка труда и направления его развития // Стратегия социально ориентированного развития сельских территорий. Научное обозрение: теория и практика, -Тула: ТулГУ,27-28 апреля 2016,- 2016, - с.120-123
12. Савенкова, О.Ю.Социально ориентированное развитие сельских территорий: проблемы и пути решения / О.Ю.Савенкова, И.Н.Меренкоа // -Москва: Фундаментальные исследования, -2015. №9 (часть 1), -с.156-159
13. Третьякова, Л.А. Устойчивое сельское развитие в контексте ментальности населения сельских территорий России/Л.А.Третьякова// -Москва: Дайджест-финансы, - 2013. № 5, -с.53-57
14. Bogdanov N., Rodić V. Agriculture and agricultural policy in Serbia // Agricultural Policy and European Integration in South Eastern Europe / T. Volk et al. (ed.). FAO, Budapest, 2014. P. 153-166.
15. "Doing Business 2020". Comparing Business Regulation in 190 Economies / World Bank Group, - 2020, -50c.
16. Decoupling natural resource use and environmental impacts from economic growth. UNEP: http://www.unep.org/

Аббас Сафаров

КОНЦЕПТУАЛЬНЫЕ АСПЕКТЫ СТРАТЕГИИ ТРАНСФОРМАЦИИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В АЗЕРБАЙДЖАНЕ

Резюме

В статье на основе комплексного анализа процесса трансформации сельского хозяйства в Азербайджане и оценки его конкурентоспособности выявлены негативные системообразующие факторы, препятствующие качественному росту и повышению эффективности институционализации. При этом приводится экономическая модель объекта стратегического управления, основанная на определении содержания и результатов различных стратегий.

В статье сформулирована концептуальная модель стратегического управления трансформационными процессами в аграрной сфере на основе дерева целей и организации деятельности его элементов, состоящая из совокупности основных целей, обеспечивающих развитие аграрной сферы.

Цель – построение дерева целей, состоящего из комбинации основных целей, обеспечивающих развитие аграрной сферы, и разработка концептуальной модели стратегического управления трансформационными процессами в аграрной сфере.

Методология – в исследовательской работе использованы методы экономико-статистического и сравнительного анализа.

Результаты исследования – на основе определения содержания и результатов различных стратегий дана экономическая модель объекта стратегического управления, выделены основные преимущества концептуальной модели стратегического управления трансформационными процессами в аграрной сфере.

Ключевые слова: *сельское хозяйство, трансформация, стратегия, эффективность, дерево целей, концептуальная модель*

Abbas Safarov

CONCEPTUAL ASPECTS OF THE STRATEGY OF TRANSFORMATION OF AGRICULTURE IN AZERBAIJAN

Summary

Based on a comprehensive analysis of the process of transformation of agriculture in Azerbaijan and an assessment of its competitiveness, the article identifies negative system-forming factors that hinder qualitative growth and increase the effectiveness of institutionalization. At the same time, an economic model of the object of strategic management is given, based on the definition of the content and results of various strategies.

The article formulates a conceptual model of strategic management of transformational processes in the agricultural sector on the basis of a tree of goals and the organization of its elements, consisting of a set of main goals that ensure the development of the agricultural sector.

Purpose of the research – goal is to build a goal tree consisting of a combination of the main goals that ensure the development of the agricultural sector and the development of a conceptual model of strategic management of transformational processes in the agricultural sector.

Methodology – methods of economic-statistical and comparative analysis are used in the research work.

Findings – based on the definition of the content and results of various strategies, an economic model of the object of strategic management is given, the main advantages of the conceptual model of strategic management of transformational processes in the agricultural sector are highlighted.

Keywords: *agriculture, transformation, strategy, efficiency, goal tree, conceptual model*

UOT 338.48

Nicat Saleh oğlu Musayev
Azərbaycan Texniki Universiteti,
dissertant
nijat.musayev@gmail.com

TURİZM SƏNAYESİNİN İNKİŞAFININ PROQNOZLAŞDIRILMASI MODELİ

Məqalədə turizm sferası ilə əlqəli sahələrin, ölkənin sabit iqtisadi inkişafının təminatı nəticəsində əhali gəlirlərinin artırılması, mövcud risklərin azaldılması amili kimi müxtəlif təsərrüfat fəaliyyəti növlərinin inkişaf etdirilməsinin vacibliyi vurğulanır. Turizmin inkişaf etdirilməsinin təşkilati-iqtisadi aspektlərinin təkmilləşdirilməsi istiqamətində görüləcək tədbirlərin əlaqələndirilməsinin onun həllində açar rolunu oynayacağı qeyd edilir.

Turizm sənayesinin sosial-iqtisadi mexanizmlərinin strukturunun işlənməsinə təsir göstərən əsas amillərdən asılı olan reqressiya modeli təklif edilir. Turizm sferasında, müəssisələrin rentabelliyini artıran və cəlbediciliyini yüksəldən yeni növ məhsul və xidmətin təklif edilməsi bu sahədə fəaliyyət göstərən bütün müəssisələr üçün çətinliklə əldə edilən nəticə hesab edilir və da onlara son pillədə maksimum səmərə əldə etməyə imkan verir.

Tədqiqatın məqsədi – turizm sferasının inkişafının proqnoz modelini təklif etməkdir.

Tədqiqatın metodologiyası – Azərbaycanda turizm sfersının regionlarda təşkili prosesi, onun inkişaf etdirilməsi və beynəlxalq turizmin cəlbediciliyinin yüksəldilməsi nöqteyi-nəzərindən kifayət qədər vacib elementlər kimi baxılır.

Tədqiqatın nəticələri – Turizmin inkişaf etdirilməsinin soaial-iqtisadi aspektlərinin təkmilləşdirilməsi əsasında turizm sənayesinin strukturunun fəaliyyətinə təsir göstərən əsas amillərdən asılı olaraq pronoz modeli təklif edilir. Bu isə turizm sferasında bir sıra çətin problemlərin həllinə dəstək olacaqdır.

Açar sözlər: *turizm, sosial-iqtisadi aspektlər, təsir forması, reqressiya modeli, inkişaf*

Giriş

XX əsrin sonunda, turizm beynəlxalq xarici iqtisadi əlaqələrdə öncül yerlərdən tutaraq ayrı-ayrı ölkələrin, ümumiyyətlə dünya təsərrüfatı iqtisadiyyatının inkişafına ciddi təsir göstərməyə başladı. Təbii fəlakətlər, texnogen və geosiyasi hadisələr, terror aktları və s. kimi maneələrə baxmayaraq, turizm aktiv inkişaf etməkdədir [7, s. 390-407]. Mövcud şəraitə müvafiq olaraq səyahətlərin forma və təşkili metodları dəyişməklə turizmin tələbatı səviyyəsinə cavab verə biləcək yeni növləri yaranır. Turizmin xarakteri və strukturu fərqli şəkildə dəyişir. Yeni texnologiyaların hesabına məzuniyyət-istirahətin çevik və seqmentləşdirilmiş təşkili imkanları yaranaraq kütləvi standart təkliflərlə uğurlu rəqabət aparır. Beləliklə, kütləvi standart və kompleks turizm yeni, o cümlədən turistlərin tələbi əsasında xüsusi hazırlanan növlə əvəz edilir [6, s.543].

Turizmin bu fəaliyyət növlərinin yenisi ilə əvəz edilməsi demoqrafik dəyişikliklər, həyat stili, işin xarakteri və məzuniyyət kimi amillərlə qarşılıqlı əlaqəlidir. Çox ölkələrdə əhali qocalır və sağlamlığının qorunması üçün istirahətin bu növünü seçirlər. Beləliklə, turistlərin yaşlı nəsli ("üçüncü yaş") turizm fəaliyyətinin formalaşmasında əhəmiyətli rol oynayır. Müəyyənləşdirilmişdir ki, digər səyahətçi kateqoriyalara nisbətən yaşlı nəsil turistlər orta hesabla ən çox pul xərcləyir. Bu da turizm bazarında yeniliklərə gətirib çıxarır

[8, s.562-569; 9, pp.22-27].

Turizm bazarı mühitində turistlərin öz təşəbbüsü ilə köklü dəyişikliklər baş verir və onlar qeyri-standart səyahət təcrübəsinin fasiləsiz axtarılmasıyla məşğul olurlar. İstehlakçıların məlumatlandırılmasının artması turizm biznesini, turistlərin ətraf mühitə şəxsi təqdimatına əsaslanaraq, innovasiyaların tətbiq edilməsinə və öz təsirlərinin təkmilləşdirilməsinə stimullaşdırır. Bütün bunlar isə turizm bazarı məkanında yeri olan ekoloji və ekstremal turizmdə yenilik əsasında istifadə edilə bilər.

Turizm sənayesi infrastrukturunun sosial-iqtisadi inkişafını təmin edən amillər

"XXI əsrin göndəlik məsələləri" ("Agenda 21" for the Travel and Tourism İndustry) konfransında qəbul edilmiş proqram sənədində səyahət və turizm sahələrinin dövlət idarəetmə orqanlarının doqquz prioritet sferası təklif edilmişdir ki, bunlara da aiddir [10-12]:

- turizmin dayanıqlı inkişafı nöqteyi nəzərindən mövcud normativ, iqtisadi və sərbəst strukturun qiymətləndirilməsi;
- təşkilatların iqtisadi, sosial, mədəni və ekoloji fəaliyyətinin qiymərləndirilməsi;
- inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında turizmin dayanıqlı inkişafı ilə əlaqəli informasiya, işgüzarlıq (bacarıq) və texnologiyaların mübadiləsini asanlaşdırmaq;
- təlim, təhsil və ictimaiyyətin məlumatlandırılması;
- turizmin dayanıqlı inkişafının planlaşdırılması;
- bütün ictimai sektorların iştirakının təmin edilməsi;
- dayanıqlıq prinsipinə əsaslanan yeni turizm məhsulunun işlənilməsi;
- turizmin dayanıqlı inkişafına aparan tərəqqinin qiymətləndirilməsi;
- dayanıqlı inkişaf məqsədi ilə tərəfdaşlıq edilməsi [14].

Azərbaycanda da turizmin inkişaf etdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu nöqteyi nəzərdən, son dövrlərdə ardıcıl olaraq qəbul edilmiş Dövlət Proqramları çərçivəsində turizmin inkişafı istiqamətində qarşıya qoyulmuş əsas hədəflərə nail olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" ndə dörd istiqamətdə turizmin strateji hədəfləri müəyyənləşdirilmişdir [1, s.120-126; 3]:

1. Xarici turistləri daha çox cəlb etməklə Bakı şəhərinin turizm potensialının tam gerçəkləşdirilməsi.
2. Turizm sektorunun inkişafı üçün ölkə üzrə əlverişli mühitin formalaşdırılması.
3. Yerli və regional turistlər üçün regional turizm növlərinin inkişaf etdirilməsi.
4. Turistlərin məmnunluğunun artırılması məqsədi ilə milli turizm keyfiyyət sisteminin yaradılması.

Azərbaycan müasir infrastrukturu, zəngin tarixi abidələri, ecazkar təbiəti və milli parkları ilə məşhurdur. 2010-2019-cu illər ərzində turizm müəssisələrinin sayında 2,0 dəfə, turizm sahəsində məşğulluq səviyyəsində 2,5-6,0% hüdudunda artım müşahidə edimişdlir. Bu baxımdan, Azərbaycanda müxtəlif turizm növləri üzrə potensialın reallaşdırılması üçün dövlətin, eləcə də özəl sektorun davamlı dəstəyinə ehtiyac vardır. Odur ki, turizmin inkişafının sosial və iqtisadi modelinin tətbiq edilməsi vacib şərtlərdəndir. Bu model, orta sürətli perspektivə hesablanmış, bir sıra kompleks tədbirlərin görülməsini, o cümlədən iqtisadi rayonların imicinin formalaşması və artırılmasında turizm və bütövlükdə bu sahədə investisiya üçün əlverişli olan aktiv reklam-informasiya fəaliyyətini təklif edir. Layihənin həyata keçirilməsi ölkəmizdə turist axınının artmasına, turizm sahəsindən gəlirin yüksəl-

məsinə və bu sahədə məşğul olanların sayının kəskin artmasına səbəb ola biləcəkdir. Bu da öz növbəsində turist axınının cəlbediciliyinə təsir edən amillərdən asılılığı modelinin qurulmasını şərtləndirir

Təcrübədə çox hallarda tədqiq edilən göstəriciyə bir-birindən asılı olmayan bir neçə amillər təsir göstərir. Bu halda onların göstəriciyə təsir xarakteri xətti və qeyri-xətti ola bilər.

Turizm sənayesinin inkişafının proqnoz modeli

İqtisadi proseslər, bir qayda olaraq, eyni vaxtda və birgə təsir edən çoxsaylı amillərlə müəyyən edilir. Bununla əlaqədar olaraq Y dəyişəninin bir neçə $X_1, X_2, \dots, X_n$ kəmiyyətlərindən asılılığını əks etdirən tədqiqat məsələlərinin araşdırılması qarşıya qoyulur, bu məsələnin həlli çoxamilli reqressiya təhlilinin köməyi ilə həll edilir və müvafiq nəticə əldə olunur. Aparılan tədqiqatda, beynəlxalq və yerli turistlərin ölkəmizə axınının sürətləndirilməsi məsələsinə funksional asılılıq kimi baxılmış və çoxamilli xətti reqressiya modelinin işlənilməsi cəhdi öz əksini tapmışdır. Müşahidələrin sayı i **olan** y_i-ni asılı dəyişən, $x_1, x_2, \dots, x_n$ -i müəyyənləşdirici dəyişənlər kimi qəbul edək. Bu zaman çoxamilli xətti reqressiya modeli ümumi halda aşağıdakı kimi yazılır [5, s.451-460]:

$$y_i = a_0 + a_1x_1 + a_2x_2 + \cdots + a_n x_n + e_i = a_0 + \sum_{i=1}^{n} a_i\, x_i + e_i, \quad (1)$$

burada: y_i- xətti reqressiya funksiyası;

$x_1, x_2, \dots, x_n$-finksional göstəricinin asılı olduğu amillər;

$a_0, a_1, a_2, \dots, a_n$-reqressiya tənliyinin əmsalları;

e_i-nisbi xətalardır.

Baxdığımız hal üçün çoxamilli reqressiya modeli ölkənin buraxılış-keçid məntəqələrindən müxtəlif turizm məqsədləri ilə keçən xarici vətəndaşların sayı və ona təsiredən amillər arasındakı funksional asılılığı əks etdirir. Bu məqsədlə Azərbaycana gələn turistlərin sayı (y), orta hesabla bir sakinə düşən mənzil sahəsi (x_1) və kənd yerlərində qazla təmin edilmiş mənzillər (x_2) kimi amilləri əks etdirən göstəricilər cədvəl 1-də verilir.

Bizim baxdığımız hal üçün (1) tənliyində y funksiyası x_1, x_2 amillərindən asılı olaraq dəyişir və bu asılılıq (2) şəklində yazılır:

Cədvəl 1

Turistlərin sayı və ona təsir göstərən amillər, (2010-2019-cu illər)

Sınaqlar	İllər	Turizm məqsəd ilə Azərbaycana gələnlərin sayı, milyon nəfər(y)	Orta hesabla Hər bir sakinə düşən mənzil sahəsi $m^2(x_1)$	Kənd yerlərində Təbii qazla təmin edilmiş mənzillər, milyon vahid (x_2)
1	2010	1,4298	11,1	0,3265
2	2011	1,7984	11,4	0,3419
3	2012	1,9859	11,6	0,3646
4	2013	2,1295	11,8	0,4025
5	2014	2,1597	11,8	0,4516
6	2015	1,9219	11,9	0,5043
7	2016	2,0447	12	0,5426
8	2017	2,454	12,1	0,6542
9	2018	2,742	12,1	0,6834
10	2019	3,150	12,1	0,6987

Qeyd: [1] və[2] məlumatları əsasında müəllif tərtib etmişdir

$$y_i = a_0 + a_1 x_1 + a_2 x_2 . \quad (2)$$

Funksiyanın minimum qiymətini hesablamaq üçün (3.3) formulasından istifadə edilir.

$$- S = \sum_{i=1}^{n} (y_i - y_{ihes})^2, \text{ [5, s. 449]} \quad (3)$$

burada: y_{ihes}-reqressiya modeli əsasında turistlərin hesablanmış sayı, mlyn.nəfər;

y_i-illər üzrə turistlərin sayı, mlyn. nəfər;

S-reqressiv funksiyanın minimum qiymətini ifadə edir.

Parametrləri hesablamaq üçün bir sıra köməkçi hesablamalar aparılmış və nəticəsi cədvəl 2-də verilmişdir.

Cədvəl 2

Parametrləri hesablamaq üçün köməkçi göstəricilər

İllər	Turizm məqsədi ilə Azərbaycana gələnlərin sayı milyon nəfər(y)	Orta hesabla hər bir sakinə düşən mənzil sahəsi m^2 (x_1)	Kənd yerlərində Təbii Qazla Təmin edilmiş Mənzillər, milyon vahid(x_2)	x_1^2	$x_1 . x_2$	x_2^2	$y . x_2$	$y . x_1$
2010	1,4298	11,1	0,3265	123,21	3,62415	0,106602	0,46683	15,87078
2011	1.7984	11,4	0.3419	129,96	3,89766	0,116896	0,614873	20,50176
2012	1,9859	11,6	0,3646	134,56	4,22936	0,132933	0,724059	23,03644
2013	2,1295	11,8	0.4025	139,24	4,7495	0,162006	0.857124	25,1281
2014	2,1597	11,8	0,4516	139,24	5,32888	0,203943	0,975321	25,48446
2015	1,9219	11,9	0,5043	141,61	6,00117	0,254318	0,969214	22,87061
2016	2,0447	12	0,5426	144	6,5112	1,294415	1,109454	24,5364
2017	2,454	12,1	0,6542	146,41	7,91582	1,427978	1,605407	29,6934
2018	2,742	12,1	0,6834	146,41	8,26914	1,467036	1,873883	33,1782
2019	3,150	12,1	0,6987	146,1	8,53259	2,488182	2,200905	38,115
Cəmi:	21,8159	117,5556	4,74622	1382,93	56,14098	2,40681	10,21796	244,7779
Orta qiymət	2,18159	11,75556	0,474622	138,293	5,614098	0,240681	1,021796	24,47779

Qeyd: Microsoft Exsel proqramından istifadə etməklə müəllif tərtib etmişdir

(2) reqressiya tənliyinin a_0, a_1, a_2 statistik əmsallarının qiymətlərini hesablamaq üçün ayrı-ayrı üsullardan istifadə edilə bilər. Bu üsullardan təcrübədə geniş istifadə edilən ən kiçik kvadratlar metodu (ƏKKM) hesab edilir. Bu məqsədlə (2) tənliyinin ayrılıqda törəmələrinin alınmasından a_0, a_1, a_2 statistik əmsallarının qiymətlərini hesablamaq üçün üç naməlum kəmiyyəti olan (3) tənliklər sistemi alınır:

$$\begin{cases} na_0 + a_1 \sum x_1 + a_2 \sum x_2 = \sum y \\ a_0 \sum x_1 + a_1 \sum x_1^2 + a_2 \sum x_1 x_2 = \sum y x_1 \\ a_0 \sum x_2 + a_1 \sum x_1 x_2 + a_2 \sum x_2^2 = \sum y x_2 \end{cases} \text{ [5, s. 449]} \quad (3)$$

Yuxarıda qeyd etdiymiz kimi, a_0, a_1, a_2 statistik əmsallarının qiymətlərini tapmaq üçün biz işdə determinant üsulundan istifadə edirik. Bu üsuldan istifadə etdikdə ilk növbədə ümumi determinant (Δ) hesablanılır:

$$\Delta = \begin{vmatrix} n & \sum x_1 & \sum x_2 \\ \sum x_1 & \sum x_1^2 & \sum x_1 x_2 \\ \sum x_2 & \sum x_1 x_2 & \sum x_2^2 \end{vmatrix} = n \sum x_1^2 \sum x_2^2 + \sum x_1 \sum x_1 x_2 \sum x_2 + \sum x_2 .$$

$$. \sum x_1 x_2 \sum x_1 - \sum x_1^2 \sum x_2 \sum x_2 - (\sum x_1)^2 \sum x_2^2 - (\sum x_1 x_2)^2 n. \quad (4)$$

Sonra isə köməkçi determinantlar hesablanır:

$$\Delta a_0 = \begin{vmatrix} \sum y & \sum x_1 & \sum x_2 \\ \sum y x_1 & \sum x_1^2 & \sum x_1 x_2 \\ \sum y x_2 & \sum x_1 x_2 & \sum x_2^2 \end{vmatrix} = \sum y \sum x_1^2 \sum x_2^2 + \sum x_1 \sum x_1 x_2 \sum y x_2 +$$

$$\sum x_2 . \sum x_1 x_2 \sum y x_1 - \sum x_1^2 \sum y x_2 \sum x_2 - \sum x_1 \sum y x_1 \sum x_2^2 -$$

$$(\sum x_1 x_2)^2 \sum y. \quad (5)$$

$$\Delta a_1 = \begin{vmatrix} n & \sum y & \sum x_2 \\ \sum x_1 & \sum y x_1 & \sum x_1 x_2 \\ \sum x_2 & \sum y x_2 & \sum x_2^2 \end{vmatrix} = n \sum y x_1 \sum x_2^2 + \sum x_2 \sum x_1 x_2 \sum y + \sum y x_2 .$$

$$. \sum x_2 \sum x_1 - \sum x_2 \sum y x_1 \sum x_2 - \sum x_1 \sum y \sum x_2^2 - \sum y x_2 n. \quad (6)$$

$$\Delta a_2 = \begin{vmatrix} n & \sum x_1 & \sum y \\ \sum x_1 & \sum x_1^2 & \sum y x_1 \\ \sum x_2 & \sum x_1 x_2 & \sum y x_2 \end{vmatrix} = n \sum y x_2 \sum x_1^2 + \sum x_1 \sum y x_1 \sum x_2 + \sum y .$$

$$. \sum x_1 \sum x_1 x_2 - \sum x_2 \sum y \sum x_1^2 - \sum y x_2 \sum x_1 \sum x_1 -$$

$$(\sum x_1 x_2) \sum y x_1 n. \quad (7)$$

Ümumi və köməkçi determinantlardan istifadə etməklə a_0, a_1, a_2 statistik əmsallarının qiymətləri hesablanır:

$$a_0 = \frac{\Delta a_0}{\Delta} = \frac{-1,34}{4} = -0,335; \quad a_1 = \frac{\Delta a_1}{\Delta} = \frac{0,258}{4} = \mathbf{0,0645}; \quad a_2 = \frac{\Delta a_2}{\Delta} = \frac{16,2}{4} = 4,05.$$

Hesabat nəticəsində əldə edilmiş qiymətləri (2) tənliyində nəzərə alındıqda reqressiya modeli

$$y_r = -0,335 + 0,0645 . x_1 + 4,05 . x_2, \quad (8)$$

şəklində olur.

Qurulmuş modelin səmərəlilik kriteriyası, real prosesə adekvatlığı və real statistikaya uyğunluğu qiymətləndirilməklə onun avtokorrelyasiyasının olub-olmadığını müəyyənləş-

dirmək olar.

Sonrakı göstəricilərin hesablanması üçün lazım gələn köməkçi məlumatlar baza göstəriciləri əsasında Microsoft Exsel proqramında hesablanaraq cədvəl 3-də verilir.

İlk növbədə əldə edilmiş reqressiya tənliyinin səmərəlilik kriteriyası müəyyənləşdirilməlidir.

Bunun üçün orta nisbi xəta hesablanılır [5, s. 445]:

$$e_{ort.n.x.}=\frac{\sum(y_i-y_{r.hes})}{\sum y_i}\cdot 100\% = 9{,}7\%.$$

Təcrübədə, $e_{ort.n.x}$ <15% olduqda, modelin real prosesə adekvat olduğu qəbul edilir. Bizim baxdığımız halda, $e_{ort.n.x}$ =9,7% <15% olduğu üçün, reqressiya tənliyi verilən tələbləri ödəyir, deməli səmərəlilik kriteriyasına görə reqressiya modeli turistlərin axınının proqnozlaşdırılması prosesnə adekvatdır.

Müvafiq reqressiya tənliyinin real statistikaya uyğunluğunu qiymətləndirdikdə Fişer Snedekor kriteriyası (3.8) formulasından istifadə edilməklə hesablanılır [5, s. 446]:

Cədvəl 3

Reqressiya modelinin real statistikaya uyğunluğunun qiymətlənirilməsi üzrə köməkçi məlumatlar

İllər	y_i-$y_{hes.oYir}$	$(y_i-y_{hes.or})^2$	y_{hes}-$y_{i.or}$	$(y_{hes}-y_{i.or})^2$
2010	-0,64419	0,414979	1,3962	1,949374
2011	-0,27559	0,075949	1,0276	1,055962
2012	-0,08809	0,00776	0,8401	0,705768
2013	0,055511	0,003081	0,6965	0,485112
2014	0,085711	0,007346	0,6663	0,443956
2015	-0,15209	0,023131	0,9041	0,817397
2016	-0,02929	0,000858	0,7813	0,61043
2017	0,380011	0,144408	0,372	0,138384
2018	0,668011	0,446239	0,084	0,007056
2019	1,076001	1,123621	-0,290	0,08410
Cəmi	2,12014	4,49499	6,478099999	6,297539
Orta qiymət	0,212014	0,449499	0,6478099999	0,6297539

Qeyd: Microsoft Exsel proqramından istifadə etməklə müəllif tərtib etmişdir

$$F_{hes}=\frac{\sigma^2_{req}}{\sigma^2_{qal}},\ [5, s.467], \qquad (9)$$

burada: σ^2_{req}- göstəricinin hesabat qiymətlərinin orta qiymətdən meyletməsidir və

$$\sigma^2_{req}=\frac{\sum(y_{i.hes}-y_{i.ort})^2}{f_{req}}=\frac{6{,}297539}{3-1}=3{,}14;$$

$$\sigma^2_{qal}=\frac{\sum(y_{i.ort}-y_{r.hes})^2}{f_{qal}}=\frac{4{,}49499}{15}=0{,}29;$$

və Fişer-Snedekor kriteriyasının qiyməti

$$F_{hes}=\frac{\sigma^2_{req}}{\sigma^2_{qal}}=\frac{3{,}14}{0{,}29}=10{,}83.$$

Fişer-Snedekor kriteriyası cədvəlinə əsasən α=0,05 (meyletmə 5%) halı üçün sərbəstlik dərəcələri

$$f_{req} = m - 1 = 2;\ f_{qal} = 10 - m = 7,$$

olduğundan, $F_{\alpha, k1,k2}$ =4,74. Baxdığımız halda k_1 (f_{req}) və k_2 (f_{qal})-dır. Reqressiya tənliyinin adekvatlıq şərti $F_{hes} > F_{\alpha, k1,k2}$ gözlənildiyi halda özünü doğruldur və bizim baxdığımız halda 10,83>4,74 olduğu üçün həmin hipotezdən meyl etmə aradan qaldırılır, modelin avtokorrelyasiyasının olma halı qəbul edilmir.

Fişer-Snedekor kriteriyası cədvəlinə əsasən α=0,01 (meyletmə 1%) halı üçün sərbəstlik dərəcələri

$$f_{req} = m - 1 = 2;\ f_{qal} = 10 - 3 = 7,$$

olduğundan, $F_{\alpha, k1,k2}$ =9,55. Reqressiya tənliyinin adekvatlıq şərti $F_{hes} > F_{\alpha, k1,k2}$ gözlənildiyi halda özünü doğruldur və bizim baxdığımız halda 10,83>9,55 olduğu üçün həmin hipotezdən meyletmə aradan qaldırılır, modelin avtokorrelyasiyasının olma halı qəbul edilmir. Reqressiya tənliyinin Fişer-Snedekor kriteriyasına əsasən əhəmiyyətliliyi üzrə nəticələr göstərir ki, 1% və 5% hipotezdən meyletmə modelin adekvatlıq şərtinin tələblərini ödəyir və hər iki hal üçün avtokorrelyasiyanın olma ehtimalı rədd edilir.

y_i-i asılı dəyişən, $x_1, x_2, \dots, x_n$-i müəyyənləşdirici dəyişənlər kimi qəbul edib çoxamilli reqressiya tənliyinin a_0, a_1, a_2 əmsalların hesablanılmış qiymətləri əsasında (8) modelinin təhlili göstərir ki, cari ildəki x_1-in qiyməti, yəni orta hesabla bir nəfərə düşən mənzil sahəsi artdıqda (x_2 **– nin** dəyişməz olduğu hal üçün), həmçinin x_2-nin qiyməti, yəni kənd yerlərində təbii qazla təmin edilmiş mənzillərin sayı artdıqda (x_1 **– in** dəyişməz olduğu hal üçün) turistlərin proqnozlaşdırılan sayının 3,2752 milyon nəfər gözlənildiyini müəyyən etmək olar.

Nəticə

Turizm sferasında, müəssisələrin rentabelliyini artıran və cəlbediciliyini yüksəldən yeni növ məhsul və xidmətin təklif edilməsi bu sahədə fəaliyyət göstərən bütün müəssisələr üçün çətinliklə əldə edilən nəticə hesab edilir və da onlara son pillədə maksimum səmərə əldə etməyə imkan verir. İri müəssisələr üçün bu məsələnin həlli turizm məhsulunun diversifikasiyası hesab edilə bilər, bununla yanaşı məhsulun keyfiyyətinin geniş diapozonu olmalıdır ki, müştərilərin fərqli tələbləri və onların dəyişməsi meyllərinə xidmət göstərilə bilsin.

Fikrincə, Azərbaycanda turizm müəssisələrinin nisbətən fərqli aspektlərdə fəaliyyətinin təşkili, yeni növ turməhsulun işlənilməsi və hazırlanması istiqamətində nəzərdə tutulan strateji əhəmiyyətli turizm obyektlərinin mərhələlərlə istifadəyə verilməsi turizm sənayesinin inkişafının təşkilati-iqtisadi aspektlərinin təkmilləşdirilməsini şərtləndirir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanda turizm. Bakı. 2018, 136 s.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycan statistik göstəriciləri. Bakı. 2018, 806s.
3. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının milli iqtisadiyyat

perspektivi üzrə Strateji Yol Xəritəsi" 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı.
4. İsmayılov V. İ. Azərbaycanda aqroturizmin inkişaf istiqamətləri. Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi İqtisadiyyat Elmi Tədqiqat İnstitutu. Bakı. 2017. №2, s.120-126
5. Кремер Н. Ш. Теория вероятностей и математическая статистика. М.: ЮНИТИ. 2001, 543с.
6. Новиков В.С. Характерные черты туризма XXI века – устойчивое и инновационное развитие [Текст]. Сборник научных статей МАТ и ГРБ. Москва. 2006, №10.
7. Leiper N. The framework for tourism: Towards definitions of tourism, tourists and the tourism Industry // Annals of Tourism Research. 1979. № 6. pp.390-407.
8. Ismayilov, V. I. The main directions of formation of tourism-recreation complex in Azerbaijan // -Moskou: Journal Business Economics, -2017. issue 2, -pp. 562-569
9. Jayathilake, B. Tourism and Economic Growth in Sri Lanka: Evidence from Cointegration and Causality Analysis // Malaysia: International Journal of Business, Economics and Law, -2013. Vol. 2, -iss. 2, -pp. 22–27. URL: Link
10. http://stattur.ru/statistics.php
11. 11.http://italiya-ru.com/news/predstavlen-strategicheskii-plan-razvitiya-turizma-italii-79912
12. http://www.tourism.ru/
13. https://svastour.ru/articles/raznoe/etapy-razvitiya-turizma-v-rossii.html
14. https://www.google.com/search?q=agenda+21+for+travel+and+tourism+ industry&rlz=

Ниджат Мусаев

МОДЕЛЬ ПРОГНОЗИРОВАНИЯ РАЗВИТИЯ ИНДУСТРИИ ТУРИЗМА

Резюме

В статье подчеркивается важность развития различных видов хозяйственной деятельности, связанных со сферой туризма, как фактора увеличения доходов населения, снижения существующих рисков в результате обеспечения устойчивого экономического развития страны. Отмечается, что координация мероприятий по совершенствованию организационно-экономических аспектов развития туризма будет играть ключевую роль в его решении.

Предложена регрессионная модель, зависящая от основных факторов, влияющих на функционирование структуры социально-экономических механизмов туристской отрасли. В сфере туризма предложение новых видов продукции и услуг, повышающих прибыльность предприятий и повышающих их привлекательность, считается едва достижимым результатом для всех предприятий, работающих в этой сфере, что позволяет им получить максимальную прибыль на последнем этапе.

Цель – предложить модель прогноза развития сферы туризма.

Методология – процесс организации сферы туризма в Азербайджане с точки зрения ее развития и повышения привлекательности международного туризма рассматривается как достаточно важные элементы.

Результаты и практическая значимость исследовании – на основе совершенствования социально-экономических аспектов развития туризма предложена модель проноза в зависимости от основных факторов, влияющих на функционирование структуры туристской отрасли. Это будет способствовать решению ряда сложных проблем в сфере туризма.

Ключевые слова: *туризм, социально-экономические аспекты, форма воздействия, регрессионная модель, развитие*

Nijat Musayev

A MODEL FOR FORECASTING THE DEVELOPMENT OF THE TOURISM INDUSTRY

Summary

The article emphasizes the importance of the development of various types of economic activities related to tourism as a factor of increasing incomes of the population, reducing existing risks as a result of ensuring sustainable economic development of the country. It is noted that the coordination of measures to improve the organizational and economic aspects of tourism development will play a key role in its solution.

A regression model is proposed that depends on the main factors affecting the functioning of the structure of socio-economic mechanisms of the tourism industry. In the field of tourism, the offer of new types of products and services that increase the profitability of enterprises and increase their attractiveness is considered a barely achievable result for all enterprises operating in this field, which allows them to maximize profits at the last stage.

Purpose of the research – to propose a model for forecasting the development of the tourism sector.

Metodology – The process of organizing the tourism sector in Azerbaijan from the point of view of its development and increasing the attractiveness of international tourism is considered as quite important elements.

Findings and practical significance of the study – based on the improvement of socio-economic aspects of tourism development, a forecast model is proposed depending on the main factors affecting the functioning of the structure of the tourism industry. This will contribute to solving a number of complex problems in the field of tourism.

Keyword: *tourism, socio-economic aspects, form of impact, regression model, development*

"ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR"

Elmi-praktik jurnal

№ 2 (16), 2021

Redaktorlar:
Xanımbacı Cəfərli, Aygün Bağırzadə

Kompüter tərtibatı:
Lalə Tağıyeva

Nəşriyyatın direktoru: M.Şəfiyev
Texniki redaktor: S.Mamoyeva

"Müəllim" nəşriyyatında çap olunmuşdur.
Tel.: (+99412) 555 15 60
E-mail: muallim.mmc@gmail.com

Yığılmağa verilib: 03.11.2021
Çapa imzalanıb: 22.12.2021
Format: 60x84$^{1/8}$. 22,5 ç.v. Tiraj: 200